مرکز تحقیقات رایانه‌ای قائمیه اصفهان

السلام علیک یا صاحب الزمان

www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir


İSLAM TARİXİ VƏ
TƏHLİLLƏR
MÜƏLLİF:
DOKTOR SEYYİD CƏFƏR ŞƏHİDİ
TƏRCÜMƏ EDƏN:
ARİF ƏLİYEV

بسم الله الرحمن الرحیم

# İSLAM TARİXİ VƏ TƏHLİLLƏR


نویسنده:

Doktor Seyyid Cəfər Şəhidi



ناشر چاپی:

Şəhriyar

ناشر دیجیتالی:

مرکز تحقیقات رایانه‌ای قائمیه اصفهان

# فهرست


فهرست ۵
İSLAM TARİXİ VƏ TƏHLİLLƏR ۱۱
KİTAB HAQQINDA ۱۱
İŞARƏ ۱۱
BİRİNCİ FƏSİL ۱۵
ƏRƏBİSTANIN COĞRAFİ MöVQEYİ, İSLAMDAN ƏVVƏL İCTİMAİ VƏ SİYASİ DURUMU ۱۵
COĞRAFİ VƏZİYYƏTİ ۱۷
CƏNUB MƏNTƏQƏSİ VƏ ORADAKI DÖVLƏTLƏR ۱۹
SƏBA DÖVLƏTİNİN SÜQUTU ۲۲
HƏMİRİLƏRİN HAKİMİYYƏTƏ GƏLİŞİ ۲۲
YARIMADANIN ŞİMALINDAKI DÖVLƏTLƏR ۲۵
PETRANIN YERİNƏ PALMİRA ۲۶
TƏDMUR ۲۶
CƏNUBDAKI DƏYİŞİKLİKLƏR ۲۷
ĞƏSSANİLƏR ۲۷
LƏXMİLƏR ۲۹
SƏHRA SAKİNLƏRİ ۳۰
DİN VƏ E'TİQADLAR ۳۵
MƏKKƏDƏ QANUN VƏ DİN ۳۹
MƏKKƏNİN MƏRKƏZƏ ÇEVRİLMƏSİ ۳۹
İKİNCİ FƏSİL ۴۴
İSLAMIN ZÜHURU ۴۴
İSLAM PEYĞƏMBƏRİNİN UŞAQLIĞI VƏ CAVANLIĞI ۴۴
FİCAR MÜHARİBƏSİ ۴۶

HİLFUL-FUZUL ۴۶
XƏDİCƏ İLƏ EVLƏNMƏSİ ۴۸
QARA DAŞ"IN YERİNƏ QOYULMASI" ۵۰
PEYĞƏMBƏRLİK ۵۰
İSLAMIN ZÜHURU ۵۰
HƏMZƏNİN İSLAMI QƏBUL ETMƏSİ ۶۴
MANEƏLƏRİN UĞURSUZLUĞU ۶۶
HƏBƏŞƏYƏ HİCRƏT ۶۸
ÖMƏRİN İSLAMI QƏBUL ETMƏSİ ۶۹
BƏNİ HAŞİMİN MÜHASİRƏYƏ ALINMA PLANI ۷۱
HƏZRƏT ƏBU TALİB VƏ XƏDİCƏNİN VƏFATI ۷۱
İSLAM MƏDİNƏDƏ ۷۵
DARUN-NƏDVƏ FİTNƏSİ ۷۹
PEYĞƏMBƏR MƏDİNƏDƏ ۸۱
İSLAM ALƏMİNDƏ İLK SAZİŞ ۸۳
MÜHACİR VƏ ƏNSARIN QARDAŞLIĞI ۸۹
DİN ƏSASINDA QURULAN HÖKUMƏT ۹۱
MÜNAFİQ VƏ YƏHUDİLƏR ۹۱
QİBLƏNİN DƏYİŞİLMƏSİ ۹۵
ÜÇÜNCÜ FƏSİL ۹۷
MÜHARİBƏLƏRİN BAŞLANMASI ۹۷
BƏDR MÜHARİBƏSİ ۱۰۱
YƏHUDİLƏRLƏ MÜBARİZƏ ۱۰۳
ÜHÜD MÜHARİBƏSİ ۱۰۷
FİTNƏKARLAR ۱۱۱
ƏBU SƏLƏMƏ SƏRİYYƏSİ ۱۱۳

RƏCİ’ VƏ BE’R MƏUNƏYƏ HAZIRLIQ ١١٣
BƏNİ NƏZİR YƏHUDİLƏRİNİN KÖÇÜRÜLMƏSİ ١١٥
ĞƏTƏFANLA MÜHARİBƏ ١١٧
XƏNDƏK MÜHARİBƏSİ ١١٧
AŞKAR QƏLƏBƏ VƏ YA HÜDEYBİYYƏ SÜLHÜ ١٢۶
XEYBəR MÜHARİBəSİ ١٢٨
ALLAH EVİNİN ZİYARəTİ ١٢٨
MU’Tə MÜHARİBəSİ ١٣٠
MəKKəNİN FəTHİ ١٣٠
HÜNEYN DöYÜŞÜ ١٣٢
TəBUK MÜHARİBəSİ ١٣۶
ƏrəbistanIN BİRLİYİ ١٣٨
YALANÇI PEYĞƏMBƏRLƏR ١٣٨
PEYĞəMBəRİN SON HəCC ZİYARəTİ ١۴٠
Peyğəmbərin (S) VəFATI ١۴٢
DÖRDÜNCÜ FƏSİL:PEYĞƏMBƏRDƏN (S) SONRA XİLAFƏT ١۴۴
ƏBU BƏKRİN XİLAFƏTİ ١۴۴
ÇəTİNLİKLəRİN BAŞLANMASI ١۴۶
DİNDəN ÇIXANLAR ١۵٠
İRANDA İSLAM ١۵۴
ŞİMAL Və QəRBDə İRəLİLəYİŞ ١٧١
QƏLƏBƏNİN SƏBƏBLƏRİ ١٧٣
MİSİRİN FƏTHİ ١٧۵
QƏLƏBƏLƏRİN ÇOXALMASI VƏ PROBLEMLƏRİN MEYDANA ÇIXMASI ١٧٨
OSMANIN XİLAFƏTİ ١٨۶
VƏZİFƏ SINAĞI ١٩٢

SƏRVƏT (MAL) SINAĞI ---------- ١٩۶
ƏLİNİN (Ə) XİLAFƏTİ ---------- ٢٠۶
BEŞİNCİ FƏSİL:ƏLİNİN (Ə) ŞƏHADƏTİNDƏN SONRA İSLAMIN ƏHATƏ DAİRƏSİ ---------- ٢١۵
?ƏSL HƏQİQƏTDƏ XƏVARİC NƏ İSTƏYİRDİ ---------- ٢١۵
HƏZRƏT ƏLİNİN (Ə) ŞƏHADƏTİNİN ƏKS-ƏMƏLİ ---------- ٢٢۴
İRAQDA MÖVCUD OLAN SİYASİ VƏ DİNİ TƏŞKİLATLAR ---------- ٢٢۶
OSMANIN TƏRƏFDARLARI ---------- ٢٢۶
ŞİƏ ---------- ٢٢٨
XəVARİC ---------- ٢٣٠
MəNFəəT GÜDəNLəR ---------- ٢٣٠
ŞəRQ MəNTəQəSİ ---------- ٢٣۴
Əlinin (ə) ŞəHADəTİNDəN SONRAKI KUFə ---------- ٢٣۴
SÜLH SAZİŞİ ---------- ٢٣٩
ALTINCI FƏSİL:Əməvilər ---------- ٢۴٧
MÜAVİYəNİN HAKİMİYYəTİ ---------- ٢۴٧
MÜAVİYə Və İRAQLILAR ---------- ٢۴٨
öLKəNİ İDARə ETMəKDə MÜAVİYəNİN SİYASəTİ ---------- ٢۵٠
MÜAVİYəNİN ZİYADI QARDAŞ ADLANDIRMASI ---------- ٢۵۶
ZİYAD KUFəDə ---------- ٢۵٨
YEZİDİN VəLİəHD OLMASI ---------- ٢۶٠
MÜAVİYƏNİN ƏLİ ŞİƏLƏRİ İLƏ SƏRT DAVRANMASI ---------- ٢۶۴
ÜRəK QORXUSU Və VəHŞİLİK ---------- ٢۶۶
MÜAVİYəNİN FəTHLəRİ ---------- ٢٧٠
MÜAVİYəNİN öLüMÜ ---------- ٢٧٠
YEZİDİN XİLAFəTİ ---------- ٢٧٢
İMAM HÜSEYN (ə) Və ONDAN BEY’əT ALINMASI ---------- ٢٧٢

Ərəbistan əYALəTLəRİNİN VəZİYYəTİ ---- ۲۷۴

İRAQ ---- ۲۷۶

İRAQLILARIN MəKTUB YAZMASI ---- ۲۸۰

Hüseynin (ə) İRAQA TəRəF YOLLANMASI ---- ۲۸۱

KƏRBƏLA FACİƏSİ VƏ ONUN TƏ'SİRLƏRİ ---- ۲۸۱

Kə'BəNİN VİRAN EDİLMəSİ ---- ۲۹۱

İRAQDA PEŞİMAN OLANLAR ---- ۲۹۳

ƏBU UBEYDƏ SƏQƏFİNİN OĞLU MUXTAR ---- ۲۹۵

YEDDİNCİ FəSİL ---- ۳۰۶

MƏRVANİLəR ---- ۳۰۶

HƏCCAC KUFƏDƏ ---- ۳۱۰

VƏLİD İBNİ ƏBDÜlMƏLİK ---- ۳۲۴

SÜLEYMAN İBNİ ƏbdülMəLİK ---- ۳۲۶

Ömər İBNİ ƏbdüləZİZ ---- ۳۲۸

QULLARIN PROBLEMİ VƏ ÖMƏR İBNİ ƏBDÜLƏZİZİN VASİTƏSİLƏ BU ÇƏTİNLİYİN HƏLL OLUNMASI ---- ۳۲۹

YEZİD İBNİ ƏbdülMəLİK ---- ۳۳۳

HİŞAM İBNİ ƏbdülMəLİK ---- ۳۳۵

İKİNCİ VəLİD ---- ۳۳۹

Əməvi HöKuMəTİNİN TəHLİLİ ---- ۳۴۵

FəTH OLUNMUŞ öLKəLəRDə DİLİN VəZİYYəTİ ---- ۳۵۱

MəZHəBLəR Və YA əQİDə MəSəLəLəRİ ÜZRə MÜXTəLİF FİKİR YÜRÜDəN FİRQəLəR ---- ۳۵۴

Əməvilər DöVRÜNDə FəTH OLUNMUŞ öLKəLəRDə İSLAM DİNİNİN VəZİYYəTİ ---- ۳۵۸

HəMİN DöVRDəKİ ELMLəR ---- ۳۶۰

Əməvi HAKİMİYYəTİNİN SONUNA QəDəR OLAN ŞE'R Və əDəBİYYAT ---- ۳۶۲

əRəB NəSRİ ---- ۳۷۳

ME'MARLIQ Və DİGəR SəNəTLəR ---- ۳۷۳

İSLAM PEYĞƏMBƏRİNİN (S) MÖVLUDUNDAN İMAM MEHDİNİN (Ə. C.) QEYBƏ ÇƏKİLMƏSİNƏ QƏDƏR ... ۳۷۶
Birinci hicri əsri ۳۷۶
İkinci hicri əsri (۷۱۹-۸۱۶) ۳۸۶
Üçüncü hicri əsri (۸۱۶-۹۱۳) ۳۹۲
MÜNDƏRİCAT ۳۹۷
درباره مرکز ۴۰۷

# İSLAM TARİXİ VƏ TƏHLİLLƏR

## KİTAB HAQQINDA

Kitabın adı:...........İslam tarixi və təhlillər

Müəllif:.Doktor Seyyid Cəfər Şəhidi

Tərcümə edən:.........Arif Əliyev

Nəşr edən:.............Şəhriyar

Çap növbəsi:..Birinci

Çap tarixi:..۲۰۰۶

Tiraj:.۲۰۰۰

۹۶۴-۵۹۳۴-۸۸-۵

səh:۱

## İŞARƏ

BİRİNCİ FƏSİL

Ərəbistanın coğrafi mövqeyi; İslamdan əvvəl siyasi və ictimai durumu; Coğrafi vəziyyəti;Cənub məntəqəsi və oradakı dövlətlər; Yarımadanın şimalındakı dövlətlər; Petranın Palmira ilə əvəz olunması; Tədmur; Cənubdakı dəyişikliklər; Qəssanilər; Ləxmilər; Ərəbistan səhrasının sakinləri; Din və e’tiqadlar; Məkkədə qanun və din; .Məkkənin mərkəzə çevrilməsi

İKİNCİ FƏSİL

İslamın zühuru; Həzrət Peyğəmbərin uşaqlığı və cavanlıq dövrü; Ficar savaşı; Hilful-;fuzul; Xədicə ilə nikahı

Qara daş”ın yerinə qoyulması; Peyğəmbərilk dövrü; İslamın zühuru; Həmzənin İslamı“ qəbul etməsi; Maniələrin uğursuzluğu; Həbəşəyə (bu günkü Efiopiya) hicrət; Ömərin İslamı qəbul etməsi; Haşimilərin mühasirəyə alınma planı; Əbu Talibin və Xədicənin vəfatı; Mədinədə İslam; Darün-nədvə fitnəsi; Peyğəmbərin (s) Mədinədə ilk müqaviləsi; Mühacir və Ənsarın qardaşlığı; Din əsasında qurulan hökumət; Münafiqlər .və yəhudilər; Qiblənin dəyişdirilməsi

ÜÇÜNCÜ FƏSİL

Müharibələrin başlanğıcı; Məkkəlilərlə savaş; Bədr müharibəsi; Yəhudilərlə mübarizə; Ühüd müharibəsi; Fitnəkarlar; Əbu Sələmə müharibəsi; Rəci’ və Be’r-mə’unə hadisələri; Bəni-nəzir yəhudilərinin köçürülməsi; Qətfan müharibəsi; Xəndək müharibəsi; Aşkar qalibiyyət və ya Hüdeybiyyə sülhü; Xeybər müharibəsi; Allah evini ziyarət etmək; Mö’tə müharibəsi; Huneyn döyüşü; Məkkənin fəthi; Təbuk müharibəsi; Ərəbistanın birləşməsi; Yalançı peyğəmbərlər; Peyğəmbərin son həcc ziyarəti; .Peyğəmbərin vəfatı

DÖRDÜNCÜ FƏSİL

Peyğəmbərin vəfatından sonra xilafət; Əbu Bəkrin xilafəti; Çətinliklərin başlanğıcı; Dindən üz döndərənlər; İranda İslam; Şimal və Qərbdə irəliləyiş; Müvəffəqiyyətlərin səbəbi; Misrin fəth olunması; Müvəffəqiyyətlərin genişlənməsi və çətinliklərin .yaranması; Osmanın xilafəti; Məqam sınağı; Mal-dövlət sınağı; Əlinin (ə) xilafəti

BEŞİNCİ FəSİL

Həzrət ƏLİNİN (Ə) vəfatından sonra İslamın vəziyyəti; Əsl həqiqətdə Xəvariclər nə istəyirdilər? Əlinin (ə) şəhadətindən sonrakı əks-əməllər; İraqda siyasi və dini təşkilatlar; Osmanilər; Şiə; Xəvaric; Mənfəət güdənlər; Şərq nahiyəsi; Əlinin (ə) .şəhadətindən sonrakı Kufə; Barışıq

ALTINCI FƏSİL

Müaviyənin hakimiyyəti; Müaviyə və iraqlılar; Ölkənin idarə olunmasında Müaviyənin siyasəti; Müaviyənin Ziyadı qardaşlığa götürməsi; Ziyad; Kufədə Yezidin vəliəhdliyi; Müaviyənin şiələri çətinliyə salması; Qorxulu dövran; Müaviyənin ölkələri fəth etməsi; Müaviyənin ölümü; Yezidin xilafəti; İmam Hüseyn (ə) və ondan bey’ət alınması; Ərəbistan əyalətlərinin vəziyyəti; İraq; İraqlıların də’vəti; Hüseynin (ə) İraqa tərəf yollanması; Kərbəla faciəsi və onun tə’sirləri; Kə’bə evinin dağıdılması; İraq əhalisinin .təəssüfü; Əbu Übeydə Səqəfinin oğlu Muxtar

YEDDİNCİ FƏSİL

Mərvanilər; Həccac Kufədə; Vəlid ibni Əbdulməlik; Süleyman ibni Əbdülməlik; Ömər ibni Əbdüləziz; Sonradan İslamı qəbul edənlərin problemləri və onun Ömər ibni Əbdüləziz tərəfindən həlli; Yezid ibni Əbdülməlik; Hişam ibni Əbdülməlik; İkinci Vəlid; Əməvi hakimiyyətinin təhlili; Fəth olunmuş ölkələrdə dilin vəziyyəti; Məzhəblər; Əməvilər zamanı fəth olunmuş ölkələrdə İslamın vəziyyəti; Haqqında daha çox mübahisə olunan elmlər; Əməvi dövrünün sonuna qədər olan şe’r və ədəbiyyat; Ərəb ;nəsri. Me’marlıq və digər sənətlər

## BİRİNCİ FƏSİL

## ƏRƏBİSTANIN COĞRAFİ MöVQEYİ, İSLAMDAN ƏVVƏL İCTİMAİ VƏ SİYASİ DURUMU

Ərəbistan və ya Ərəbistan yarımadasının qurluşu düzbucaqlı kvadrat şəklində olub, cənub-qərbi Asiyanın ən ucqar nöqtəsində yerləşir. Şimalda ١٢-٣٢ dərəcəli coğrafi en dairəsində, ٣٥-٦٠ şərqi uzunluq dairəsində Afrika ilə Asiya arasında yerləşir. Ölkənin sahəsi (iki milyon) ٢٠٠٠٠٠٠ km٢ çatır. Ərəbistan şimaldan İordaniya və İraq ilə həmsərhəddir. Şəqdən İran körfəzi, Oman dənizi və Ərəb dənizi ilə həmsərhəddir. Cənubdan Ədən körfəzi, qərbdən isə Qırmızı dəniz ilə əhatə olunmuşdur. Göründüyü kimi, Ərəbistan üç tərəfdən beş dəniz vasitəsi ilə əhatə olunmuşdur. Yalnız şimaldan sərhədləri quru torpaqlardır. Bununla belə, bu ölkənin daxili hissəsi canlı aləmin yaşayışı üçün zəruri olan sudan demək olar ki, məhrumdur. Belə bir geniş ölkədə üzərində yük daşınması mümkün ola biləcək bir çay yoxdur. Yalnız Həcər vadisində .(Yəməndə yerləşir) uzunluğu ١٠٠ km-ə çatan bir çay axır

Sina yarımadasından başlayaraq, Qırmızı dəniz boyunca İran körfəzinə çatan hündür sıra dağlar vardır. Bu dağların yamacı böyük və kiçik dərələrlə əhatə olunmuşdur ki, onu vadi adlandırırlar. Bu vadilərin əhəmiyyətlisi Sirhan, Rummə, Dəvasir və Həzrə-movtdan ibarətdir. İslamdan qabaq bu vadilər, o cümlədən Sirhan ticarət yolu olmuşdur. Bə'zi məntəqələr istisna olmaqla, Ərəbistanın böyük sahilləri yosunlar və təbii maneələrlə doludur ki, bu da gəmilərin sahilə yan almasına maneə törədirdi. Möhkəm divar kimi Ərəbistanı əhatə etmiş dağları aşaraq onun daxilinə girdikdən sonra yenidən maneələrlə üzləşirsən. Belə ki, onun şimalında Fələstindən başlayaraq, İraqın cənub-qərbinə qədər uzanan Badiyətüş-şam düzənliyidir. Bu düzənliyin cənubunda Nəfud adlı bir səhra uzunır ki, sahəsi ١٠٣٦٠٠ km٢ olan narın qumla

örtülmüşdür. Əsən küləklər qum topalarını oradan buraya, buradan oraya sovuraraq qədimdə yolu tapmaqada çətinlik yaradırdı. Bu yarımadanın cənubundan şərqə doğru ərazisində yeni bir səhra vardır. Rüb'ul-xali (yə'ni dörddə biri boşluq) adlanır ki, bu gündə boşdur. Bu səhranın ümumi sahəsi ٥٠٠٠٠٠ km٢-ə çatır ki, demək olar yer kürəsinin ən geniş və quru boş səhrasıdır. Rüb'ul-xali səhrası ilə Nəfud səhrası arasında Dəhna adlı bir səhra da vardır ki, narın qumla örtülmüşdür. Belə təbii maneələrin olmasına görə Ərəbistan yarımadası min illər boyu adı çəkilməyən sakit bir ölkə olmuşdur. Şübhəsiz ki, İslam dini burada meydana gəlib digər ölkələrə yayılmasaydı, Ərəbistan keçmişdəki kimi kənarda qalmış bir ölkə olardı və ya onunla heç kim maraqlanmazdı. Bununla belə, təsəvvür olunmasın ki, İslamdan əvvəl bu nahiyədə abadlıq, inkişafdan əsər-əlamət olmamışdır. Qarşıda qeyd edəcəyik ki, bu ölkənin yararlı hissəsi, yə'ni cənubu abad olmuş və orada dövlətlər təsis edilmişdir. .Həmçinin digər nahiyələrdə də mədəniyyətin inkişafı (naqis olsa da belə) olmuşdur

Bu yurdun sakinlərini ərəb adlandırırlar. "Ərəb sözünün mə'nası nədir", "hansı dövrdə oranın əhalisi ərəb adlandırılmışdır" və "onlar bu torpaqlara haradan gəlmişlər" bu və ya digər məsələlər barəsində hələ də alimlər arasında ixtilaf vardır. İslam dövründə toplanmış hekayələrin bə'zilərinə görə, bu xalqın əcdadlarının adı Yə'rəb ibni Qəhtan olmuşdur və onun övladları ərəb adlandırılmışlar. ٤-ci hicri (١١ miladi) əsrin böyük alimi ibni Nədim Bağdadi "Əlfehrest" kitabında ibni Əbi Səiddən nəql edir: İbrahim (ə) dayıları Curhum ilə birlikdə olan İsmayılın övladlarına nəzər salaraq İsmayıldan soruşdu: Bunlar kimlərdir? Dedi: Mənim övladlarım və dayılarımdı. Dedi: (ə'rib ləh) onları bir-biri ilə evləndir. Assuriya padşahı üçüncü Şəlmənsərdə dövründən qalmış kitabəyə – onun üzərində həmin padşahın badiyətuş-şamdakı döyüşləri barəsində mə'lumat vardır - ərəb sözünə rast gəlirik. Bə'zi Avropa İslamşünasları bu sözün

kökünün hərəkət və keçid mə'nası verən bir sözdən alındığını qeyd edirlər. Bu sözə təəssüblük və ya gümanla verilən bə'zi mə'naları burada gətirməyi lazım bilmədik. Ancaq bir şey çox gözəl aydındır ki, Qur'ani-kərimdə Ərəbistan yarımadasının bütün sakinlərinə ərəb deyilmişdir. Deyilənlərə görə şəhər sakinləri ərəb, çöldə və səhrada .yaşayanlar isə ə'rab adlanırlar

İslamdan bir neçə əsr qabaq yarımadanın əhalisi iki dəstəyə bölünüb – xalis və qeyri-xalis ərəb. Cənub nahiyəsində yaşayan əhali özlərini Qəhtanın oğlu Yə'rəbin nəslindən bilirlər ki, o da öz növbəsində Nuh peyğəmbərin beşinici övladıdır. Ancaq mərkəz və şimalda yaşayan əhali özlərini Ədnanın nəslindən sayırlar ki, o da İsmayılın nəvələrindən biri olub. Keçmiş tarixçilər Qəhtaniləri xalis, Ədnaniləri isə qeyri-xalis ərəb hesab edirdilər. Qəhtanilər və Ədnanilər uzun zamandan bəri bir-biri ilə daim münaqişədə olublar və bir-birlərinə həqarət gözü ilə baxıblar. Peyğəmbərin hicrətinin və müsəlmançılığın faydasından idi ki, Qəhtani və Ədnani bir-biri ilə qardaş oldular. Ancaq təəssüflər olsun ki, bu vəhdət çox uzun sürməyib. Ərəb etimoloqları bir dəstə ərəblərin də adını çəkirlər ki, onların artıq nəsli kəsilmişdir. Onlar Ad, Səmud, Ta-sin-.mim, Cədis, Əmim, Casim və Əbil qəbilələrindən ibarət olublar

## COĞRAFİ VƏZİYYƏTİ

Ərəbistan ərazisi həm coğrafi enə, həm də iqlim şəraitinə görə müəyyən hissələrə :ayrılır. Coğrafi baxımdan beş hissəyə bölünür

Təhamə – Qırmızı dənizin sahilində yerləşən Yənbu'dan başlayaraq, Nəcrana qədər.١ uzanan düzənlik bir ərazini əhatə edir. Bura çox isti olduğuna və külək əsmədiyinə .görə belə adlanmışdır

Hicaz – Mə'nası maneə deməkdir. Hicaz Yəmənin şimalı ilə Təhamənin şərq.٢ tərəfində yerləşib onları bir-birindən ayırır. Buna görə də o əraziyə belə bir ad verilib. Bu əyalətdə olan vadilərin

.arasında dağlar vardır ki, onların bə'zilərinin hündürlüyü ۲ km-dən çoxdur

Nəcd – Cənubdan Yəmənə, şimaldan isə badiyətüs-səmavəyə qədər uzanır. Ərazisi.۳ hündür olduğuna görə ona bu ad verilmişdir.

Yəmən – Cənubda Nəcddən Hind okeanına qədər, qərbdə isə Qırmızı dənizə qədər.۴ uzanan bir ərazidir.

Əruz – Onun mə'nası mane deməkdir. Bu ərazi Yəmamə, Oman, Bəhreynə şamil.۵ olunur. Bu ərazi Yəmən, Nəcd və İraqın arasında yerləşdiyinə görə belə adlandırılıb.

İctimai yaşayış baxımından da Ərəbistan bir neçə əraziyə bölünür. Qeyd olunduğu kimi, ardıcıl yağışların yağması və suyun bol olan nahiyəsi yalnız bu yarımadanın cənub hissəsindədir. Beləliklə, bu yarımadada yaşayışı coğrafi vəziyyət müəyyənləşdirir. Coğrafi vəziyyəti də öz növbəsində suyun olub-olmaması müəyyən edir. Suyun azlığı və bolluğu şimalda və cənubda yaşayan insanların, hətta heyvan və bitkilərin yaşayış tərzini bir-birindən fərqləndirir. Cənubda suyun və yağışın bol olması əkin sahələrinin və ümumilikdə kənd təsərrüfatı məhsulunun və əhalinin sıxlıq təşkil etməsini çatdırır. Əhalinin çox sıx halda yaşadığı ərazidə təbiidir ki, daim yaşayış yerləri tikilməsinə ehtiyac duyulur. Nəticədə isə kəndlər və şəhərlər meydana gəlir. Cəmiyyətin sıx yaşadığı bir ərazidə insanların bir-birilə ünsiyyət və əlaqə yaratması zəruridir. Bu əlaqələrdən qayda-qanunun sadə və ibtidai şəkildə olsa belə, meydana çıxması zərurətdir. Qanun ilə hökumət qurulması bir-birinə bağlı iki əsasdırlar. Elə buna görədir ki, hələ eramızdan yüz illər qabaq yarımadanın cənubunda dövlətlər meydana gəlmiş, müəyyən mədəniyyət və inkişafa malik olmuşlar. Burada yaşayan xalqın məşğuliyyəti kənd təsərrüfatı və ya ticarət olumşdur. Minik vasitəsi at, yetişdirdikləri məhsul isə gündür (ətirli bitkidir) olmuşdur ki, qədimdə Misir mə'bədlərində və Avropada işlədilmişdir. Yuxarıda saydıqlarımızın hər üçü zəriflik və

rahatçılıq nümunəsidir. Ancaq yarımadanın içəri hissəsi sudan demək olar ki, məhrum idi. Buna görə də oranın əhalisi həmişə köçəri halda yaşamış, bir yerdən başqa yerə köçmüşlər. Təbiidir ki, belə olan halda onların daimi yaşayış yerləri olmamışdır. Əlbəttə onların müvəqqəti qurduqları mənzillər yüngül və daşınması asan olan vasitədən ibarət olmuşdur. Belə bir şəraitdə yüklərin daşınmasında dözümlü heyvandan istifadə olunub. Daimi yaşayış yeri olmadıqda və əhali cəmiyyət və ya kütləvi şəkildə yaşamadıqda təbidir ki, orada hər hansı bir qanun, hökumət, mədəniyyət və inkişaf barəsində söz gedə bilməz. Bu ərazinin hətta heyvanları və bitkiləri də o şəraitə uyğun olmalıdır. Bu məntəqənin adamı səhraları dolaşan "bədəvi insanlar" heyvanları isə dəvədir. Belə ki, dəvə on yeddi gün susuz yaşaya bilər. Bə'zi vaxtlarda səhrada susuz qalan dəvə sahibi onu öldürüb boğazının aşağı hissəsində yerləşən tuluğudan su içə bilir. Səhrada uzun yolu qət etmək üçün dəvənin sür'əti atın sür'ətindən üç dəfə artıq olur. O hətta özü ilə ١٧٠ kq. yük də götürə bilir. O torpağın insanı bədəvidir. Bədəvi bir neçə xurma və ya xurmanın dənəsi ilə, bir sözlə azacıq yeməklə öz güzəranını keçirə bilir. Ona görədir ki, deyiblər bədəvi dəvə üçün bir əngəl, dəvə isə səhra gəmisidir. Oranın meyvəsi isə xurmadır ki, susuzluğa dözümü vardır. Səhrada böyük tikan kolları .yetişir ki, dəvənin əsas yeməyini təşkil edir

## CƏNUB MƏNTƏQƏSİ VƏ ORADAKI DÖVLƏTLƏR

Tarixçilər Ərəbistan yarımadasından söz açdıqda cənub nahiyəsini ön plana çəkirlər. Ona görə ki, eramızdan ٢٠٠٠ il əvvəl başlayaraq, İslamın gəlişinə qədər bu məntəqədə çoxlu dəyişikliklər baş vermiş və bununla əlaqədar olaraq çox rəngarəng bir tarixə malik olmuşdur. Amma onun səhra və yaşayış olmayan əyalətlərinin tarixi mühüm olmamış və ya orada az dəyişikliklər baş vermişdir. Xəritədə Ərəbistan yarımadasına baxdıqda onun cənubunun son nöqtəsində üçbucaqlı bir nahiyə

nəzərə çarpır. Bu üçbucağı şərq tərəfdən Ərəb dənizi, qərb tərəfdən isə Qırmızı dəniz əhatə etmişdir. Əgər Cizandan (qərbdə) Həzrə-Mauta (şərqdə) qədər bir xətt çəksək, bu üçbucağın üçüncü küncü meydana gələr. Bunun ortasında yerləşən ərazinin .qədimdə xoşbəxt Ərəbistan və ya Yəmən adlandırmışlar ki, bu gün də Yəmən adlanır

Qeyd etmişdik ki, yarımadanın bu bölümündə eramızdan neçə əsrlər əvvəl dövlətlər qurulmuşdur. Ancaq onlar barəsində dəqiq mə'lumat yoxdur. Əldə olan mə'lumatlar isə arxeoloqların tədqiqatlarından əvvəl tarixçilərin bizə verdiyi araşdırmalardır ki, onun da heç bir elmi əsası yoxdur. ١٩-٢٠-ci əsrdə alimlərin, səyyahların, tarixçilərin sə'yləri bu məntəqənin tarixi və orada olan dövlətlərin barəsində müəyyən bir mə'lumat əldə etməyə aydınlıq gətirmişdir. Bu nahiyədə qurulmuş dövlətlərin ən başlıcası Muin və Səba dövlətləridir. Əlbəttə bunlara Qətban və Həzrə-Maut .dövlətlərini də əlavə etmək lazımdır

Paytaxtı Qərnu olan Muinilərin dövləti eramızdan əvvəl ٦٠٠-١٢٠٠ illərdə meydana gəlmiş və davam etmişdir. Bu dövlətin ticarət dairəsi o qədər geniş olmuşdur ki, hətta .İran körfəzindən Aralıq dənizinə qədər olan bir ərazini əhatə etmişdir

Yarımadanın başqa dövlətlərindən biri də Qətban olub ki, paytaxtı Təmnə' şəhəri olmuşdur. Bu dövlət yarımadanın cənub qərbində Həzrə-Mautun qonşuluğunda olmuşdur. Qətban dövləti eramızdan əvvəl birinci minillikdə yaranmış (təqribən eradan əvvəl altıncı yüzillikdə) və eramızın ikinci yüz ilinə qədər davam etmişdir. Ancaq bə'zi tədqiqatçıların fikrincə, bu dövlət eramızdan əlli ilə əvvəl süqut etmişdir. Buradakı hakimlər sülaləsinin tarixini aydınlaşdırmaq üçün alimlərin səy göstərməsinə baxmayaraq, hələ də bə'zi qaranlıq məsələlər mövcuddur. Ancaq bir şey mə'lumdur ki, Qətban dövlətini Səba dövləti süquta yetirmişdir. Arxeoloqların fikrincə daş yazılarına görə Qətban və Səba şahlarının ləqəbi "mükərrəb" olmuşdur. Bə'zi tədqiqatçıların nəzərinə görə isə cənubluların ləhcəsindəki

mükərrəb, şimal ərəblərinin dilində olan müqərrəb (yə'ni yaxın) mə'nasını daşıyır. Ehtimal verilir ki, bu şahlar həm dini, həm də siyasi bir qüdrətə malik olmuşlar, lakin sonralar dini qüdrət aradan getmişdir. Belə nəzərə çarpır ki, cənub nahiyəsindəki dini .və ruhani hökumətlər böyük əhəmiyyətə malik olmuşdur

Səba dövləti yarımadanın cənub-qərb nahiyəsində təsis edilmiş və paytaxtı Məyəb olmuşdur. Amma nüfuz dairələri şərqdən qərbə, yə'ni İran körfəzindən Qırmızı dənizə qədər bir ərazini əhatə etmişdir. Muinilərin qüdrəti zəiflədikdən sonra Səba dövləti .güclənib Muini dövlətini də ələ keçirdi

Həzrə-Mautda təsis olunmuş dövlətin paytaxtı Şəbvə olmuş və onlar Kündür ticarəti vasitəsi ilə çoxlu var-dövlət əldə etmişlər. Bu dövlət Muini dövləti ilə bir vaxtda və deyilənlərə görə həmin dövlətə tabe olmuşdur, Miladi tarixinin ۳۰۰-cü ilində isə aradan .getmişdir

Bu dövlətlər arasında Səba dövləti xüsusi əhəmiyyət kəsb etmişdir. Belə ki, yarımadanın cənubu hökumətlərin təşkil olunması mərkəzinə çevrilmişdir. Bu dövlətlər .arasında Səba dövləti ən böyük dövlət sayılır

Səba dövlətinin siyasi, hərbi və ticarət qüdrəti ona imkan verdi ki, tədricən cənubdakı pərakəndə olan hökumətləri özünün irimiqyaslı, müstəqil dövlətinin himayəsi altına .alaraq, nüfuz dairəsini Afrikaya qədər genişləndirə bilsin

Səbailər təxminən doqquz əsr bu məntəqəyə hakim oldular. Öz nüfuz dairəsini genişləndirərək Hind okeanı ilə Qırmızı dəniz arasında mövcud olan ticarət yolunu ələ keçirdilər. Hind ədviyyələri, Yəmənin ətirli bitkiləri Babul-məndəbdən keçərək Qırmızı .dənizə və oradan da Əqəbə körfəzinə və Aralıq dənizinə yollanırdı

Səbailərin hakimiyyəti eramızdan əvvəl ۱۱۵-ci ilə qədər davam etmişdir. Qur'ani-kərimin iki surəsində Səbanın adı çəkilmişdir. Birincisi "Nəml" surəsində, ikincisi isə "Səba" surəsində. Səba hökuməti qurulduğu ilk vaxtdan eramızdan qabaq dördüncü .yüzilliyə qədər yarıdini (ruhani), yarı şahlıq rejimi olmuşdur

Əvvəldə də qeyd etdik ki, oranın hakimlərinə mükərrəb deyirmişlər. Qur’anda xatırlanan Səba hakimi qadın olmuşdur ki, İslam tarixi və ədəbiyyatında onu Bilqeys adlandırmışlar. Lakin Qur’an onu sadəcə olaraq bir qadın adlandırmışdır. Və o həmin qadındır ki, Süleyman peyğəmbərin məktubu ona yetişdikdən sonra onun yanına .getmişdir

Səba ərazisində sel və daşqın olması barəsində Qur’anın “Səba” surəsində mə’lumat .vardır

## SƏBA DÖVLƏTİNİN SÜQUTU

### HƏMİRİLƏRİN HAKİMİYYƏTƏ GƏLİŞİ

İsgəndərin vəfatından sonra onun sərkərdələrindən biri Misirdə bir dövlət tə’sis etdi. Onun sonrakı nəsilləri bir müddət bu məntəqədə hakim oldular. Bu sülalədən hakimiyyətə çatan şəxslər Ptolomey adlanırlar. Ptolomeylər yavaş-yavaş Səbailərin ticarət yollarını ələ keçirdilər. İqtisadi vəziyyətin pisləşməsi bir tərəfdən daxildə mövcud olan çətinliklər, digər tərəfdən də Səba dövlətinin vəziyyətini təhlükəyə salmışdı. Beləliklə, eramızdan əvvəl ١١٥-ci ildə Səba dövlətinin hakimiyyəti sona yetdi. Həmirilər adında olan digər sülalə onların yerini tutdular. Həmirilər Ərəbistanın cənub əhalisinin bir qəbiləsindədir ki, Zəfarda hakim olmuşlar. Bu qəbilə ilk dəfə Ərəbistanın cənubunun çox kiçik bir hissəsinə hakim idilər, lakin get-gedə hökumət dairələrini genişləndirdilər. Həmiri dövlətinin ömrü əsas e’tibari ilə təxminən Səba dövlətinin ömrünə bərabərdir. Elə buna görə də bə’zi tarixçilər bu dövləti Səba dövlətinin ikinci :dövrü kimi qələmə verirlər. Həmirilərin hakimiyyəti iki dövrə bölünür

;Səba dövlətinin süqutundan ٣٠٠-cü ilə qədər olan dövr.١

;Həbəşilərin bu məntəqəyə hücumuna qədər olan dövr.٢

Birinci dövrün şahları Səba və Zurəydan adlanırdılar ki, bu Qətban və Həmir hakmilərinə məxsus olan bir ad idi. Üçüncü əsrdə Şimr Yuhariş adlı cəngavər padşah Həzrə-Maut və Yəmən

nahiyələrini də öz əlinə keçirdi. Bununla da Həmirilərin hakimiyyətinin ikinci dövrü .başlandı

Miladi tarixinin dördüncü əsrində Əbu Kərb Əs'əd özünü Taud və Pəhamə adlı hər iki məntəqənin şahı e'lan etdi. Şahları tubbə' adlanan Həmiri dövləti miladi tarixinin ۵۲۵-ci .ilinə qədər, yə'ni Həbəşilərin onların torpaqlarına olan hücumuna qədər davam etdi

Həmirilər dövləti tə'sis olunduğu ilk andan (Səba dövləti kimi) Rum imperiyasının işğalçı təcavüzləri ilə üzləşdilər və buna görə də yavaş-yavaş öz hakimiyyət dairələrini genişləndirirdilər. Onlar Hindistanla şərqi Afrika arasında olan ticarət yolunu ələ keçirmək istəyir, eləcə də çeşidli ticarət məhsuluna malik olan Buxur torpağına da sahib olmağa çalışırdılar. Eramızdan ۲۵-il əvvəl Alius Qalius qoşunla Ərəbistanın cənubuna hücum etdi və bir neçə gün müddətində Mə'rəbə yetişdi. Hətta Hicazı ələ keçirərək Nəcran vadisinə qədər irəlilədi. Amma tezliklə su qıtlığından və başqa .çətinliklərlə üzləşdiyindən geri çəkilməyə məcbur oldu

Baxmayaraq ki, Rum sərkərdəsi Həmirilərə hakim ola bilmədi, amma çoxdan gözü bu .torpaqda olan başqa bir qonşu dövlət baş qaldırdı. O dövlət Həbəşi dövləti idi

Həbəşilər ardıcıl olaraq bu məntəqəyə hücum edirdilər. Nəhayət ۳۲۰-۳۳۰-cu illərdə .Yəmənin sahillərini ələ keçirə bildilər

Dördüncü yüz illiyin ortalarında Zəfar və Ədən şəhərlərində kilsələr tikmək üçün imperator tərəfindən Yəmənə bir heyət göndərildi. Beləliklə, bu bağlılıq nəticəsində xristianlıq Ərəbistanın cənubuna nüfuz etdi, Rum imperatorluğu ilə Həbəşi padşahları arasında əlaqə möhkəmləndi. Rum imperatorlarının bu əlaqəni yaratmaqda birinci məqsədləri o idi ki, cənub məntəqəsinin ticarət və iqtisadi potensialından istifadə etsin, daha sonra Həmiriləri daim Rumlularla müharibə edən Sasanilər əleyhinə qaldırsın. Göndərilmiş heyət tərəfindən kilsələr tikilib xristian dini yayıldığı bir zamanda, Yerusəlim viran olduqdan sonra Ərəbistanın cənubuna sığınan yəhudilərin sayı da

günbəgün artırdı. Belə ki, miladi ۶۰۰-cü ildə Zunuvas (ərəb tarixçiləri onun adını Zurə’t ibni Təbban yazıblar) Həmirilərin padşahı oldu, öz adını Yusif adı ilə əvəz edərək yəhudi dinini qəbul etdi. Bu minval ilə bu nahiyədə yəhudilik xristinalığa nisbətən üstünlük təşkil etdi. Zunuvas xristianları incitməyə başladı. Yazırlar ki, o Nəcran xaçpərəstələrini kütləvi surətdə məhv elədi. Belə ki, qala qazdırıb içində od yandırır və xristian dinindən dönməyənləri o qalaya atırdılar. Qur’ani-kərimin mübarək “Buruc” .surəsinin ۴-dən ۸-dək ayələrində Uxdud səhabələrinin qətli bu hadisəyə olan işarədir

Hadisələri izləyən Həbəşə dövləti şəxsən özü, ya da Rum imperatoru Justinyanın göstərişi ilə Zunuvasın üzərinə qoşun yolladı. ۵۲۵-ci ildə o, məğlub edilərək öldürüldü. Beləliklə, Həmirilərin hakimiyyəti Ərəbistanın cənubunda sona yetdi və bütövlükdə bu məntəqə Həbəşilərin əlinə keçdi. Bir müddətdən sonra Həbəş sərkərdəsi olan Əbrəhə adlı birisi öz hökuməti əleyhinə çıxaraq müstəqillik iddiası etməklə ۳۵-il bu nahiyənin mütləq hakimi oldu. Ərəbləri Məkkənin ziyarətindən çəkindirmək üçün Sən’ada böyük bir mə’bəd tikdirdi. Deyilənlərə görə, Bəni Malik ibni Kənanədən olan bir kişi ora gedərək o mə’bədə hörmətsizlik etdi. Əbrəhə bu işdən qəzəblənərək and içdi ki, Kə’bəni viran edəcək. Sonra qoşunla (qoşunda fil də var idi) Məkkəyə tərəf üz tutdu. Lakin Allahın qəzəbi ona və qoşununa nazil oldu; belə ki, quşlar havadan qoşunun üzərinə kiçik daşlar tökərək onları məhv etdilər. Bu yürüş İslam tarixində “Fil ili” .adlanır. Bu barədə sonra daha ətraflı izah verəcəyik

Həbəşilərin hökumətindən narazı olan Həmirilər Sasani padşahı Ənuşirəvandan kömək istədilər. Ənuşirəvan, Vəhrəz Deyləmi adlı sərkərdəni ۵۷۰-ci ildə Yəmənə göndərdi. Qoşunun çatması ilə oranın sonuncu əmiri olan Məsruq ibni Əbrəhə məğlub oldu və Sasani dövlətinin göndərdiyi nümayəndə hökuməti ələ keçirdi. Vəhrəzdən sonra oğlu Mərzban və ondan sonra Nuşcan və ondan sonra da Bazan hakimiyyətə ,yetişdilər. İbni Hişam yazır: Bazan

Peyğəmbərin (s) dövründə müsəlman oldu və onun ətrafında olan iranlıların hamısı İslam dinini qəbul etdilər. Bu vaxtan İslamın zühuruna qədər Ərəbistanın cənubunda geniş miqyaslı bir dövlət gözə çarpmadı. Hər bölümün idarə olunması məhəlli rəisin öhdəsinə düşürdü. Bu hakimlər içərisində Kənde qəbiləsi hakimiyyət silsiləsi tə’sis edə bildilər. Kənde şahları cənub əhalisindən və Qəhtani kökündəndirlər, Həzrə-Mautun qərb nahiyəsində hakim olmuşlar. Bu sülalənin məşhur olan ilk padşahı Həcr ibni Əmrdir ki, murdar yeyən ləqəbi ilə məşhurdur. Kənde şahlarının bə’zən elə qüdrətli dövrləri olub ki, digər nahiyələri də ələ keçiriblər. Belə ki, Həcrin nəvəsi Hafis az bir müddətdə (Qubad şah olduğu zaman) Hiyrəni də öz hakimiyyəti altına almış, lakin .Ənuşirəvanın hakimiyyəti zamanı oradan çıxarılmışdır

### YARIMADANIN ŞİMALINDAKI DÖVLƏTLƏR

Yarımadanın şimal və şimal-qərb nahiyəsində, Aralıq dənizinin sahilində yağışların yağması və yaxşı ticarət mövqeyi olması baxımından bir sıra dövlətlər tə’sis edilmişdir. Şimalda Əqəbə körfəzində Əl-ərbə vadisinə qədər uzanan ərazi Nibtilərin torpaqları olmuşdur. Deyilənlərə görə Nibti tayfası Ərəbistan səhralarından eramızdan ۶۰۰ il qabaq bu ərazilərə köç etmişlər. Babil dövləti suquta uğradıqdan sonra onlar bir dövlət yaratmışlar. Eramızdan əvvəl dördüncü yüzilliyin sonunda – İsgəndərin hücumu nəticəsində Səba dövlətinin dənizdəki qüdrəti aradan getdikdə – Nibtilərin dövləti .qüvvətlənmişdir. Onlar Sərhan vadisindən keçən ticarət yolunu da ələ keçirdilər

Nibtilərin paytaxtı Petra olmuşdur. Yunan mənşəli olan bu sözün mə’nası “daş” deməkdir. Nibtilər öz evlərini dağın qoynunu ovaraq düzəltdiklərinə görə ora belə adlandırılmışdır. Deyilənlərə görə ərəbcə o məhəllənin adı “hisni səl’” qaya divar (sıldırm qala) olmuşdur. Onların evlərinin qalıqları hələ də Musa vadisində Harun dağının yüksəkliklərində (İordaniya ərazisindədir) qalmaqdadır. Nibtilərin hakimiyyəti miladi tarixinin ikinci yüz illiyinə qədər davam etmişdir. ۱۰۶-cı ildə Rum

imperiyası bu ərazini işğal edərək öz torpaqlarına qatmışdır. Petra Nibtilər hakimiyyətinin qüdrətli dövründə mühüm ticarət mövqeyinə malik idi. O İran körfəzi ilə .Aralıq dənizini ticarət baxımından bir-birinə birləşdirən bir nöqtə idi

## PETRANIN YERİNƏ PALMİRA

Üçüncü əsrdə Sasani şahları ilə Rum imperatorları arasında baş vermiş müharibələr və Həbəşilərin Ərəbistanın cənubuna müdaxilə etməsi nəticəsində Hind okeanında gəmilərin gediş-gəlişi azaldı. Nəticədə dəniz vasitəsi ilə olunan ticarətin əvəzinə, Ərəbistanın quru səhralarından keçən ticarət yolu rövnəq tapdı. Bu dəyişiklik .nəticəsində Palmira (onun başqa bir adı Tədmurdur) Petranın yerini əvəz etdi

## TƏDMUR

Tədmur, ya Palmira o günlərin ən mühüm ticarət yollarından olub. Dəməşq şəhərinin şimal-şərqinin ۲۲۵ km-də onun xarabalıqları qalmaqdadır. Belə mə’lum olur ki, bu şəhəri Süleyman peyğəmbər (ə) tikmişdir. Ticarətdən əlavə bu şəhər hərbi cəhətdən də özünəməxsus mövqeyə malik olmuşdur. Bura İranla Rum arasında baş vermiş müharibələrdə Rumluların diqqət nəzərini cəlb etmiş və get-gedə onların himayəsinə .keçmişdir

Üçüncü əsrdə Tədmurun hakimi Uzəynə İranın qoşunlarını Suriya və kiçik Asiyadan qovub çıxarmaqla, Rumlulara böyük kömək etmiş oldu. Sasani şahları tərəfindən Valeriyan əsir alındıqdan sonra, o, Rum imperiyasının şərqi Rum torpaqlarında canişini oldu. Mesopotomiyanı, Suriyanı, Kiçik Asiyanın bir hissəsini, hətta Misiri əhatə edən geniş bir dövlət (ölkə) yaratdı. Uzəynənin ölümündən sonra, onun Zənbiya adlı arvadı oğlunun tərəfindən hakimiyyəti əldə etdi. ۲۷۰-ci ildə oğlunun adına sikkə (dəmir pul) düzəltdi. Ancaq bu dövrdə Rum imperatoru olan Zənubya əsir edilərək Romaya .göndərildi və orada da vəfat etdi. Tədmur artıq əvvəlki rövnəqini əldə edə bilmədi

## CƏNUBDAKI DƏYİŞİKLİKLƏR

İstər Mə'rəb səddinin dağılması, istərsə də daxili çəkişmələrin büruz etməsi cənub nahiyəsinin rahatlığını pozdu. Əkinçilik rövnəqdən düşdü, ticarət də təhlükə ilə üzləşdi. Qonşular bu ərazinin gəlir mənbəyini ələ keçirməyə cəhd edirdilər. Bu çətinliklər əhalinin öz torpaqlarını tərk edib, başqa bir yerlərdə məskunlaşmasına səbəb oldu. Cənub əhalisinin bir qrupu şimala üz tutaraq, Rum imperatorluğunun sərhədinə yaxın olan ərazini yaşayış üçün münasib bildilər. Digər bir qrup isə şərqdə Sasani imperiyası ilə həmsərhədd olan ərazilərdə yerləşdilər. Dəniz vasitəsi ilə yüklərin daşınması təhlükəli olduğundan, karvan yolları işə düşdü. Dəvə və at gəmini əvəz etdi. Nəticədə cənubdan şimala uzanan bu yol üzərində kiçik şəhərlər meydana gəldi. Alaçıqda yaşayanlar, heyvandarlıqla məşğul olanlar bu şəhərciklərə axışdılar. Qoyun-quzu saxlamaq əvəzinə, yük daşımaq və karvanı müşayiət etmək vəzifəsini öhdələrinə götürürdülər. Cənubdakı böyük dövlətlərin süqutu və bu dəyişikliklərin ardınca həmin məntəqənin bə'zi qüdrət sahibləri, həmçinin şərqə və şimala hicrət edənlər qüvvətlənərək hökumət təsis etmək imkanı əldə edə bildilər. O vaxtlar müharibə iki böyük qüdrətli dövlət (İran və Rum) arasında olduğundan, kiçik dövlətlər bu iki dövlətin himayəsində idilər.

Mühacirlərin tə'sis etdiyi bu dövlətlər, Ğəssanilər, Ləxmilər İran imperiyasının himayəsində idi. Kənde qəbiləsini isə Həmirilər himayət edirdilər. Bu dövlətlərin tərəqqisi və tənəzzülü onları dəstəkləyən dövlətin qüdrətindən asılı idi.

## ĞƏSSANİLƏR

Bu qəbiləni bə'zi vaxtlar Ali Cəfnə də (Babalarının adıdır) adlandırırlar. Onlar Yəməndən şimala tərəf hicrət edərək Rum imperiyasının sərhədlərində məskunlaşanlardırlar. Deyilənlərə görə bu əhali ilk dəfə Məkkəyə yollanmış, sonra onlardan bir qol ayrılaraq Badiyətuş-şama (Şam çölünə) getmişdir. Ğəssan adlı çayın sahilində yerləşdiklərinə görə onları Ğəssani çağırırmışlar. Ğəssanilər Ərəbistanın şimalında məskunlaşdıqları ilk vaxtda Səlih qəbiləsinə tabe olmuşlar. Ancaq onlara qalib gəldikdən sonra Rum imperiyasında baş verən müharibələrdə Rumluları himayə edirdilər. Sasani şahlarının tərəfdarları olan Ləxmilər ilə də müharibə edirdilər.

Justiyanın imperator olduğu dövrdə Ğəssani dövləti daha da gücləndi. O, bu qəbilənin əmiri olan Haris ibni Cəbləni padşahlıq rütbəsinə qaldırdı. O, bu işdən Ğəssanilərin Ləxmilər müqabilində daha da qüdrətlənməsi məqsədini güdürdü. Ğəssani dövləti İslamın şimaldakı ilk qələbələrinə və Suriyanın müsəlmanlar tərəfindən fəth olunmasına qədər mövcud olmuşdur. Yərmuk müharibəsində Rum imperiyasının qoşunu məğlub edildikdən sonra, bu əhalinin bir hissəsi öz yerlərində qalaraq müsəlmanlarla həmkarlıq etmiş və başqa bir hissəsi isə Ruma və ya Kiçik Asiyaya .getmişdir

## LƏXMİLƏR

Ləxmilər və ya Ləxm (bə’zən onlara sonuncu padşahlarının adı ilə bağlı olaraq Ali-Münzir də deyirlər) üçüncü əsrin sonundan Hiyrə və onunla qonşu olan torpaqlara hakim olmuşlar. Hiyrə şahları Sasani dövlətinə tabe olmuş, Rum imperiyası ilə .müharibədə onlara kömək etmişlər

Görünür, Hiyrə əhalisi (Qəhtani qəbiləsindən) cənubdan mühacirət etmiş və onlar Ədnani qəbiləsi ilə bir yerdə məskunlaşmışlar. Ləxm qəbiləsinin nüfuzu Hiyrə və onun ətrafında genişlənib qüvvətləndi. Onlar Fərat çökəkliyindən əlavə, Ərəbistanın daxilinə də nüfuz etdilər. Hiyrə dövləti bir sədd kimi səhra ilə İranın işğal etdiyi ərazilər arasında yerləşmişdir. Bu dövlətin şahları bir tərəfdən səhrada yaşayanların Sasani torpaqlarına hücumunun qarşısını alır, digər tərəfdən isə İranın köməkliyi ilə Rum imperiyasının müttəfiqi olan Ğəssanilərlə müharibə edirdilər. Ləxmilərin dövləti ۷-ci əsrin əvvəlinə qədər davam etmişdir. Bu qəbilənin ən məşhur şahlarından biri Nə’man ibni Qeyeydir ki, ۵-ci əsrin əvvələrində hakimiyyət etmişdir. O, Sədir və Xuvərnəç saraylarını tikdirmişdir. Nə’man Sasani şahı Yəzdəgerdin atası Bəhramla dost olmuşdur. Deyilənlərə görə o, bu sarayları Bəhramın istirahət etməsi üçün tikdirmişdir. Mə’lumata görə tikinti

qurtardıqdan sonra, sarayın me'marlıq sirləri öyrənilməsin deyə, Sinimmar adlı me'mar öldürülmüşdür. Nə'man ibni Münzir bu ailənin sonuncu adlı-sanlı şahlarından olmuşdur. Xosrov Pərviz (Sasani şahı) qəzəblənərək onu yanına çağırıb öldürmüşdür. Hər halda İslam dini zahir olan zaman bu ailənin heç bir qüdrəti qalmamışdı. Bu qəbilənin sonuncu başçısı Münzər ibni Nə'mandır ki, onun hakimiyyət dövrü Xalid ibn .Vəlidin Hiyrəyə gələn vaxtına təsadüf edir

## SƏHRA SAKİNLƏRİ

Qeyd etdiyimiz kimi, Ərəbistan yarımadasının cənubunda yağışların yağması və torpağın məhsuldar olması ilə əlaqədar olaraq, hələ qədim zamanlardan bəri abadlaşmış və orada şəhərlər salınmışdır. Şimal ərazilərində və səhralarda cəmiyyət yox idi. Lakin belə də deyil ki, orada abadlıqdan əsər-əlamət olmasın. Qırmızı dənizin sahilləri və Nəcddə – oradakı yer altı su mənbəsindən su quyuları meydana gəlmişdi – əhali yaşayırdı. Məsələn, Hicaz əyalətinin ٢٠٠ dərəcə şimal zolağında Yəsrib şəhəri salınmışdır ki, sonralar Mədinətün-nəbi adı ilə əvəz olunmuş, daha sonra isə sadəcə olaraq Mədinə adlanmışdır. Bu şəhərdə su quyuları və kəhrizlər olduğundan, həmçinin torpağın əkin üçün yararlı olması əhalinin burada məskunlaşmasına səbəb olmuşdur. Şimal ərazisinin ucqar nöqtəsində Təbuk və Dumətul-cəndər kimi şəhərlər də mövcuddur. Burada Qırmızı dənizə yaxın olan bir sahədə Məkkə şəhərini qeyd etmək olar ki, onun barəsində ətraflı danışacağıq. Bu kiçik şəhərləri, suyu və yaşıllığı olan ərazini keçdikdən sonra həmin ərazinin əksəriyyətini geniş səhralar təşkil edir. Bə'zən qış və yaz mövsümündə Aralıq dənizindən gələn buludlar bu geniş səhranın üzünü örtür və yağışlar yağır. Gur yağan yağışların ardınca sel gələrək vadilərə axıb gedir. Ondan sonra otlar göyərir və torpaq bir müddət yaşıl çəmənə bürünür. Bə'zən də illər keçir, ancaq orada yağışdan heç bir əsər-əlamət görünmür. Bu nahiyənin yay günlərində havası isti, hətta çökək ərazilərdə istiliyin hərarəti ٥٠-dərəcəyə çatır – gecələri isə mülayim olur. Hərdən qışda Şəmmər sıra dağlarının başına qar da yağır. Belə bir şəraitdə səhrada yaşayan əhali çətinliklə həyat sürürdü. Çöl ərəbi - dildə ona bədəvi deyilir – bu səhranın ətrafında yaşayırdı. Xariclə əlaqəsi olmadığından, buranın yaşayışı uzun müddət dəyişilməmişdir. Səhra sakini yazın ikinci ayından payızın ikinci ayına qədər özünə və səh:١٩

qəbiləsinə məxsus olan su nohurunun ətrafında yaşayırdı. İlk yağış yağdıqdan sonra .isə səhraya tikanlı otlar toplamağa gedərdi

Beləliklə, cənub ərazisində əhalinin çox və sıx olmasının əksinə olaraq, şimal və mərkəzdəki geniş səhralarda əhali az idi. Bu günün özündə də orada ərazi azlıq təşkil edir. Belə bir yaşayış tərzi olan yerdə ev tikib daimi məskunlaşmağın heç bir mə’nası yox idi. Ona görə də səhra sakinin evi gərək yüngül olaydı ki, onu istədiyi vaxt söküb özü ilə apara və başqa bir yerdə qura biləydi. Belə bir ev keçi yunundan əyirilmiş və .iplə toxunmuş çadırlar, dirəyi isə xurma ağacının budaqlarından idi

Köçəri halda yaşayan səhra sakinləri çalışırdılar ki, bu yer dəyişmələrində zəruri olan şeyləri özləri aparsınlar. Çadır (alaçıq), yatmaq üçün ev ləvazimatları, su tuluğu, su qızdırmaq üçün qab, ərzaq, ara-sıra kobud bir döşək, yük daşımaq üçün dəvə və bə’zi hallarda da qoyun onların əmlakı hesab olunurdu. İşlərin ağırlığı qadının üzərinə düşürdü, ancaq övladların barəsində təbiidir ki, çöldə yaşayan ərəb qız övladından daha çox oğlan uşağına meyl göstərirdi. Çünki, oğlan uşağı uşaqlıqda dəvəyə göz qoyar, atanın işlərinə kömək edərdi. Böyüdükdə isə ailəni əsgər kimi düşmənin zərərindən qoruyardı. Belə şəraitdə qız uşağı əl-ayağa dolaşırdı və gərək daim onu qoruyan olaydı. Elə buna görə də çöl ərəbləri qız uşaqlarını sevmirdilər. Eşidəndə ki, onların qızları olub, çox narahat olurdular. Qur’ani-kərimdə oxuyuruq: Onlardan birinə qızı olması ilə müjdə verdikdə qəzəbdən üzü qap-qara qaralardı. Verilən xəbərin pisliyi üzündən öz tayfasından qaçıb gizlənərdi. Görəsən o körpəni zillət içində saxlayacaq, yoxsa torpağa basdıracaq? Bir görün onlar necə pis mühakimə yürüdürlər! (oğlanları (özlərinə götürüb qızları Allaha isnad edirlər). (ən-Nəhl ۵۸-۵۹

Bu narahatçılığın başqa bir səbəbi də var idi. İslamdan qabaq çadırda yaşayanlar, müharibə və münaqişə dolu bir həyat sürürdülər. Bu müharibələrdə qalib olan dəstə qadınları və qızları əsir götürüb aparırdılar. Qadın və qızın əsir düşməsi məğlub olan

dəstə üçün ən böyük təhqir sayılırdı, çünki bununla nəslin namusu (təmizliyi) aradan gedirdi. Buna görə də biz ərəblərin nəsəblər kitabında görürük ki, onlar çalışıb öz nəsəbnamələrini qorumuşlar. Onlar yad bir adamın onların öz nəsil və soylarına daxil .olmamasını və soylarının təmiz qaldığını göstərmək istəyirlər

Əvvəldə qeyd etdiyimiz kimi, bədəvi ərəblər daim su tapmaq üçün hərəkətdə olmuşdur. Bu gediş-gəlişdə arvadı və övladı onunla birgə olmuşdur, çünki səhra çalışma səhrasıdır. Onu da qeyd edək ki, qarşıya çıxa biləcək bə’zi çətinliklərin öhdəsindən bir ailə belə təklikdə gələ bilmir. Çarəsizlikdən bu səfərlərdə bir neçə ailə birlikdə getməyə məcburdur. Ancaq bu ailələri bir-birinə yaxınlaşdıran səbəb (nəsəb-nəsil) olmalıdır. Belə ki, ya qardaş, ya əmi oğlu və ya qız alıb-verməklə bir-birləri arasında qohumluq əlaqəsi olmalıdır. Belə yaxınlıq əlaqəsi olan birliyə “qövm” deyilir. Bir neçə qövmün birliyindən isə qəbilə meydana gəlir. Qəbilələr çox vaxt “bəni Hərb, bəni Təyyim, bəni Ədiy” və s. bu kimi adlarla adlanırdılar. Alaçıqda yaşayanlar (yə’ni .səhra sakinləri) heç vaxt kənar qəbilənin hökmranlığını qəbul etmirdilər

Səhranı gəzmək, mənzil başında dayanmaq, ixtilaf düşdükdə hakimlik etmək, “şeyx” adlı rəhbərin üzərinə düşür ki, yaşca hamıdan böyük olurdu. Şeyx qəbiləni keçmiş ata-babalarından miras qalmış adət-ən’ənələrlə (sünnətlərlə) idarə edir. Bu vəzifəyə seçilən şeyx gərək lazım olan şərtləri və xüsusiyyətləri özündə toplaya bilən şücaətli, səxavətli, güzəştə getməyi bacaran, öz himayəsində olanlara təsəlli verən və qəbilənin marağını qorumağı bacaran şəxs olmalı idi. Düşmənçilik zamanı hakimlik etmək, müharibə əmrini vermək hansısa bir qəbiləyə birləşmək və ya ondan ayrılmaq kimi məsələlər də şeyxin öhdəsinə düşür. Hətta hansısa əqidəni və ya dinin qəbul edilib edilməməsində də şeyxin rə’yi əsas rol oynayırdı. Qəbilənin şeyxi hansı dini və ya ən’əni qəbul etsəydi, təbii olaraq qəbilənin üzvləri də o dini və

adət-ən’ənəni qəbul edirdilər. Əlavə edək ki, İslam dininin gəlişi ilə başqa sünnətlər kimi, qəbilənin bu adət-ən’ənənəsi də pozuldu. Belə ki, üzvlər İslam dinini qəbul etdiyi .halda, qəbilənin şeyxi ona meyl göstərmirdi

Belə bir mühitdə həyat sürmək üçün daim təbiət və insanla mübarizə aparmaq lazımdır. Elə ona görə də ardıcıl münaqişələr baş verirdi. Dəvə və qoyun onun mal-dövləti, su və ot isə onun dirilik mənbəyi idi. Qeyd etdiyimiz kimi, bu səhrada su və ot az tapılan bir şey, onu axtaranlar isə çox idi. Bunları əldə etmək üçün onlar bir-biri ilə .üzləşməli və ya vuruşmalı idilər

Bundan əlavə, başqa dəstələrə hücum edərək var-yoxlarını qarət etmək, bununla da öz rahatlıqlarını tə’min etmək səhra sakinlərinin adi işlərindən biri sayılırdı. Elə bu səbəbdən də onların tarixində İslamdan qabaq kiçik məsələlər üstündə çoxlu qanlar tökülmüş və adamlar öldürülmüşdür. Belə münaqişələr illər boyu davam etmişdir. Bu barədə daha ətraflı mə’lumat almaq üçün “Əyyamül-ərəb” kitablarına müraciət etmək .lazımdır

Biz burada yalnız nümunə olaraq Təğləb ilə Bəni-bəkr qəbiləsi arasında baş vermiş Bəsus müharibəsinə işarə edəcəyik. Bu qəbilənin hər ikisi Rəbiə tayfasındandır. Bunlar arasında baş verən müharibə ۴۰ il davam edib. Səbəbi da bir qəbilənin otluq sahəsinə o .biri qəbilənin dəvəsinin girməsi olmuşdur

İslamdan qabaq ərəblər baş vermiş müharibələrə və münaqişələrə dair şe’rlər və qəhrəmanlıq dastanları qoşaraq iftixar hissi ilə oxuyurdular. Belə şe’r və dastanlar sinələri dolaşaraq nəsildən nəsilə ötürülürdü. (Elə bu səbəbdən də şe’r ərəblər (.arasında rövnəq tapmış, qəhrəmanlıq ədəbiyyatı isə güclənmişdi

Səhra övladı sağlam mühitdə böyüdüyü üçün gümrah və sağlam bədənə malik idi. Digər tərəfdən də heç bir qayda-qanuna tabe olmayaraq azad və lovğa yaşamaq istəyirdi. Şəhər yaşayışına, adət-ən’ənə və qoyulmuş qayda-qanunlarına e’tinasız

və rişxəndlə yanaşırdı. Əgər zərurətdən bir neçə günlüyə şəhərə getmiş olsaydı belə, ürəyi səhra və alaçığının yanında qalırdı. Onun ömür sürdüyü ocaq ilk növbədə ailəsi, sonra qan qohumları idi ki, bir yerdə yaşayır, bir yerdən başqa yerə də birlikdə gedərdilər. Özünə və ona bağlı olan hər bir şeyə hörmət edər, onların müdafiəsi üçün canından keçməyə belə hazır olardılar. Onu bu müdafiyəyə təhrik edən yeganə amil nəsil cəhətdən bir-birlərinə bağlılıq idi. O, öz qohumuna arxa çıxan zaman kimin günahkar olmasını soruşmazdı. Qəhtani və Ədnani qəbilələrinin öz daxilində çoxlu sayda münaqişə və müharibələr baş verməsinə baxmayaraq, kənardan onlara hücum etsəydilər, bütün ixtilafları kənara qoyub birləşərək düşmənə qarşı birgə vuruşardılar. Məsələn, Həmdan və Qəzaə qəbilələri uzun müddət bir-birləri ilə müharibə etdiyi zaman, qəfildən Rəbiə qəbiləsi onlardan birinin üzərinə hücuma keçərdi. Bu vaxt onlar öz aralarındakı münaqişəni kənara qoyub bir yerdə Rəbiə qəbiləsi ilə vuruşardılar. Bu yaxın qohumların qeyrətini çəkmək hissidir ki, Qur’an bunu cahiliyyət dövrünün .qeyrəti və şərəf hissi kimi qələmə vermişdir

İsti və quru səhrada həyat sürmək, sərtliyi və rəhimsizliyi onlara təlqin edirdi. Əgər əlverişli şərait olsaydı, bəlkə də sərtlikdən istifadə etmək özünün son həddinə .çatmazdı

Bu döyüşkənlik, dözümlülük səhra sakininin hərəkət-tərzi idi. Ancaq onların təbii .həyatlarında başqa şeylər də nəzərə çarpırdı

Onunla bağlılığı olan bir nəfərin və ya bir neçə nəfərin yolunda fədakarlıq göstərməyə, malından, hətta canından da keçməyə hazır idi. Bə’zən belə fədakarlıq divanəlik :həddinə gəlib çatardı. Ərəblərin zərbül-məsəllərində rast gəlirik

Məsələn deyirlər ki, bir kişi səhər tezdən öz alaçığından bayıra çıxıb görür ki, bir dəstə adam onun xeyməsinin ətrafında toplanıb. Səbəbini onlardan soruşduqda deyirlər ki, dünən axşamdan bir dəstə çəyirtkə sənin alaçığının ətrafına toplaşıb, istəyirik onları ovlayaq. O kişi çadıra dönərək, nizəsini çiyninə

alıb gəlir və onların qarşısında dayanaraq belə deyir: Çəyirtkələr mənim alaçığımın kölgəsinə sığınıblar, siz də istəyirsiniz onları ovlayasınız? Belə bir işə əsla icazə verməərəm. Əgər bir nəfər çəyirtkələrə yaxınlaşsa, mənim nizəmin qurbanı olacaq. O, günəşin doğub çəyirtkələrin uçub getməsinə qədər müqavimət göstərdi. Sonra dedi: .İndi çəyirtkələr mənim himayəmdə deyil, siz gedib onları ovlaya bilərsiniz

Qeyd etdiyimiz kimi, beşinci yüzillikdən Ərəbistan yarımadasının ictimai həyatında dəyişikliklər baş verdi. Xalqın yaşayış tərzində də müəyyən yeniliklər hiss olunurdu. Karvan yolunun dəyişməsi yeni şəhərlər və şəhər tipli qəsəbələrin salınmasına səbəb oldu. Bu kiçik şəhərlər səhra sakinlərini özünə cəlb edirdi. Onlardan bir dəstəsi şəhərdə muzdurluq edir, başqa bir dəstə isə karvan yolunu qorumaq və ticarət mallarının limanlara çatdırılması vəzifəsini yerinə yetirirdilər. Karvanlara bələdçilik edən bədəvilərə kömək edən amil onların məharətli at minib-sürmələri idi. Dediyimiz cənubda Mə’rəb səddinin dağılması ilə əkinçiliyin ağır vəziyyətə düşməsi, bütövlükdə Ərəbistan yarımadasının ümumi vəziyyətinə tə’sir etmişdi. Ancaq həmin vaxtlar sahil boyu – İran körfəzindən tutmuş Qəzzə limanına qədər və Əqəbə körfəzi – ticarət əhəmiyyəti kəsb etdiklərini qoruya bildilər. Bu uzun yol boyunca cəzb olunan yerlərdə əhali cəmləşirdi. Belə ki, xaçpərəstlərin bir dəstəsi Hərrana, yəhudilər isə Yəsribə .gedərək əkinçiliklə məşğul oldular

### DİN VƏ E’TİQADLAR

Ərəbistanın cənubunda səma cismlərindən günəşə, aya, ulduza pərəstiş (ibadət) etmək çox qədim zamanlardan bəri rəvac tapmışdı. Səba qövmünün günəşə pərəstişinə Qur’ani-kərimdə işarə olunmuşdur. Ərəbistanın şimalında da bu e’tiqadın .ardıcıllarına rast gəlmək olurdu

Səhra bədəviləri demək olar ki, hamısı bütpərəst idilər. Onlar şəhərlərdə məskunlaşmalarına baxmayaraq, bütpərəstlikdən əl çəkməmişdilər. Qəbilənin bütün bütləri üçün məxsus ibadətgah

yeri yox idi. Bə’zi qəbilələr öz bütlərini elə bir yerə qoyurdular ki, hamı onun ziyarətinə getsin. Ancaq bir çox qəbilələr bütləri özləri ilə birlikdə gəzdirirdilər. Bu bütlər taxta və ya daşdan, bə’zən isə xurma ağacından düzəlir və lazım olan vaxtda ondan istifadə .edilirdi. Qur’ani-kərimdə bu bütlərin bir neçəsinin adı çəkilib

.Lat.١

.Uzza – Kəlbinin dediyinə görə, Latdan sonra bu bütə ibadət olunub.٢

.Mənat – Ous və Xəzrəc qəbilələrinin hörmət bəslədiyi bir büt olub.٣

.Vədd – Kəlb qəbiləsinin bütü idi.۴

.Suvay – Hüzeyl qəbiləsinin bütüdür, Yənbu’da yerləşmişdir.۵

.Yəqus – Məzcih qəbiləsinin bütü idi.۶

.Yəuq – Xəyvan qəbiləsinin bütüdür, Sən’ada yerləşmişdir.٧

.Nəsr – Himyər qəbiləsinin bütü idi.٨

Qüreyş qəbiləsinin də Kə’bə daxilində və ətrafında bütləri var idi ki, onların ən böyüyü .Hubəl idi

Kəlbi, ərəblərin bütlərə sitayiş etməsi barəsində belə deyir: Məkkədən keçən hər bir karvan Kə’bənin həyətindən bir daş götürüb özləri ilə aparır, Kə’bəni xatırlayaraq o daşın ətrafına dolanırdılar. Bu daşa tə’zim etdikdən sonra başqa ibadətləri yerinə .yetirirdilər

Yazılanlara görə Əmir ibni Luhəy bütpərəstliyi Şam əhalisindən öyrənmiş və oradan .özü ilə bir büt gətirərək Kə’bə evinin yaxınlığında yerləşdirmişdi

Əgər Kəlbinin bu tə’biri doğru olsa da belə, bütövlükdə ərəblərin bütpərəstliyini deyil, bəlkə məxsus qəbilələrin bütpərəst olmağını xatırladır. Çünki ərəblərin hamısı Məkkəyə gəlmirdilər, gəlsəydilər də onu özləri ilə aparmırdılar. O zaman ağaca pərəstiş, qeyd etdiyimiz kimi, aya, günəş və ulduzlara pərəstiş səhra sakinləri arasında

rövnəq tapmışdı. Onu da qeyd etmək lazımdır ki, onlar xeyir və bərəkət mənbəyi bildikləri bə’zi şeylərə pərəstiş edir, təsəvvür etdikləri tərzdə ona oxşar bütlər

.düzəldirdilər. Necə ki, onlar bə'zi şeyləri şər mənbəyi kimi qəbul edirdilər

Onların təsəvvürünə görə cin zərər və ziyan mənbəyi, bə'ziləri üçün isə faydalı bir şey sayılırdı. Belə ki, bə'zi şairlərin təblərinə uyğun cinləri var idi ki, şe'rləri onun zehninə .salırdı

Qeyd olunduğu kimi, İslam dinindən əvvəl səmavi dinlərdən olan yəhudi dininə, xristianlığa və zərdüştliyə itaət edənlər Ərəbistan yarımadasında var idi. Hətta Hicaz da bir neçə nəfər Mani dini ilə də tanış idi və ona e'tiqad bəsləyirdilər. Xristianlıq cənubdan Həbəşistan vasitəsi ilə oraya daxil olmuşdu. Deyilənlərə görə, şimalda ilk dəfə Təğləb, Quza'ə və Ğəssan qəbilələri Rum imperiyası vasitəsi ilə qüvvətlənərək bu dini qəbul etmişdilər. Hiyrə İrana yaxın olduğuna görə orada zərdüştlik yayılmışdı, .ancaq bununla yanaşı bir dəstə xristianın olması da tarixdə qeyd olunmuşdur

Kəlbinin yazdığına görə İslamdan əvvəl bir dəstə ərəb Məkkəyə həcc ziyarətinə gedər, .həcc, ümrə, ərəfatda qalmaq və qurban kəsmək kimi işləri yerinə yetirərdilər

İlin dörd ayını, o cümlədən ziqə'də, zihəccə, rəcəb və məhərrəm ayları haram sayılır və .bu aylarda bir-birləri ilə müharibə etməzdilər

İslamın zühuruna yaxın vaxtlarda Məkkə və Mədinə ətrafında bir qrup adamlar da var idi ki, onlar bütpərəstliyə e'tinasız yanaşır, qan tökməkdən və zülmdən uzaqlaşaraq, o dövrdəki səmavi dinlərə e'tiqad bəsləmirdilər. Onların dini ayinləri yox idi. İslam ilahiyyət alimləri onları Hünəfa adlandırmışlar. Onun tək forması hənifdir ki, mə'nası batil olan dindən dönmək deməkdir. Ancaq Qur'ani-kərimdə Hənif və ya Hünəfa .kəlməsi İbrahim peyğəmbərin (ə) dinində olanlara şamil edilmişdir

İbni Hişam Zeyd ibni Əmr ibni Nufeyldən bir neçə beyt şe'r nəql edilmişdir ki, o bu beytlərdə "Lat", "Uzza" və digər bütləri tənqid etmiş, onlardan əl üzərək yeganə Allaha üz çevirdiyini ifadə etmişdir. Əgər doğrudan da bu beytlər Zeyddən olsa, onda

onu Hünəfa qrupunun üzvündən saymaq olar. Deyilənlərə görə Peyğəmbər (s) onun .bağışlanması üçün dua etmişdir

Ancaq ibni Hişamın nəql etdiyi şe'rin üslubu, İslamdan qabaqkı ərəblərin yazdıqları .şe'rlərlə fərqlənir

## MƏKKƏDƏ QANUN VƏ DİN

Məkkə şəhərinin qanunu qəbilələr arasında bağlanan əhd-peymandan ibarət idi. Bu qanun əsasında hər qəbilənin və ona qohum olanların hüququna ayrı qəbilələr tərəfindən hörmət qoyulurdu. Əgər bir nəfərin hər hansı bir qəbilə ilə qohumluğu və ya bağlılıq əlaqəsi olmasaydı, heç bir qanun onu zülmkar qarşısında müdafiə və ya .himayə etməzdi

## MƏKKƏNİN MƏRKƏZƏ ÇEVRİLMƏSİ

Ərəbistanın cənubunda baş vermiş dəyişikliklərdən, əhalinin müxtəlif nöqtələrə səpələnməsi və səhra vasitəsi ilə ticarət yolunun rövnəq tapmasından sonra, əhalinin böyük əksəriyyətinin məskunlaşdığı yerlərdən biri də Məkkə şəhəri idi. Məkkə Qırmızı dənizə yaxın olmaqla yanaşı, bir tərəfdən Şam və Fələstin ticarət yolunun üzərində yerləşmiş, digər tərəfdən isə Yəmənin ticarət yolunun üzərində əlaqə vasitəsinə çevrilmişdi. Bu şəhər ticarət üçün əlverişli mövqeyindən əlavə, başqa bir əhəmiyyətə də malik idi. Yarımadanın müxtəlif nöqtələrindən əhali ilin müəyyən mövsümündə bu şəhərə axışırdı. Bildiyiniz kimi, Kə'bə evi Məkkə şəhərində yerləşmiş, İslamdan min illər əvvəl də ona ehtiram qoyulmuşdur. Qur'ani-kərimdə buyurulur: İbrahim (ə) öz ailəsini :Hicazın susuz və bitkisiz ərazisində yerləşdirərək öz Allahına dua edir

İbrahim zamanından Kə'bə evi yeganə Allaha ibadət olunduğu məkana çevrildiyi üçün, bu yer böyük əhəmiyyətə malik olmuşdur. Ancaq o dövrün əhalisinin hansı tərzdə yaşaması və ibadətlərinin növü də mə'lum deyildir. Məkkənin tarixi demək olar ki, iki mənbədən aydınlaşır - Qur'ani-kərim xəbər verdiyi ibtidai tarix və bir də Peyğəmbərin (s) dünyaya gəlişindən yüz il qabaqkı dövr. Şübhə yoxdur ki, beşinci və altıncı əsrlərdə Məkkə abad şəhər olmuşdur. Onun Qırmızı dənizə yaxın olması Afrikanın şimal .tərəfdən Suriya ilə ticarət yolunu birləşdirməsinə səbəb olmuşdur

Kə’bə evinin ziyarətgah olması və müəyyən mövsümdə həcc karvanlarının gəlişi də .Məkkənin abadlaşmasına yardım etmişdir

Qeyd etdiyimiz kimi, yarımadanın cənubundakı durumun dəyişilməsi ilə əhali oradan başqa məntəqələrə köçdülər. Bunların arasından Curhum və Xuzaə’ qəbiləsi Məkkədə məskunlaşdı. Curhum qəbiləsinin Yəməndə yaşamalarının tarixi mə’lum deyildir. Bə’zi tarixçilər onların İsmayıl (ə) peyğəmbərin dövründə yaşadıqlarını qeyd edirlər. Curhum qəbilsi əvvəldə Məkkənin hakimiyyətini ələ keçirdi. Ancaq Xuzaə’ qəbiləsi gəldikdən sonra onların arasında müharibə baş verdi ki, ondan sonra şəhərin hakimiyyəti Xuzaə’ qəbiləsinin əlinə keçdi. Xuzaə’ qəbiləsinin Məkkə şəhərində hakimiyyəti İslam Peyğəmbərinin (s) ulu babası Qusəy ibni Kilabın dövrünə qədər davam etdi. Qusəyin adı Zeyd idi; anası isə Səid ibni Səyəlin qızı idi. Zeydin anası Kilabın vəfatından sonra Xuzaə qəbiləsindən olan Rəbiət ibni Huzamla ailə həyatı qurmuş, sonra isə oğlu Zeydlə birlikdə ərinin qohumlarının yaşadığı Şam şəhərinə getmişdir. Deyilənlərə görə Zeydə vətənindən ayrı düşdüyünə görə Qussəy (yə’ni uzaq düşmüş) ləqəbi verilmiş, sonra isə .ləqəbi onun adını əvəz etmişdir

Qussəy həddi-büluğa çatdıqdan sonra Məkkəyə dönmüş, Xuzaə qəbiləsinin böyüklərindən olan Huləylin qızı ilə ailə həyatı qurmuşdur. Və bu qadından onun Əbdud-dar, Əbd-Mənaf, Əbdül-Üzza və Əbd-Qusəyy adlı dörd oğlu dünyaya gəlmişdir. Qusəyy Məkkə hakimiyyətini Xuzaə qəbiləsinin əlindən alaraq, şəhərdən kənarda məskunlaşmış Qüreyş qəbiləsindən olan qohumları şəhərin daxilinə .gətirmişdir

İslamın zühurundan əvvəl Məkkə şəhərində yazıb-oxumaq üçün xüsusi bir məkan olmamışdır. Ancaq bə’zi ailələrdə zəruri olaraq yazı-pozu və oxumaqla məşğul olan .adamlar var idi

Lakin səhra sakinlərinin yazmaq və oxumaq bacarmaları haqda heç bir dəlil və sənəd yoxdur. Çox nadir hallarda təsadüfən bir şair və ya kahin öz vətənini tərk edərək qonşu ölkələrə səfər edər

və orada yazıb-oxumaq öyrənərdi. Şairlərin yazdığı şe’rlər və kahinlərin öyüd-nəsihətləri (xütbələri) xalq tərəfindən öyrənilərək sinələri dolaşırdı. İldə bir dəfə Taif ilə Nəxlə arasında yerləşən Ukkaz bazarında, zi-qə’də ayında Mərrul-Zəhran bazarında və ondan sonra isə zil-Məcazda (Ərəfə yaxınlığında yerləşən yer adıdır) şairlər .yazdıqları şe’rləri xalqa oxuyardılar

Qüreyş qəbiləsi Məkkə hakimiyyətini bəni Xuzaənin əlindən aldıqdan sonra get-gedə ticarətlə məşğul olmağa başladılar. Onlar Ərəbistanın cənub və şərqindəki məhsulları Aralıq dənizinin limanlarına daşıyar, Dəməşq bazarlarından isə Hicaza buğda, zeytun, ipək parça və başqa məhsullar gətirərdilər. Qureyş karvanı ildə iki dəfə ticarət səfərinə çıxırdı – qışda Yəmənə, yayda isə Şama (Suriya) tərəf. İbni Hişamın yazdığına .görə, bu iki səfər Peyğəmbərin (s) ulu babası Haşimin təşəbbüsü ilə yaradılmışdır

.Qur’ani-kərimdə bu iki ticarət səfərinə işarə olunmuşdur

Səhrada maldarlıqla məşğul olanlar da Məkkə şəhərində məskunlaşdılar. Topladıqları pullarla ya ticarət edər, ya da sələminə borc verərdilər. Onlar şəhərdəki belə yaşayışın səhra həyatından mənfəətli və zərərsiz olduğunu artıq dərk etmişdilər. Bundan əlavə, başqa qəbilələrlə müharibə etmək və ya qonaq evi düzəldib imkansızlara əl tutmağa ehtiyac duyulmurdu. Məkkə şəhərinin tədrici inkişafı alaçıqda yaşayanları özünə cəlb edirdi. Onlar heyvandarlıq və səhra gəzintisindən əl çəkərək şəhərə üz tutdular və dövlətli təbəqəyə qulluq göstərməyə başladılar. Çox keçmədi ki, Məkkədə iki ictimai sinif meydana gəldi. Azlıq təşkil edən varlı təbəqə -onlar mal-dövlət toplamaqdan başqa heç bir şey haqda düşünmürdülər. Çoxluq təşkil edən yoxsul təbəqə - onlar öz enerjilərini varlı təbəqəyə qulluq göstərməkdə sərf edib müqabilində çox az bir gəlir .əldə edirdilər

İslamın zühuruna yaxın bir vaxtda Məkkə şəhərində ictimai durum həddindən artıq gərgin idi. Qüreyş başçıları Məkkə şəhərinin hakimiyyətini əldə etmiş və Kə’bə evinin nəzarətini özləri üçün üstünlük hesab edirdilər. Ancaq bu üstünlük dini

xarakter daşısa da, əsl həqiqətdə zorakılıq və qəddarlıq sayılırdı. Fitri cəhətdən tək Allahlığa sövq edən insan, şeytani meyillər tərəfindən məğlub edilmiş, zülm isə insani ədalətin yerini tutmuşdu. Nə zalımı düz yola də’vət edən bir din, nə də zülm çəkənlərin harayına yetişən bir qüvvə var idi. Qeybdən kiminsə gəlib bu işləri görməsinin vaxtı .artıq çoxdan yetişmişdi

## İKİNCİ FƏSİL

## İSLAMIN ZÜHURU

Əllərindəki Tövrat və İncildə (adının vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsuli-ümmiyə (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya Məkkəli) Peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) ne'mətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü (.yüngülləşdirər və üzərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər

### İSLAM PEYĞƏMBƏRİNİN UŞAQLIĞI VƏ CAVANLIĞI

Peyğəmbərin (s) doğum ili dəqiq mə'lum deyildir. İbni Hişamın və başqalarının yazdığına görə o, Amul-fildə (fil ilində) yə'ni Əbrəhə fillərlə Kə'bəni viran etməyə gələn ildə anadan olmuşdur. O hadisəni öz gözləri ilə görənlərə əgər bu tarix aydın olsa da belə, başqaları üçün mə'lum deyildir, çünki hələ də o hadisənin hansı ildə baş verməsi müəyyən edilməmişdir. Tarixçilər Peyğəmbərin vəfatını ۶۳۲-ci miladi ilinə aid edirlər. Peyğəmbər dünyadan köçəndə ۶۳ yaşı varmış, deməli onun anadan olma tarixi ۵۶۹-.۵۷۰-ci illərə təsadüf edir

Tarixçilər onun həyatı barəsində müxtəlif hekayələr nəql etmişlər. Ancaq mö'təbər sənədlərə istinad etməklə tarixi həqiqəti dastan və hekayələrdən ayırmaq olar. O illərin hadisələrini aydınlaşdıra biləcək yeganə sənəd Qur'ani-kərim və Peyğəmbərin sünnəsidir. Lakin Qur'ani-kərimdə o hadisələrə çox qısaca işarə edilmişdir. Bu kiçik işarələrə və tarixçilərin verdiyi mə'lumata istinad edərək demək olar ki, Həzrət .Məhəmməd (s) uşaqlıqdan yetim qalmışdır

Atası Abdullah bəni Zöhrə tayfasının başçısı Vəhəbin qızı Aminə ilə ailə həyatı qurduqdan bir neçə ay sonra, ticarət səfərlərinin birində, Şamdan geri dönərkən Yəsrib şəhərində vəfat etmişdir. Bə'zi tarixçilər isə onun, Həzrətin (s) dünyaya gəlişindən bir neçə ay sonra vəfat etdiyini yazmışlar. Həzrət Peyğəmbər (s) hələ körpə ikən (südəmər vaxtı) bəni Sə'd qəbiləsindən olan Həlimə adlı qadının yanında olan zaman anası dünyadan köçmüş və babası Əbdül Müttəlib onun himayəsini öz üzərinə götürmüşdür. Səkkiz yaşında isə Əbdül Müttəlib dünyadan köçür və ondan sonra əmisi

Əbu Talibin qəyyumluğu altına düşür. Tarixçilərin

yazdığına görə həzrəti Peyğəmbər (s) hələ uşaq ikən əmisinin Şama etdiyi ticarət səfərlərinin birində onunla getmişdi. Yolda Busraadlanan yerdə Bəhira adlı xristian keşişi ilə rastlaşmış və keşiş onda peyğəmbərliyin əlamətlərini görmüşdü. Keşiş onu əmisinə bərk-bərk tapşırmış, xüsusilə bu uşağı onunla düşmən olan yəhudilərdən qorumağı tövsiyə etmişdi. Deyilənlərə görə karvanla gələnlər Bəhiranın ətrafından dağıldıqdan sonra o, Həzrəti saxlamış və onu Lat və Uzzaya (büt adlarıdır) and verərək .bir neçə sualına cavab verməyi istəmişdi

Həzrət (s) cavabında demişdi ki, məni Lat və Uzzaya and vermə, çünki dünyada ən .xoşuma gəlməyən şey bu iki bütdür. Bəhira sonra onu Allaha and vermişdi

## FİCAR MÜHARİBƏSİ

Həzrət Məhəmmədin (s) cavanlığında baş vermiş hadisələrdən biri də Ficar müharibəsi olmuşdur. Ficar haram aylardan birində baş verdiyi üçün belə adlanmışdır. (Onu da qeyd etmək lazımdır ki, İslamdan əvvəl ziqə'də, zihiccə, məhərrəm və rəcəb aylarında müharibə etmək haram olub, İslamın zühurundan sonra da bu qanun öz .(qüvvəsində qalmışdır

Hiyrədən Məkkəyə bir karvan gəlir, onlar özləri ilə müşk gətiribmişlər. Bəni Kinanə tayfasından olan bir kişi karvanın Həvazin qəbiləsindən olan qoruqçusunu yatmış görüb onu öldürmüş və bütün yükləri götürüb aparmışdı. Bu vaxt Qüreyş və Həvazin qəbiləsi Ukkaz bazarında toplanmışdı. Bu xəbər Qüreyş qəbiləsinə yetişdikdən sonra onlar şəhərə qayıtdılar. Həvazin qəbiləsi də onların ardınca düşdü, lakin qüreyşlilər Kə'bə evinə sığındılar. Bunun ardınca bu iki qəbilə arasında müharibə başlandı və bu müharibə bir neçə dəfə təkrar olundu. Həzrət Məhəmməd (s) bu müharibələrin birində iştirak etmişdi. Bə'zi tarixçilərin nəzərinə görə, bu müharibə Kinanə və Qeys qəbilələri .arasında baş vermişdir

## HİLFUL–FUZUL

(ƏLAHİDDƏ AND VƏ YA ƏHD-PEYMAN)

Peyğəmbərliyə yetişmədən əvvəl Həzrət Məhəmmədin (s) həyatında baş vermiş mühüm hadisələrdən biri də onun hilful-fuzul da iştirak etməsi olmuşdur. Hilful-fuzul

hekayəsi belədir: Məkkədə yaşayan qəbilələr arasında bir-birinə təcavüz etməmək barəsində müqavilə bağlanmışdı. Ancaq şəhərə qərib bir adam gəlsəydi, heç bir qəbilə və ya müqavilə yox idi ki, onu müdafiə etsin. Yazılanlara görə Bəni Əsəd

qəbiləsindən bir nəfər Məkkəyə ticarət etməyə gəlir. Bəni Səhm qəbiləsindən olan bir nəfər onun mallarını alaraq pulunu ödəmir. Həmin tacir Qüreyş qəbiləsinin yanına gedib köməklik istəyir. Qüreyşlilər ona cavab verirlər ki, bəs sən bizimlə əhd-peyman (müqavilə) bağlamadığından biz səni müdafiə edə bilmərik. Tacirin hər yerdən ümidi kəsildikdən sonra Əbu Qubeys dağına çıxaraq ona zülm edildiyi haqda şe'r oxumağa başlayır. Və Qüreyşdən yardım diləyir. Qüreyş qəbiləsi bu hadisədən peşiman olaraq Abdullah ibni Cəda'nın evinə toplaşaraq əhd-peyman bağlayırlar ki, bundan sonra hər hansı bir qəribə zülm olunmasının qarşısını alsınlar. Bu müqavilə əvvəldə bağlanmış əhd-peymanlar və and içmələrdən əlahiddə olduğu üçün ona hilful-fuzul adı .verilmişdir. Bu adın ona verilməsi barədə başqa rəvayətlər də nəql olunmuşdur

Həzrət Məhəmməd (s) peyğəmbərliyə yetişdikdən sonra buyurdu: "Cahiliyyət dövründə Abdullah ibni Cəda'nın evində bir müqavilə məclisində iştirak etdim. Əgər onun əvəzində mənə qızılı tüklü dəvələr versəydilər o qədər sevinməzdim. Əgər bizi ".yenidən belə bir məclisə də'vət etsələr. biz orada iştirak etməyə hazırıq

## XƏDİCƏ İLƏ EVLƏNMƏSİ

Həzrət Məhəmmməd (s) iyirmi beş yaşında ikən əmisi Əbu Talib ona belə dedi: "Qüreyş qəbiləsinin Şama gedən ticarət karvanı hazırdır. Xuvəylidin qızı Xədicə sənin qohumlarına pul verib ki, ticarət etsinlər və gəlirə də şərik olsunlar. Əgər istəsən səni də qəbul edər." Sonradan o Həzrət, Xədicə ilə bu barədə söhbət etdi və o da bu təklifi qəbul etdi. İbni İshaqın yazdığına görə Xədicə Həzrət Məhəmmədin (s) əmanətdar və şərəfli bir insan olduğunu bilərək ona xəbər göndərir ki, əgər bu ticarət səfərində .iştirak etməyə razılıq versən, sənə düşən payı artıqlaması ilə verəcəyəm

Bu ticarət səfərindən Xədicə çoxlu sayda gəlir əldə etdi, çünki şərəfli, əmanətdar, düz danışan və düzgünlükdə məşhur olan bir şəxsi bu ticarətə yollamışdı. Elə bu ticarət səfərindən sonra da Xədicə Həzrət Məhəmmədlə (s) ailə həyatı qurdu. Bu zaman Həzrət Məhəmmədin (s) iyirmi beş yaşı, deyilənlərə görə isə Xədicənin ۴۰ yaşı varmış. Ancaq onun dünyaya gətirdiyi övladlara nəzər saldıqda isə, təxminən demək olar ki, onun yaşı qırxdan aşağı olmuşdur. Ərəb tarixçiləri bəlkə də ۴۰ rəqəmini mükəmməl .rəqəm olduğundan seçiblər

## QARA DAŞ"IN YERİNƏ QOYULMASI"

Peyğəmbərliyə yetişməzdən əvvəl Həzrət Məhəmmədi (s) Məkkə əhalisinin gözündə uca edən mühüm hadisələrdən biri də qara daşın yerinə qoyulması hadisəsi olmuşdur. Bildiyiniz kimi, Kə'bə evi cahiliyyət dövründə də ərəblər tərəfindən möhtərəm sayılırdı. Bir dəfə sel Kə'bə evinin içərisinə axaraq divarlarını uçurmuşdu. Qüreyş qəbiləsi divarları yenidən tikdikdən sonra qara daşın yerinə qoyulması məsələsində qəbilələr arasında ixtilaf düşür. Hər qəbilənin rəisi bu şərafətli işi öz üzərinə götürmək istəyir. Nəhayətdə ixtilaf özünün ən yüksək zirvəsinə çatır. Belə ki, hər qəbilənin rəisi içi qanla dolu olan bir qab gətirərək onun içinə əllərini salırlar. Bu and içmənin mə'nası o deməkdir ki, onlar qalib müəyyən edilənə qədər vuruşmalıdırlar. Ən nəhayətdə razılıq əldə etdilər ki, hər kim Bəni Şəybə qapısından məscidə daxil olsa onu hakim tə'yin etsinlər və o, nə hökm etsə ona əməl etsinlər. Məscidə birincə daxil olan şəxs Həzrət Məhəmməd (s) oldu. Qüreyş qəbiləsinin ağsaqqalları dedilər ki, o əmanətdar (əmin) adamdır, hər nə desə qəbul edəcəyik. Sonradan əhvalatı ona söylədilər. Həzrət Məhəmməd (s) buyurdu: Yerə parça sərin. Onlar bu işi gördükdən sonra Həzrət qara daşı parçanın ortasına qoyub yenidən dedi: Hər qəbilənin rəisi parçanın bir ucundan yapışaraq qaldırsın. Bunu etdikdən sonra özü qara daşı yerinə yerləşdirdi. Bu hakimliyi .ilə o, böyük bir qan tökülməsinin qarşısını almış oldu

## PEYĞƏMBƏRLİK

Həzrət Məhəmməd (s) hələ peyğəmbərliyə yetişməzdən əvvəl Ərəbistan əhalisinin dağınıq və pis olan vəziyyətindən narahatlıq hissi keçirirdi. Xüsusilə onların bütpərəst olması başqa şeylərə nisbətdə onu daha çox narahat edirdi. Çünki qabaqda da qeyd etdik ki, xristian rahibi Bəhira onu Lat və Uzzaya and verərkən Həzrət Məhəmməd (s) ona deyir ki, onların adını çəkmə, çünki mənim xoşuma gəlməyən ən pis şeylər bu .bütlərdir. Bəhira onu sonradan Allaha and vermişdi

## İSLAMIN ZÜHURU

Həzrət Məhəmməd (s) peyğəmbərliyə yetişməzdən bir az əvvəl əhalidən uzaq gəzərək yeganə Allaha ibadət edərdi. İldə bir ay Həra dağına çəkilərək ibadətlə məşğul olardı. Bu müddət ərzində onun yanına gələn ac-yalavacları yedirdərdi. İbadət

müddəti başa çatdıqdan sonra Məkkəyə dönər, Kə’bə evini yeddi dəfə təvaf edib sonradan evə gedərdi. Həra dağına çəkildiyi illərdən birində peyğəmbərliyə çatır. Həzrət

Məhəmməd (s) belə deyir: Cəbrayıl mənim yanıma gəlib dedi: Oxu! Dedim oxumaq ?bilmirəm. Yenidən dedi: Oxu! Dedim nə oxuyum

:Dedi

Ya Peyğəmbər! Qur’ani-kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbin adı ilə) !(bismillah deyərək) oxu

.O Həzrət peyğəmbərliyə yetişən dövrdə ۴۰ yaşı varmış

Peyğəmbər (s) ilk dəfə ona nazil olan “Ələq” surəsinin əvvəl ayələrini aldıqdan sonra öz sığınacağını tərk edərək Məkkəyə gəldi. O gecə bənzəri olmayan bir hadisədən sonra təbiidir ki, Peyğəmbər hər işdən qabaq bir başa evə getmişdi. Bu zaman onun evində üç nəfər yaşayırdı; şərəfli həyat yoldaşı olan Xədicə, əmisi oğlu Əli ibni Əbi Talib və Zeyd ibni Haris. Təbiidir ki, kişilər arasında Əli (ə), qadınlar arasında isə Xədicə ilk əvvəl Peyğəmbərə iman gətirmişlər. Nəzərə çarpacaq dərəcədə aydındır ki, bu mövzuda hansısa mübahisə və rəvayətlərin tədqiqinə lüzum görünmür. Bunda əlavə Əliyə (ə) bir çox xütbələrində bu mövzuya açıq-aydın işarə edərək deyir: “Peyğəmbərə (s) ilk iman gətirən şəxs mən olmuşam.” Bunlardan sonra kimin ilk növbədə müsəlman olması barədə Peyğəmbərin (s) həyatı barədə yazan tarixçilər arasında ixtilaf mövcuddur. Və təbiidir ki, bu ixtilaf səhabə dövründən sonra, yə’ni tabein dövrünün ilk başlanğıcında meydana çıxmışdı. Hər bir ailə çalışırdı ki, öz müsəlmanlığını İslamın ilk çağları ilə əlaqələndirərək bu mə’nəvi məziyyətdən istifadə etsin. Bundan əlavə, başqa hədəflər də güdülürdü ki, tarixlə tanışılığı olanlara bu məsələ aydındır. Yazılana görə Həzrət Məhəmməd (s) peyğəmbərliyə yetişdikdən sonra, üç il müddətində onun haqqa də’vəti gizlin olmuşdur. Ancaq bə’ziləri Qur’an ayələrini sıra qayadası ilə nazil olmasına .əsaslanaraq ümumi də’vətin az müddətdə olduğunu qeyd etmişlər

İlk əvvəl Peyğəmbər (s) xalqı bütlərə ibadət etməkdən çəkindirib, yeganə Allaha ibadət etməyə də’vət edərdi. İlk başlanğıcda namazlar iki rəkət olub. Sonralar isə səfərdə olmayanlar üçün dörd rəkət, səfərdə olanlar üçün isə iki rəkət namaz qılmaq vacib olmuşdur. Müsəlmanlar Allaha ibadət etmək və namaz qılmaq üçün camaatın gözündən uzaq yerlərə – məsələn dağlara və ya camaatın çox az gəlib-getdiyi yerlərə .çəkilərdilər. Get-gedə müsəlmançılıq Məkkədə yayılmağa başladı

Peyğəmbərlik dövrünün üç ili başa çatdıqdan sonra Allah-təala ona əmr edir ki, xalqı .aşkar şəkildə yeganə Allaha tərəf də’vət etsin

Və ən yaxın adamlarını qorxut! (İlk növbədə ən yaxın qohumların olan Haşim və Müttəlib oğullarını yalnız Allaha ibadət etməyə çağır və əks təqdirdə müdhiş bir əzaba (!düçar olacaqlarını xatırlat

Sənə tabe olan mö’minləri qanadın altına al! (Onlarla mehriban davran, nəzakətlə rəftar et, köməklərinə çat!)

Əgər (yaxın qohumların) sənə qarşı çıxsalar, onlara belə de: “Şübhəsiz ki, mən sizin əməllərinizdən uzağam!”

İbni İshaqın yazdığına görə bu ayələr nazil olduqdan sonra Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Ey Əli, Allah mənə buyurub ki, öz yaxın qohumlarımı Ona ibadət etməyə də’vət edəm; bir qoyun kəs, bir qədər çörək və bir kasa süd hazırla. Əli (ə) bütün deyilənləri hazırladı. Həmin gün Əbdül-Müttəlib övladlarından qırx nəfəri məclisə toplaşdılar. Hamısı yeyib doyduqdan sonra sevimli Peyğəmbər (s) söhbətə başlamaq istədi. Əbu Ləhəb dedi: “O, sizi sehirləmişdir.” Bu minvalla məclis dağıldı. Peyğəmbər (s) səhəri gün onları yenidən toplayaraq dedi: “Ey Əbdül-Müttəlib övladları güman etmirəm ərəblərdən biri mənim sizə gətirdiyim şeydən gözəl bir şey öz qəbiləsi üçün gətirmiş olsun. Mən sizə həm dünyanı, həm də axirəti gətirmişəm.

İbni İshaqdan nəql edən Yunis ibni Bəkir (bilmirəm) bilərəkdən, ya bilməyərəkdən Peyğəmbərin sözlərini ancaq buracan nəql etmiş və ardını yazmamışdır. Bukai vasitəsi ilə ibni İshaqdan nəql edən ibni Hişam yalnız ayəni yazmaqla kifayətlənmiş və başqa bir şey artırmamışdır.

Məşhur tarixçi və mö’təbər kitab sahibi olan Təbəri belə yazır: Peyğəmbər (s) öz də’vətini yaxın qohumlarına çatdırdıqdan sonra belə dedi: “İndi kimdir mənə bu işdə yardımçı olan, belə ki, mənim qardaşım, vəsim və məndən sonra sizin aranızda xəlifəm olsun?” Hamı susdu və Əli (ə) dedi: “Ey Allahın elçisi, o şəxs mənəm.” Peyğəmbər (s) buyurdu: “Bu sizin aranızda mənim vəsim və xəlifəmdir, onu eşidin və əmrinə tabe olun.”

Bu rəvayəti başqa tarixçilər və yazarlar da həmin məzmunda nəql etmişlər və bu İslami mənbələrdə məşhur hədislərdən sayılır.

Həmçinin Təbəri ibni Abbasdan rəvayət edir ki, bir gün Peyğəmbər (s) Səfa dağına gedərək qüreyşliləri yanına çağıraraq belə demişdir: “Əgər mən sizə desəm ki, düşmən sizə basqın edəcək, mənim sözümə inanarsınızmı?” Dedilər: “Bəli.” Dedi: “Mən

sizi böyük bir əzabdan xəbərdar etmək istəyirəm.” Əbu Ləhəb dedi: “Elə buna görə bizi bura çağırıbsan.” “Təbbət” surəsi də Əbu Ləhəbi məzəmmət etmək üçün nazil .olmuşdur

İbni Hişam yazır: Peyğəmbər (s) qüreyşliləri Allaha ibadət etməyə də’vət etdikdə ona e’tiraz etmədilər. Onların bütlərinə tə’nə etdikdən sonra düşmənçilik meydana çıxdı.

Qur’ani-kərim bu düşmənçiliyə işarə edərək buyurur:

Ya Məhəmməd!) Kafir olanlar səni gördükləri zaman ancaq məsxərəyə qoyaraq (bir-) birinə); “Sizin tanrılarınızı tə’nə edən budurmu?” – deyərlər. Halbuki onlar, məhz Rəhman Allahın öyüd-nəsihətini (Qur’anı) inkar edirlər. (Ənbiya ۳۶).

Müsəlmanların sayı günbəgün artıqca Qüreyş başçılarının nigarançılığı daha da çoxalırdı. Onlar Əbu Talibin yanına gedərək, ondan qardaşı oğlunun başladığı bu də’vətin qarşısını almağı istədilər.

Bir gün ona dedilər ki, sən Həzrət Məhəmmədi (s) bizə təslim et, biz də onun əvəzində Əmmarə ibni Vəlidi sizə verək (onların nəzərində bu şəxs ağıllı bir cavan idi). Əbu Talib dedi: Oğlumu sizə verim ki, öldürəsiniz, əvəzində sizin övladınızı böyüdüm? Çox ağır təklifdir.

Diqqət yetirmək lazımdır görəsən camaat nəyə görə Peyğəmbərin (s) əleyhinə idilər? Demək olar ki, Əmr ibni Hişam (Əbu Cəhl), Əbu Süfyan ibni Hərb, Vəlid ibni Müğəyrə ərəblərin bütlərinə və onları düzəldən sənətkarlara ehtiram bəsləyirdilər. Peyğəmbərin (s) rəis olmasından da qorxuları yox idi, çünki onlar o Həzrətin rəhbərliyini qəbul etməyə razı idilər. Sevimli Peyğəmbərin təbliği ondan ibarət idi ki, bütlərə ibadət edib onları müqəddəs cilvələndirməkdən əl çəksinlər. Yeri, göyü, sizi və bütün aləmi yaradan yeganə Allaha tərəf üz döndərmələrini istəyirdi. Özü barəsində belə deyirdi: Mən Allah tərəfindən göndərilmişəm ki, sizi zülmətdən, nadanlıqdan düzgün və aydın dinə tərəf çıxaram. Nə böyüklük, nə də hakimiyyət iddiasında idi; əgər belə bir şey istəsəydi, onun istəyini dərhal yerinə yetirər və bütün əmrlərinə itaət edərdilər. Ancaq o deyirdi: “Əgər günəşi sağ əlimə, ayı isə sol ovcuma qoysanız belə, öz risalətimdən əl çəkən deyiləm. Mən sizdən bir kəlmənin deyilməsini istəyirəm – “Allah təkdir” və bu bütlər sizin əlinizin məhsuludur və heç bir bacarığa malik deyillər.” Burada mühüm bir sual meydana çıxır; Nəyə görə onlar Peyğəmbərin də’vətini qəbul etmirdilər? Mümkündür deyək, onlar ulu əcdadlarının dinindən əl çəkib yeni dini qəbul etməkdə çətinlik çəkirdilər.

Belə bir fərziyyəni qapalı mühitdə yaşayan və elə oradaca dünyadan köçən, xarici mühitlə heç bir əlaqəsi olmayan əhaliyə bəlkə də şamil

etmək olar, ancaq dünya görmüş, Ərəbistan yarımadasından xaric olan mühitlə əlaqəli !?olan adam barəsində necə

Hədəfi mal-dövlət toplamaq olan və bu yolda hər bir şeyə hazır olan şəxs üçün heç bir fərqi yoxdur ki, xalq günəşə ibadət etsin ya aya, yaxud Allaha və ya istər Kə'bə evinin .başına dolansınlar və ya Lat və Uzzaya ehtiram etsinlər

Deməli bu lovğalar bütlərin və bütxanaların dağılmasından qorxmurdular, çünki onların əslində heç bütə də etiqadları yox idi. Bütpərəstlik onların əlində nadan xalqa hakimiyyət etmək üçün bir alətə çevrilmişdi. Bəs nədən qorxurdular? Əgər Peyğəmbərin də'vəti yalnız "La ilahə illəllah" kəlməsini deməklə sona yetirdisə, bunlar nədən qorxurdular. Məkkənin fəthindən sonra onların sonrakı nəsilləri gördüyü işi niyə yerinə yetirmirdilər? Dildə deyirdilər ki, Allah təkdir, sən də Onun Peyğəmbərisən, ancaq gizlində yeni dindən öz mənfəətləri üçün istifadə edirdilər. Burada gərək çox tələsməyək. Düzdür, ilk günlərdə Peyğəmbər onlardan Allahın təkliyini təsdiq etmələrini istəyirdi, ancaq bunun ardınca digər ayələr nazil olurdu. Lovğaları qorxudan və gələcəkləri barəsində onları təşvişə salan o ayələr idi. Şübhəsiz ki, siz Qur'ani-kərimin ٢٩-٣٠-cu cüz'ündə yerləşmiş Məkkədə nazil olan o ayələri dəfələrlə oxumusunuz. İcazə verin yenidən o ayələrin bə'zisini nəzərinizə çatdırıb, onların əsl :mahiyyətinə diqqət yetirək

.(O kimsə mal yığıb onu dönə-dönə sayar (çoxaldar

.Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır

Xeyr! (heç də onun güman etdiyi kimi deyildir). O, mütləq (Cəhənnəmin alt !mərtəbələrindən biri olan) Hütəməyə atılacaqdır

?Bilirsənmi Hütəmə nədir

.O, Allahın yanar odudur

.Elə bir od ki, ürəkləri yandırıb, yaxar

.(Əl-Huməzə ٢-٧)

Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslər ki, özləri xalqdan bir şey aldıqları .zaman onu tam ölçüb alar

.Xalq üçün bir şey ölçdükdə və ya çəkdikdə isə onu əskildələr

?Məgər onlar (öləndən sonra) diriləcəklərini düşünmürlər

!?Özü də dəhşətli bir gündə

Ya Peyğəmbər!) Məni öz yaratdığım kimsə ilə tək burax! (Vəlid ibni Müğeyrə kimi) (!kafirin cəzasını yalnız Mənə tapşır

;Mən ona bollu mal-dövlət əta etdim

;(Yanında hazır duran oğullar (verdim

.Ona (hər şeyi) artıqlaması ilə müyəssər etdim

.(Sərvət və mənsəbi ayağının altına döşədim)

.Bütün bunlardan) sonra yenə də (var-dövlətini) artırmağımı istəyir)

.(Xeyr, (bu ola bilməz). Çünki o, ayələrimizə qarşı inadkar oldu. (Muddəssir, ١١-١۶

(:Allah dərgahından belə bir nida gələcəkdir)

!Onu tutub qandallayın“

!Sonra da Cəhənnəmə atın

!Daha sonra onu yetmiş arşın uzunluğunda zəncirlə bağlayın

.Çünki o, böyük olan Allaha inanmırdı

O (özü zəkat vermir, acizə, kimsəsizə kömək etmir, xalqda da) yoxsulu yedirtməyə .(rəğbət oyatmırdı. (Haqqə, ٣٠-٣۴

Lakin o, əqəbəni (sərt yoxuşu, maneəni) keçə bilmədi (özünə verilən bu qədər .(ne’mətlərə şükr etmədi

!?Ya Peyğəmbər!) Bilirsənmi, əqəbə nədir)

;O bir kölə azad etməkdir

.(Və ya (taqətsizlikdən) torpağa sərilmiş bir miskinə! (Əl-Bələd, ١١-١۶

!Elə isə yetimə zülm etmə

(Dilənçini də (qapından) qovma! (Əz-Zuha, ٩-١٠

.Ey insanlar!) Mən sizi alovlanan bir atəşlə qorxutdum)

.Ora ancaq azqın kafir daxil olar

!O kimsə ki, (haqqı) yalan sayar, (imandan) üz döndərər

.(Allahdan qorxub pis əməllərdən çəkinərsə, ondan uzaqlaşdırarlar (nicat tapar

.(O kimsə ki, malını (Allah yolunda) verib (günahlardan) təmizlənər. (Əl-Leyl, ۱۴-۱۸

Qüreyşin dövlətliləri və sələmlə pul verənləri bu hədələyici və ürək titrədən sözləri asanlıqla qəbul edə bilmirdilər. Sələmdən əldə olunan gəlirdən əl çəkmək, qul azad etmək, yetim malına toxunmamaq, əlsiz-ayaqsız (zəif) qohumları nəvaziş etmək, başqaları müqabilində lovğalıq etməmək, özündən aşağı təbəqə ilə bir yerdə əyləşmək və sair bu kimi dünyəvi məziyyətlərdən əl çəkmək onlar üçün çox ağır idi. Bu ayələri eşitdikdə onların ürəkləri parçalanırdı və o ayələri nə özləri, nə də başqalarının eşitməsini istəmirdilər. Ancaq zəif təbəqənin nümayəndələri ürəklənir, imanları isə möhkəmlənirdi. İndi isə ikinci dəstəyə nəzər salaq. Əgər müsəlmanların əsas özəyini yalnız qullar, fəhlələr və muzdurlar təşkil etsəydi, birinci dəstə üçün elə baha başa gəlməzdi. Onları işdən qovmaq və əzab verməklə susdurmaq olardı, lakin İslam

yalnız bu üç dəstə ilə məhdudlaşmırdı. Müsəlmançılıq təkəbbürlü ailələrə sirayət edərək günbəgün çoxalmaqda idi. Beləliklə, lovğalar dəstəsi iki qorxu ilə üzləşmişdilər; .var-dövlətin əldən çıxması, bir də yaxın qohum və qonşularla üzləşmə qorxusu

Məkkə əhalisinin ictimai tərkibini tədqiq etdikdə mə’lum olur ki, İslam Qüreyşin bir çox tayfasına nüfuz etmişdi. Həbəşəyə hicrət etmişlərin siyahısını oxuduqda – İbni Hişam onları “Sirə” də toplamışdır. Bəni Haşimdən başqa aşağıdakı sülalələrin də adına rast gəlirik: Bəni Əbd Şəms, bəni Nofəl, bəni Əsəd ibni Əbdül-Üzza, bəni Əbdüd-dar, bəni Qusəyy, bəni Zuhrə, Huzeyl, Bəhra, bəni Təyyim ibni Murrə, bəni Məxzum, bəni Cuməh, bəni Səhm ibni Əmr, bəni Ədiy ibni Kə’b, bəni Amir ibni Luvəyy və bəni Haris .ibni Fihr

Bunların çoxu öz həyat yoldaşları ilə birlikdə getmişdilər. Əgər bir nəfərlə müqavilə (əhd-peyman) bağlamış başqa bir şəxs müsəlman olardısa, qəbilə adət-ən’ənəsinə görə onu qoşunların təcavüzündən qorumalı idi. Bə’zən bir qəbilə bir neçə qəbilə ilə əhd-peyman bağlayırdı ki, belə olan halda bir nəfərlə düşmənçilik yüzlərlə adamla .düşmənçiliyə səbəb olurdu

Beləliklə, Qüreyş başçılarını təkcə var-dövlətin və ticarət meydanının əldən çıxması deyil, günbəgün çoxalan müsəlman şəxsiyyətləri daha çox narahat edirdi. İndi isə bu .dəstənin tərkibinə nəzər salaq

Peyğəmbərin (s) də’vətinin ilk çağlarında müsəlmanlığı qəbul edənlərin adları ən mö’təbər sənədlərdən – o cümlədən İbni İshaqın “Sirə”sində, (Yunis ibni Bəkir ondan rəvayət etmişdir).İbni Hişam (Abdullah ibni Tufeyl Bəkai ondan nəql edib) - nəzərə çarpır. Onlar ١٩-٢٨ yaş arasında olan kişi və qadınlardan ibarətdirlər. Allaha dolğun şəkildə imanı olan, qəbilə adət-ənənələrinə və Məkkədəki mövcud olan qurluşa e’tinasız olan şəxslər idi. İctimai nöqteyi-nəzərdən onlar aşağıdakı xüsusiyyətlərə :malik idilər

;Qəbilə qurluşu silsiləsində ikinci və ya üçüncü sırada duranlar.١

Kiçik ticarətlə məşğul olanlar; onlar pulun azlığından dövlətlilərlə rəqabət apara.٢ ;bilmirdilər

.Fəhlələr, muzdurlar, qullar və zalımların zülmündən təngə gəlmiş xalq.٣

Bunlar düşüncə qabiliyyəti başqalarından üstün olan, xalqın dini və ictimai pozğunluğundan narazı olan insanlar idilər. Doğru, düzgün

.müsəlman, sınanmış mö’minlər idilər ki, Qur’an bir çox yerdə onları tərifləmişdir

Qüreyşlilər qəbilə müqaviləsinə görə Peyğəmbərə aşkar şəkildə zərər yetirə bilmirdilər. Belə olan surətdə Bəni Haşimlə münaqişə meydana gələr və başqa tayfalar da bu münaqişəyə qoşularaq ixtilafı daha da kəskinləşdirə bilərdilər. Buna görə də onlar Peyğəmbərə qarşı müxalifətçilik edib nalayiq sözlər deməkdən və cüzi zərərlər yetirməkdən başqa heç bir iş görə bilmirdilər. Lakin yeni müsəlman olmuş pənahsızlara əllərindən gələni edirdilər. Yavaş-yavaş münaqişələr üzə çıxırdı. Qüreyşlilər yenidən Əbu Talibin yanına gedərək qardaşı oğlunu tutduğu yoldan çəkindirməsini istədilər. Əbu Talib onların dediklərini qardaşı oğluna çatdırdıqda Peyğəmbər (s) cavabında belə buyurdu: “And olsun Allaha, əgər günəşi sağ ovcuma, ayı isə sol ovcuma qoysalar belə, mən öz də’vətimdən əl çəkən deyiləm.” Əbu Talib isə ”.dedi: “Belə isə sən öz işini davam etdir, mən sənə zərər yetirməyə icazə verməyəcəm

Qüreyşlilər Peyğəmbərin (s) öz də’vətindən əl çəkməsini, Əbu Talibin də onu himayət etməsini gördükdən sonra, onun özünə və tabelərinə zərər yetirmək üçün fəaliyyət .dairələrini genişləndirməyə başladılar

## HƏMZƏNİN İSLAMI QƏBUL ETMƏSİ

Günlərin bir günündə Əbu Cəhl Səfa dağının yaxınlığında Peyğəmbər (s)-la üzləşərək ona nalayiq sözlər deyir, lakin Peyğəmbər (s) ona çavab qaytarmır. Abdullah ibni Cuda’nın kənizi bu hadisənin şahidi olur. Çox keçmədən Həmzə ovdan Məkkəyə qayıdır. Həmzə adəti üzrə ovdan qayıdanda Kə’bə evini təvaf edər, sonra isə qüreyşlilərin yığıncaqlarına gedib onlarla söhbət edərdi. Qüreyşlilər Həmzəni səxavətli olduğuna görə çox sevərdilər. Bu dəfə də adəti üzrə tanışları ilə söhbət etməklə məşğul olan zaman bir kəniz onun yanına gedərək dedi: “Kaş burada olaydın, görəydin ki, Əbu Cəhl qardaşın oğluna nələr dedi.” Həmzə Əbu Cəhlin ardınca gedib onu məsciddə camaatın arasında gördü. Kamanını onun başına elə vurdu ki, başı ağır yaralandı. Sonradan dedi: “Sən Həzrət Məhəmmədi (s) söyürsən, bilmirsən ki, mən onun dinini qəbul etmişəm. O deyən şeyi mən də təsdiq edirəm.” Bəni Məxzum Əbu Cəhli müdafiə etmək üçün ayağa qalxmaq istədikdə o, dedi: “Həmzəyə əl vurmayın! Çünki mən onun qardaşı oğluna yaramaz sözlər demişəm.” Bu hadisədən sonra

.Həmzə də müsəlmanların sırasına daxil oldu

Qüreyşlilər bundan belə Həzrət Məhəmmədi (s) zərərdən qoruya biləcək Həmzə kimi .müdafiəçisi olduğunu gördükdən sonra ona çox mane olmadılar

## MANEƏLƏRİN UĞURSUZLUĞU

Qüreyş başçıları yeni dinin qarşısını almaq üçün hiyləyə əl atırdılar. O cümlədən Peyğəmbəri incitmək, arxasınca yaramaz sözlər demək, ona tabe olanlara zərər yetirmək, "şairdir, dəlidir, sehrbazdır" sözləri ilə təhqir etmək. Lakin bu atılan addımların heç birinin faydası olmadı. Bəni Əbud-Mənaf tayfasından olan Nəzr ibni Hərs bir müddət Hiyrə də yaşayaraq orada İran şahlarının və pəhləvanlarının qəhrəmanlıq dastanlarını öyrənmişdi. O yeni bir üslubdan istifadə edirdi. Belə ki, Peyğəmbər (s) bir məclisdə əyləşib xalqa keçmiş ümmətlərin talelərini xatırladaraq onları nəsihət edər, Fir'on, Saleh və Səmud qövmünün hekayələrini onlara danışar, sonra isə durub gedərdi. Bunun ardınca Nəzr onun yerinə əyləşib deyərdi ki, ey qüreyşlilər and olsun Allaha mən sizə Həzrət Məhəmmədin (s) söylədiyi dastanlardan yaxşı dastanlar danışacam, gəlin mənim söylədiklərimə qulaq asın. Bə'zi təfsirçilər :yazırlar ki, Nəzr o kəsdir ki, Qur'an onun barəsində belə buyurub

Allaha iftira yaxan, özünə heç bir vəhy olunmadığı halda: "Mənə də vəhy olunmuşdur," mən də Allahın nazil etdiyi (Qur'an) kimi bir kitab endirəcəyəm", - deyən şəxsdən daha "?zalim kim ola bilər

Ancaq Qüreyş kafirlərinin və Nəzrin təsəvvürünün əksinə olaraq, xalqın ürəyini cəlb edən və müsəlmanlığa rəğbət yaradan keçmiş ümmətlərin hekayələri deyildi; sadəcə olaraq bu dastanlar müqəddimə xarakteri daşıyırdı, onun ardınca isə nəsihətlər, ürəkyananlıq və ən başlıcası isə gözəl və insani həyat və'dəsi verilirdi. Dastanlar qullar və zəif təbəqənin nümayəndələrinə müjdə verirdi ki, bu günün zülmkarları da keçmiş .dövrün zalimləri tək məhv olacaqlar və hakimiyyət onların əlinə keçəcək

İbni İshaq yazır ki, Qüreyş başçılarından olan Əbu Süfyan, Əbu Cəhl və başqaları gecələr gizlincə Həzrət Məhəmmədin (s) xalqı nəsihət etdiyi evə gedərək onun sözlərinə və Qur'an ayələrinə qulaq asardılar. Sübh çağı oradan qayıtdıqdan sonra bir-birlərinə deyərdilər ki, daha belə iş görməyək. Bizim rəftarımız səbəb olar ki, qəbilənin nadanları da Həzrət Məhəmmədin (s) sözlərinə uysunlar. Bununla belə onlar bir neçə

axşam ardıcıl olaraq o evə gedirdilər. Nəhayət nə edəcəkləri barədə əyləşib məşvərət etdilər. Bəni Məxzum tayfasından olan Əbu Cəhl dedi: “Biz Əbd Mənaf övladları ilə hakimiyyət uğrunda daim mübarizə apardıq və

bu mübarizədən bir addım belə geri çəkilmədik; sonda dedilər ki, göydən bizə vəhy ".gəlir. And olsun Allaha mən heç vaxt ona iman gətirməyəcəm

## HƏBƏŞƏYƏ HİCRƏT

Müsəlmanların sayının artması ilə bərabər Qüreyşin Həzrət Məhəmmədə (s) qarşı düşmənçiliyi də çoxalırdı. Lakin qeyd etdiyimiz kimi, Peyğəmbəri (s) Əbu Talib himayət etdiyinə görə və qəbilələr arasında bağlanmış əhd-peymana əsasən şəxsən Peyğəmbərə (s) zərər yetirə bilmirdilər. Ancaq onun ardıcıllarına, xüsusilə də köməksiz olanlara əllərindən gələni edirdilər. Yeni müsəlmanlara işgəncə verilməsi Peyğəmbəri (s) daha çox narahat edirdi. Nəhayət onlara əmr edir ki, Həbəşəyə getsinlər. Onlara belə dedi: "O ölkənin padşahından heç kəs zülmə mə'ruz qalmayıb, oraya gedin ki, Allah sizləri bu müsibətdən qurtarsın." Qüreyş başçıları müsəlmanların Həbəşəyə getməsindən xəbərdar olduqdan sonra Əmr ibni A's və Abdullah ibni Əbi Rəbiə'ni Həbəş padşahı Nəcaşinin yanına göndərdilər ki, onları geri qaytarsın. Nəcaşinin hüzurunda Qüreyşin nümayəndələri dedilər: "Bizim bir neçə düşüncəsiz nökərlərimiz öz atalarının dinindən üz döndərib sizin və bizim tanımadığımız bir əqidəni qəbul ediblər. Bizim əhalinin başçıları sizdən onların geri qaytarılmasını istəyirlər." Nəcaşi dedi: "Gərək onları da dinləyəm." Müsəlmanlardan sual edən zaman Cə'fər ibni Əbu Talib onların nümayəndəsi kimi dedi: "Biz bütpərəst idik, ölü heyvan yeyər, çirkin işlər görərdik. Allah, tanıdığımız sadiq olan bir şəxsi bizim içərimizdən peyğəmbər göndərdi. O bizi tək allahlığa, düzgün danışmağa, əmanətdar olmağa, qohumların hüququnu qorumağa, yaramaz işlərdən çəkinib namaz qılmağa, zəkat verməyə də'vət etdi. Biz də ona iman gətirdik. Ancaq bizim bu yaxın adamlarımız bizi incidir və yenidən bütpərəstliyə də'vət edirlər. Biz qəbul etmədik və işgəncələrə dözməyərək sizin yanınıza gəldik." Qüreyş nümayəndələri onlardan İsa (ə) barəsində nə deyəcəklərini soruşmasını istədilər. Cə'fər "Məryəm" surəsinin ayələrini oxudu. Nəcaşi əsasını əlinə götürərək dedi: "Bunların dedikləri ilə İsanın (ə) dedikləri arasında əlimdəki əsa qədər fasilə vardır. Gedin! Mən bunları sizə verən deyiləm." Müsəlmanlar elə oradaca qaldılar. Bir müddətdən sonra onların bir neçəsi Məkkəyə döndü, lakin onların böyük .əksəriyyəti Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra oraya getdi

Ömər ibni Xəttab hicrətdən beş il əvvəl müsəlman olmuş şəxslərdəndir. Səid ibni Zeydin arvadı olan Fatimə Ömərin bacısı idi. Onların hər ikisi müsəlman olmuşdular, ancaq bu işi gizli saxlayırdılar. Yazırlar ki, bir gün Ömər qılıncını götürüb Həzrət Məhəmmədi (s) öldürmək üçün yola düşür. Yolda Nuəym ibni Abdullah adlı birisi ilə rastlaşır və onun əməlindən xəbərdar olduğu üçün deyir: "Əgər Həzrət Məhəmmədi (s) öldürsən Əbd Mənaf övladları səndən əl çəkməyəcəklər, yaxşısı budur evə dön və gör sənin yaxın adamların nə işlə məşğuldurlar." Ömər soruşdu: "Nə demək istəyirsən." Nuəym cavab verdi ki, bacın və onun əri Məhəmmədin (s) dinini qəbul ediblər. Ömər qəzəbli halda bacısının evinə yollandı. Bu zaman Xəttab ibni Ərətt Səidin evində ona və arvadına "Taha" surəsini öyrədirdi. Ömər evə daxil olduqda Xəttab gizləndi, Fatimə isə ayələri paltarının altında gizlətdi. Ömər soruşdu: Bu nə səs idi? Fatimə cavab verdi ki, heç nə eşidə bilməzsən. Ömər dedi: Niyə eşitdim, siz Məhəmmədin (s) dinini qəbul etmisiniz. Sonra isə öz kürəkənini söydü. Fatimə öz ərini müdafiə etməyə qalxdıqda, Ömər zərbə endirərək bacısının başını yaraladı. Fatimə dedi: "İndi ki, belə oldu bil və agah ol ki, biz müsəlman olmuşuq, nə istəyirsən onu da et!" Ömər gördüyü işdən peşman olub bacısına dedi: "Oxuduğunuz şeyi mənə verin!" Fatimə dedi: "Qorxuram onu cırasan." Ömər onu cırmayacağına and içdi. Fatimə Ömərin müsəlman olmasına heyran olaraq belə dedi: "Qardaş sən pak deyilsən və pak olmayan bir şəxsin bu yazıya (Qur'ana) əl vurması mümkün deyil." Ömər qalxaraq yuyundu və Fatimə Qur'anı ona verdi. Bir az oxuduqdan sonra dedi: "Nə gözəl və mə'nalı sözlərdir." Xəttab bu sözləri eşitdikdən sonra gizləndiyi yerdən çıxaraq dedi: "Ömər! Görürəm Peyğəmbərin sənin barəndə etdiyi duası qəbul olub, çünki Peyğəmbər (s) demişdi: "İlahi İslamı qəbul etməkdə Ömərə yardımçı ol." Ömər dedi: "Elə isə məni Məhəmmədin (s) yanına apar." Oradan Xəttabla birlikdə Həzrət Məhəmmədin (s) .yanına gedərək müsəlman oldu və özünün müsəlman olmasını qüreyşlilərə e'lan etdi

Ömərin müsəlman olmasını başqa şəkildə də yazırlar. Belə ki, deyilənlərə görə o, təvaf edən zaman sevimli Peyğəmbəri namaz qılan halda görür. Sonra gözəl səslə Qur'an oxumasını eşidərək ona məftun olur və elə bu zaman Peyğəmbərin (s) arxasınca .gedərək müsəlman olur

## BƏNİ HAŞİMİN MÜHASİRƏYƏ ALINMA PLANI

(İQTİSADİ MÜHASİRƏ)

Qüreyş başçıları Məkkədə müsəlmanların günbəgün artmasını, həmçinin Nəcaşinin Həbəşə mühacirlərini təslim etməməsini gördükdən sonra qərara gəlirlər ki, Həzrət Məhəmməd (s)-ı, bütövlükdə bəni Haşimi iqtisadi çətinliyə salsınlar. Buna görə də əhd-peyman bağlayırlar ki, bundan sonra heç kəs Haşim və Müttəlib övladlarına nə qız versin, nə də onlardan qız alsın. Nə onlara bir şey satsın, nə də onlardan bir şey alsınlar. Sonra bu əhdnaməni Kə'bə evinin qapısına asdılar. Bu hadisədən sonra bəni Haşim və bəni Əbdül-Müttəlib çarəsizlikdən Əbu Yusif dərəsində (sonralar Əbu Talib dərəsi kimi məhşurlaşdı) iqtisadi mühasirəyə düşdülər.

Bəni Haşimin mühasirəsi üç il iki ay çəkdi. Çox ağır keçən bu müddət ərzində onların bir neçə yaxın adamları gecələr buğda və ya digər yeməli şeylər onlar üçün aparırdılar. Bəni Haşimlə kəskin düşmən olan Əbu Cəhl bu hadisədən xəbər tutaraq bir gecə Xədicəyə buğda aparan Həkim ibni Hizama mane oldu. Başqa adamlar bu işə qarışaraq Əbu Cəhli danladılar. Yavaş-yavaş bir dəstə adam gördükləri işdən peşiman olaraq bəni Haşimi müdafiə etməyə qalxdılar. Necə ola bilər ki, bəni Məxzum rifahlı həyat sürdüyü halda bəni Haşim və bəni Əbdül-Müttəlib çətinlikdə qalsınlar. Nəhayət dedilər ki, gərək bu müqavilə ləğv olunsun. Bu müqavilədə iştirak edənlərin bir dəstəsi qərara gəldilər ki, onu cırsınlar. İbni İshaqdan rəvayət edən ibni Hişamın söylədiyinə görə onlar gedib əhdnaməni cırmaq istədikdə gördülər ki, bu müqavilənin "Ey mənim Allahım, Sənin adınla başlayıram" kəlməsindən başqa qalan yerlərini qurd yeyib.

İbni Hişam yazır ki, bə'zi alimlərin dediyinə görə Əbu Talib qüreyşlilərin toplantısına gedərək dedi: "Qardaşım oğlu deyir ki, siz yazdığınız əhdnamənin, Allah adından başqa qalan yerlərini qurd yeyib: Baxın görün, əgər o, dediyi düz çıxsa bizi bu mühasirədən azad edin, yox əgər düz çıxmasa mən onu sizə təslim edəcəm." Gedib baxıb görürlər ki, qurd, Allahın adından başqa bütövlükdə müqaviləni yeyib. Beləliklə, bəni Haşimin mühasirəyə alınma müqaviləsi ləğv oldu və onlar Əbu Talib dərəsindən çıxdılar.

## HƏZRƏT ƏBU TALİB VƏ XƏDİCƏNİN VƏFATI

Xədicə ilə Əbu Talibin vəfatı (hicrətdən üç il əvvəl) bir ildə baş verdi. Peyğəmbər (s) hər ikisinin ölümündən çox mütəəssir oldu. Əbu Talib

onun arxası idi və onun sayəsində Qüreyş başçıları Həzrətə zərər yetirə bilmirdilər. Onun vəfatından sonra Peyğəmbərə (s) qarşı təzyiqlər şiddətləndi və hətta iş o yerə çatdı ki, Həzrət yolla gedəndə başına toz-torpaq belə tökürdülər. Lakin Xədicə onu .sakitləşdirər, rəqibləri təhqir edib söydüyü zaman ona ürək-dirək verərdi

Əbu Talibin vəfatı ilə hakimiyyət bəni Haşimdən Əbu Ləhəbin əlinə düşdü. Əbu Ləhəb Peyğəmbərin (s) kəskin düşmənlərindən idi, artıq onu Qüreyşin işgəncəsindən qoruya biləcək bir adamı yox idi. Çarəsizlikdən bu günlərdə Taifə səfər etdi ki, o şəhərdə yaşayan Səqifə qəbiləsini İslama də'vət etsin. Orada şəhərin böyüklərindən olan üç nəfəri (Əmr ibni Uməyrin oğulları) dinə də'vət etdi. Ancaq onlar onu soyuqqanlıqla qarşıladılar. Biri dedi: "Mən Kə'bə evinin örtüyünü cıraram ki, sən peyğəmbər deyilsən!" O birisi dedi: "Allah səndən başqa bir adam tapmadımı peyğəmbər göndərsin?" Üçüncüsü isə dedi: "Mən sənə cavab verməyəcəyəm, çünki əgər həqiqətən peyğəmbər olsan, sənin dediklərinin əleyhinə çıxa bilmərəm, yox əgər yalan demiş olsan, səninlə söhbət etməyə dəyməz." Sonra əxlaqsız və nadan əhalini ona qarşı .qaldıraraq o həzrəti oradan çıxardılar

Həzrət Məhəmməd (s) bir üzüm bağına sığındı. Orada Allaha dua edərək özünün zəif və çarəsiz olduğundan şikayətləndi: "İlahi öz acizliyimdən sənə şikayət edirəm. Xalq məni xar etmişdir, çarə tapa bilmirəm. Ey hər kəsə mərhəmətli olan! Məni kimə tapşırırsan? Mənə əhəmiyyət verməyən yadlaramı? Məni düşmənlərəmi tapşırırsan? Belə halda mənə qəzəblənməsən qorxum olmaz! Sənin mənə təqdim etdiyin azadlıq necə də əhatəlidir! Səni qaranlıqları işıqlandıran, bu dünyanı və o biri dünyanı nizamlayan zatının nuruna and verirəm ki, mənə qəzəblənib məndən narazı qalma! Səndən üzr istəyirəm ki, məndən razı qalasan." Rəbiənin oğlanları Utbə və Şeybə bu sözləri eşitdikdə ona ürəkləri yandı və bir qab üzümü xristian qula verərək onun yanına göndərdilər. Peyğəmbər (s) üzümü yeyərkən "Bismillah" dedi. Qul təəccüblə ona nəzər salaraq dedi: "And olsun Allaha, bu şəhərin əhalisi belə sözlər danışmaz." Peyğəmbər (s) ondan soruşdu: "Sən hansı dindənsən?" Dedi: "Məsihiyəm, özü də Neynəva əhalisindənəm." Həzrət Məhəmməd (s) buyurdu: "Təqvalı bir şəxs olan Yunis ibni Mətanın şəhərindənmi?" Dedi: "Sən Yunisi haradan tanıyırsan?" Dedi: "O Peyğəmbər idi, mən də Allah peyğəmbəriyəm." Bu söhbətlərdən sonra Əddas adlanan

.o qul müsəlman oldu və Peyğəmbər (s) Taifədən Məkkəyə döndü

səh:۴۶

Qüreyş, xalqın İslamı qəbul etməsinin qarşısını ciddi şəkildə aldığı və Məkkə əhalisi müsəlmanlara işgəncə verdikləri bir halda Məkkənin beş yüz kilometrliyində yerləşən Yəsrib şəhərində başqa hadisələr baş verməkdə idi. Orada müsəlmanların gələcəyini aydınlaşdıran və "də'vətin" Məkkədən köçərək o şəhərdə mərkəzləşməsinə səbəb .olacaq hadislər baş verirdi

Yəsrib böyük və abad bir kənd idi. Əkinə yararlı olduğu üçün qədim zamandan cənubdan bir dəstə əhali oraya gedib məskunlaşmışdılar. Bu, Peyğəmbərin (s) hicrətindən sonra, "Mədinətun-nəbi" (yə'ni peyğəmbər şəhəri), sonralar isə sadəcə olaraq Mədinə adlanan şəhərdir. Yəsrib Məkkədən fərqli olaraq özünəməxsus ictimai duruma malik idi. Məkkədə mövcud olan təbəqələrin müxtəlifliyi bu şəhərdə gözə çarpmırdı, çünki bu şəhərin təcrübəli tacirləri yox idi, onlar əkinçiliklə məşğul olurdular. Alverlə məşğul olanlar və sənətkarlar da əhalinin az bir hissəsini təşkil etdiyindən, belə .bir mühitin yaranmasına lüzum yox idi

Yəhudilər əkinçilik sahəsində təcrübə əldə etdiklərinə görə, Xeybər kəndinin əkinə yararlı olan torpaqlarını və şəhərin ətrafındakı əkin sahələrini ələ keçirmişdilər. Tarixçilərin yazdığına görə onlarla şəhərin bütpərəst ərəbləri arasında ara-sıra münaqişələr baş verirdi. Yəhudilər onlara deyirdilər ki, tezliklə İsrail nəslidən bir peyğəmbər gəlib bizə başçılıq edəcək və o zaman biz sizə hakim olacağıq. Beləliklə, Yəsrib əhalisinin təfəkküründə peyğəmbərin zühuru üçün zəmin yaranmışdı. Digər tərəfdən isə şəhərdə məskunlaşmış pərakəndə qəbilələr arasında toqquşmalar da .baş verirdi

Hicrətə yaxın illərdə Ous və Xəzrəc qəbilələri arasında böyük bir müharibə baş verdi. O müharibə "Yövmi Buas" adı ilə məşhurdur. Bu müharibədə hər iki qəbilə kəskin mübarizələrdən təngə gəlmişdi və artıq onlar barışıq istəyirdilər. Lakin qəbilə adət-ən'ənələrinə görə münaqişəyə son qoyub barışıq əldə etmək üçün ölənlərin sahiblərinə qan pulu ödənilməli idi. Bu ödənişin miqdarını isə hamının razılığı ilə seçilmiş hakim tə'yin etməli idi. Bundan əlavə o şəxs heç bir dəstəyə qoşulmayan və münaqişələrdə iştirak etməyən bir adam olmalıydı. Yəsribdə belə bir şəxsi tapmaq

mümkün deyildi. Birincisi, qəbilələrin başçılarının bir çoxu müharibəyə qarışmış, ikincisi isə heç bir qəbilənin başçısı özünü başqasından aşağı səviyyədə görmək istəmirdi.

Deyilənlərə görə, Yəsrib əhalisi qəbilələr arasında baş vermiş müharibələrdə bitərəf mövqe tutmuş, nisbətən qüdrətli olan Abdullah ibni Ubəyy Əbi Səlulu şəhərə hakim seçmək istəyirdilər. Hətta deyilənlərə görə, onun üçün bir tac da hazırlamışdılar. Lakin .bu dövrdə Məkkədə başqa hadisə baş verdi

Peyğəmbər (s) adəti üzrə həcc mövsümündə ziyarətə gəlmiş qəbilələrin yanına gedər, onları İslama də’vət edərdi. Bir dəfə Xəzrəc qəbiləsindən altı nəfər onu gördükdə Həzrət Məhəmməd (s) özünün peyğəmbər olmasını onlara çatdırdı. Onlar Peyğəmbərin (s) söylədiklərini dinlədilər, onun də’vətini təqva, saflıq və barışıq müjdəsi verdiyindən səmimi qarşılayaraq dedilər: "Biz öz xalqımızın yanına dönüb sənin gətirdiyin din barəsində onları xəbərdar edəcəyik, bəlkə də sənin gəlişinlə müharibənin kökü bizim şəhərdən kəsilə. Sən əgər bizləri birləşdirə bilsən, bizim ".nəzərimizdə ən alicənab şəxsə çevriləcəksən

Bu altı nəfər Yəsribə dönərək Həzrət Məhəmmədin (s) də’vətini xalqa yetirdilər. Şəhər əhalisinin böyük əksəriyyəti bu xəbəri eşitcək sevindilər. Bir tərəfdən peyğəmbər zühur edəcəyi xəbəri ilə tanış olanlar istəyirdilər ki, Həzrət Məhəmmədi (s) öz şəhərlərinə də’vət etməklə böyük şərəfə nail olub, yəhudiləri də qabaqlayalar. Digər tərəfdən isə qəbilə tərəfindən deyil Allah tərəfindən seçilmiş bir kəsin hakimiyyətini qəbul edərdilər. Bundan əlavə o, bu şəhərin sakini olmamış və heç bir müharibə və .toqquşmalarda iştirak etməmişdi

Bir il sonra isə həcc mövsümündə Mədinə əhalisindən on iki nəfər Əqəbədə O həzrətlə bey’ət etdilər. Onların bey’əti aşağıdakılardan ibarətdir: Allaha şərik qoşmamaq, oğurluq etməmək, zina etməmək (qeyri-qanuni cinsi əlaqədə olmamaq), övladlarını öldürməmək, heç bir kəsə töhmət vurmamaq, Həzrət Məhəmmədin (s) onlara tövsiyə etdiyi xeyir işləri yerinə yetirmək. Peyğəmbər (s) Musa ibni Uməyri onlarla Yəsribə yola saldı ki, əhaliyə Qur’an öyrədib əhalinin İslam dininə olan rəğbəti barədə mə’lumat .əldə etsin

Bir il sonra isə (peyğəmbərliyin ١٣-cü ili) həcc mövsümü sona çatdıqdan sonra yetmiş üç kişi və iki qadın yenidən Əqəbədə toplaşdılar. Peyğəmbər əmisi Abbas ibni Əbdül-Müttəliblə birlikdə onların yanına getdi. Yazırlar ki, ilk olaraq Abbas çıxış edib dedi: "Ey

Xəzrəc əhalisi! Həzrət Məhəmməd (s) bizdəndir, qüdrətimiz çatana qədər onu əhalinin əzab-əziyyətindən qoruduq, indi o sizin yanınıza gəlmək istəyir. Əgər onu himayə edib müxaliflərin işgəncəsindən qorumaq gücünə malik olsanız çox gözəl, belə olmayan surətdə isə indidən ondan əl çəkin.” Onlar Abbasın cavabında belə dedilər: “Səni dinlədik; Ey Allahın elçisi

indi Allah və sənin nəzərində bəyənilmiş işləri bizə de!" Peyğəmbər bir neçə Qur'an ayəsi oxuduqdan sonra dedi: "Sizinlə bey'ət edirəm ki, məni öz yaxın adamınız kimi himayə edəsiniz. Mədinə əhalisinin nümayəndələri onunla bey'ət etdilər ki, sənin düşməninlə düşmən, dostunla dost olacaq, səninlə müharibə edənə qarşı vuruşacağıq. Elə bu səbəbə görə də bu, "Bey'ətul-hərb" (savaş bey'əti) adlanmışdır. Bu bey'ətdən sonra Peyğəmbər (s) müsəlmanlara Yəsribə getmək üçün icazə verdi. Onlar Yəsribə getdikdə isə şəhər əhalisi onları çox gözəl qarşıladılar. İslam tarixində Məkkədən Mədinəyə hicrət edənlər mühacir, onları Mədinədə qarşılayanlar isə ənsar (yardımçı, .kömkəçi) adlandırılmışlar

## DARUN–NƏDVƏ FİTNƏSİ

(SUİ-QƏSDİ)

Qüreyş başçıları İslam dininin yayılması üçün yeni bir məkanın mövcud olmasından və ən əsası Mədinə əhalisinin Peyğəmbərlə (s) əhd-peyman bağladıqlarını eşitdikdən sonra daha çox qorxuya düşdülər. Çünki Peyğəmbərə (s) və onun ardıcıllarına verdikləri işgəncələrdən sonra onlardan intiqam alacaqlarından qorxurdular. Onlara qarşı müharibə etməsələr belə, böyük təhlükə hesab olunurdular. Çünki Yəsrib Məkkəyə yaxın olan ən böyük şəhərlərdən idi. Qüreyş tacirləri mallarını satmaq üçün oraya gedərdi və hər kəsin orada öz müştərisi var idi. Əgər bu şəhər əldən çıxsaydı onlara böyük iqtisadi zərbə dəymiş olardı. Belə bir məğlubiyyətdən yaxa qurtarmaq üçün onlar məcbur idilər ki, qəbilə arasında bağlanmış əhd-peymanı nəzərə almayaraq, Həzrət Məhəmmədi (s) öldürsünlər. Ancaq onu öldürmək çox da asan deyildi, çünki bəni Haşim dinc qalmayıb onun intiqamını alacaqdılar. Çarə tapmaq üçün Darun-nədvədə toplantı təşkil etdilər. Sonra qərara aldılar ki, hər qəbilədən bir cavan adam birlikdə Həzrət Məhəmmədə (s) hücum edərək onu öldürsünlər. Belə olan halda onu öldürən bir nəfər olmayacaq və bəni Haşim intiqam almaq üçün ayağa qalxa bilməz, çünki onlar bütün tayfalarla vuruşmaq qüdrətinə malik olmazlar. Məcbur olub .qan pulunu almağa razılaşacaqlar

Qüreyş sui-qəsdi həyata keçirmək istədikləri gecə Peyğəmbər (s) Allahın əmri ilə Məkkəni tərk etdi. Əlini (ə) öz yerində saxlayaraq Əbu Bəkrlə birlikdə Yəsribə tərəf

yola düşdü. Üç gün Məkkə yaxınlığında yerləşən Saur adlı mağarada qaldılar. Ardınca gələnlər onu tapmaq ümidini itirdikdən sonra o Həzrət dolayı yollarla Yəsribə tərəf üz .tutdu

Peyğəmbərin (s) rəbiul-əvvəl ayının hansı günündə Məkkədən çıxaraq neçə gündən sonra Mədinəyə çatması haqda tarixçilər arasında fikir ayrılığı vardır. İbni Hişam onun getdiyi yol haqda yazır: Rəbiul-əvvəl ayının ١٢-də bazar ertəsi günü, o Həzrət günorta vaxtı Qubaya çatır. İbni Kəlbi isə onun rəbiul-əvvəl ayının biri Məkkədən hərəkət edib həmin ayın ١٢-də cümə günü Qubaya çatdığını qeyd edir. Ancaq bə’ziləri rəbiul-əvvəl ayının ٨-də oraya yetişdiyini qeyd etmişlər. Son dövrün İslam və avropa tarixçiləri yazırlar ki, onun bu səfəri ٩ gün çəkmiş, peyğəmbərliyin ١۴-cü ili rəbiul-əvvəl ayının ١٢-i (۶٢٢-ci il ۴ Sentyabr) Mədinə yaxınlığındakı əraziyə - Qubaya çatmışdır. Sonradan Ömərin xilafəti dövrünə aid olan mövzuda qeyd edəcəyik ki, Peyğəmbərin (s) Məkkədən Mədinəyə hicrəti müsəlmanların tarixinin ilk başlanğıcı tə’yin edilmişdir. Ancaq ilin əvvəlini, qəməri tarixinin ilk ayı olan Məhərrəm ayı ilə başlamışlar. Peyğəmbər (s) Qubada olduğu vaxt ərzində bir məscid tikmişdir ki, bu günümüzə qədər Quba məscidi olaraq məşhurdur. Görəsən bu həmin məsciddirmi ki, Qur’an :onun barəsində belə deyir

İlk gündən binası təqva (Allahdan qorxub pis əməllərdən çəkinmək) üzərində qurulmuş məscid namaz qılınmağa daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları (özlərini cismən təmizləyənləri, mə’nəvi qüsurlardan, (çirkinliklərdən qorunmağa çalışanları) sevər! (Tövbə ١٠٨

Şeyx Tusinin dediyinə görə bu barədə iki nəzəriyyə vardır. İbni Abbas, Həsən və Ətiyyənin dediyinə görə bu ayə Quba məscidi barəsindədir. İbni Ömər və ibni Musəyyibin fikrincə o Mədinə məscididir. Ömər ibni Şəbəhin fikrincə binası təqva üzərində qurulan Peyğəmbərin (s) məscididir, təqva və razılıq binası üzərində qurulan .isə Quba məscididir

Təbəri öz təfsirində hər iki nəzəriyyəni nəql etmişdir. O, Səhl və Sə’ddən hədis nəql edərək yazır ki, Peyğəmbər (s) dövründə iki nəfər bu məsələ barəsində mübahisə edərək onun yanına gedirlər. O Həzrət isə buyurur: Bu mənim məscidimdir (yə’ni Peyğəmbər (s) məscidi). Deyilənlərə görə ayə Mədinə məscidinə aiddir, çünki Peyğəmbərin (s) o qədər vaxtı yox idi ki, Qubada olduğu müddətdə məscid tiksin.

Sonrakı illərdə tayfalar arasında baş qaldırmış rəqabətə əsasən bu ərazidə yaşayan bəni Əmr ibni Ouf tayfası öz məscidlərini İslam dünyasının ilk məscidi kimi qələmə .vermişlər

Əli (ə) Peyğəmbərin (s) hicrətindən sonra yalnız üç gün Məkkədə qaldı. Xalqın Peyğəmbərə (s) tapşırdıqları əmanətləri öz sahiblərinə qaytararaq sonradan Peyğəmbərin yaxın ailə üzvləri ilə birlikdə (Fatimə də (s) onlarla birlikdə idi) Mədinəyə .yollandı. Qubada Kulsum ibni Hədəmin evində Peyğəmbərə (s) qoşuldu

Peyğəmbər (s) cümə günü bəni Nəccardan olan bir dəstə adamla Mədinəyə yollandı. İlk cümə namazını isə bəni Salim ibni Oufla birlikdə qıldı. Şəhərə daxil olduqda hər qəbilə və hər ailə başçıları Peyğəmbəri (s) öz evlərinə aparmaq şərəfinə nail olmaq istəyirdilər. Həzrət Məhəmməd (s) buyurdu: Mənim dəvəm harada yerə əyləşsə orada yaşayacağam. Deyilənlərə görə onu evlərinə də’vət edənlərə cavab verdi ki, mənim dəvəm özü bilir harada əyləşmək lazımdır. Bu hadisə Məkkədə qara daşın yerinə qoyulmasında edilən hakimliyə bənzəyirdi. Orada böyük qan tökülməsinin qarşısını aldı, burada isə birinin onu qonaq qəbul edib üstün olmasının, başqalarının isə bu şərəfdən məhrum olub təəssüflənərək başıaşığı olmasının qarşısını aldı. Dəvə bəni Malik ibni Nəccar əhalisinin evləri qarşısında yerə əyləşdi. (Sonralar elə orada bu günkü məscid olan Peyğəmbər məscidini tikdilər). O ərazi iki yetim uşağa məxsus idi ki, orada xurma qurudardılar. Peyğəmbər (s) o ərazini o iki uşağa qəyyumluq edən Məa’z ibni Ə’rafdan satın aldı. Elə oradaca bir məscid tikdi. Əbu Əyyub Ənsari Peyğəmbərin (s) ləvazimatlarını evinə apardı. Peyğəmbərə (s) otaq tikənə qədər Əbu Əyyubun yanında qaldı. Həzrət Məhəmməd (s) məscidin tikilişində müsəlmanlarla birlikdə işləyirdi. Məscidin bir tərəfində eyvan da tikdilər ki, onun ehtiyac içində olan dostları orada yaşasınlar. Burada yaşayanlar İslamda “eyvan səhabələri” ləqəbi ilə .məhşurlaşdılar. Onlar Peyğəmbərin seçilmiş səhabələri idilər

## İSLAM ALƏMİNDƏ İLK SAZİŞ

Peyğəmbər (s) Yəsrib şəhərində bir müddət qaldıqdan sonra əhalinin ictimai vəziyyətini sahmana salmağı lazım gördü. Əvvəldə qeyd etdiyimiz kimi, bu şəhərdə bir çox ərəblər yaşayırdı ki, onlar da öz növbəsində ayrı-ayrılıqda qüdrətli olan Ous və Xəzrəc qəbilələrinə bağlı idilər. Ərəblərdən əlavə şəhərin özündə və ətrafında yaşayan yəhudilər də var idi ki, onlar bu iki qəbiləyə bağlı idilər. Mövcud durum hər qəbilə və dəstələrin hüququnu müəyyənləşdirən (əhd-peyman, saziş) başqa sözlə desək, qanun tərtib edilməsini tələb edirdi. Bu nəzəriyyəyə əsasən məşhur Mədinə müqaviləsi - onu

”sonralar “ilk konstitusiya

səh:۵۱

adlandırmışlar – Peyğəmbərlə (s) yəhudilərin və qəbilələrin başçıları arasında .imzalandı

Bu saziş Peyğəmbərin (s) Mədinəyə daxil olduğu ilk aylarda imzalanmışdır. Çünki birincisi ibni Hişam və ibni İshaq bu sazişin mətnini Peyğəmbərin Mədinədə söylədiyi ilk xütbənin ardınca rəvayət etmişlər. Digər tərəfdən isə bu sazişdə yəhudilərin ictimai hüququna da yer verilmişdir. Qiblənin də (Beytül-müqəddəslə Məkkənin əvəz edilməsi) dəyişdirilməsi Peyğəmbərin (s) Mədinəyə gəlişindən ١٧ ay sonraya təsadüf edir. Bu məsələ yəhudilərin Peyğəmbər və müsəlmanlara qarşı düşmənçiliklərini üzə çıxarandan sonra meydana çıxmışdır. Həmçinin bəni Qəynuqa savaşı Bədr müharibəsindən sonra baş vermişdir. Onda bə'zi İslam alimlərinin bu sazişin (əgər məqsəd həmin sazişdirsə) hicrətin beşinci ilindən tez olmayaraq imzalanması .fərziyyəsini irəli sürmələri düzgün deyildir

:İndi isə sazişin tərcüməsi

Bu, Məhəmməd peyğəmbərlə (s) onun yolunu davam etdirib onunla birgə cihad edəcək hər bir Qüreyş və Yəsrib mö'minləri və müsəlmanları arasında imzalanan bir sazişdir. Bunlar digər xalqlardan fərqlənən bir ümmətdirlər. Qüreyş mühacirləri adət-ən'ənəyə əsasən verilən qan bahasını öz aralarında bölərək öz əsirlərini azad etmək üçün təqdim olunan məbləği mö'minlər arasında qəbul olunmuş ədalətə əsasən ödəməlidirlər. Bəni Ouf həmçinin öz adət-ən'ənələrinə əsasən qan pulunu öz aralarında bölərək, hər tayfa öz əsirlərini azad etmək üçün verilən məbləği mö'minlər tərəfindən qəbul edilmiş ədalətə əsasən ödəməlidir.Bəni Saidə, bəni Hərs, bəni Cuşəm, bəni Nəccar, bəni Əmr ibni Ouf, bəni Nəbit, bəni Ous və hər bir tayfa, keçmişdə aldıqları qan pullarını və əsir azad olunmaq üçün verilən məbləği ədalətlə və günün tələbinə əsasən mö'minlər arasında bölsünlər. Çox uşaqlı mö'min ailələr qan pulu və .əsir azad etmək üçün ödəniləcək məbləğ verilməsə belə, öz borclarını verməlidirlər

Heç bir mö'min onun icazəsi olmadan başqa bir mö'minin ağası ilə saziş bağlamır. Təqvalı mö'minlər zülm edən, müsəlmanlar arasında zülm, günah və pozğunçuluq yayana qarşı birləşməlidir. Zülmkarlar və təcavüzkarlar onların övladı olsa belə. Allaha xatir bağlanan əhd-peyman birdir, əgər ən ləyaqətsiz müsəlman bir nəfərə sığınacaq

versə belə, hamı onu qəbul etməlidir. Mö’minlər başqa əhalidən fərqli olaraq bir-birlərini sevərlər. Bizə tərəfdar olan yəhudilər istər onlara zülm olunsun, istərsə

də yox, biz onlara köməklik göstərəcəyik. Bir mö’minin barışığı hamı tərəfindən qəbul edilməlidir. Allah yolunda müharibə edən zaman bir mö’minlə barışıq edib, o birisi ilə barışıq etməməyə icazə verilmir. Barışıq mövzusunda hamı ilə ədalət çərçivəsində davranmaq lazımdır. Vuruşanları (müharibədə) əvəz edəcək başqa dəstələr də .olmalıdır

Allah yolunda döyüşdə həlak olanların yerini tutacaq digər mö’minlər də olmalıdır. Təqvalı mö’minlər ən düzgün və sarsılmaz yolda olacaqlar. Qüreyşdən olanlar heç bir müşriki və ya onun malını qorumayacaq. Onunla mö’min arasında maneə olmayacaqdır. Əgər biri mö’mini günahı olmadan öldürsə və onun qatil olmağı sübuta yetirilsə, ölənin sahibi onu bağışlamazsa ondan qisas alınmalıdır. Bütövlükdə mö’minlər o qatilin əleyhinə qalxmalıdır, belə olmadıqda başqa hər bir hərəkət məqbul sayılmaz. Bu sazişi qəbul edib, Allaha və axirət dünyasına imanı olan mö’min şəxs yaramaz işlər görənlərə heç bir yardım göstərməməli və sığınacaq verməməlidir. Əgər bir nəfər belə şəxsə yardım edib sığınacaq versə qiyamət gününə qədər ona Allahın lə’nəti olsun! Yaramaz işlərin müqabilində o şəxsdən heç bir əvəz alınmayacaq. (Bəlkə gördüyü işin layiqli cəzasını çəkməlidir). Siz müsəlmanlar bir məsələ barəsində ixtilaf etsəniz bilin ki, sizin işinizdən Allah xəbərdardır və hakiminiz də Məhəmmədədir (s), müsəlmanlarla döyüşdə iştirak edən yəhudilərlə mö’minlər həmrəydirlər. Yəhudilər öz dininə, müsəlmanlar da öz dininə tabedir. Zülm edib, günah edənlər həm özlərini, həm də yaxınlarını həlak edirlər. Bəni Nəccar tayfasının yəhudiləri (ictimai hüquq baxımından) bəni Ouf yəhudilərinə verilən səlahiyyətə malikdirlər. Bəni Hərs, bəni Saidə, bəni Cuşəm, bəni Ous və bəni Sə’ləbə yəhudiləri də bu hüquqa malikdirlər. Lakin zülm edib, günah edən şəxs özü ilə ailəsini həlak etməkdən başqa bir iş görməyəcəkdir. Bəni Sə’ləbə qəbiləsindən olan Cəfnə tayfası bəni Şutəybə bəni Ouf yəhudilərinin şamil edildiyi hüquqa malikdirlər. Verdikləri əhdə vəfa etsələr saziş pozulmayacaqdır. Sə’ləbə qəbiləsinin köləlвəri də özlərinin malik olduğu hüquqa malikdirlər. Yədudilərin yaxınları da onlarla bərabər hüquqludurlar (yə’ni bu sazişin hüqüqlarından bəhrələnə bilərlər). Həzrət Məhəmmədin (s) icazəsi olmadan heç kəs onları bu sazişdən kənarlaşdıra bilməz. Heç kəsi birini yaraladığına görə həbs etmək olmaz. Qəfildən kimsəni öldürənlər özünü və yaxınlarını ölümə vermişdir. (Yalnız zülm olunmuş olmazsa). Allah əhdinə vəfa edənlərlədir. Yəhudiləri məişət ləvazimatı ilə (ev,

yemək, geyim) tə’min

səh:۵۳

etmək yəhudilərin, müsəlmanları tə’min etməksə müsəlmanların öhdəsinə düşür. Onlar (yəhudilər) bu sazişi imzalayanlarla vuruşanlara qarşı vuruşmalı və onlara .yardım edib xeyrxah olmalıdırlar

Yəsrib daxilində bu sazişi imza edənlər amandadırlar (yə’ni heç kəs başqa birisinə zərər yetirə bilməz). Zərər vurmayıb, günah etməyən bir qonşu səninlə bərabər .hüquqa malikdir

Bu sazişi imzalayanlardan birinin qanunsuzluğa yönəlmək qorxusu olsa onun barəsində hökm çıxartmaq Allah və Peyğəmbərin öhdəsinə düşür. Allah bu sazişdə imzalanan təqva və gözəlliklərin tərəfdarıdır. Qüreyşə və onlara yardım edənlərə sığınacaq verilməyəcək. Gözlənilmədən Yəsribə hücum edənlərlə vuruşmalı, barışıq edənlər isə bağışlanmalıdır. Əgər belə iş görsələr onlarla barışıq etmək mö’minlərin ixtiyarındadır (yalnız mö’minlərin dini əleyhinə vuruşmasalar). Hal-hazırda bu sazişə razı olanlar öz qəbiləsinin adından da bu sazişdəkilərə riayət etəməyə cavabdehdir. Ous qəbiləsinin yəhudiləri və kölələri bu sazişdəki hüquqlardan bəhrələnəcəklər. Bu sazişə vəfalı olan şəxslə çox gözəl davranılacaq. Allah bu sazişə vəfalı olan kimsələrlədir. Bu saziş zalım və günahkarı müdafiə etəməyəcəkdir. Günahkar və zülmkardan başqa hər kəs Yəsribdə qalsa və ondan kənara çıxsa amandadır. Allah .təqvalı və əxlaqlıların sığınacağı, Həzrət Məhəmməd (s) isə Allahın elçisidir

## MÜHACİR VƏ ƏNSARIN QARDAŞLIĞI

Qeyd etdiyimiz kimi, İslamın zühurundan əsrlər qabaq yarımadanın əhalisi iki dəstəyə bölünürdü: Oturaq həyat sürənlər və köçərilər. Cənublular şəhərdə, şimal və mərkəz əhalisi isə səhrada alaçıqlarda yaşayırdılar. Köçərilər heyvandarlıqla məşğul olardılar, sonralar isə dəniz sahilində yerləşən şəhərlərdə məskunlaşaraq ticarətlə məşğul oldular. Məkkə və onun ətrafında yaşayan ərəblər (Qüreyş də bu dəstəyə daxildir) çadırlarda yaşayırdılar və sonradan ticarətlə məşğul oldular. Yəsrib əhalisi cənubdan köçən mühacirlər idi. Sonralar ticarətlə məşğul olan köçəri ərəblər cənubdan hicrət edib əkinçiliklə məşğul olanlara təhqir gözü ilə baxırdılar, çünki onlar əkinçiliyi ləyaqətsiz məşğuliyyət sayırdılar. Dəfələrlə qeyd etmişik ki, cənub ərəbləri Qəhtani, şimal ərəbləri isə Ədnani adlanırdılar (sonralar onlar başqa ad götürmüşlər). Qüreyş

mühacirləri (ədnanilər) Qəhtani ərəblərin şəhərinə toplaşdıqdan sonra onlar arasındakı keçmiş düşmənçiliyin baş qaldırması mümkün idi. Peyğəmbər (s) o iki dəstə (Mühacir və Ənsar) arsındakı birliyi daha da sıx etmək üçün onlar arasında qardaşlıq əhd-peymanı bağladı və bununla

səh:۵۴

da hər bir mühacir bir mədinəlinin qardaşı oldu. Lakin Həzrət Peyğəmbər (s) Əlini (ə) özünə qardaşlığa götürərək dedi ki, sən dünyada və axirətdə mənim qardaşım .olacaqsan

Qabaqda qeyd etdiyimiz kimi, səhrada yaşayanların (köçərilərin) ən mühüm xüsusiyyətlərindən biri bağlı olduğu hər bir kəsi himayə edib tam bərabər hüquqa malik olmaları idi. Peyğəmbər (s) İslami birliyə kömək etmək üçün belə bir ruhi xüsusiyyətdən məharətlə istifadə etdi. Hətta bu qardaşlıq və bərabərlik o yerə çatdırdı ki, hər bir müsəlman digər müsəlman qardaşını özündən üstün hesab edirdi. Yazırlar ki, bəni Nəsirlə döyüşdə əldə olunan qənimətləri bölən zaman Peyğəmbər Ənsara belə dedi: "İstəsəniz bu qəniməti böləndə mühacirləri özünüzə şərik edə bilərsiniz, yox əgər istəməsəniz hamısı sizindir." Ənsar isə belə cavab verdi: "Biz nəinki bu qənimətin ".hamısını onlara veririk, hətta öz malımıza və mülkümüzə də onları şərik edərik

## DİN ƏSASINDA QURULAN HÖKUMƏT

Yəsrib, müsəlmanların dayaq mərkəzinə çevrildikdən, Qəhtanilərlə (Ənsar) Ədnanilərin (Mühacirlər) qardaşlığı bərpa olunduqdan, yəhudilərin və müsəlmanların hüquqları müəyyən edildikdən sonra artıq "İslam" varlığının ikinci mərhələsini e'lan etməyin vaxtı gəlib çatdı. Bildiyiniz kimi Məkkədə İslamın ilk göstərişləri təkallahlılığa çağırış, bütpərəstlikdən əl çəkmək və azacıq ibadət etməkdən ibarət olub. Mədinədə isə həm siyasi, həm də ictimai cəhətdən genişlənmə başlandı. Azan namazlara çağırış şüarına çevrildi. Şəriət, alış-veriş hökmləri, vergilərin ödənilməsi, cəza tədbirlərinin icrası və digər siyasi və ictimai hökmlər icra olunmağa başlandı. Çox təbiidir ki, belə bir təşkilat hansısa dəstələrin mənafeləri ilə toqquşa bilərdi. Bu dəstənin biri Peyğəmbər hələ Yəsribə gəlməmişdən şəhərə hakim olmaq sevdası ilə yaşayanlar, digərləri isə özlərinin iqtisadi mənafelərinin təhlükə altına düşdüyünü hiss edənlər idi. İndi görək bu .iki dəstə kimlərdən ibarət idi

## MÜNAFİQ VƏ YƏHUDİLƏR

Yəsrib əhalisinin əksəriyyətinin müsəlman və ya Peyğəmbərə (s) müxalif olmamasına baxmayaraq, şəhər və onun ətrafı təmamilə sakit mühit deyildi. Həzrətin (s) Yəsribə gəlişi ilə şəhərə hakim olmaq planı puça çıxmış Abdullah ibni Ubəyy qərar tuta bilmirdi.

Zahirdə özünü müsəlman adlandırmasına baxmayaraq, gizlində Həzrət Məhəmməd (s) və müsəlmanlar əleyhinə əks-təbliğat aparır və Mədinə yəhudiləri ilə gizlin məşvərət edirdi.

Mədinədə nazil olan ilk Qur’an ayələri onları münafiq adlandırmışdır. Onlar Peyğəmbərə və müsəlmanlara problemlər yaradırdılar. Bu dəstəylə davranmaq yəhudi və müşriklərlə müqayisədə daha çətin idi. Çünki bunlar özlərini üzdə müsəlman kimi aparırdılar. Peyğəmbər də İslam hökmlərinə əsasən onlarla döyüşə bilməzdi. Bə’zi Qur’an ayələri onları qorxudurdu ki, Allah və Peyğəmbər sizin ürəyinizdəkilərdən xəbərdardır. Siz müsəlmanlıqdan yalnız öz yaşayışınız üçün bir alət kimi istifadə .edirsiniz

Ya Peyğəmbər!) Münafiqlər sənin yanına gəldikləri zaman-“Biz sənin, doğrudan da) Allahın peyğəmbəri olduğuna şəhadət veririk!”-deyirlər. Allah sənin həqiqi peyğəmbər .olduğunu bilir, həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir

Abdullah İslam dini ilə müxalifətçiliyini ölənə qədər davam etdirdi. (Hicri qəməri ٩-cu ilə qədər). Yəhudilər Mədinə sazişinə əsasən müəyyən hüquqa malik idilər, hətta müharibədə əldə edilən qənimətlərdən onlara da pay düşürdü. İlk əvvəl onların xoş üz göstərmələrinə, hətta bə’zilərinin müsəlman olmasına baxmayaraq, sonda narazı olmağa başladılar. Bu narazılığın əsas səbəbi bundan ibarət idi ki, onlar Yəsribin iqtisadiyyatını əldə saxlamaqla bərabər, Məkkə müşrikləri və səhra sakinləri ilə də ticarət edirdilər. Bundan əlavə onlar Adullah ibni Ubəyyin Mədinəyə hakim olandan sonra iqtisadi nüfuzlarının genişlənməsinə ümid bəsləyirdilər. Lakin Məhəmmədin (s) gəlişi və İslam dininin yayılması onların bu nüfuzunun qarşısını aldı. Bundan əlavə onlar yəhudi nəslindən olmayan bir şəxsi peyğəmbər kimi qəbul etməyi özlərinə münasib iş saymırdırlar. Elə buna görə də onlar bir müddət keçdikdən sonra Həzrət Məhəmmədə (s) qarşı e’tirazlarını üzə çıxardılar. Qeyd edildiyi kimi Abdullahın da onları təhrik etməsi bu işi qüvvətləndirirdi. Yəhudilər deyirdilər ki, Həzrət Məhəmməd (s) biz gözlədiyimiz peyğəmbər deyil. Qur’an ayələri müqabilinə İncil və Tövratı çıxararaq deyirdilər ki, Qur’anla bizim “kitab”larımız arasında böyük fərq vardır. Qur’anda çoxlu sayda tarix boyu Tövrat və İncilin təhrif olunması, yəhudi alimlərinin öz mövqelərini qoruması üçün ilahi kəlamı dəyişdirmələri barədə ayələr nazil olmuşdur. Nəhayət Qur’an İslam ilə yəhudi və xristian arasında olan əlaqəni bir dəfəlik kəsərək, ərəblərin yəhudilərdən fərqli bir ümmət olmasını başa salaraq deyir: “Ərəb İbrahimin millətindəndir. İbrahim ”.isə İsrailin ulu babasıdır

Ey kitab əhli nə üçün İbrahim barəsində mübahisə edirsiniz? Tövrat da, İncil də ancaq ?ondan sonra nazil edilmişdir, məgər başa düşmürsünüz

səh:۵۶

Bir baxın, siz o şəxslərsiniz ki, bildiyiniz şeylər barəsində mübahisə edirsiniz (bu aydındır). Bəs bilmədiyiniz şeylər barəsində niyə mübahisəyə girişirsiniz. Əlbəttə !(həqiqəti) Allah bilir, siz bilməzsiniz

İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O, ancaq Hənifə (batildən haqqa tapınan, haqqa yönəlmiş olan) müsəlman (Allaha təslim olan) idi və Allaha şərik qoşanlardan .deyildi

## QİBLƏNİN DƏYİŞİLMƏSİ

Müsəlmanları birdəfəlik yəhudilərdən ayıran qiblənin dəyişilməsi hadisəsi oldu. Peyğəmbərin (s) Mədinəyə gəlişindən on yeddi ay keçirdi. Peyğəmbər (s) Əqsa məscidinə üz tutaraq namaz qıldığı halda yəhudilər deyərdilər: "Həzrət Məhəmmədin (s) qibləsi yoxdur, biz qibləni ona tanıtdırmışıq." Peyğəmbər (s) bu tə'nədən narahat idi və günlərin bir günündə bəni Səlmə məscidində günorta namazı qılarkən (hicrətin :ikinci ili Şə'ban ayında) bu ayə nazil oldu

Ya Məhəmməd!) Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni) razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidül-hərama tərəf çevir! (Ey müsəlmanlar!) Harada olsanız (namaz vaxtı) üzünüzü oraya döndərin! Kitab verilmiş ümmətlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu yaxşı bilirlər. Allah onların .əməllərindən xəbərsiz deyildir

Peyğəmbər (s) elə həmin halda üzünü Beytül-müqəddəsdən Kə'bəyə tərəf çevirdi. Bu məscid (bəni Sələmə məscidi) İslam tarixində iki qibləli məscid kimi məşhurlaşmışdır. Məscidül-Əqsadan qiblənin Məkkəyə tərəf yönəlməsi yəhudi və münafiqlər üçün çox baha başa gəldi. Onlar müsəlmanlara irad tuturdular ki, nəyə görə indiyə qədər Əqsa məscidinə üz tutaraq namaz qılırdınız, indi isə qibləniz dəyişildi. Aşağıdakı ayə onların .tə'nələrinə cavab olaraq nazil oldu

Mədinədəki yəhudi və münafiqlərdən) ağılsız adamlar deyəcəklər: "Müsəlmanları) (əvvəlcə) üz tutduqları qiblədən (Beytülmüqəddəsdən) döndərən nədir?" (Ya Məhəmməd!) Onların cavabında de: "Şərq də, qərb də Allahındır. O, istədiyi şəxsi doğru ".yola yönəldir

Qiblənin Beytül-müqəddəsdən Kə’bə evinə tərəf dəyişilməsi ibni İshaq və ibni Hişam tərəfindən hicrətin on yeddinci ayına aid edilmişdir. Son illərin yazılarında da bu tarix .qeyd olunub

## ÜÇÜNCÜ FƏSİL

### MÜHARİBƏLƏRİN BAŞLANMASI

Peyğəmbərin (s) Əqəbədə Mədinə əhalisi ilə bağladığı ikinci sazişdən sonra Qüreyşlə .müsəlmanlar arasında münaqişə baş verəcəyi təsəvvür edilirdi

Onun Yəsribə gəlişindən bir il keçmişdi ki, bu münaqişələr başlandı. Məkkədən gəlmiş mühacirlər Mədinə əhalisinin onlara göstərdiyi qonaqpərvərliyə baxmayaraq, həmişəlik olaraq orada qala bilməzdilər. Qeyd etdiyimiz kimi, Mədinə əhalisi əkinçiliklə məşğul olduqları halda, məkkəlilər bu peşəyə yiyələnməmişdilər. Onların peşəsi ticarət və alış-verişdən ibarət idi. Onlar keçmiş peşələrini davam etdirmək üçün bir tərəfdən Yəsrib Məkkəni əvəz etməli, digər tərəfdən isə Məkkə tacirlərinin yolunu (ticarət) kəsməli, bununla da məkkəlilərin ticarət yolunu təhlükə altına salmalı idilər. Əgər yəsriblilər bu yeniliyi əldə etməsəydilər, məkkəlilər keçmişdə olduğu kimi çox asanlıqla öz karvanlarını bir tərəfdən Qəzzə və Əqəbə körfəzinə, digər tərəfdən isə Babül-məndəb və Hind okeanına çatdıraraq hər iki ticarət yolunu əldə saxlamış olardılar. Əgər iş bununla bitmiş olsaydı, bəlkə də çox təhlükə hesab olunmazdı. Lakin məkkəlilər buna da razı deyildilər, onlar Yəsribi gələcəkdə nəzarətsiz buraxmaq istəmirdilər. Onlar hələ Peyğəmbər (s) Məkkədə ikən və müsəlmanların sayının az olduğu vaxtda iqtisadi hegemonluqlarının təhlükə altına düşdüyünü hiss etmişdilər. İndi isə lazımi potensiala malik və İslamı qəbul etmiş bir şəhər müqabilində təhlükədən necə amanda qalacaqdılar. Yəsriblilər də çox gözəl bilirdilər ki, məkkəlilərin onların .şəhərinə göz tikməsinin qarşısını almaq üçün tə’cili tədbirlər görməli idilər

Hicrətin ilk ilində Məkkə karvanları ilə vuruşmaq üçün dəstələr yola düşdü. Əgər Peyğəmbər özü qoşunla birlikdə bu döyüşlərdə iştirak etsəydi ona “ğəzvə”, yox əgər özü Mədinədə qalıb düşmən üzərinə qoşun göndərmiş olsaydı o döyüşlər “səriyyə” .adlanardı

İlk ğəzvə hicri tarixi ilə ikinci il səfər ayında baş verdi ki, o Əbva və ya Vəddan ğəzvəsi adlanıb. Lakin bu yürüşdə heç bir savaş olmadı. Bundan sonra rəbiul-əvvəl ayında Buvatğəzvəsi irəli gəldi ki, yenə hər şey münaqişəsiz qurtardı. Cəmadiul-əvvəl ayında xəbər yetişdi ki, Qüreyş Əbu Süfyanın rəhbərliyi ilə Məkkədən Şama tərəf yollanır.

Peyğəmbər

səh:۵۸

onlara hücum etmək məqsədi ilə Zatul-əşirəyə qədər getdi, lakin karvan ötüb keçmişdi. İbni Hişam Əmmar Yasərdən nəql edir ki, Əşirə ğəzvəsində mən Əliyə (ə) yoldaş idim. Peyğəmbər (s) ora yetişərək atdan düşdü. Bəni-mudləc əhalisinin xurma bağında və bulaq başında işləmələri bizim diqqətimizi cəlb etdi. Əli (ə) mənə dedi: Ey Əmmar, gedək görək onlar nə işlə məşğuldurlar. Biz bir saat onları seyr etdikdən sonra yuxumuz gəldiyindən elə xurmalıqda yatdıq. Peyğəmbər (s) bizi tapandan sonra Əliyə (ə) belə dedi: Əbu Turab qalx ayağa. Çünki biz quru torpaq üzərində yatmışdıq. Sonra isə belə buyurdu: Sizə ən bədbəxt adamın kim olduğunu deyimmi? Biri Saleh peyğəmbərin dəvəsinin ayaqlarını qılıncla üzən, o birisi isə sənin saqqalını al-qana boyayan şəxsdir. Bu ğəzvənin ardınca bir səriyyə də baş verdi ki, Sə'd ibni Əbi Vəqqas Xərrar adlanan məkana qədər irəlilədi, lakin o səriyyədə də döyüş olmadı. Zatul-əşirə ğəzvəsindən sonra Kurz ibni Cabir Fehri Mədinənin qoyun sürüsünə hücum edib oğurluq etmişdi. Peyğəmbər (s) Mədinədən çıxaraq onun ardınca Bədr yaxınlığında .yerləşən Səfəvan nahiyəsinə qədər gedib çıxdı, lakin artıq Kurz gözdən itmişdi

Bu ğəzvələrin nəticəsiz olması ona görə idi ki, Mədinədə olan casuslar Peyğəmbərin niyyətindən xəbər tutaraq, qoşun yola düşməzdən qabaq özlərini Qüreyş karvanına çatdırır, onları üzləşəcəkləri təhlükədən agah edirdilər. Buna görə də karvan ya yolunu dəyişir, ya sür'ətlərini artırırdılar. Hicri tarixinin ikinci ili rəcəb ayında Peyğəmbər (s) Abdullah ibni Cəhşə bir məktub təqdim edərək səkkiz nəfər mühacirlə yola saldı və tapşırdı ki, iki gün yol getdikdən sonra məktubu açıb oxusun və orada yazılanlara əməl etsin. İki gün yol getdikdən sonra Abdullah məktubu açaraq göstərişi oxudu. Məkkə və Taif arasında yerləşən xurmalığa çatana qədər yol get! Orada qüreyşliləri gözlə və onlar barəsində bizə mə'lumat göndər. Abdullah onunla birgə gələnlərə verilən əmri çatdırdı, sonra özünün əmrə tabe olacağını bildirdi. Sonra isə əlavə edərək dedi: Sizlərdən kim şəhid olmaq istəyirsə gəlsin, ölümdən qorxan hər bir kəs geri dönsün. Onunla gələn şəxslərin hamısı onun əmrinə tabe oldular. Abdullah Əmr ibni Xəzrəminin başçılıq etdiyi karvan ora yetişənə qədər pusquda durdu. Sonra öz adamları ilə birlikdə karvana qoşularaq yola düşdülər. Karvandakılar elə bildilər ki, bunlar umrə ziyarətinə gedirlər. Hərəmə az qalmış Abdullah dedi: “Bunlar hərəmə daxil olsalar, haram ayda (rəcəb) onlarla vuruşmaq bu aya olan ehtiramı sındırmaq sayılar, bəs nə edək? Nəhayətdə karvana hücum edərək onların mallarını və

özlərindən də iki nəfəri əsir götürüb Yəsribə gətirdilər. Bu döyüş müsəlmanlar üçün ağır başa gəldi, Abdullaha tə'nə vurdular ki, niyə haram ayda döyüşübdür. Lakin bu .tə'nələr aşağıdakı Qur'an ayəsi nazil olana qədər davam etdi

Ya Məhəmməd!) Haram ayda vuruşmaq haqqında səndən soruşanlara söylə: "O ayda) vuruşmaq böyük günahdır, lakin Allah yolunu (insanların üzünə) qapamaq, onu inkar etmək Mscidül-hərama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yolunda daha böyük günahdır. (Din naminə) fitnə salmaq isə (həmin ayda) vuruşmaqdan daha pisdir." (Ey mö'minlər!) onlar (Məkkə müşrikləri) əgər bacarsalar, ".dininizdən döndərənə qədər sizinlə vuruşmaqda davam edəcəklər

Bu ayənin nazil olması ilə müsəlmanlar Abdullahı və onunla gedənləri məzəmmət .etməkdən əl çəkdilər

## BƏDR MÜHARİBƏSİ

Elə bu əsnada Peyğəmbərə (s) xəbər verdilər ki, Əbu Süfyan çoxlu mal ilə yüklənmiş böyük bir karvanla Şamdan Məkkəyə dönür. Deyilənlərə görə karvanda min dəvə, ۵۰۰ dinar dəyərində də mal var imiş. Peyğəmbər ۳۱۳ nəfərdən ibarət (onun dörddə birini mühacirlər, qalanını isə Ənsar təşkil edirdi) bir qoşunla Məkkə ilə Mədinə yolunun üstündə yerləşən Bədr quyusu ətrafında pusqu quraraq karvanın yolunu gözləməyə başladılar. Əbu Süfyan xəbərdar oldu ki, müsəlmanlar pusqu quraraq karvanın yolunu gözləyirlər, ona görə də bir tərəfdən Məkkəyə xəbər yollayıb yardım istədi, digər tərəfdən isə yolu dəyişərək karvanı sağ-salamat Məkkəyə çatdırdı. Karvanın təhlükəyə düşməsi xəbəri Məkkəyə çatınca Əbu Cəhl qəzəblənərək ۹۰۰ nəfərdən ibarət bir qoşunla yola düşdü. Yolda təhlükənin sovuşması xəbərini eşitməsinə baxmayaraq yoluna davam edərək dedi: "Gərək Yəsrib camaatına elə bir dərs verəm ki, bir də belə özbaşınalıq etməsinlər. Müsəlmanlarla məkkəlilər Bədrdə üzləşdilər, artıq döyüşün baş tutmayacağı mümkün deyildi. Müsəlmanlar özlərini Bədr quyularına çatdıraraq onları ələ keçirdilər. Məkkə qoşunu təpənin arxasında gizlənmələrinə baxmayaraq susuzluqdan məcbur olub oradan üzə çıxdılar. Təkbətək döyüş başlandı. Məkkəlilər Yəsrib əhalisindən üç qat artıq olmalarına baxmayaraq məğlubiyyətə uğradılar. Əbu Cəhl və yetmiş nəfər digər Qüreyş başçıları bu döyüşdə həlak edildi və

.elə həmin sayda da əsir götürüldü. Müsəlmanlardan yalnız ۱۴ nəfər şəhid edildi

Döyüşdə Əmirlə-mö'minin Əli (ə) Peyğəmbərə (s) göstərdiyi yardımı ilə yanaşı .fədakarlığı ilə İslam ordusunun sütunu sayılırdı

Bu müsəlmanların ilk qələbəsi idi. Döyüşdən əldə edilən qənimət yetərincə çoxlu idi. Bu müharibə hicri tarixi ilə ikinci il ramazan ayının ١٧-də baş vermişdi. Şübhə yoxdur ki, müsəlmanların müharibədə qələbə çalmalarının əsas səbəbi onların imanı olmuşdu. Lakin bə'zi Avropa tarixçiləri qələbənin əsas səbəbini mədinəlilərin cismi cəhətdən məkkəlilərdən qüdrətli olmalarında görməsi əsassızdır. Ola bilsin ki, bu da qalibiyyətdə .rol oynasın, ancaq qələbəyə bir başa tə'sir göstərməmişdir

Bədr döyüşü hərbi qələbədən əlavə olaraq, dini və ruhi cəhətdən də Yəsrib əhalisinə böyük tə'sir bağışladı. Onlar başa düşdülər ki, yalnız İslama olan imanla, ilahi yardıma arxalanmaqla belə bir güclü düşmən üzərində qələbə çalmaq olar. Bu döyüşün mə'nəvi tə'siri o qədər çox olmuşdu ki, hətta Peyğəmbərin vəfatından sonra da bə'zi alimlər atalarının Bədr müharibəsində iştirak etmələri ilə fəxr edirdilər. Yəsrib ətrafında yaşayan qəbilələr Məkkə qoşunundan dəfələrlə az olan müsəlmanların qələbəsini görüb dedilər: "Məhəmmədə (s) onun Allahı yardım etdi ki, düşmənə qalib gəlsin, onun dini haqdır." Digər tərəfdən Qüreyş fikirləşirdi ki, Həzrət Məhəmməd (s) və Yəsribi zəif və gücsüz hesab etmək olmaz. Məkkə əhalisindən bu döyüşdə ölənlər bacarıqlı tacirlər idi ki, şəhərin iqtisadi müqəddəratı onlardan asılı idi. Qüreyşlilər heç vaxt təsəvvür edə bilməzdilər ki, Əbu Talibin qardaşı oğlu bir dəstə əkinçinin köməyi ilə onları məğlub edə bilər və onlar başa düşdülər ki, Peyğəmbərin (s) işi fikirləşdikləri qədər də asan deyil. Onlar Peyğəmbəri məğlub etmək və ya Yəsribdən qovmaq .məqsədi ilə yenidən müharibəyə hazırlaşdılar

## YƏHUDİLƏRLƏ MÜBARİZƏ

Qeyd etdiyimiz kimi, Peyğəmbərin (s) Yəsribə gəlişindən bir neçə ay keçməmiş yəhudilər müxalifətçilik etməyə başladılar. Hətta iş o yerə çatdı ki, Qur'an onlara çatdırdı ki: İslam dininin əsası İbrahimin (ə) dinidir və İbrahim nə yəhudi, nə də .xaçpərəstdir, bəlkə o, Hənif müsəlman olub. İslam dini də Hənifdir

Qiblənin dəyişməsi ilə (Beytül-müqəddəsdən Məkkəyə tərəf) müsəlmanlarla yəhudilər arasında əlaqə kəsildi. Bu səbəbdən onlar bərk narahat olaraq müsəlmanları .incitməyə hazırlaşdılar

Yəhudilərlə ilk toqquşma Bədr döyüşündə müsəlmanların qələbəsindən bir neçə həftə

sonra baş verdi. Mədinənin kənarında bəni Qəynuqa’ yəhudilərinin bazarı var idi ki, orada zərgərlik və dəmirçiliklə məşğul idilər. Yazırlar ki, bir gün ərəb qadını bəni Qəynuqa’ bazarına

gedib əşyasını satdıqdan sonra zərgər dükanı qabağında əyləşir. Yəhudilərdən biri onun paltarının ətəyini bir-birinə bağlayır və qadın ayağa qalxanda paltarı cırılır, yəhudilər isə ona baxıb gülürlər. Qadın haray salaraq müsəlmanları köməyə çağırır. Münaqişə baş qaldırır, həmin qadına köməyə gələn bir müsəlman, yəhudini öldürür. Yəhudilər hiddətlənərək o müsəlmanı öldürürlər və beləliklə fitnə son həddə çatır. Bu hadisədən sonra Peyğəmbər (s) Qüreyşin aqibətini yəhudilərə xatırladaraq onları qorxutmaq istəyir və onlara deyir ki, əgər burada qalmaq istəyiniz varsa gərək təslim olasınız. Bəni Qəynuqa' tayfası cavab verdilər ki, Məkkə əhalisinin məğlubiyyəti səni aldatmasın, onlar döyüş bacarmırdılar. Əgər biz səninlə vuruşsaq öz bacarığımızı sənə :göstərərik. Aşağıdakı ayə həmin yəhudilər haqqında nazil olmuşdur

Ya Məhəmməd!) Kafir olanlara de ki: "Siz tezliklə məğlub olacaq və cəhənnəmə) !sürüklənəcəksiniz!" Cəhənnəm necə də pis yerdir

Ey Məkkə müşrikləri və yəhudilər! İki dəstənin (Bədr müharibəsi zamanı) qarşı-) qarşıya durması sizin üçün (Peyğəmbərin doğruluğuna) dəlildir. Bunlardan biri Allah .yolunda vuruşanlar, digəri isə kafirlər idi

Peyğəmbər (s) məcbur olub onları mühasirəyə aldı və bu mühasirə on beş gecə-gündüz çəkdi. Onlar təslim olduqdan sonra Abdullah ibni Ubəyy israr etdi ki, Peyğəmbər (s) onları öldürməsin. Peyğəmbər (s) güzəştə gedib onları Şama sürgün etdi. Yəhudilərin bu mühasirəsi hicrətin ikinci ili Şəvval ayında baş vermişdir. Həmin ilin zil-hiccə ayında Səviq ğəzvəsi baş verdi. Əbu Süfyan Bədr müharibəsindən sonra Peyğəmbərlə (s) vuruşmayınca yuyunmayacağına and içmişdi. Öz andına vəfa etmək xatirinə ٢٠٠ atlı ilə Mədinəyə yollandı. Lakin bu yürüşdə o yalnız bir-iki nəfəri öldürüb bir neçə xurmalığı yandıra bildi. Peyğəmbər (s) bir dəstə ilə onun ardınca getdi. Əbu Süfyan qaçıb oradan çıxdı. Müşriklər döyüşdən qaçan vaxt öz yüklərinin azalması, həm də onları təqib edənlərin başını qarışdırmaq üçün unla dolu kisələri yerə tökürdülər. Elə ona görə də bu ğəzvə Qovut adlanmışdır. Hicrətin ikinci ilinin sonunda (Ühüd müharibəsindən əvvəl) bir neçə ğəzvə və səriyyə də baş vermişdir ki, qısaca onların adını çəkməklə kifayətlənirik: Qərqətul-Kudur, Zi-əmər ğəzvələri və Qərədə səriyyəsi baş vermişdir. Qərədə səriyyəsində müsəlmanlar çoxlu sayda qənimət əldə etdilər; .hər bir nəfərə ٨٠٠ dirhəm çatdı

Əbu Süfyan Bədr müharibəsindəki məğlubiyyəti yaddan çıxara bilmirdi, çünki Məkkə əhalisinin nəzərində onun hökumətinin nüfuzu zəifləmişdi. Həmçinin artıq Suriya və digər bazarlar Məkkə tacirlərinin əlindən çıxmışdı. Əbu Süfyan böyük səylə çalışaraq qəbilələr arasında ittifaq yaradıb üç min kişi, iki yüz atlı və min dəvədən ibarət olan bir qoşun toplayaraq Mədinəyə tərəf yollandı. Qoşunun gəlişi xəbəri Peyğəmbərə yetişdi. Cümə günü məsciddə döyüş üçün şura təşkil etdi. Bu şurada Abdullah ibni Ubəyy də iştirak edirdi. Peyğəmbər müsəlmanlardan nə etmək barəsində sual etdi. Təcrübəli və yaşlı olan bir dəstə adam dedi ki, müharibəni şəhərin daxilinə çəkərək müdafiə olunaq. Lakin əksəriyyəti çılğın cavanlardan ibarət olan o biri dəstə şəhərdən çıxıb düşmənə hücum etmək təklifini irəli sürdülər. Abdullah da birinci dəstədən idi. Sonda çoxluq təşkil edən ikinci dəstənin təklifi qəbul olundu. Peyğəmbər (s) yaraqlanaraq şəhərdən çıxmaq üçün hazırlaşdı. Amma cavanlar Peyğəmbərin onların təklifini qəbul etməsinə peşman olaraq dedilər ki, biz öz təklifimizi geri götürürük. Peyğəmbər (s) gördü ki, qəti qərar çıxarmaq rəhbər və başçının vəzifələrindəndir və hər anda yeni bir qərar qəbul etmək olmaz. Ona görə dedi: "Müharibə zamanı əyninə geyinmiş döyüş paltarını yenidən çıxarmaq Peyğəmbərə yaramaz." Məkkə qoşunu özünü Zil-huləyfəyə yetirərək oradan Yəsribin şimalına hərəkət edib Ühüd dağı ətrafında yerləşdilər. Bu yürüşdə Peyğəmbərin (s) qoşunu ١٠٠٠ nəfərdən ibarət idi. Müharibə başlandı, əvvəl Abdullah e'tiraz əlaməti olaraq ٣٠٠ nəfərlik dəstə ilə geri dönərək belə dedi: "Məhəmməd (s) bizim təklifimizə əhəmiyyət verməyərək uşaqların sözünü qəbul etdi." Aşağıdakı ayə Abdullahın vəsfi haqda nazil olmuşdur: "...Və münafiqləri onlardan fərqləndirsin. Onlara gəlin Allah yolunda vuruşun, yaxud müdafiədə dayanın! (Düşmənin hücumunu dəf edin!) –deyirdi. Onlar: "əgər biz vuruşa bilsəydik, sizin ardınızca gələrdik"-deyə cavab verdilər. Onlar o gün imandan çox küfrə ".yaxınlaşmışdılar, ürəklərində olmayan şeyi dilləri ilə deyirdilər

Abdullah öz dəstəsi ilə Peyğəmbərin qoşunundan ayrıldıqdan sonra yalnız ٧٠٠ nəfər qaldı ki, onların nə dəvəsi, nə də atı var idi. Qoşun bölünüb mövqe tutduğu zaman Peyğəmbər ox atanların başçısı Abdullah ibni Cubeyrə dedi: "Gözdə-qulaqda ol ki, düşmən arxadan bizə hücum etməsin. Döyüşdə bizim üstün olub-olmamağımızdan asılı olmayaraq sən öz durduğun mövqeni tərk etmə." İlk hücumda müsəlmanlar

düşməni geriyə oturtdular. Lakin düşmən süvarilərinin irəliləməsinin qarşısını almaq vəzifəsini öz üzərinə götürmüş ox atanlar, qəniməti toplamaq ehtirası ilə öz mövqelərini tərk etdilər. Xalid ibni Vəlidin başçılıq etdiyi düşmən atlıları gözlənilmədən hücuma keçərək müsəlmanları məğlub etdi. Bu müharibədə Peyğəmbər yaralandı, əmisi Həmzə isə vəhşi qul Cubeyr ibni Mutim tərəfindən şəhid edildi. Əbu Süfyan ucadan qışqırdı “Hubəl (büt adıdır) ucadır.” Peyğəmbər (s) durduğu mövqedən dedi: “Ona cavab verin ki, Cəlal sahibi və uca yalnız Allahdır.” Peyğəmbər dişinə və alnına dəyən zərbədən müşriklərin müsəlmanlar qarşısında qazdıqları qalaya düşmüşdü. Bu zaman müşriklər şüar verdilər ki, Məhəmməd (s) öldürüldü və müsəlmanlar dağıldılar. Təbərinin yazdığına görə bir nəfər dağın üstündə dayanaraq dedi: “İndi ki, Məhəmməd (s) öldürüldü, bir nəfəri Abdullah ibni Ubəyyin yanına göndərək ki, Əbu Süfyandan bizə aman istəsin. Ey camaat, necə ki ölməyibsiniz evlərinizə dönün.” Bu anda Ənəs ibni Nəzr ucadan dedi: “Ey camaat, Həzrət Məhəmməd (s) ölmüşsə də Məhəmmədin Allahı sağdır. İlahi! Mən bunların dediyi sözə görə üzr istəyirəm.” Sonra isə düşmən üzərinə hücuma keçdi. Nəhayət o ağır vəziyyətdə Əli (ə) Peyğəmbərin əlindən tutaraq qaldırdı və Təlhət ibni Ubeydullah yaralı olmasına baxmayaraq onu çiyninə alıb yuxarı qaldırdı ki, müsəlmanlar onun ölmədiyini görsünlər. Əli (ə) Peyğəmbərin önündə dayanaraq yaxına gələni ya uzaqlaşdırır, ya da öldürürdü. Nəhayətdə müsəlmanlardan bir dəstə adam geri dönüb Peyğəmbərin ətrafına toplaşdılar və qoşun yenidən təşkil oldu. Əbu Süfyan döyüşdə qalib gəlməsinə baxmayaraq, Mədinəyə hücum etmədən geri döndü, ancaq söz verdi ki, bir ildən sonra yenidən Bədrdə görüşəcək. Görəsən niyə Əbu Süfyan Mədinəni ələ keçirməkdən vaz keçdi? Bu ancaq qeybdən olan köməklik vasitəsi ilə ola bilərdi. Allah-təala onun ürəyinə qorxu saldı ki, Mədinə şəhərini .mühasirə etməkdən yayınsın

Bə’zi Avropa şərqşünasları deyirlər ki, Əbu Süfyan lazımi təchizatı olmadığından Mədinə şəhərini mühasirəyə almadı, lakin bu heç də düzgün izah deyildir. Düzgünü .budur ki, Qur’ana istinad edərək deyək ki, Allah onların ürəyinə qorxu saldı

Ühüd müharibəsi üçüncü hicri ili Şəvval ayında baş vermişdir. Müharibədən bir gün sonra Peyğəmbər (s) əhaliyə düşmənin ardınca getməyi əmr etdi. Bundan məqsəd o idi ki, düşmən güman etməsin ki, qoşun tamamilə dağılıb. Hər halda məkkəlilər bu

döyüşdən lazımi nəticəni əldə edə bilmədilər. Birincisi, müsəlmanların verdiyi itkiləri də nəzərə alsaq, vəziyyət bərabər səviyyədə idi. Hər iki tərəf iki

müharibənin nəticəsində bərabər itki vermişdilər ki, qəbilə adət-ən’ənlərinə görə Məkkə Mədinəylə müqayisədə üstünlüyə malik deyildi. Bundan əlavə, müşriklər söz verdikləri kimi (onlar söz vermişdilər ki, Mədinə əhalisinə elə bir dərs verəcəklər ki, bir də özbaşınalıq etməsinlər) Yəsrib şəhərinə ziyan vura bilmədilər. Deyilənlərə görə Əbu Süfyan məkkəlilərin ilk hücumda geri çəkilib qaçmalarını bir növ döyüş taktikası adlandırmış, amma ikinci dəfə geri çəkilib getmələrini isə düşməni çaşdırmaq üçün etdiyini iddia etmişdi. Hər halda belə böyük qələbədən sonra Əbu Süfyanın geri qayıtmasında məqsədəuyğunluq görünmür. Yalnız bir şey demək olar, Allah onun .ürəyinə qorxu, vəlvələ saldı ki, Mədinə şəhərinə toxunmadan geri dönsün

Ühüd müharibəsində müsəlmanlar məğlub olsalar da, bu döyüş böyük mə’nəvi dəyərlərlə nəticələndi. “Ali-imran” surəsinin bə’zi ayələrini oxuduqda bu dəyərlər aydınlaşır. Siz Bədr müharibəsində zəif idiniz, Allah sizə yardımçı oldu. Allah sizə yardım edəcəkdir. Əgər sizə zərər dəymişsə, düşməniniz də ziyan görmüşdür. Məgər siz Allah .yolunda ölmək (şəhid olmaq) istəmirsinizmi, indi öz arzunuza çatdınız

Bu səmavi nəsihətlər müsəlmanlara xatırlatdı ki, onlar Bədr müharibəsində xalis niyyətlə vuruşduqları üçün Allah onlara yardım etmişdir. Ancaq bu döyüşdə Peyğəmbərin (s) əmrindən çıxaraq qənimət və dünya malı dalınca getdikləri üçün .məğlub oldular

Ühüd müharibəsində itkilərlə yanaşı ictimai problemlər də meydana çıxdı. Bir çox arvad və uşaq başsız qaldılar. “Nisa” surəsinin əvvəlində görürük ki, müsəlmanlara ۴ qadın almaq icazəsi verilir. Və onlara tövsiyə olunur ki, yetimlərə qəyyumluq edib .mallarını qorusunlar və ona əl uzatmasınlar

## FİTNƏKARLAR

Ühüd şəhidləri barəsində nazil olan Qur’an ayələri ürəyi dağlı ailələrə təskinlik verdi və həmçinin müsəlmanların Peyğəmbərə olan imanları sayəsində Allah və din yolunda verdikləri qurbanları öz ailələri üçün fəxr hesab edirdilər. Lakin bununla yanaşı, Mədinədə işin sona yetəcəyini gözləyən münafiqlər də yaşayırdı. Müsəlmanların bu məğlubiyyətindən sonra onlar fitnəkarlıqlarını aşkar etmək üçün fürsət əldə etmişdilər. Bədr müharibəsindəki qələbədən sonra müsəlmanlarla saziş bağlamış

qəbilələr tərəddüd keçirirdilər və Yəsrib ətrafında məskunlaşmış İslam düşmənləri də .bu məğlubiyyətdən istifadə etmək fikrinə düşmüşdülər

## ƏBU SƏLƏMƏ SƏRİYYƏSİ

Bu səriyyə haqda Vaqidən (tarixçi) "Məğazi"də (kitab adıdır) yazmışdır. Bu əhvalat qısaca olaraq belədir ki, Peyğəmbər (s) Əbu Sələməyə dedi: "Bəni Əsəd Mədinəyə hücum etmək qəsdindədir, onlar gəlməmiş sən gərək onlara hücum edəsən!" Onunla birgə ١٥٠ nəfər yola salaraq onlara təqvalı olmalarını tövsiyə etdi.

Bu dəstə, düşmən xəbərdar olmasın deyə gecələr yol gedib gündüzlər gizlənməli idilər. Əbu Sələmə verilən göstərişə əməl edərək Nəcd ərazisində yerləşən Qətan dağına yetişdikdə düşmənin qaçıb getdiyindən xəbərdar oldu. Əbu Sələmə qənimət əldə edərək Yəsribə döndü. Məğlubiyyətdən sonrakı bu qələbə müsəlmanların mövqeyini münafiq və yəhudilərin nəzərində dəyişdirdi. Onlar artıq bildilər ki, Peyğəmbər və onun silahdaşları hələ təsəvvür etdikləri kimi zəifləməyibdir.

## RƏCİ' VƏ BE'R MƏUNƏYƏ HAZIRLIQ

Ühüd müharibəsindən sonra baş vermiş bu iki hadisə müsəlmanlara böyük zərbə vurdu və münafiqləri fəallaşdırdı. Rəci' hadisəsi belə baş vermişdir ki, Əzəl və Qarə qəbiləsindən bir neçə nəfər Peyğəməbərin yanına gələrək onların tayfasından bir dəstə adamın müsəlman olduğunu dedilər. Onlar dedilər: "Biz bir neçə nəfər istəyirik ki, onlardan dini hökmələri öyrənək." Peyğəmbər (s) ۶ nəfər müsəlmanı oraya yolladı. Onlar Hicaz ərazisindəki bəni Huzeylə məxsus olan Rəci' su hövzəsinə yetişdikdə müsəlmanlara hücum etdilər. Müsəlmanlar Huzeylə qəbiləsindən kömək istədilər, lakin heç kəs onlara yardım etmədi. Müşriklər altı nəfər müsəlmandan dördünü öldürərək ikisini əsir götürüb özləri ilə Məkkəyə apardılar. Məkkəlilər Bədr müharibəsində ölənlərin əvəzini çıxmaq üçün o iki nəfəri qətlə yetirdilər.

Be'r Məunə hadisəsi Rəci' hadisəsindən daha ürək ağrıdıcı olmuşdur. Bəni Amir qəbiləsindən bir dəstə adam Peyğəmbərin (s) yanına gəlib Nəcd əhalisinin müsəlman olması ümidi ilə öz səhabələrindən bir neçəsini oraya göndərməyini istədilər. Peyğəmbər (s) buyurdu: "Mən qorxuram ki, Nəcd əhalisi müsəlman olmasın." Bu dəstənin rəhbəri Əbu Bəra dedi: "Nəcdə gedən hər bir şəxsə mən cavabdehəm." Peyğəmbər (s) ۴٠ nəfər seçilmiş müsəlmanı onunla göndərdi. Bu dəstə bəni Amirlə bəni Suləym arasında yerləşən Be'r Məunəyə yetişdilər; bir qasidlə Peyğəmbərin (s) yazdığı

məktubu Amir ibni Tüffeylin yanına göndərdilər. O, məktubu oxumadan qasidi öldürdü. Bu zaman o bəni Amir qəbiləsinin bu dəstəyə hücum etməsini istədi, lakin onlar qəbul

etmədilər. Amir bəni Suləym qəbiləsindən yardım istədikdə isə onlar qəbul etdilər. Bu hadisədə Kə'b ibni Zeyddən savayı bütün müsəlmanlar həlak edildi. Bu dəstənin arxasınca gələn iki nəfər o yerə çatdıqda öldürülənləri görüb qatillərlə vuruşmağa başladılar. O iki nəfərdən birini öldürüb o birisinə isə dağ basıb buraxdılar. O şəxs Əmr .ibni Üməyy idi ki, Mədinəyə dönəndə bəni Amirdən iki nəfəri də qətlə yetirdi

Be'r Məunə hadisəsi Peyğəmbərə (s) çox tə'sir etmişdi. Tarixçilər bu hadisə haqda yalnız qısa mə'lumat vermişlər və onu doğuran səbəblərə isə toxunmamışlar. Görünür Ühüd müharibəsindəki müsəlmanların məğlubiyyətindən bir az sonra baş vermiş bu iki hadisə ona görə olmuşdur ki, Mədinə ətrafında, Hicaz və Məkkə ətrafında yaşayan qəbilələrin Qüreyşlə gizli əlaqələri olmuşdur. Onlar fikirləşirdilər ki, belə işləri görməklə Peyğəmbəri (s) və müsəlmanları zəiflədib Qüreyşi özlərindən razı sala bilərlər. Buna dəlil isə Rəci' hadisəsində əsir götürdükləri iki nəfəri öz qəbilələrinə deyil, birbaşa .Məkkəyə aparıb Qureyşə təslim etmələridir

### BƏNİ NƏZİR YƏHUDİLƏRİNİN KÖÇÜRÜLMƏSİ

Be'r Məunə hadisəsində sağ qalmış Əmr ibni Üməyyə bəni Amirdən iki nəfəri qətlə yetirməsi yeni çətinliklər yaratdı. Bəni Amir Peyğəmbərlə (s) bağladıqları sazişə əsasən o iki nəfərin qan pulunu tələb etdilər. Bəni Nəzir yəhudilərinin bəni Amirlə sazişləri olduğundan Peyğəmbər (s) onlardan bu məsələdə vasitəçilik etməsini istədi. Bu bəni Nəzir yəhudilərinin müsəlmanlar qarşısında olan niyyətlərini aşkar etmək üçün çox münasib fürsət idi. Rəci' və Be'r Məunə hadisələrindən sonra yəhudilər fəallaşaraq əks təbliğata başlayıb deyirdilər: "Allahın göndərdiyi Peyğəmbər (s) belə məğlubiyyətə ".uğramaz

Peyğəmbər (s) onların yanına gedib vasitəçilik etmələrini istədikdə dedilər ki, sənə köməklik edəcəyik. Lakin onlar gizlində məşvərət etdilər ki, bundan münasib fürsət ələ düşməyəcək. Peyğəmbər (s) divarın kənarında dayandığı zaman bir nəfər göndərdilər ki, damdan onun başına bir daş salsın. Peyğəmbər (s) onların niyyətindən agah olub Mədinəyə dönərək bu qəbiləni Mədinədən çıxarmaq qərarına gəlir. Bəni Nəzir qəbiləsinin mühasirəsi ۶ gün çəkdi, nəhayət onlar təslim oldular. Onlardan ikisi müsəlman olaraq öz mallarına sahib oldular, lakin yerdə qalanların hamısı öz

əmlaklarından məhrum oldular. Peyğəmbər (s) onları Suriyada yerləşən Əzrua’t adlı əraziyə sürgün etdi. İbni Hişamın dediyinə görə şərabın haram olması haqda hökm bu .dövrdə nazil oldu

## ĞƏTƏFANLA MÜHARİBƏ

Hicrətin dördüncü ili Cəmadiul-əvvəl ayında Peyğəmbər (s) Əbuzər Ğəffarini Mədinədə öz yerinə tə'yin edib qoşunla birgə bəni Müharib və bəni Sə'ləbə tayfasının üzərinə yürüş etdi. Ğətəfan qəbiləsindən olan bu iki tayfa Nəcddə məskunlaşmışdılar. Müsəlmanlar düşmənlə üz-üzə gəldilər, lakin döyüş baş tutmadı və onlar düşmənin hiyləsindən ehtiyat edərək xovf namazı qıldılar (Döyüş vaxtı düşmən qorxusundan ۴ rəkətli namazın əvəzinə ۲ rəkət namaz qılınmasına – xovf namazı deyilir). Şə'ban ayında Peyğəmbər (s) Ühüd müharibəsində Əbu Süfyanla gəldiyi qərara əsasən müharibə etmək üçün Bədrə gəldi. Əbu Süfyan öz qoşunu ilə Məkkədən çıxaraq gəldiyi zaman yolda peşiman olub geri dönür. Hicri tarixinin beşinci ilində Dumətul-cəndəl və bəni Əl-müstələq ğəzvələri də oldu. Dumətul-cəndəl ğəzvəsində döyüş olmasa belə, .digər cəhətdən çox mühüm sayılırdı

Ühüd müharibəsindəki məğlubiyyətdən sonra bu ilk ğəzvədə (Dumətul-cəndəl) hərbi nizam-intizam gözə çarpırdı. Bildiyiniz kimi, bu yer Suriyanın yaxınlığında yerləşən ərazidir ki, oradan Dəməşqə ۵ günlük yoldur. İsti ayda bir belə məsafəni qət etmək elə bir şey deyildi ki, qəbilələrin nəzərindən qaçsın. Onlar fikirləşirdilər ki, artıq Qüreyşdən qorxmaq lazım deyil. Digər tərəfdən müsəlmanların dalbadal qələbələri bəni Nəzir yəhudilərini sürgün etmələri, çoxlu sayda qənimət əldə etmələri, ən əsası isə Dumətul-cəndəl ğəzvəsində Peyğəmbərin (s) hərbi qüdrət nümayiş etdirməsi Qüreyşi narahat və nigaran etmişdi. Onların ticarəti sarsılmış, yetmiş nəfərdən artıq böyük adamları həlak olmuşdu. Ən əsası isə Məkkə başçıları arasında ixtilaf meydana .gəlmişdi

## XƏNDƏK MÜHARİBƏSİ

Qeyd edildiyi kimi Əbu Süfyan hicri tarixi ilə dördüncü ildə bir dəstə ilə Məkkədən çıxaraq yolda peşiman olub geri dönür. Bu hərəkət Qüreyş başçılarının nəzərində onu nüfuzdan saldığına görə yenidən böyük təchizatlı bir qoşun düzəltmək qərarına gəlir. Nəhayət ki, beşinci ildə yeddi mindən on iki min arasında olan bir qoşun düzəldir ki, onun ۶۰۰ nəfərini süvarilər təşkil edirdi. Bu qoşun Mədinəyə tərəf yollanır. Ordu müxtəlif ərəb qəbilələrindən təşkil olunmasına görə bu müharibə dəstələr müharibəsi

(əhzab) də adlanmışdır. Bundan əlavə Xeybərdə yaşayan bəni Nəzir yəhudilərindən bir dəstə və Ğətəfan qəbiləsi Qüreyşlə birləşərək bu müharibədə Peyğəmbərə (s) qarşı vuruşmağa hazırlaşdılar. Mədinə kənarında məskunlaşmış bəni Qurəyzə yəhudiləri Qüreyşə

kömək etməyəcəklərinə söz verdikləri halda, sazişi pozaraq Məkkə əhalisi ilə əlbir oldular. Belə böyük bir qoşun müqabilində Peyğəmbərin (s) qoşunu üç min nəfərdən .ibarət idi ki, bir neçə atlıdan savayı hamısı piyada idi

Ühüd müharibəsinin əksinə olaraq, Mədinə əhalisi şəhərdə müdafiə mövqeyi tutmağı qərara aldı. Bu müharibədə Salman Farsinin təşəbbüsü ilə şəhəri düşməndən qorumaq üçün xəndək qazıldı. Mədinə üç tərəfdən xurma bağları və tikililərlə əhatə olunduğu üçün düşmənin bu üç səmtdən şəhərə daxil olma imkanı yox idi. Şimal tərəfdə xəndək qazılması süvarilərin hücumunun qarşısını almışdı. Məkkə qoşunu Mədinəyə çatmamış xəndək qazılmışdı. Düşmən ora çatan kimi təəccübləndi ki, hələ bu günə kimi irəliləyiş üçün belə bir maneəyə rast gəlməmişdir. Süvarilər atlanıb .xəndəki keçə bilmir və irəli gəldikdə isə ox atanlar onlara macal vermirdilər

Əmr və İkrimət ibni Əbi Cəhl qərara gəldilər ki, xəndəkdən ötüb keçsinlər. Şücaətli və şöhrətli pəhlivan olan Əmr ibni Əbduvəd həzrət Əli (ə) vasitəsi ilə öldürüldü. Zahiri görünüşdə Xəndək müharibəsi Mədinə üçün zərər gətirdi. Müsəlmanların kiçik bir qoşunu böyük bir qoşun müqabilində nə edə bilərdi? Peyğəmbər (s) başda Ğətəfan qəbiləsinin düşmən qoşunundan ayırmaq istədi. Onlara xəbər göndərdi ki, Qüreyşlə əlbir olmasanız, Mədinə məhsulunun üçdə biri sizə veriləcək. Ənsar Peyğəmbərdən (s) soruşdu: “Bu saziş vəhyidirmi?” Dedi: “Xeyr.” Dedilər: “Onda biz belə bir məğlubiyyətə razı deyilik. Allah bizi İslama, dinə hidayət etmədiyi vaxtlarda belə, bu kimi zəlalətə razı olmamışıq, indi isə Allah sənin vasitənlə bizə nicat verdiyi zaman özümüzü necə aciz .saya bilərik.” Sonda bu saziş (sülh) baş tutmadı

Xəndək müharibəsinin sonu müsəlmanlar üçün ümidverici olsa da məkkəlilər üçün həddən artıq sarsıdıcı oldu. Qüreyş tacirləri üçün aydın oldu ki, artıq Mədinə bazarlarını birdəfəlik əldən verdilər. Bundan əlavə, Mədinə Məkkə tacirlərinin Suriyaya gedən ticarət yollarını təhlükə altına almaqla yanaşı, onların rahat öz işləri ilə məşğul olmalarına da imkan verməyəcəyini bilirdilər. Əbu Süfyanın rəhbərlik mövqeyi də Qureyşin nəzərində alçaldı. Ümumiyyətlə Qüreyş qəbiləsinin əzəməti digər

qəbilələrin nəzərində nüfuzdan düşdü. Gözlənilməz hadisənin baş verməsi bə’zi bədəvi ərəblərin İslama olan meylini artırdı və onlar artıq yəqin etdilər ki, qeyri-adi bir qüvvə müsəlmanlara yardım edir. Elə bu müharibədən sonra bütün hadisələr .müsəlmanların xeyrinə tamamlandı

Xəndək müharibəsi qurtardıqdan sonra Peyğəmbər (s) bəni Qureyzə qəbiləsinin üzərinə yürüş etdi. Qeyd etdiyimiz kimi, onlar Mədinə sazişinə əsasən müsəlmanlar əleyhinə qiyam etməsəydilər amanda qalacaqdılar, lakin onlar Xəndək müharibəsində İslam düşmənləri ilə birləşdilər. Aydındır ki, belə təhlükəli bir dəstə ilə xoş rəftar etmək olmazdı. Peyğəmbər (s) onları mühasirəyə aldı və onlar iyirmi beş gün keçdikdən sonra təslim oldular. Bəni Qurəyzə ilə həmsaziş olan Ous qəbiləsi Peyğəmbərə (s) dedi: “Bəni Qurəyzə bizim həmpeymanımızdır, gördükləri işdən də peşiman olublar. Onlarla Xəzrəc həmpeymanlarıyla davrandığın kimi rəftar et.” Göründüyü kimi, bəni Qəynuqa yəhudilərinin əsirlərini onların həmsazişi olan Abdullah ibni Ubəyyə bağışladı. Peyğəmbər (s) bəni Qurəyzə əsirləri haqda hökm çıxarmağı Ous qəbiləsinin başçısı Sə’d ibni Məaza tapşırdı. Bəni Qurəyzə bu işə razı oldu. Elə ki, Sə’d məclisə daxil oldu, Peyğəmbər (s) əyləşənlərə öz başçılarına ehtiram etmək üçün ayağa qalxmalarını əmr etdi və onlar da ayağa qalxdılar. Məclisdə əyləşənlərdən biri dedi: “Peyğəmbər (s) “öz başçınız” dedikdə mühacirləri deyil ənsarı nəzərdə tutmuşdur.” Sə’d bəni Qurəyzədən soruşdu ki, onun hakim olmağına razıdırlarmı? Onlar dedilər: “Bəli.” Sonra Peyğəmbər (s) o tərəfə üz tutaraq ehtiram əlaməti olaraq onun adını çəkmədən dedi: Burada iştirak edənlər necə razıdırlarmı? Peyğəmbər (s) dedi: “Bəli!” Sə’d dedi: “Mənim nəzərimcə onların kişiləri öldürülməli, qadın və uşaqları əsir götürülməlidir.” Sə’din çıxardığı hökmə əsasən xəndəklər qazaraq bəni Qurəyzənin kişilərini ora aparıb .başlarını bədəndən ayırdılar

İbni İshaq bəni Qurəyzə əhvalatının sonunu eynilə belə yazmış, Təbəri də həmçinin onun yazdıqlarını öz kitabında qeyd etmişdir. Lakin ٢٠٧-ci hicri ilində vəfat etmiş Vaqidi (tarixçi) bu hadisəni çox həyacanlı bir ifadə ilə yazmışdır. Bir tərəfdən o yazır: “Bir xəndək qazıldı və əsirləri dəstə-dəstə xəndəyin yanına gətirdilər. Əli (ə) və Zübeyr ibni Əvvam onların boynunu vurdular.” Digər tərəfdən isə belə yazır: Sə’d ibni Ubadə və Hubab ibni Munzər Peyğəmbərin (s) yanına gəlib dedilər: Ous qəbiləsi bəni Qurəyzə ilə

həmsaziş olduğundan onların öldürülməsi onları narahat edir. Sə’d ibni Məaz isə dedi: Belə deyildir. Əgər Ous qəbiləsindən hər kim bu işdən narahat olsa Allah ondan razı qalmaz. Sonra Peyğəmbərə (s) dedi: Bu əsirləri Ous qəbiləsinin arasında

bölüşdür. Hər ailə öz payına düşən əsiri özü öldürsün və birinci olaraq mənim evimə göndər və Peyğəmbər də (s) belə etdi. Əlli birinci hicri ilində anadan olub ١٢۴ hicri ilində vəfat etmiş İbni Şəhab Zöhri də Sə'din hökm çıxarmasına işarə etmiş, lakin məhkumların sayı barəsində mə'lumat verməmişdir. Yalnız ibni Əxtəbin ölümünü qeyd etmişdir. Bildiyiniz kimi, müəmmalarla əhatələnmiş bu əhvalat son əsrlərdə .şərqşünaslar, xüsusilə yəhudi İslamşünasların əlində bəhanəyə çevrilmişdir

Görəsən bu əhvalat necə olmuşdur, doğrudanmı Əli (ə) bir günün ərzində ٧٠٠ nəfərin boynunu vurub? Hadisənin bu tərzdə düzgün olduğunu qəbul etmək çox çətindir. İlk əvvəl bizi şübhəyə salan ölənlərin sayıdır ki, onların sayını ۶٠٠-dən ٩٠٠-ə qədər qeyd etmişlər. Bu doqquz yüz nəfəri Əliylə (ə) Zübeyr bir gün ərzində necə qətlə yetirə bilərdilər. Bəni Qurəyzə qəbiləsinin ümumi əhalisi nə qədər imiş ki, onun ٩٠٠ nəfərini həddi-buluğa çatmış kişi təşkil edib? Məgər o dövrdə Mədinədə və onun ətrafında nə qədər əhali yaşayırmış ki, onun dörd minini bəni Qurəyzə əhalisi təşkil edib? Gördüyünüz kimi, bəni Qurəyzə qəbiləsinin qətli hekayəsi Ousla Xəzrəc arasında qurulmuşdur. Belə ki, Ous qəbiləsi Peyğəmbərə deyir: Bizim həmpeymanlarımızla Xəzrəc qəbiləsinin həmsazişləri ilə davrandığın kimi rəftar et, yə'ni onları bizə bağışla! Lakin Peyğəmbər bağışlamayıb onlara hakimlik etməyi Sə'd ibni Məazın öhdəsinə qoydu. Bu hekayəti söyləyən bəlkə də Xəzrəc tayfasından olmuşdur və o, bu əhvalatı öz qəbəlisinin xeyrinə söyləmişdir. Bununla da o, öz qəbiləsinin Peyğəmbər nəzərində .Ous qəbiləsindən hörmətli olduğunu nümayiş etdirmək istəyib

Əsirlərin qətlə yetirilməsindəki müxtəlifliyə diqqət yetirilməlidir. İbni İshaqın dediyinə görə əsirləri xəndəklərin yanında qətlə yetirdilər. Vaqidi isə deyir: Əsirləri Ousdan olan ailələrə payladılar ki, onları qətlə yetirməklə Peyğəmbərin əmrinə tabe olduqlarını göstərmiş olsunlar. Bu məşhur əhvalat tarixi ziddiyyətlərə görə təhqiqatçı olan hər bir .kəsi tərəddüdə salır

Bundan əlavə biz, Peyğəmbərin (s) qabaqkı müharibələrində olan rəftarı ilə tanışıq. O, həmişə mehribançılığı, güzəştə getməyi intiqam və qətldən üstün tutmuşdur. Fərz edək ki, bəni Qurəyzənin sazişi pozduqları onu çox narahat etmişdir və onları bağışlamamışdır (belə bir fərziyyə təsəvvür edilməzdir). Ancaq Mədinəyə daxil olduğu ilk gündən hər iki Ous və Xəzrəc qəbiləsi ilə rəftarı eyni dərəcədə olmuş, onların hər

ikisinin istəklərinə bərabər səviyyədə cavab vermişdir. Belə bir məsələdə Peyğəmbərin (s) onlar arasında ayrıseçkilik salması ağıla sığmır. Bu işin

.hakimliyini Ous qəbiləsinin başçısına tapşırmağın özü təqdirəlayiq bir hadisədir

Həqiqət budur ki, Peyğəmbərin Yəsribə gəlişi ilə Ousla Xəzrəc arasında olan rəqabət aradan getdi və yalnız o həzrətin vəfatından sonra bu məsələ yenidən baş qaldırdı. Gələcək bəhslərdə görəcəksiniz ki, ixtilafın ilk nişanələri bəni Saidə adlanan məkanda baş vermişdi. Müaviyə hakimiyyəti ələ keçirdikdən sonra Qüreyş və mühacirlər keçmiş arzularına çatdılar. Onun göstərişi ilə tarixçilər və şairlər Mədinə əhalisini və ənsarı təhqir edən əsərlər yaratdılar. Ənsarı əzmək yollarından biri də Ousla Xəzrəc arasında olan keçmiş kin-küdurətləri oyatmaq olmuşdur. Ondan sonra bəni Üməyyə hökumətinin bütün ərazisində Peyğəmbər dövrünün bütün müharibələri, xilafət dövründə hicri qəməri tarixinin qırxıncı ilinə qədər olan mə'lumatlara əl gəzdirilmiş, Ənsarın xeyrinə olan mə'lumatlar isə dəyişdirilmişdir. ١٧٢ hicri ilində vəfat etmiş Zübeyr ibni Bəkar "Əl-müvəffəqiyyət" adlı kitabında Əbban ibni Osmandan bizim :sözümü təsdiqləyən bir əhvalat nəql etmişdir ki, onun xülasəsi belədir

Süleyman ibni Əbdülməlik vəliəhd olduğu dövrdə Mədinəyə gedərək Peyğəmbərin (s)" müharibə etdiyi meydanlara tamaşa etdikdən sonra Əban ibni Osmana Peyğəmbərin (s) müharibələri haqda bir kitab yazmasını tapşırır. Əban isə belə bir kitabın onda olduğunu deyir. Süleyman həmin kitabın üzündən köçürülməsini istəyir. Lakin kitabı oxuduqdan sonra ənsarın vəsfini görərək bəyənmir və onun yandırılması əmrini verir. Şama döndükdən sonra bu məsələni atası Əbdül Məliklə müzakirə etdikdə deyir: Çox düzgün iş görmüsən, Şam əhalisi belə sözləri eşidib Ənsarın fəzilətindən xəbərdar ".olmasalar yaxşıdır

Əgər bu əhvalat da düzgün olmasa demək olar ki, Abbasilər dövləti zamanı Zübeyr Müvəffəq və onun atası Mütəvəkkilin xoşuna gəlmək üçün bunu yazmışdır. Bunların heç biri düzgün olmayan surətdə bilmək lazımdır ki, birinci və ikinci əsrdə (yazılı sənəd olmayan dövr) ravilərin söylədiklərinə istinad etmək olmaz. Bəlkə hər rəvayəti digər .şahid və uyğunluqlarla müqayisə və ya tutuşdurmaq lazımdır

Görünür bəni Qurəyzə əhvalatı o hadisədən neçə illər sonra, mühasirəyə düşənlər öldükdən sonra Xəzrəc qəbiləsindən olan yazıçı tərəfindən təhrif edilmişdir. Bununla o, istəmişdir ki, Ousla Xəzrəcin Peyğəmbər (s) nəzərində bərabər səviyyədə olmadığını

göstərsin. Elə buna görə də o, Peyğəmbərin (s) Xəzrəc həmpeymanlarını öldürməməsini, Ous qəbiləsinin həmsazişlərini isə qətlə yetirdiyini

yazmışdır. Həmçinin Ous qəbiləsi rəhbərinin həmsazişlərinin hüquqlarına riayət .etmədiyini göstərmək istəmişdir

## AŞKAR QƏLƏBƏ VƏ YA HÜDEYBİYYƏ SÜLHÜ

Xəndək savaşından, bəni Qurəyzə yəhudilərinin təslimindən sonra altıncı hicri ilində müsəlmanların qələbəsi ilə bir neçə müharibə baş verdi. Müharibədə əldə olunan qənimətlərlə yanaşı İslamın qüdrəti yarımada əhalisinin nəzərində daha da ucaldı. Belə ki, bə'zi qəbilələr müsəlman olmağa, bə'ziləri isə İslam hakimiyyəti altında .yaşamağa razılıq verdilər

Artıq İslamın qüdrətini məkkəlilərə göstərməyin və onları İslama də'vət etməyin vaxtı gəlib çatmışdı. Qüreyş müqavimət göstərmədən müsəlman olsaydı həm özləri, həm də müsəlmanlar üçün xeyirli olardı. Bir tərəfdən onların nicatı müsəlman olmaqda idi, layiqli və təcrübəli Məkkə əhalisinin bu dini qəbul etməsi də gələcək üçün böyük əhəmiyyət kəsb etmiş olardı. Altıncı hicri ili zi-qə'də ayında Peyğəmbər (s) ١٥٠٠ nəfərlə ümrə ziyarətinə yollandı. Qüreyş həzrət Peyğəmbərin (s) məqsədindən agah olub onun qarşısını almaq üçün hazırlıq gördülər. Əvvəlcə Xalid ibni Vəlidlə İkrəmət ibni Əbi Cəhli yolladılar ki, onu Məkkəyə girmək fikrindən daşındırsınlar. Peyğəmbər (s) toxunulmaz ərazi sayılan Hüdeybiyyə adlanan yerdə dayanıb Məkkə əhalisinə xəbər göndərdi ki, müharibə etməyə deyil, ziyarət üçün gəliblər. Qüreyş isə qəbul etmədi. Nəticədə onunla Qüreyş nümayəndələri arasında on il bir-birləri ilə müharibə etməyəcəkləri haqda sülh müqaviləsi imzalandı. Həmin müqaviləyə əsasən müsəlmanlar həmin il Məkkəyə daxil ola bilməzdilər, lakin bir il sonra Məkkə əhalisi şəhəri üç günlüyə tərk edərək ziyarət etmək üçün şəhəri müsəlmanların ixtiyarına qoymalı idilər. Bu sülh sazişinin bəndlərindən biri də bundan ibarət idi ki, Məkkə əhalisindən hər kim Mədinəyə gedib müsəlmanlara qoşulsaydı Məkkəyə qaytarılmalı idi, ancaq bir nəfər Mədinə əhalisindən Məkkəyə getmiş olsa Qüreyş onun geri qaytarılmasına cavabdeh deyildir. Sazişin digər bir maddəsi belə idi: Hər bir qəbilə .Qüreyşlə və ya Həzrət Məhəmmədlə (s) saziş bağlamaqda azaddır

Peyğəmbərin (s) bə'zi səhabələri bu sazişin əhəmiyyətinə və nəticəsinə varmadan narahatçılıq yaradıb onu özləri üçün bir məğlubiyyət hesab etdilər. Lakin bu sazişin

imzalanması müsəlmanlar üçün böyük qələbə demək idi. Çünki bu günə qədər müşriklər Peyğəmbəri (s) və səhabələrini saya salmayaraq onların kökünü yer üzündən silmək istəyirdilər. Bu gün isə ancaq onu rəsmi tərəf müqabil kimi tanıyıb

onunla müqavilə bağlamışdılar. Həmçinin bu sazişdə qəbilələrin azad surətdə ya Həzrət Məhəmmədlə (s), ya Qüreyşlə saziş bağlamaq imkanı da qeyd edilmişdi. Belə olan halda əgər müsəlmanlar və ya Qüreyş hər iki tərəfin həmpeymanları ilə müharibə etmiş olsaydı bu saziş ləğv olunmalı idi. Görəcəyik ki, Məkkənin fəthi Qüreyşin bu şərti pozmağından irəli gəlmişdi. Bu sazişin imzalanmasından az bir müddət ötmüşdü ki, müsəlman olmuş bir məkkəli Hüdeybiyyə sazişinə əsasən Məkkəyə təhvil verilməli idi. Lakin o yolda qoruqçuların əlindən qaçıb Mədinəyə dönmək əvəzinə Qüreyşin Şama gedən karvan yolunun üstündə özünə mövqe hazırladı. Get-gedə Məkkə müsəlmanları ona qoşularaq Qüreyşin karvan yolunu təhlükə altına saldılar. Bu dəstəni geri qaytarmaq üçün heç bir qanun olmadığından məcbur olub onları bir neçə müddətdən sonra Mədinəyə çağırdılar. Beləliklə də qaçqınların geri qaytarılması ləğv olundu. Lakin ən maraqlısı budur ki, Qüreyş tərəfindən sazişin bir bəndinin pozulması .Məkkə şəhərinin fəthinə səbəb oldu

## XEYBəR MÜHARİBəSİ

Xeybər yəhudilərinin mövqeyi müsəlmanların nəzərində şübhə yaratmışdı. Sonuncu nahiyədə toplaşmış yəhudi dəstəsi ilə də münasibətləri aydınlaşdırmaq vaxtı gəlib çatmışdı. Belə ki, onlar bəni Qurəyzə məsələsindən sonra fitnə törətməyə əl atmış, bə’zi tarixçilərin israrına əsasən hətta Mədinəyə hücum etmək fikrinə düşmüşdülər. Hicrətin yeddinci ili Peyğəmbər (s) onları mühasirəyə alır. Bir neçə gündən sonra onlar təslim oldular. Amma Peyğəmbər (s) sürgün etmək əvəzinə onlarla saziş bağladı ki, .hər il əldə etdikləri məhsulun yarısını Mədinəyə göndərsinlər

## ALLAH EVİNİN ZİYARəTİ

Hicri qəməri tarixinin yeddinci ili zi-qə’də ayında Hüdeybiyyə sazişinə əsasən Peyğəmbər (s) Məkkəyə yollandı. Peyğəmbərlə (s) müsəlmanların Məscidül-hərama daxil olması, ümrə ziyarətini yerinə yetirmələri, müsəlmanların Peyğəmbərə (s) qoyduqları ehtiram, Qüreyşin gözündə daha böyük cilvələndi. Onlara təqribən aydın oldu ki, artıq Peyğəmbərə (s) müqavimət göstərmək iqtidarında deyillər. Uzaqgörənlər dərk etdilər ki, qəbilə başçılarının, tacirlərin ağalığı dövrü sona çatmış, xalqın üzünə yeni qapı açılmışdır. Elə buna görə də bu qəbilənin böyüklərindən olan Xalid ibni Vəlid

.və Əmr ibni As özlərini Mədinəyə yetirərək müsəlman oldular

səh:۷۴

## MU’Tə MÜHARİBəSİ

Hicrətin səkkizinci ili Peyğəmbər (s) Kə’b ibni Uməyr Ğəffarini Zat-ətlaha göndərir. Gedənlər orada bir dəstə adama rast gəldilər və onları İslama də’vət etdilər. Lakin onlar İslamı qəbul etməyib müqavimət göstərib ox atmağa başladılar. Onların .içərisində yalnız bir nəfər sağ qalıb gecə ikən qaçaraq özünü Mədinəyə çatdıra bildi

Zat-ətlah Şam sərhədlərinə yaxın bir yerdi. Müsəlmanlar yarımadadan kənara .çıxdıqlarına görə bu səriyyə böyük əhəmiyyət kəsb edirdi

Hicri səkkizinci il Cəmadiul-əvvəldə Peyğəmbər (s) Mu’təyə qoşun göndərdi. Mu’tə Rum imperiyasının işğal etdiyi ərazidə yerləşirdi. Qoşuna Zeyd ibni Harisə başçılıq edirdi və Peyğəmbər (s) dedi: Əgər Zeyd həlak olsa Cə’fər ibni Əbu Talib başçılığı öhdəsinə götürsün və əgər o da öldürülsə Abdullah ibni Rəvahə qoşuna başçılıq etsin. Qoşun Məad adlı yerdə düşmənin hazır olduğundan agah oldu. İbni Hişamın yazdığına görə imperiya qoşunlarının sayı yüz min nəfər olmuşdur. Müsəlmanlar bu xəbəri eşitdikdən sonra nə edəcəkləri haqda məşvərət etdilər. Abdullah ibni Rəvahə onları döyüşə ruhlandırdı, çünki burada iki faydadan biri əldə ediləcəkdi – ya şəhadət (şəhid olmaq) ya da qələbə. Bu döyüşdə qoşun başçılarının üçü də şəhid oldular və qoşun .Xalid ibni Vəlidi başçı seçdi. O da qoşunu hansı şəkildə olursa olsun Mədinəyə çatdırdı

## MəKKəNİN FəTHİ

Hüdeybiyyə sazişinin qərarına əsasən hər bir qəbilə istər Qüreyş olsun, istərsə də müsəlmanlarla saziş bağlaya bilərdi. Xuzaə qəbiləsi Həzrət Məhəmməd (s)-la, bəni Bəkr qəbiləsi isə Qüreyşlə saziş bağladılar. Hicrətin səkkizinci ili bu iki qəbilə arasında münaqişə baş verdi. Qüreyş bəni Bəkr qəbiləsini müdafiə edərək münaqişəyə qarışdı. Beləliklə Hüdeybiyyə sazişi pozuldu, çünki Qüreyş Peyğəmbər (s) həmsazişləri əleyhinə döyüşürdü. Əbu Süfyan başa düşmüşdü ki, onların bu hərəkəti cəzasız qalmayacaq, elə ona görə də özünü Mədinəyə çatdırdı ki, sazişi yenidən bərpa etsin, .ancaq iş-işdən keçmişdi

Hicərtin səkkizinci ili Ramazan ayında Peyğəmbər (s) on min nəfərlik qoşunla Məkkəyə yollandı. Yürüşü elə nizamlamışdı ki, heç kəs onun səfərindən xəbər tutmasın. Qoşun

Mərruz-zəhrana çatdıqda Peyğəmbərin (s) əmisi Abbas çadırdan bayıra çıxıb Məkkə əhalisindən bir şəxsi axtarırdı ki, Qüreyş həlak olmamışdan özünü Peyğəmbərə (s) çatdırmaq xəbərini göndərsin. Həmin gecə Əbu Süfyanla rastlaşdı, sonra onu

Peyğəmbərin (s) yanına gətirdi. Əbu Süfyan müsəlman oldu. Səhəri gün Peyğəmbər (s) Abbasa göstəriş verdi ki, Əbu Süfyanı münasib yerdə saxlasın ki, qoşunun gəlib keçməsini müşahidə edə bilsin. Əbu Süfyan müsəlmanların qüdrətini görüb Abbasa dedi: "Qardaşın oğlunun şahlığı böyümüşdür." Abbas dedi: "Vay olsun sənə, bu peyğəmbərlikdir, şahlıq deyil!" Dedi: "Bəli belədir!" Abbas Peyğəmbərə (s) dedi: Əbu Süfyan elə bir adamdır ki, güzəşt əldə etmək istəyir. Peyğəmbər (s) dedi: Hər bir şəxs evə girib qapını üzünə bağlasa amandadır. Hər bir şəxs Əbu Süfyanın evinə sığınsa amandadır. Hər bir kəs Məscidül-hərama getsə amandadır. Qoşun sakitcə Məkkəyə daxil oldu. İbni İshaqdan rəvayət edən ibni Hişam yazır: "Xəzrəc qəbiləsinin başçısı Məkkəyə daxil olan kimi dedi: Bu gün qırğın günüdür!" Bu gün ehtiramın alt-üst olan günüdür. Sə'd fikirləşirdi ki, Qüreyşdən və ya Ədnani tayfasından intiqam alacaq və Yəsrib əhalisinin qisasını məkkəlilərdən çıxacaq. Bu fikirin müsəlmanların arasında yayılmaması, eləcə də İslam fəthinin qəbilə kin-küdurətinə çevrilməməsi üçün Peyğəmbər (s) Əlini (ə) göndərib dedi ki, bayrağı ondan al və bu günü Mərhəmət günü e'lan et. Müsəlmanlarla Məkkə əhalisi arsında bir neçə münaqişə baş verib. Peyğəmbər (s) məscidə daxil oldu, yeddi dəfə təvaf edib minikdən düşdü və Kə'bə .evinin qapısı qarşısında dayandı

Əhali hacılara su paylamaq və qulluq göstərməkdən başqa hər şeyi unutmuşdular. Peyğəmbər (s) iki həftə Məkkədə qaldı şəhərin işlərini qaydasına saldı. Məkkənin ətrafındakı bütxanaları viran etmək üçün adam yolladı. Kə'bə evinə qoyulmuş bütləri isə sındırdı. Peyğəmbərin (s) rəftarı İslam güzəştinin ucalığını və bu dinin peyğəmbərinin alicənablığını rəqiblər qarşısında aşkar etdi. İyirmi il müddətində Həzrət Məhəmmədə (s) və müsəlmanlara heç bir işgəncəni əsirgəməyən Qüreyş bunun müqabilində cəza alacaqlarından qorxurdular. Elə ki, Peyğəmbərdən "sizin hamınızı azad etdim" (bağışladım) cavabını eşitdilər, həmin gündən İslam əleyhinə .deyil, müsəlmanlarla bir olub qeyri müsəlman əleyhinə vuruşmaq qərarına gəldilər

## HÜNEYN DöYÜŞÜ

Məkkənin təslim olub Qüreyşin müsəlman (istər razılıqla, istərsə də məcbur) olmasından sonra gərək münaqişə baş verməyəydi və ya ən azı Məkkə yaxınlığında heç bir qəbilə ayağa qalxmayaydı. Taifdə yaşayan Həvazin qəbiləsi ilə Səqif qəbiləsi

Peyğəmbərin (s) qoşununa hücum etmək üçün birləşdilər. Bu döyüşdə onların nə məqsəd güddükləri mə’lum deyildir. Hər halda düşmənin qoşunu müsəlmanlar müqabilində

çox az gözə çarpırdı. Müsəlmanlar düşməni ilk əvvəl məğlub edəcəklərinə şübhə :etmirdilər. Belə ki, Qur'anda bu barədə xəbər verir

Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn günündə kömək etdi. O gün çox" ".olmağınız sizi valeh etsə də, bir faydası olmadı

Lakin belə olmadı. Döyüşün başlanğıcında müsəlmanlar qaçdılar, lakin Peyğəmbər (s) və bir neçə Mühacir və Ənsardan olanlar müqavimət göstərdilər. Qaçanlar yenidən geri döndülər, sonda Həvazin qəbiləsi döyüşdən qaçdı. Arxada qalmış arvad-uşaqlar .əsir düşdülər, Peyğəmbər isə onların azad edilməsi əmrini verdi

Hüneyn döyüşündə əldə edilmiş qənimətləri bölən zaman yeni müsəlman olmuş döyüşçülər qənimət əldə etmək üçün tələsərək hətta Peyğəmbərin paltarını belə çiynindən oğurladılar. Peyğəmbər (s) buyurdu: "Ey camaat, mənim köynəyimi qaytarın! And olsun Allaha, Təhamə ağaclarının sayı qədər dəvə olsa hamısını sizə verərəm. Mən paxıl, qorxaq və yalançı deyiləm! Mən bu qənimətdən yalnız beşdə birini (xums) götürəcəm ki, onu da sizə qaytaracam. Sonra qənimətləri böldü və Qüreyş başçılarına da pay verdi ki, bəlkə İslamı qəbul edələr. Fiqhdə "muəlləfətun qulubuhum" ifadəsi bu .dəstəyə şamil edilmişdir

Bu müharibədə Təmim qəbiləsindən bir nəfər Peyğəmbərə (s) dedi: "Məhəmməd! Ədalətlə davran! Görürəm, ədalətdən çıxmısan!" Peyğəmbər (s) buyurdu: "Vay olsun sənə! Əgər mən ədalətli olmasam, kim ədalətə riayət edər?" Ömər ibni Xəttab dedi: "İzn ver onu həyasızlığına görə öldürüm." Peyğəmbər (s) buyurdu: "Xeyr, onu azad burax, tezliklə onun ətrafına adamlar toplaşacaq ki, öz dar düşüncələri sayəsində dindən çıxacaqlar." Zulxuvəysirə ləqəbli bu kişi Əli (ə) xilafəti zamanı "xəvaricin" sərkərdəsi olub və Nəhrəvan döyüşündə öldürülüb. Peyğəmbər (s) qənimətləri mühacirlər arasında böldüyü üçün ənsar arasınada da narazılıq yarandı. Sə'd ibni Ubadə Peyğəmbərin (s) yanına gəlib dedi: Ey Allahın elçisi, ənsar sənin bu rəftarından razı deyil. Qəniməti öz qövminə verdin, ənsara isə bir şey çatmadı." Peyğəmbər (s) buyurdu: "Sənin nəzərin nədir?" Dedi: "Mən öz qövmümdən biriyəm." Peyğəmbər (s) buyurdu: "Öz qövmünü səqifəyə topla." Ənsar toplaşdıqdan sonra Peyğəmbər (s) buyurdu: "Ey camaat, bu narazılıq sizdə mənə qarşı necə yarandı? Siz yoldan azmış

deyildinizmi? Allah mənim vasitəmlə sizi düz yola hidayət etdi. Ehtiyac içində idiniz sizi varlı etdi. Bir-birinizlə düşmən idiniz, sizi mehriban etdi.” Dedilər: “Bəli, Allahın və Onun peyğəmbərinin ne’mətləri bizim üçün bundan daha artıqdır.” Sonra dedi: “Mənə cavab vermirsiniz?” Dedilər: “Ey Peyğəmbər (s) nə deyək?” Dedi: “Deyin səni yalançı hesab etdikləri

halda biz səni doğru danışan bildik! Köməksiz idin sənə yardım etdik! Qovulduğun halda biz sənə sığınacaq verdik! Dəvriş kimi tək qaldığın halda səni özümüzdən hesab etdik! Ey ənsar, mən camaata azacıq dünya malı bağışladım ki, onların İslama rəğbəti çoxalsın; siz öz dininizə möhkəm bağlı olduğunuz halda bu işdən narazısınızmı? And olsun Allaha, mən Məkkədən Mədinəyə gələn gündən özümü ənsardan biri hesab etmişəm. Əgər bütün xalq bir yola, ənsar isə başqa bir yola üz tutsa mən ənsarla olacağam. İlahi ənsarı bağışla! Ənsarın övladlarını bağışla! Ənsarın övladlarının övladlarını da bağışla!” Bu sözlərdən sonra bütövlükdə hamısı göz yaşı axıtdı, hətta ağlamaqdan saqqalları belə islandı. Sonra isə dedilər: “Allah Peyğəmbəri bizim ”.payımıza düşdüyünə razıyıq

## TəBUK MÜHARİBəSİ

Hicri tarixinin doqquzuncu ilində baş vermiş hadisələrdən biri də Təbuk ğəzvəsidir. Peyğəmbərə (s) xəbər çatdı ki, Rum imperiyası Bəlqa adlı yerdə böyük qoşun toplayıb müsəlmanlara hücum etmək istəyir. İsti yay havası və meyvələrin təzə yetişən dövrü olduğundan əhali evdə əyləşib itsirahət etmək istəyirdi. Xəzinədə (beytül-mal) də bir şey gözə çarpmırdı. Peyğəmbər (s) adəti üzrə heç vaxt yürüş edəndə məqsədin nədən ibarət olduğunu qabaqcadan deməzdi. Lakin Təbuk döyüşündə qarşıya çıxan çətinliklərə görə e’lan etdi ki, rumlular üzərinə döyüşə gedəcəyik. Bir dəstə əhali dedi: :“İndi istidir, bu isti fəsildə getməyin!” Bu dəstə aşağıdakı Qur’an ayəsi ilə tənbih edildi

Bu istidə döyüşə çıxmayın!” – dedilər. (Ya Peyğəmbər!) De ki, “Cəhənnəm odu daha“ !istidir!” Kaş biləydilər

Bu ğəzvədə İslam qoşunun sayı ٣٠٠٠٠ nəfərdən ibarət olduğunu qeyd etmişlər. Müsəlmanlar bu günə qədər apardıqları müharibələrdə bundan yuxarı sayda qoşuna malik olmamışlar. Bu yürüşdə Peyğəmbər (s) Əli (ə) öz yerinə canişin tə’yin edir ki, onun işlərini yerinə yetirsin. Münafiqlər dedilər ki, Peyğəmbər (s) Əlini (ə) özü ilə aparmaq istəmirdi. Bu barədə Əli (ə) Peyğəmbərə (s) şikayət etdi, Peyğəmbər (s) isə buyurdu: “Mən səni öz yerimə xəlifə tə’yin etdim. Səninlə mənim aramda olan münasibət Harunla Musa (ə) arasında olan münasibət kimidir, sadəcə olaraq məndən sonra peyğəmbər gəlməyəcək.” Qoşun susuzluqdan əziyyət çəksələr də Təbuka

çatdılar, lakin rumluların döyüşə hazırlaşmaları xəbəri yalan çıxdı. Təbuk müharibəsi Peyğəmbər (s) hələ sağ ikən müsəlmanlarla qeyri-müsəlmanlar arasında baş vermiş sonuncu döyüş idi. Bunun ardınca bütövlükdə Ərəbistan təslim oldu. Hər

qəbilədən nümayəndələr gəlib onların İslamı qəbul etmələrini Peyğəmbərə (s) çatdırdılar. Təxminən demək olar ki, bütün qəbilələr müsəlman olmuşdular. Ona görə .də bu il Sənətul-vufud, yə’ni həmrəylik, birlik ili adlanmışdır

## ƏrəbistanIN BİRLİYİ

Yarımadanın coğrafi və ictimai mövqeyini şərh edən zaman şimal sakinləri ilə cənub sakinləri arasında ixtilaf və qəbilələr arasındakı düşmənçilik haqda mə’lumat vermişdik. Qeyd etdiyimiz kimi, belə bir mühitdə (şimalda) əsl mə’nada ictimai həyat tərzi mövcud deyildi. Ərəblər hakimiyyət birliyinin nə olmasını təsəvvür belə edə bilmirdilər. Bu ərazidə ən yüksək birlik bir nəsildən olan bir neçə qəbilənin birləşib digər .bir qəbilə ilə döyüşməsindən ibarət idi

Onuncu ilin əvvəllərində tarixdə yeni bir möcüzə baş verdi. Bütün həyatı boyu qan töküb, soyğunçuluqla məşğul olan xalq vahid hakimiyyət altında yaşamağa razı oldular. Doğrudur ki, Şam ətrafında bə’zi qəbilələr Rum imperiyasına tabe idilər. Qərbdə və cənubda bə’zi qəbilələr bütpərəst, xaçpərəst və ya başqa dinlərə ibadət edirdilər. Lakin qeyd etdiyimiz kimi, Hüneyn müharibəsindən sonra bir çox qəbilələr müsəlman olmuş və ya Həzrət Məhəmmədlə (s) birlik yaratmışdılar. Beləliklə, ərəb torpaqlarının daxilində müharibə, qan tökmək öz yerini birliyə, sülhə və əmin-amanlığa vermişdi. Əvvəldə qeyd etdiyimiz kimi, Peyğəmbər (s) Mədinədə mühacirlə ənsar arasında qardaşlıq telləri bağlayaraq bədəvilərin xislətlərindən birini cilovlamış, dinin inkişafı naminə İslam qardaşlığı yaratmışdı. Yarımadada vahid hakimiyyət yarandıqdan sonra onların digər xislətləri olan məğrurluq və kobudluq İslam yolunda, cihadda fədakarlıq və qəhrəmanlığa çevrildi. Bunun əsasında cahiliyyətdə mal-qaranı qorumaq və otlaqları ələ keçirmək üçün tökülən qanlar Allah yolunda və İslamın .inkişafı yolunda mübarizə ilə əvəz olundu

## YALANÇI PEYĞƏMBƏRLƏR

Peyğəmbərin (s) həyatının son illərinə aid olan tarixdə bir neçə yalançı peyğəmbərlərin adına rast gəlirik. O cümlədən Yəmamədə bəni Hənifə tayfasından olan Museyləmə, bəni Əsəddən olan Tuleyhə, Yəməndən olan Əsvəd Ənəsinin adını çəkmək olar. Bunlardan hər birisi öz qəbilələri arasında ətrafına bir dəstə adam toplayıb

peyğəmbərlik iddiasına düşdülər. Lakin sonda bir-birlərinin ardınca məğlubiyyətə .uğrayıb yoxa çıxdılar

Danılmaz faktlardır ki, tarixdə adı çəkilənlərdən başqa peyğəmbərlik iddiasına düşənlər də olmuşdur. Burada belə bir sual ortaya çıxır, görəsən meydana çıxmış bu peyğəmbərlər İslam peyğəmbərinin ١٣ il Məkkədə və ١٠ il Mədinədə xalqı İslama də'vət etdiyi dövrlərdə öz iddialarını aşkar etmədilər? Yuxarıda qeyd etdiyimiz kimi, İslamdan əvvəl ərəb birliyi (vəhdət) mümkün olmadığından və ya müəyyən müddət ərzində birlik əldə etdikdən sonra yenidən bir-birlərinə düşmən kəsildiklərindən, onlar bu iddialarını üzə çıxara bilmirdilər. Dini vəhdət sayəsində ərəb birliyi bərpa olunan zaman hakimiyyət sevdasında olanlar hökmranlıq üçün yeni fürsətin mövcud olduğunu hiss etdilər. Belə ki, onlar güman edirdilər ki, peyğəmbərlik iddiası etməklə əsl peyğəmbər ola bilərlər. Bu yalançı peyğəmbərlər bir müddət müsəlmanlar .qarşısında maneçilik törətsələr də sonda məhv oldular

## PEYĞəMBəRİN SON HəCC ZİYARəTİ

Hicrətin onuncu ili zi-qə'də ayında Peyğəmbər (s) həcc ziyarətinə yollandı. Bu səfərdə həcc hökmlərini xalqa tə'lim etdi. İslamdan əvvəl Qüreyşin özünəməxsus qanunu var idi. Kə'bə evinin pərdəsini və açarını əldə saxlamaq, hacılara su verib xidmət etməklə yanaşı digər qəbilələrdən fərqli olaraq ziyarət də edirdilər. Peyğəmbər (s) bu səfərdə Qüreyşin tə'yin etdiyi qanunu ləğv etdi. Cahiliyyət dövründə tə'yin olunmuş qanunlardan biri də bu idi ki, Kə'bə evini təvaf edərək pak paltar geyinmək lazımdır və Qüreyşdən alınan paltar yalnız pak ola bilərdi. Əgər Qüreyş birisinə təvaf paltarı verməsəydi o şəxs gərək paltarsız təvaf edəydi. Qüreyş digər hacılar kimi Ərəfatdan yola düşməzdilər. Onlar Muzdəlifədən köçərək bu üstünlüyü özləri üçün fəxr sayırdılar. Qur'an bu barədə ayə nazil edərək həmin üstünlüyü ləğv etdi. Camaat gördü ki, Həzrət Məhəmməd (s) Qüreyşdən olmasına baxmayaraq, digər əhali ilə birgə Ərəfatdan köçür. Bu səfərdə idi ki, o dedi: "Ey camaat! Bilmirəm gələn il sizi görə biləcəm ya yox?! Camaat! Cahiliyyət dövründə tökülən hər qana göz yumuram. Qiyamət gününə qədər malınız və qanınız bir-birinizə haramdır." Mədinəyə dönəndə Cöhfədə o yerdəki Misir, Hicaz və İraq əhalisinin yolları ayrılır – "Ğədir-xum" adlı məkanda ona Allahdan əmr gəldi ki, özünə canişin tə'yin et! Başqa sözlə peyğəmbərdən sonra İslam hökumətinin taleyi müəyyənləşməlidir. Peyğəmbər (s) sayı yüz min nəfər olan müsəlmanların arasında dedi: "Mən hər kəsin ağasıyamsa (rəhbəri, hamisi) Əli də onun ağasıdır. Ya Rəbbim, ona yaxın olana Sən də yaxın ol, ona

düşmən kəsilənə Sən də düşmən ol. Onu sevəni Sən də sev, onu

xar edəni xar et. Harada olsa haqqı ona rəva gör. Burada bu sözləri eşidənlər ”.(eşitdiklərini) burada olmayanlara çatdırsınlar

Həcc ziyarətindən qayıtdıqdan sonra İslamın əzəməti, vüqarı artır, Peyğəmbərin (s) sağlamlığı, səhhəti isə ağırlaşırdı. Movtə döyüşündəki məğlubiyyətin əvəzini çıxmaq üçün Usamə ibni Zeydin başçılığı ilə qoşun topladı. Anacaq bu qoşun yola düşməzdən əvvəl artıq Peyğəmbər (s) dünyasını dəyişərək Allah dərgahına qovuşdu. O həzrət vəfatından əvvəl Ərəbistan yarımadasında İslami birlik bərpa edərək Rum və İran .kimi iki böyük imperiyanın ortasında İslam dinini meydana gətirdi

## Peyğəmbərin (s) VəFATI

Bə’zi müsəlmanlar üçün Peyğəmbərin (s) vəfatına inanmaq heç də asan deyildi. Bu ilahi şəxs Allah adı ilə qalxaraq o günə kimi heç bir vəhdəti olmayan Ərəbistanda birlik və ittifaq yaratdı, bir-birlərinə düşmən kəsilmiş, öldürüb qarət etməkdən başqa bir iş bacarmayan ayrı-ayrı qəbilələri birləşdirdi. Dini qanunlar əsasında hökumət qurdu. O ərazidə daxili toqquşma və çəkişmələri ləğv edərək aradan apardı. Xalqı bir-birinə mehriban və qardaş etdi. Qısası, ondan əvvəl heç kəsin görə bilmədiyi bir işi yerinə yetirdi. Necə mümkündür ki, belə bir işlər görmüş şəxs adi insanlar kimi yaşaya və sonda ölə. Xeyr, bu mümkün deyildir. O ölməzdir, həmişə yaşardır. Bu sözlər Həzrət .Məhəmmədin (s) vəfatını eşidən bir dəstə adamların sözləridir

Tarixçilər yazırlar ki, Ömər Peyğəmbərin vəfat xəbərini eşidən kimi dedi: “Yalan sözdür. O ölməyib, Rəbbinin yanına gedib və tezliklə qayıdacaqdır. Kim “Peyğəmbər öldü” kəlməsini söyləsə onu öldürəcəm.” Əbu Bəkr tez özünü ona yetirib Qur’ani-kərimdən Peyğəmbərin (s) adi bir insan övladı olmasına dəlalət edən bir ayə oxudu və .onu bu iddiadan çəkindirdi

Sonra isə dedi: “Məhəmmədə (s) pərəstiş edənlər bilməlidirlər ki, Peyğəmbər artıq vəfat edib, bir daha geri dönməyəcək və yalnız Məhəmmədin (s) Rəbbi diridir və heç vaxt ölməyəcəkdir.” Müsəlmanlar çox tez bir zamanda acı həqiqətlə üzləşdiklərini anladılar. Peyğəmbər (s) artıq Rəbbinə qovuşmuşdu. Bəs onda müsəlmanlar nə etsinlər? Bu geniş bir ölkəni kim idarə etsin? Mə’lumdur ki, müsəlmanların bundan sonra dini rəhbərləri – yə’ni peyğəmbərləri olmayacaq. Çünki Peyğəmbər (s) özü

.buyurub ki, məndən sonra peyğəmbər yoxdur

Qur’ani-kərim də müsəlmanlara Məhəmmədin (s) sonuncu peyğəmbər olduğunu da ?çatdırıb. Bəs onda İslam ümmətinə rəhbərliyi kim öz üzərinə götürsün

## DÖRDÜNCÜ FƏSİL:PEYĞƏMBƏRDƏN (S) SONRA XİLAFƏT

### ƏBU BƏKRİN XİLAFƏTİ

Əli (ə) və Haşim övladları Peyğəmbərin (s) dəfninə məşğul ikən bə'zi qəbilə başçıları Peyğəmbərin iki ay bundan əvvəl dediklərini unudaraq ümmətə hakim tə'yin etmək (seçmək) fikrinə düşdülər. Məkkə (mühacir) və Mədinə (ənsar) əhalisindən bir dəstə adam bəni Saidə adlı məşhur eyvanın altında toplaşdılar. Onlar tez bir zamanda müsəlmanların hakimini seçmək istəyirdilər. Ancaq bu vəzifəyə kimi seçəydilər? Söhbətlər və mübahisələr başladı. Peyğəmbər (s) sağlığında onun də'vətini ilk gündən qəbul edənlər (mühacir) və onu Məkkədən Mədinəyə də'vət edənlərlə (ənsar) böyük problemin həlli məsələsində məşvərət edərdi. Eyvan altına toplaşanların fikri bu idi ki, müsəlmanların hakimi və ya xəlifəsi bu iki dəstənin arasından seçilməlidir. Hər iki dəstə – mühacir və ənsar özlərini digərindən ləyaqətli hesab edirdilər. Məkkə əhalisi deyirdi ki, İslam bizim aramızda və bizim şəhərdə meydana gəlib. Peyğəmbər bizim əhalidəndir, biz də onun qohumlarıyıq. Biz sizdən qabaq dini qəbul etmişik, beləliklə, müsəlmanların hakimi gərək mühacirlərdən olsun. Ənsar isə deyirdi: Məkkə bütövlükdə Həzrət Məhəmmədin (s) də'vətini qəbul etmədi. Onunla mübarizə və düşmənçilik apardı. Ona olmazın əzab-əziyyətini verdilər ki, məcbur olub Məkkəni tərk edib bizim yanımıza, Yəsribə gəldi. Bizlər ona yardım göstərib İslama rövnəq verdik, bəs müsəlmanların hakimi gərək ənsardan seçilsin. Ənsardan bir dəstə adam hökumətin hər iki dəstənin nümayəndələrindən təşkil olunması razılığını əldə edərək dedilər: "Bir nəfər sizdən, bir nəfər də bizdən hakim seçilsin." Lakin Əbu Bəkr bu təklifi qəbul etmədi və dedi: "Belə bir addım müsəlmanların birliyinə xələl gətirər." Sonda :peyğəmbərdən bu hədisi söylədi

İmamlar Qüreyşdəndir." Doğrudur ki, bu hədisin sənədi və sözləri barədə ixtilaf" mövcuddur. Lakin onun belə mühüm bir toplantıda söylənilməsinin böyük tə'siri oldu .və ənsarın iddiasına son qoyuldu

Əbu Bəkrin söylədiyi hədisdən əlavə, bu işdə Ous və Xəzrəc qəbilələri arasında olan keçmiş düşmənçiliklərin də mühacirlərin qələbə çalmasında az tə'siri olmamışdır. Belə ki, əgər ənsar hakimiyyətə sahib

.olsaydı, bu iki qəbilədən heç biri digərinin hakim olmasına razı olmayacaqdı

Xəzrəc qəbiləsindən olan Bəşir ibni Sə’din Əbu Bəkrin sözünü təsdiq etməsi, mühacirlərin hökumətinə razılıq verməsi bu narazıçılığın ən bariz nümunəsidir. Qüreyşin (mühacirlərin) hakimiyyəti aydınlaşdıqdan sonra hakim olacaq şəxs barədə söhbət ortaya çıxdı. Bu məclisi idarə edən iki-üç nəfər bu işi bir-birinin üzərinə qoydular. Lakin sonda Ömər və Əbu Ubəyyə Cərah Əbu Bəkri hakimiyyətə qəbul edib .onunla bey’ət etdilər. İştirak edənlərnin əksəriyyəti onların gördüyü işi qəbul etdilər

Səhərisi gün Əbu Bəkr peyğəmbər məscidinə gəldi. Ömər Əbu Bəkrin fəzilətli olması haqda, İslamı ilk vaxtlar qəbul etməsi, dinə yardımçı olması və Peyğəmbəri Məkkədən Mədinəyə gələn zaman müşayiət etməsi haqda xütbə oxuyaraq xalqın onunla bey’ət etməsini istədi. Toplantıda iştirak edənlər ənsardan kiçik bir hissəsi və peyğəmbərin yaxın qohumlarını çıxmaq şərti ilə qalanlar onunla bey’ət etdilər. Beləliklə, Əbu Bəkr xəlifə seçildi. Mühacir və ənsarın toplanıb Əbu Bəkri xəlifə tə’yin etməsi, başqalarının .da bunu qəbul etməsi işi gələcək üçün bir ən’ənəyə çevrildi

Əbu Bəkr həmin məclisdə çıxış edərək dedi: “Məni hakim tə’yin etməyinizə baxmayaraq, sizin içərinizdə ən yaxşısı deyiləm, bu məs’uliyyəti öhdəmdən götürməyə hazıram. Mən müsəlmanların işinin idarə olunmasında Allah kitabına və ”.peyğəmbər sünnəsinə istinad edəcəyəm

Əbu Bəkrə bey’ət etməklə müsəlmanlara rəhbər tə’yin edilməsi demək olar ki, sona yetdi. Ancaq belə seçki sonralar pis nəticə versə də Peyğəmbərin vəfatından az bir müddət keçdiyi üçün çox nəzərə çarpmışdı. Lakin o illər ötdükcə bu ilin xoşagəlməz tə’sirləri üzə çıxırdı. Şəhristani “Millətlər və təriqətlər” adlı əsərində yazır: “İslamda heç bir dövrdə imamət üstündə axıdılan qan başqa bir şey üstə tökülməyib.” Ənsar və mühacir arasında hakimiyyət üstündə olmuş ixtilaf demək olar ki, sona yetdi, lakin bu ixtilafın kökləri kiçik bir dəstənin ürəyində qalaraq bir əsrdən sonra aşkar oldu; onun .şö’ləsi şərqi İslam ölkələrini, bəlkə də bütövlükdə İslam dünyasını bürüdü

### ÇƏTİNLİKLƏRİN BAŞLANMASI

Keçmiş fəsillərdə qeyd etdik ki, İslam Məkkədə ikən din olaraq qalmış, Mədinədə isə

din əsasında hökumət də qurulmuşdu. Müsəlmanların bir çox ictimai işlərdə azad olmalarına baxmayaraq hökmlərin əsasını Qur’ani-kərim və vəhy müəyyən edirdi. Əgər bu

quruluş (din əsasında qurulmuş hökumət) səfa və səmimiyyəti, güzəşti ən əsası təqva .və ədaləti əldən verməsəydi bu gün müsəlmanların tarixi gözəl surətdə formalaşardı

Peyğəmbərin (s) vəfatı günü qəbilə başçılarının hakim seçilməsində tələsmələri, rəhbərin mümkün qədər tez seçilməsi fikrindən irəli gəlmişdir, lakin onlar hökumətin .necə idarə olunması haqda heç bir şey fikirləşməmişdilər

Doğrudur ki, bizim bu kitabımız qısaca da olsa İslam tarixi haqqındadır, lakin bir məsələyə heç göz yummaq mümkün deyildir. Görəsən müsəlmanların taleyini həll edən belə bir məşvərət məclisinə nəyə görə Peyğəmbər (s) ailəsindən adam çağırılmadı? Nəyə görə Haşimin övladlarından birini və ya bir neçəsini o məclisə də’vət ?etmədilər? Əsl həqiqətdə bu tələsgənlik nə üçün idi

Peyğəmbər (s) cənazəsi Aişənin evində idi. Yaxın adamları onun ətrafında toplanmışdılar. İslam fiqhinə (şəriət elmi) əsasən meyitin yuyulması və ona namaz qılınması gərək tez yerinə yetirilə. Müsəlmanın hər hansı bir müsəlman qardaşına namaz qılıb dəfnində iştirak etməsi bəyənilmiş əməllərdən hesab olunur. Bu ayin hər bir müsəlmana şamildir, həzrət Peyğəmbərə gəldikdə isə onun dəfninə biganə olmaq və bu mərasimdə iştirak etməməyə heç cür haqq qazandırmaq olmur. Bəs görəsən bu böyüklər nəyə görə özlərini belə bir fəzilətli işdən məhrum etdilər? Bəlkə fitnə baş verəcəyindən qorxub tezliklə müsəlmanlara rəhbər seçmək istəyirdilər. Lakin dəfn ?mərasimi nə qədər vaxt aparcaqdı

Bəlkə də o günlər bə’ziləri din əsasında qurulmuş İslam hakimiyyətinin yalnız bir tərəfinə - hökumət tərəfinə diqqət yetirmişlər. Ənsar tayfasının başçısının və digərlərinin söylədikləri bizim bu sözümüzü təsdiq edir. Orada söylənilənlər ilahi qanunlarla deyil, qəbilə quruluşu ilə uyğun gəlir. O toplantıda və ya ondan kənarda peyğəmbər ailəsindən olan rəhbərliyə səlahiyyəti çatan şəxslər nəyə görə hakim olmamalı idilər. Bunlar bir sıra suallardır ki, hələ də cavabı verilməmişdir. Verilən cavablar da həqiqəti aydınlaşdırmaq üçün deyil, höcət edənə qələbə çalmaq üçün .verilən cavaba oxşayır

O gündən ۱۴ əsr ötüb keçmişdir. Orada toplaşanlar bilmirəm İslamın qayğısına qalmış və ya müsəlmanların dağılmasından qorxub belə bir yolu seçmişlər. Hər halda onlar

haqq dünyadadırlar və onların hesabı artıq Allahladır. Lakin elə o gündə müsəlmanlar .arasında elə bir ayrılıq baş verdi ki, onlar hələ də birləşməyə müvəffəq ola bilmirlər

Əbu Bəkrə bey’ət etməyənlərdən biri də Xəzrəc qəbiləsinin başçısı Sə’d ibni Ubadə olmuşdur. Ömərin xilafəti zamanı Şama gedərək Hauranda yaşamış, günlərin bir günündə gecə yarısı onun ox yarasından öldüyünü görmüşlər. Deyirdilər ki, onu cinlər .öldürüb, hətta onun naməlum ölümü haqda şe’r də qoşdular

Sə’d, Əli (ə) və Haşim övladlarından başqa bir neçə səhabə də bir müddət Əbu Bəkrə bey’ət etmədilər. Bə’zi tarixçilərin yazdığına görə Əli (ə) peyğəmbərin vəfatından ۶ ay sonra, yə’ni Fatimənin (s) vəfatına qədər Əbu Bəkrə bey’ət etmədi. Lakin bu deyilənlər heç də həqiqətə yaxın deyil. Birincisi Fatimə (s) altı aydan tez olaraq vəfat etmiş, ikincisi Əli (ə) ümmət arasına düşə biləcək təfriqədən ehtiyat edərək bey’ət etməyi gecikdirməmişdir. Bundan əlavə, qövm başçıları hakimiyyəti möhkəmləndirmək .xatirinə onu bu müddət ərzində öz başına qoymadılar

Əbu Bəkrə bey’ət etməkdə tərəddüddə qalmış Abbas, Zübeyr və başqalarını müxtəlif yollarla bey’ətə vadar edib hakimiyyəti möhkəmləndirdilər. Xəlifənin seçilməsi ilə Mədinə sakitləşdi, ancaq bundan sonra həm xəlifə, həm də müsəlmanlar böyük .çətinliklərlə üzləşdilər

## DİNDəN ÇIXANLAR

Qeyd etdiyimiz kimi, yarımadada yaşayan bir çox qəbilələr, həmçinin Məkkə, Mədinə və Taif ətrafında məskunlaşmış tayfalar Məkkənin peyğəmbər müqabilində təslim olmasından və o günün böyük və güclü qəbiləsi olan Qüreyşin məğlubiyyətindən sonra müsəlman oldular. Qüreyş qəbiləsinin təslimindən sonra onlar İslamın qüdrəti müqabilində davam gətirə bilməyəcəklərini başa düşdülər. O andan peyğəmbərin .vəfatına qədər çox da uzun müddət ötməmişdi

Mə’lum olduğu kimi, öz qəbilələrinin müqəddəratını həll edən bir dəstə şeyxlər qorxudan və ya tamahdan müsəlman olmuşdular. Onların bə’ziləri peyğəmbərlə görüşmüş, əksər qəbilələrin əhalisi isə peyğəmbəri şəxsən görməmiş və onun dediklərini eşitməmişdilər. Bu az vaxt ərzində fürsət olmadığından peyğəmbər tərəfindən müəllim göndərilməmişdir ki, onları Allahın kitabı və İslam hökmləri ilə tanış etsin. Beləliklə, onlar İslam şəriətinin əsas mahiyyəti ilə tanış deyildilər. Bir çox qəbilələr İslamın vacib qanunlarından sayılan zəkatı ödəməkdə çətinlik çəkirdilər. Belə

ki, heç bir qayda-qanuna baş əyməyən səhra sakinləri zəkatı bir növ bac hesab edirdilər. Onlar peyğəmbərin vəfat xəbərini eşitdikdən sonra baş qaldırıb əmrdən çıxmağa başladılar. Qeyd olunduğu kimi

peyğəmbərin həyatının son illərində bir neçə yalançı peyğəmbərlər də xalqı aldadaraq öz ətrafına toplamışdılar. Bir dəstə adamlar Əbu Bəkrin əmrinə tabe olmaqlarından .əsla xəbərləri yox idi

Məkkədə yaşayan Qüreyş, Taifədə yaşayan Səqifə qəbiləsi İslam dinində qaldılar. Peyğəmbərin vəfatı xəbəri Məkkəyə çatdıqda şəhərin hakimi Əttab ibni Usəyd qorxusundan qaçıb gizləndi. Şəhər böyük bir nigarançılıqla üzləşdi; hamı qorxurdu ki, Məkkə əhalisi də dindən üz döndərəcəkdir. Elə bu an Süheyl ibni Əmr Kə’bə evinin qapısı qarşısında dayanıb ucadan qışqırdı: “Ey Məkkə əhalisi! Məbada siz sonuncu müsəlman və ilk olaraq dindən üz döndərənlərdən olasınız! And olsun Allaha ki, İslam dininin işləri düzələcək, Peyğəmbərin və’dəsi yerinə yetəcəkdir.” Süheylin bu çıxışı Məkkənin İslam dinindən üz döndərməməsinə səbəb oldu. Bu həmin Süheyl idi ki, ٥ il əvvəl Hüdeybiyyədə sülh sazişi imzalandıqda “Bismillahir-rəhmanir-rəhim” kəlməsini gördükdə demişdi: “Mən Rəhman, Rəhim tanımıram. Mən Məhəmmədi (s) peyğəmbər saymıram.” Lakin bu qısa müddət ərzində başa düşmüşdü ki, yeni dinin müqabilində müqavimət göstərmək faydasız və qəbilə hakimiyyətini bərpa etmək isə imkansızdır. Qüreyşdən olan bə’ziləri imanlı müsəlman olmuş, qəbilə başçılarının bir çoxu isə öz xeyirlərini müsəlmançılıqda görüb xəlifə ilə həmkarlıq edirdilər. Nəcd, Yəmamə və bəni Təğləb qəbilələri yalançı peyğəmbərlərin ətrafına toplaşdıqdan sonra bu peyğəmbərin .fəaliyyəti rövnəq tapmışdı

Əbu Bəkr hakimiyyətə çatdıqdan sonra hər an dindən çıxan üsyankarların Mədinəyə hücumu gözlənilirdi. O, səy göstərib Usamənin qoşununu Mu’təyə göndərmək istəmədi, lakin Usamə və bə’zi böyük səhabələr ona e’tiraz edib cavab verdilər ki, nəyin bahasına olursa-olsun, gərək bu iş yerinə yetirilə. Çünki Peyğəmbər ömrünün son günlərində bu qoşunu yola salmaq istəyirdi. Mən onun sünnəsinin əksinə çıxa bilmərəm. Nəhayət Usamənin qoşunu hərəkət etdi. Sonrakı hadislərdə üsyançıların yerinə oturdulmasında bu işin nə qədər tə’sirli olduğunu göstərdi. Onlar öz-özlərinə dedilər ki, əgər İslam böyük qüvvəyə malik olmasaydı Əbu Bəkr bu çətin şəraitdə .qoşunu uzaq bir səfərə göndərməzdi

Usamənin qoşununu yola saldıqdan sonra xəlifə və dostları iğtişaşları bir-birinin ardınca yatırtmağa çalışdılar. Ərəbistanda sakitlik yaratmaq üçün Xalid ibni Vəlidin

böyük rolu olmuşdur. Ancaq o, cəsarətli insan olmasına baxmayaraq, heç də təqvalı bir müsəlman deyildi. Nəhayət peyğəmbərlik iddiası edənlər, o cümlədən Tuleyhə, Səcah, ,Müsəyləm

Əyas ibni Abdullah bir-birinin ardınca ya tutuldular, ya da qaçıb aradan çıxdılar. Cənub və şərqdə yerləşən şəhər və qəbilələr yenidən Mədinənin hakimiyyətinə tabe oldular. .Həzrə-Maut sakitləşdi, Yəmən də kiçik münaqişədən sonra təslim oldu

İğtişaşlar yatırıldıqdan sonra baş vermiş ən mühüm hadisə bu oldu ki, artıq bədəvilər və qəbilə başçıları başa düşdülər ki, müqavimət göstərməyin və daxili münaqişələrin sonu gəlib çatmışdır. İslam hökumətinə tabe olub Əbu Bəkrə itaət etmələrinin onların xeyrinə olduğunu hiss etmişdilər. Nəticədə əqidəvi ictimai vəziyyətin dəyişməsi ilə tarixdə "Rəddə" müharibəsi adı ilə məşhurlaşmış daxili çəkişmələr sona yetdi. Qəbilələrdən təşkil olunmuş qüvvələr meydana gəldi ki, İslam adı ilə Mədinədə əyləşmiş xəlifəylə müharibə etməyə başladılar. Daxili çəkişmələrin alovu yatırıldıqdan sonra təşkil edilmiş döyüşkən dəstələr özlərini iki böyük imperiyaya qarşı döyüşə hazırladılar (Rum və İranla). Çox həssas bir şərait yaranmışdı, – müsəlman ərəblərin .İran və Rumla döyüşəcəkləri qəti bir məsələyə çevrilmişdi

## İRANDA İSLAM

Səhra sakinlərinin xislətlərini sadaladıqda yaşadıqları mühitin icbari olaraq onlara daimi münaqişədə olmaq və döyüşkənlik əxlaqını öyrətdiyini qeyd etdik. İslamı qəbul etdikdən sonra isə onlar dini tə'limlər nəticəsində öz aralarındakı kin-küdurəti kənara qoyub onu qardaşlıqla əvəz etmişdilər. İslam dini yolunda döyüşməyi özləri üçün vəzifə sayırdılar. Keçmişdə dəvə və qoyun mübahisəsinə görə qan tökülürdüsə, indi artıq Allah yolunda fədakarlıqlar göstərilirdi. Beləliklə, təşkil olunmuş qüvvə İran sərhəddində yerləşdi. Artıq ya qələbə, ya da ki, şəhadət şüarı ilə dinə möhkəm bağlı .olan bir qüvvə müharibə meydanına qədəm qoyurdu

Keçən fəsillərdə qeyd etdik ki, cənub dövlətləri dağıldıqdan sonra bir dəstə əhali yarımadanın ayrı-ayrı məntəqələrinə hicrət etmişdilər. Onlar Ərəbistanın şimalında və ya şərqində yaşamağa münasib yer tapıb məskunlaşdılar. Xarici qüvvələrin (İran və Rum) nüfuzu Ərəbistanın daxilində genişləndikcə bu iki imperiyanın sərhəddinə yaxın ərazidə yaşayanlar onlara qoşularaq iki imperiya arasında müharibə baş verəndə yaxın olduğu qüvvəni müdafiə edərək ona köməklik göstərirdilər. O vaxtlar bu günkü İraq ərazisi Sasani hökumətinə tabe idi. Həmçinin çöldə yaşayan qəbilələrin İrana

daxil olmasının qarşısını almaq üçün bir maneə sayılırdı. Xosrov Pərviz buradakı yerli hökuməti məhv etdikdən sonra qəbilələrin qarşısında artıq maneə gözə çarpmırdı.

Xosrov Pərvizin hakimiyyəti dövrü Bəkr ibni Vail ilə Şəyban tayfalarının ərəb tarixində Zi-qar adı ilə məşhur olmuş münaqişədə onlar İran qoşununu məğlub etdikdən sonra yarımadanın şərq nahiyəsində məskunlaşmış ərəblər belə bir fikrə düşdülər ki, Sasani .qoşununa qalib gəlmək çox da çətin deyilmiş

Keçmiş tarixçilərin yazdığına əsasən Bəkr ibni Vail qəbiləsinin rəhbəri Musənna ibni Haris Şəybani hicri tarixi ilə doqquzuncu ildə müsəlman olaraq öz qəbiləsi ilə birlikdə Fərat çayı sahilində yaşayırdı. Fürsət düşdükcə o İranla həmsərhəd ərazilərə hücum edərdi. Əbu Bəkrə məktub yazıb İranın daxili vəziyyətinin korlanmasından, ölkənin idarə olunmasında Sasani şahlarının zəifləməsindən xəbər verərək bu dövlətin işğal etdiyi ərazilərə hücum etmək üçün icazə istədi. Xəlifə icazə verərək Xalid ibni Vəlidi qoşuna əmir tə'yin etdi. Tutaq ki, verilən mə'lumat düzgündür və ya Musənnanın özünün Mədinəyə gedib İranın daxili vəziyyəti haqda mə'lumat verməsi də həqiqətdir. Amma mə'lumdur ki, ilk əvvəl nə xəlifə, nə sərkərdələr və nə də peyğəmbərin yaxın adamları İrana qoşun yürütmək fikrində olmamışlar. Bildiyiniz kimi, İslamdan əvvəl Ərəbistanın daxilində baş vermiş müharibələr kiçik münqişələrdən ibarət olmuşdur. Bu münaqişələrdə bir qəbilə bir neçə qəbilə ilə ittifaq bağlayıb öz düşmənlərinə hücum edərdilər. Belə müharibələrdə köməkçi qoşuna, geniş və uzun müddətli planların qabaqcadan hazırlanmasına ehtiyac duyulmurdu. Peyğəmbər (s) zamanı baş vermiş müharibələr də müəyyən hüdud və müddət çərçivəsində olmuşdur. Demək olar ki, İrana qoşun yürütmək də müdafiə xarakteri daşıyırdı. Cisr Yuvəyb və həmçinin Qadisiyyə döyüşlərində İran ordusunun məğlubiyyətindən sonra məhz xəlifə və onun məsləhətçiləri ölkələri fəth etməyi genişləndirmək fikrinə düşdülər. Çox tezliklə əldə edilən qələbələr İrandakı məhəlli hökumətləri qorxuya saldı. Onlar artıq yəqin etdilər ki, belə bir qüdrətli orduya müqavimət göstərmək gücünə malik deyillər və müsəlmanların qorxusu onların ürəyinə elə hopmuşdu ki, silahın ərəb əsgərlərinin bədəninə əsər etmədiyini güman edirdilər. Bu yürüşdə ərəb qəbiləsinin ən başlıca amili kimi onların güclü imana malik olmasından əlavə, İrandakı ictimai-siyasi durumun da .tə'sirini nəzərdən qaçırmaq olmaz

İranın o dövrdəki ictimai-siyasi vəziyyətini təhlil etdikdə Zi-qar döyüşündən sonra ərəblərin bu ölkə barədə düşündüklərinin həqiqətə uyğun olduğu aydınlaşır. Sasani

hökmdarlarının son dövrlərində xalq ağır vəziyyətlə üzləşərək bu durumdan yaxa .qurtarmaq istəyirdilər

səh:۸۸

Xosrov Pərvizin ölümündən üçüncü Yəzdəgerdin taxta əyləşməsinə qədər hələ dörd il ötməmişdi. Bu ötən dörd il ərzində Buraz şəhərinin şahını hesaba almasaq, bir-birinin ardınca ١١ nəfər şahlıq taxtına əyləşmişdi. Hakimlərin bu sür'ətlə bir-birini əvəz etməsi son illərdə siyasi durumun nə qədər qeyri-sabit olduğunu göstərir. Bu hadisələr belə bir geniş imperiyanın yalnız şah sarayını qorumaqdan başqa heç bir qüdrətə malik olmamasından xəbər verir. İlk illəri çıxmaq şərtilə İranla Rum arasında iyirmi il müddətində baş vermiş müharibələrdə həmişə zərər çəkmiş və xalq da təzyiqlərə məruz qalmışdı. Bu müharibələrdə çoxlu sayda insan tələfatı olmuş, neçə şəhər və kəndlər viran edilmiş, müharibənin xərcini ödəmək üçün uzun illər boyu xalqdan nə qədər vergilər tutulmuşdur! Şəhər yollarının qorxulu olması, ticarətin pisləşməsi, iqtisadi böhran və ümumiyyətlə hər bir amil təklikdə xalqın dövlətdən giley-güzar edib narazı qalmaları üçün kifayətdir, o ki qalmışdı bu problemlərin hamısı meydana çıxmış .olsun

Aydındır ki, belə bir vəziyyətdə hakimiyyəti xalq çevrilişindən qorumaq üçün casus şəbəkələrindən istifadə olunur və əhali də onların təhlükəsindən amanda qalmaq üçün zahirdə bir cür, batində isə bir ayrı cür olmalı idi. Onlar üzdə hökumətə vəfalı (tərəfdar), gizlində isə narazı olub azad olmaq arzusu ilə yaşayırdılar. Belə bir cəmiyyətdə hökumət və xalq bir-birlərini aldadır, öz həqiqi şəxsiyyətlərini gizlətməli .olurdular

Əgər Muğəyrə ibni Şö'bənin İran sərkərdəsi Rüstəmlə görüşü haqda deyilən dastan doğru olsa, ərəb sərkərdəsinin bu məclisdə dediklərinin tə'siri böyük bir ordunun .vurduğu zərbədən ağır olmuşdur

Təbəri yazır: "Muğəyrə Rüstəmin sarayına daxil olarkən gəlib onun taxtının üzərində əyləşdikdə keşikçilər onu oradan yerə salırlar. Muğəyrə deyir: "Biz sizin haqqınızda çox dastanlar eşitmişik, lakin ağılsız olduğunuzu bu gün dərk etdik. Biz müsəlmanlar bərabər hüquqa malik

insanlarıq, bizlərdən heç biri digərini özünə kölə etməz. Mən güman edirdim ki, siz də bizim tək xalqla bərabər hüquqa maliksiniz, ancaq indi başa düşdüm ki, sizin bə'ziləriniz digərlərinə allahlıq edir. Sizin aqibətiniz xeyirli olmayacaqdır." Həqiqətən də bərabərlik müjdəsi səbəb oldu ki, ٢٥ il ərzində ərəb qoşunları Fərat sahilindən Hirmənd çayı sahilinə qədər çata bildi. İranın "Şahnamə" yazanları İran ordusunun Qadisiyyə müharibəsindəki məğlubiyyətini yersiz olaraq havanın yaxşı olmaması ilə əlaqələndirmişlər. (Keçmişdə İran ordusunun yürüşündəki məğlubiyyəti belə şeylə əlaqələndirmələri nəzərə çarpır). Lakin heç bir tə'sir kiçik bir qoşunun az bir müddət ərzində geniş bir ölkəni işğal etməsində xalqın öz vəziyyətindən narazı olması qədər .tə'sirli olmamışdır

Hirədən İrana üz tutan qoşunun sayını ٨٠٠٠-dən ١٠٠٠٠-ə qədər yazmışlar. Lakin ٨٠٠٠-in özü də şişirdilmiş rəqəmdir. Belə bir rəqəmin doğru olduğunu fərz etsək belə, onlar sərhəd yaxınlığında yerləşmiş İran ordusundan yenə az idi. Əsgərlərin böyük əksəriyyəti piyada olmuş və nizədən başqa silahları olmamışdır. Necə oldu ki, belə kiçik bir qüvvə az bir zamanda böyük qələbələrə nail oldu. Danılmaz həqiqətdir ki, ərəb ordusunu hərəkətə gətirib ona arxa olan dini qüdrət olmuşdur, yalnız çox kiçik bir hissə qənimət üçün vuruşardı. Ancaq belə bir geniş ölkədə bə'zi müqavimətləri çıxmaq şərti ilə bütövlükdə əhali (xalq) tərəfindən heç bir əks-əməl göstərilmədi. Bu məsələ .onların Sasani hökumətindən narazı olmalarını göstərir

Xalid və Musənna dindən çıxmışları tənbih etdikdən sonra işləri Hirəyə və Fəratın qərb .sahilində yerləşən şəhərlərə tərəf irəliləməkdən ibarət idi

Qeyd etdiyimiz kimi, Musənnanın istəyi ilə Əbu Bəkr bu günkü İraq ərazisinə irəliləmək əmrini verdikdə müsəlmanların ilk növbədə nəzərini Hiyrə cəlb etdi. Hiyrə bu günkü Nəcəf şəhəri ilə Kufə arasında yerləşən bir şəhər idi. Ərəb ordusu oraya yollandıqda şəhərin hakimi barışıq edib doxsan min dirhəm ödəyərək tabeliyində olan ərazini hücumdan qoruya bildi. Deyilənlərə görə bu, İslamda ilk dəfə olaraq sülhlə əldə edilən müvəffəqiyyət olmuşdur. Hiyrədən sonra bə'zi şəhərlər, o cümlədən Abilə, Eynüttəmr .də döyüş və ya sülh müqaviləsi ilə təslim oldular

Təbəri və Bilazərinin (tarixçi) yazılarında bir şəhərin bir neçə dəfə fəth olunmasında və

ya müharibələrin tarixində müxtəlifliyə rast gəlinir. Görünür keçmiş tarixçilər baş vermiş hadisələrin tarixini dəqiq yazmağa əhəmiyyət verməmişlər. Bundan əlavə, ehtimal olunur ki, fəth olunmuş şəhərlərdən bə’zisini yenidən İran qoşunu geri almış və ya yerli əhali

üsyan etdikdə ikinci dəfə qoşun üsyançıları yatırtmaq üçün yenidən şəhərə daxil olmuşlar. Təbii ki, belə olduqda bir şəhər, kənd və ya məntəqə bir neçə dəfə əldən-ələ düşmüşdür. Bununla da bir şəhərin fəth olunma tarixi başqa-başqa formalarda .yazılmışdır

Hiyrənin fəthi sona yetdikdən sonra Əbu Bəkr Xalidi İraqdan çağırıb Şamda yaşayan müsəlmanların köməyinə göndərdi. Yazılanlara görə Xalid icazəsiz olaraq həccə getmiş, bu işə görə Əbu Bəkr onu danlamış və cəzalandırmaq üçün İraq ordusuna rəhbərlik vəzifəsindən azad etmişdir. Lakin bu heç də məntiqi səbəb ola bilməz. Çünki Əbu Bəkr və onun müşavirələri çox uzaqgörən olmuşlar və bilirdilər ki, belə çətin anda layiqli sərkərdəni iş başından uzaqlaşdırmaq olmaz. Həqiqətə uyğun olan budur ki, Hiyrədə bağlanan sülh Ənbar və Əynüttəmr şəhərləri tutulduqdan sonra müsəlmanların şərq nahiyəsində mövqeləri möhkəmləndi. Digər tərəfdən də göndərilmiş qoşunun Rum imperiyası tərəfindən məğlub edilməsi təhlükəsi olduğundan Əbu Bəkr Xalidi Şama göndərir. Şamda baş verən hadisələrdən də .mə'lum olur ki, Xalidin vəzifəsinin dəyişilməsi müsəlmanlar üçün çox faydalı olmuşdur

Xalidin İraqdan getməsi ilə Musənna orduya başçılığı öz üzərinə götürdü. O, Hiyrədən .Babilə (bu gün onun ətrafında Hillə şəhəri tikilən yerə qədər) tərəf yollandı

Təbəri yazır: Elə bu zaman Şəhrburaz ona bu məzmunda məktub yollayır. Səninlə vuruşmaq üçün donuz otaran və toyuq saxlayanları göndərəcəyəm. Musənna isə cavabında yazır: Bu iki haldan xaric deyil: Sən ya zülmkar və təcavüzkar, yaxud da yalançısan. Bil ki, Allahın və xalqın nəzərində ən yalançı və rüsvayçı adam şahlardır. Belə mə'lum olur ki, çarəsizlikdən bu işi görürsən. Şükür olsun Allaha ki, sənin hiylən .donuz otaran və toyuq saxlayanlara sirayət edib

Əgər belə bir məktubun Musənnaya yazılması doğru olsa (qətiyyən doğru deyil), Şəhrburaz İran sərhəddini qoruyan qoşun başçılarından biri olub. İbni Əsir (tarixçi) onun adını Şəhiran Kəsra yazmışdır ki, bu doğru deyil, çünki Sasani sülaləsinin arasında Şəhiran adına rast gəlinməyib. Onu da qeyd etmək lazımdır ki, müsəlmanlar İraqa hücum etməzdən qabaq onu qətlə yetirmişdilər. Daha düzgünü budur ki, əgər belə bir məktub yazılmışdısa da, Musənnaya deyil, Şəhburaz Tisfuna hücum edib

üçüncü Ərdəşiri öldürdükdən sonra İran imperiyası ərazisinə bə’zən hücum edən ərəb .sərkərdələrindən birinə yazılmışdır

İraqdakı döyüşlər yavaş-yavaş müsəlmanların xeyrinə sona yetməkdə ikən, ١٣-cü il cəmadiul-axir ayında Əbu Bəkr vəfat etdi. Tarixdən mə’lumdur ki, o, vəfat etməmişdən əvvəl Ömər ibni Xəttabı xəlifə tə’yin

etdi. İraq ərazisindəki müsəlmanların sür’ətlə irəliləməsi İran müdafiəçiləri və sərkərdələrində belə bir təsəvvür oyatdı ki, ərəblərə qarşı fikirləşdikləri qədər müqavimət göstərmək asan deyilmiş. Digər tərəfdən isə ərəb ordusunu da Sasani .hökumətinin əsas torpaqalarına hücum etməyə ruhlandırdı

Ərəblərin irəliləməsində və ölkələrin fəth olunmasında ən başlıca amil Peyğəmbərin tə’limləri ilə onlarda yaranan iman hissi, bir də qeyri müsəlmanlarla döyüşdə iki qələbədən birini (qalibiyyət, ya da şəhadət) əldə edəcəklərinə e’tiqadlı olduqları olmuşdur. İran ordusunun müqavimət göstərməsi və ya ardıcıl olaraq məğlubiyyətə uğramaları daxili səbəblərdən irəli gəlirdi. Tarix özü şahiddir ki, ölkə başçıları və sərhədçilər nə qədər çalışsalar da əsgərləri müqavimət göstərməyə vadar edə ?bilmirdilər. Görəsən bu ümidsizlik və soyuqluq nədən irəli gəlirmiş

Ümumilikdə keçmişdə baş vermiş münaqişələrə nəzər saldıqda bu nəticəyə gəlmək olur ki, məğlubiyyətə səbəb olan amilin ən başlıcası hücum edənin qüdrətindən daha çox, xalqın hakimiyyətdən narazı qalmaları olmuşdur. Xüsusilə, ərəblərin hücumu zamanı xalq sadə əsgərləri yenilməz və qüdrətli bir qoşun təsəvvür edirilər. Digər tərəfdən isə xalq sinfi bərabərsizliyin hakim kəsildiyi bir vaxtda İslam ədaləti haqda xəbərlər eşidirdilər. Əgər bu münaqişələrdə xalq həqiqətən dövlət və ordu başçıları ilə həmrəy olub, İslam əsgərlərinə yolu açmasaydılar, bəlkə də kiçik bir vaxt ərzində ardıcıl məğlubiyyətə düçar olmazdılar. İran sərkərdələri, o cümlədən Hörmüzan, Bəhmən Cadviyə və Rüstəm Fərroxzad feodal və sərhəd qoşunlarını ərəb qüvvələrinin qarşısını almağa ruhlandırmalarına baxmayaraq ümumi kütlə onlardan narazı idi. Hər halda Musənna Xalidin işini davam etdirirdi. Həmçinin Ömər Əbu Ubeydə Səqəfinin .başçılığı altında ona kömək üçün yenidən bir qoşun da göndərdi

Bu dövrdə İranın şahı üçüncü Yəzdəgerd idi. O, işgüzar, şücaətli və iradəli bir cavan idi. Az bir müddət ərzində dağınıq Sasani sarayına əl gəzdirdi. Belə mə’lum olur ki, ölkənin daxilindən və xalqın vəziyyətindən düzgün surətdə mə’lumat əldə etməmiş və ya əhalinin hökumətdən narazı olması haqda xəbərdar olmamışdır. Ancaq xəbəri olsaydı belə, bundan artıq bir iş görə bilməzdi. Yəzdəgerd xalqın İslam dinini və ərəb ordusunu ölkənin ayin və ordu başçılarından üstün saymalarının səbəbini öyrənmək əvəzinə, böyük bir ordunu müsəlmanların hücumunun qarşısını almaq üçün yollayırdı. Əlbəttə

ki, o, bu addımı atanda riyakar müşavirlərdən də məsləhət almışdı. Onun ordusunun başçıları layiqli olmalarına baxmayaraq, biri digərinin ardınca

məğlub edilib öldürülmüş və ya müsəlmanlarla sülh müqaviləsi bağlamışlar. Yalnız Cisr döyüşündə iranlılar qələbə əldə edə bildilər. Qoşunun başçısı Bəhmən Cadaviyə Fərat çayının şərqində mövqe tutdu. Bu döyüşdə onlar özləri ilə bir neçə fil də gətirmişdilər. Ərəb atları bu iri cüssəli heyvanı görüb hürkərək dağılışdılar. Qoşun başçısı Əbu Ubeydə qılınc çəkib döyüş fillərinə hücum etdi, lakin fillərin ayaqları altında qalıb öldü. Ərəblər başçının öldüyünü görcək qaçmağa başladılar. Müsəlmanlardan biri qoşunun düşmən müqabilində qaçdığını görüb körpünü sındırıb onları hücum etməyə çağırdı. Ancaq bunun da bir faydası olmadı. Qaçanlardan bir hissəsi özlərini çaya atdı, az qalmışdı ki, qoşun bütövlükdə tələf olsun. Musənna böyük qırğının qarşısını almaq üçün yeni körpü tikilməsi əmrini verdi. Bu şücaətli addımı ilə qoşunu tam surətdə qırğından qoruyaraq sağ qalanları Fərat çayının o biri sahilinə keçirtdi. İran qoşunu bu müharibədə qalib gəlmişdi. Onlar adət üzrə irəliləyərək döyüşü davam etdirməli idilər, .lakin Tisfunda vəziyyətin pisləşməsi ilə əlaqədar məcbur olub geri döndülər

Elə bu hadisənin özü sübut edir ki, o günkü İran xalqı hökumətdən nə dərəcədə narazı imişlər, hakimin müharibə meydanına getməsindən istifadə edərək ayağa qalxıb .üsyan etmişlər

Hicrətin on üçüncü ili baş vermiş Cisr (körpü) döyüşü Mədinə ordusunu çox narahat etmişdi. Ancaq bu hadisədən bir il sonra Musənnanın qoşunu Buvəybə məntəqəsində qələbə çalaraq Cisrdəki məğlubiyyətin əvəzini çıxdılar. Buvəybə döyüşündən sonra Qadisiyyə müharibəsi baş verdi. Bu müharibədə müsəlmanların başçısı Sə’d ibni Əbi Vəqqas, İran ordusunun başçısı isə Rüstəm Fərroxzad olmuşdur. Tarixçilər hər iki qoşunun sayını həddən artıq çox yazmışlar. Ancaq bir şey aydındır ki, İran qoşununun sayı ərəb ordusundan çox olmuşdur. Qədim tarixçilərdən olan Bilazəri İran ordusunun ١٢٠٠٠٠, ərəblərin isə ٩٠٠٠-dən ١٠٠٠٠-ə qədər olduğunu qeyd etmişdir. Halbuki İbni Əsir ərəblərin sayını ٣٠٠٠٠-dən artıq, İran ordusunun isə Qadisiyyə döyüşündə ١٠٠٠٠٠-dən .artıq olduğunu qeyd etmişdir

Təbiidir ki, o vaxtlar belə hadisələri nəql etdikdə rəqəmlərin düzgünlüyünə çox diqqət yetirilməmişdir. (Təəssüflər olsun ki, bu gün də belədir). Bu yürüşdə hər iki tərəfin coğrafi mövqeyinə, hərbi əməliyyat qərərgahına, qüdrət və imkanına nəzər saldıqda .aydınlaşır ki, iranlıların sayı ərəb qoşunundan artıq olmuşdur

Müasir tarixçilər hələ mübarizə başlamazdan əvvəl hər iki qoşun başçıları arasında baş vermiş danışıqlar və ərəb nümayəndələrinin Yəzdəgerdin yanına gedərkən onun əsəbləşməsi və nümayəndələrin ona

cavab vermələri haqqında dastanlar qoşmuşlar. Danışıqların olması haqda şübhə yoxdur, lakin sonradan əsas mətnə əlavələr olunmuşdur. Aydındır ki, bu danışıqlar Sə'd ibni Vəqqasın nümayəndəsi ilə Rüstəmin göndərdiyi nümayəndə arasında olmuşdur, lakin ərəb nümayəndəsi Tisfuna gedərək Yəzdəgerdlə görüşməmişdir. Firdovsi "Şahnamə" əsərində Rüstəmin Sə'də, onun da öz növbəsində Rüstəmə verdiyi cavabını nəzmə çəkmişdir. Təbii ki, Rüstəm ölkənin və əhalinin vəziyyəti ilə Yəzdəgürddən daha yaxın tanış idi və o, ilk əvvəl müharibə tərəfdarları olmayıb, Ərəbləri İrana hücum etmək fikrindən yayındırmaq istəyirdi. Lakin həmin şəraitdə gələcəkdən daha çox, özü haqda düşünüb öyünürdü. Bu danışıqlarda müsəlmanların sərkərdəsi iki şeydən birini – ya İslamı qəbul etməyi, ya da vergi verməyi istəyirdi. Rüstəm isə deyirdi: "Sizin hamınızı öldürməyincə əl çəkən deyilik." Müsəlmanların nümayəndəsi deyirdi: "Bizim heç bir qorxumuz yoxdur, bizdən ölənin yeri cənnət, sizdən ölənin yeri isə cəhənnəmdir. Bizdən sağ qalanlar mütləq sizə qalib gələcəklər." Sülh danışıqları nəticəsiz qaldığından döyüş başlandı. Tarixçilər İran ordusunun məğlubiyyətini çətin hava şəraiti ilə əlaqələndirməyə çalışmışlar. Deyilənlərə görə döyüş gecəsi Rüstəm yuxuda olarkən göydən bir mələyin gəlib İran əsgərlərinin kamanlarını möhürləyib yenidən geriyə döndüyünü görür. Və ya döyüşün son gecəsində külək əksinə əsərək iranlıların məğlubiyyətinə səbəb olur. Lakin ölkədə və ordunun öz içərisində əsən külək o günkü əsən əks küləkdən daha tə'sirli və güclü idi. İllər boyu ən yaraşıqlı paltarlarını geyib ən dəyərli qılınc qalxanını taxıb döyüşə gedən Sasani sərkərdə və əsgərləri əynində köhnə paltarları, əlində qırıq nizə və paslı qılınc götürmüş ərəb qoşunu ilə üzləşdikdə heyrətləndilər. Onlar ona görə təəccübləndilər ki, görəsən belə bir qoşun bu günə qədər İraqın yarısını necə tutub, demək onlara səmavi .bir qüvvə kömək edir

Rüstəm Sə'din göndərdiyi nümayəndələrdən hər dəfə birinin gəldiyini soruşduqda onlar cavab verdilər ki, bizim əmirimiz əsgərlər arasında bərabərliyə riayət edir və bu məs'uliyyətin ağırlığının bir nəfərin üzərinə düşməsini bəyənmir. Orada olanlar ordu içərisində olan bu bərabərliyə hakimin rəiyyətlə rəftarında ədalətə riayət etməsinə təəcüb etdilər. Qadisiyyə müharibəsi dörd gün davam edərək müsəlmanların qələbəsi ilə sona yetdi. (Hicri qəməri ۱۴-cü il Məhərrəm ayı). Bu müharibədə Sə'd xəstə idi, .birbaşa döyüşdə iştirak etməsə də uzaqdan qoşuna rəhbərlik edirdi

Bu hekayəni nəql edənlər görünür adlı-sanlı sərkərdə olan Rüstəmin ölümünü adi ərəb sərkərdəsi ilə bir cərgədə çəkmək istəməmişlər. Həmin

döyüşdə İranın məğlubiyyəti qətiləşdi, müsəlmanların Sasanilərin qışda paytaxtı olan .Tisfun şəhərinə irəliləməsini daha da asanlaşdırdı

Bir neçə sərkərdə Sə’din qoşununun qarşısını almaqda mübarizəni davam etdirməyə çalışsalar da, müsbət nəticə əldə edə bilmədilər. Onlardan biri Nəhavəndə, o birisi isə .Əhvaza qaçdı, bir neçəsi də elə yoldaca qətlə yetirildi

Tisfun şəhərinə girməklə müsəlmanlar Sasanilərin sarayını ələ keçirdilər. Bu qələbə nəticəsində əldə olunmuş qənimətlər şişirdilmiş olsa da, az da olmamışdır. Dastan qoşanlar sarayları ələ keçirmək haqqında həqiqətə uyğun olmayan çox şeylər söyləmişlər. Görəsən bu hadisələr doğrudanmı baş verib, yoxsa hücum edənləri təhqir etmək məqsədi ilə söylənilib. Doğru və düzgününü Allah bilir! Belə ki, deyilənlərə görə ərəblər duz əvəzinə kafur tökərdilər və ya itlərə qızılı suya çəkilmiş qablarda yemək verərmişlər. Və ya Bəharistan xalçasını parçalayıb öz aralarında bölüşdülər (Xosrovun yazı xalçası). Bunların əksəriyyəti, xüsusilə də sonuncu söz qondarmaya oxşayır. Guya xəlifə o qədər sadəlöhv olub ki, müşavirlər və tacirlər xalçanın parçalanmasının müsbət hal olduğunu ona çatdırmışlar. Belə olduqda xalçanın dəyəri aşağı düşmüş olar və əsgərlər arasında onun əsl dəyərinin əvəzinə sıradan çıxmış olan dəyərini bölmək lazım gələcəkdir. Hər halda döyüşlərdə belə hadisə və faktların meydana çıxması .danılmazdır

Yəzdəgerd Tisfundan qaçıb İranın qərbinə getmişdi. O, güman edirdi ki, ərəbləri İranın qərbindəki dağlıq ərazinin ətəklərinə çəkib sonradan qüvvə toplayaraq onlara zərbə endirib ötən məğlubiyyətin əvəzini çıxacaqdır. Lakin belə olmadı. Müsəlmanlar bir tərəfdən Xuzistana tərəf irəliləyib oranı ələ keçirdilər. Digər tərəfdən də qərbdə Cəlaulada baş verən müharibə nəticəsində İran qoşunu ağır məğlubiyyətə uğradı. Yəzdəgerd son səyini göstərmək qərarına gəldi. Nəhavənddə də böyük qoşun toplandı, ancaq bu qoşun da darmadağın edilərək müsəlmanların qələbəsi ilə sona .yetdi. Bu müharibə (Nəhavənd) hicri qəməri tarixi ilə ٢١-ci ildə baş vermişdir

Bu müharibə iranlıların ərəblər müqabilində sonuncu müqaviməti olduğuna görə İslam tarixində fəthlər fəthi adlanmışdır. Nəhavənd müharibəsindən sonra Yəzdəgerd arvadları, qohumları, keşikçiləri və qoşunu ilə birlikdə Fars əyalətinə, oradan Xorasana

.getmiş və nəhayət ٣١-ci ildə Mərvdə qətlə yetirilmişdir

Ərəblərin dinə və özlərinə inamından əlavə, ١٠ ildən az bir müddət ərzində belə bir böyük imperiyanı süquta uğratmalarının səbəblərindən bir neçəsi aşağıdakılardan :ibarət olmuşdur

səh:٩٥

;Sonuncu Sasani sülaləsindən xalqın narazı olması.۱

;Hakim təbəqənin xalqı təzyiqə mə’ruz qoyması.۲

Təbəqələr arasında olan ayrı-seçkilik, müəyyən təbəqənin üstünlüklərə malik olması.۳ ;ilə yanaşı əksəriyyətin bu imtiyazdan məhrum olması

;Şahqubadın dövründən bu yana zərdüşt dininin əsas e’tibarilə aradan getməsi.۴

İslam göstərişlərinin İranda yayılması, bu dinin çox sadə və məntiqi olması. Xüsusilə.۵ xalqın öz gözləri ilə müşahidə etdikləri bərabərlik, ədalət ki, onlar bu xüsusiyyətləri bir-.birlərinə müjdə verirdilər

### ŞİMAL Və QəRBDə İRəLİLəYİŞ

Ötən fəsildə qeyd etdiyimiz kimi, hicrətin səkkizinci ili baş vermiş Mu’tə müharibəsində müsəlmanlar məğlub oldular və Peyğəmbərin əmisi oğlu Cə’fər ibni Əbi Talib bu döyüşdə şəhid edildi. Bu qüdrətli Rum imperiyası ilə baş verəcək müharibə üçün .müqəddimə oldu

Peyğəmbər (s) həyatının son günlərində Usamə ibni Zeydin başçılığı ilə Mu’təyə qoşun göndərməyi əmr etmişdi, lakin o həzrətin vəfatı nəticəsində bu iş təxirə düşmüş və Əbu Bəkrin xilafətinin əvvəllərində qoşun hərəkət etmişdi. Usamə ۴۰ və ya ۷۰ günlük .uzun sürən səfərdən çoxlu sayda qənimət əldə edərək geri dönmüşdü

On ikinci ilin sonu dindən çıxmışlarla (mürtədlər) mübarizə sona yetdikdən sonra Əbu Bəkr İordaniya və Fələstinə qüvvə yolladı. Müsəlmanların qoşunu Rum sərhədçiləri ilə döyüşdə qələbə çaldılar. Şərqi Rum imperatoru Heraklyus (۶۱۰-۶۴۱ miladi) böyük bir qoşun toplayaraq müsəlmanlarla döyüşə hazırlaşdı. Hər iki qoşun Yərmuk adlı yerdə üz-üzə gəldilər. İlk anda müharibənin taleyi mə’lum deyildi, Əbu Bəkr qoşuna şücaətli bir sərkərdəni başçı tə’yin edilməsini düşünürdü. Elə buna görə də İraqda olan Xalid ibni Vəlidi Şama göndərdi. Xalid kiçik bir dəstə ilə quru və susuz Şam çölünü qət edərək özünü müsəlmanların qoşununa çatdırdı. Belə quru səhranı qət etmək böyük dözüm və iradə tələb edirdi. Xalidin o gün gördüyü iş bir igidlik sayılırdı. Belə səfərə çıxmaqla o, qoşunun gözündə daha da ucaldı. Xalidin Yərmuka gəlməsiylə qoşunda canlanma

əmələ gəldi və onlar misilsiz bir şücaətlə rumluları məğlub etdilər. Rumlular Dəməşqə geriyə çəkilməyə məcbur oldular. Bu ərəfədə Əbu Bəkr vəfat edir və Ömər xəlifə seçilir. Məğlub olmaq istəməyən Heraklyus yenidən böyük bir qüvvə topladı, ancaq bu qoşun da məğlub oldu. Məüsəlmanlar İordaniya və Suriya şəhərlərini ardıcıl olaraq ələ .keçirdilər

Bu münaqişələr içərisində Ömərin xilafəti zamanı baş vermiş ən başlıca hadisə ۱۷-ci ildə Fələstinin və ۱۹-cu ildə isə Qeysəriyyənin fəthi olmuşdur. Fələstinin fəthi istər hərbi, istərsə də təbliğat baxımından böyük əhəmiyyət kəsb etmişdir. Çünki müsəlmanların ilk qibləsi olan Əqsa məscidi bu məntəqədə yerləşmişdir. Elə bu səbəbdən də Ömər şəxsən özü Dəməşqin ۸۰ kilometrliyində yerləşən Cabiyə kəndinə səfər edərək xaçpərəstlərlə möhtərəm davranmış və onların hüquqlarını müəyyən edə biləcək bir saziş bağlamışdı. Şam və Fələstin əhalisi illər boyu Rum hökumətinin cah-cəlalını gördükdən sonra İslam ordusunun adiliyi, sadəliyi və müsəlman xəlifəsinin .mülayim rəftarı ilə üzləşdikdə heyrətə gəldilər

## QƏLƏBƏNİN SƏBƏBLƏRİ

Yarımadanın şərq nahiyəsində əldə edilən qələbənin (İranın fəthi) ən başlıca amili olan iman və dini əqidədən əlavə, mövcud vəziyyət və şəraitin də bu qələbədə oynamış müstəsna rolunu qeyd etdik. Ərəbistanın şimalında baş vermiş döyüşdə də bir neçə :səbəbin xüsusi rol oynadığına rast gəlinir ki, onlar aşağıdakılardır

Bu ərazidə yaşayan əhali ərəb olmasa və ərəb dilində danışmasa belə, adət-ən’ənə.۱ və dil baxımından rumlılardan daha çox ərəblərə yaxınlıq və bağlılıq əlaqələri .olmuşdur

Qeyd etdiyimiz kimi, qədim zamanlardan bəri (İslamdan əvvəl) cənubdan bir dəstə.۲ əhali ticarət və ya işləmək məqsədilə bu torpaqlara gəlmiş və burada yaşayan əhali ilə qaynayıb-qarışmışdır. Təbii haldır ki, baş verən müharibələrdə onlar rumlularla deyil, .ərəblərlə birgə olmuşlar

Qalib gəlmiş ordu imperiyanın nümayəndəsi ilə müqayisədə xalqla daha mülayim.۳ rəftar etmişdir. Əhali bunun ən bariz nümunəsini müsəlmanların xəlifəsinin Beytül-.müqəddəsə gəlişində görmüşlər

Müsəlmanların tutulmuş ərazilərdəki əhalidən aldıqları vergi onların öz.۴ hökumətlərinə verdikləri vergidən qat-qat az olmuşdur. Bütövlükdə bütün bu fəthlərin .əsas səbəbini İslamın ədalətində və sadəliyində axtarmaq lazımdır

Başqa bir səbəbi də diqqətdən qaçırmaq olmaz. Əvvəldə qeyd etdiyimiz kimi, bu.۵

günkü Suriya, İordaniya və Fələstində məskunlaşmış əhali xaçpərəstliyi qəbul etmişdilər. Misir əhalisi də xristian idilər. Lakin zaman ötdükcə xristianlıqda kəlami (sxolostika) mübahisələr meydana gəlmiş, müxtəlif e'tiqadi məktəblər və firqələr zühur etmiş, onların arasında münaqişə get-gedə şiddətlənmişdir. Katolik kilsəsi əqidə ixtilafına səbəb olan bütün firqələri sıxışdıraraq şiddətli mübarizə

apardığından, onlar da kilsədən üz döndərmişlər. Belə kəlami mübahisələr beşinci əsrdə özünün ən uca zirvəsinə çatmışdı. İslam dininin zühuruna yaxın bir vaxtda şərqi Rum imperatoru Heraklyus bu firqələri birləşdirməyə çalışmış, müsbət nəticə əldə edə bilməmiş və sonda özünə qarşı güclü nifrət hissi yaratmışdı. Müsəlmanlar bu torpaqları ələ keçirdikdən sonra xaçpərəstlərdən vergi alaraq öz din və ayinlərini yerinə yetirməkdə azadlıq verdilər. Onlar katolik kilsəsinin təzyiqləri altından çıxaraq azad nəfəs aldılar. Yenidən Rum istilası altına düşməmək üçün onları devirməkdə ərəblərə .kömək etdilər

Suriya ərazisi fəth olunduğu ilk gündən ərəblərin rumlularla müqayisədə yerli əhali ilə daha mülayim rəftar etmələri haqda sənəd mövcuddur. Ömər tərəfindən ordu başçısı tə’yin edilmiş Əbu Ubeydə Cərrah Heraklyusun qoşun toplayıb onlarla döyüşə hazırlaşdığını eşitdikdən sonra fəth olunmuş şəhərlərdəki nümayəndələrinə göstəriş verdi ki, xaçpərəstlərdən aldıqları vergini özlərinə qaytarsınlar. Eyni zamanda onlara desinlər ki, biz bunu sizləri qorumaq üçün almışdıq. Ancaq indi bizim aqibətimiz mə’lum deyil, ola bilsin döyüşdə məğlub olub üzərimizə götürdüyümüz öhdəçiliyə əməl edə bilməyək. Lakin xristianlar onların ərazilərini tutmuş adamların ədalətli rəftarını görcək belə cavab verdilər: “Biz sizin rumlular üzərində qələbə çalmağınızı istəyirik, onların zülmündənsə sizin ədalətli rəftarınızı daha çox xoşlayırıq, Heraklyusun ordusu ilə ”.döyüşdə sizinlə bərabər olacağıq

## MİSİRİN FƏTHİ

On doqquzuncu ildə Beytül-müqəddəsdə olan Əmr ibni A’s Misirə hücum etmək üçün Ömərdən izn istəyir. Deyilənlərə görə o, icazə almadan Misirə hücum etmişdir. Misirdəki vəziyyət də eynilə Suriya və İrandakı mövcud olan vəziyyət kimi idi. Bu ölkə miladi tarixinin ilk əsrində Rum imperiyasının tərkibinə daxil olmuşdur. Bol məhsul və çoxlu gəlir verən bu ölkə onlar üçün böyük əhəmiyyət kəsb etmişdir. Şərqi Rum imperiyası yarandıqdan sonra paytaxtın Konstantinopola köçməsi ilə xaçpərəstlik bu diyarda geniş surətdə yayılmışdı. Digər tərəfdən isə yüz illər əvvəl Fələstini tərk etmiş yəhudilər də Misirdə məskunlaşmışdılar. Beləliklə, Misirdə qibtilər, xaçpərəstlər və .yəhudilər arasında ixtilaf üçün zəmin yaranmışdı

ci ildə Xosrov Pərviz tərəfindən göndərilmiş Şəhrburaz ۶۱۹-cu ildə Misiri-۶۱۵ bütövlükdə ələ keçirdi. Bu hücum nəticəsində Misir əhalisinin vəziyyəti daha da .ağırlaşdı

səh:۹۸

Digər tərəfdən bu ərazidə yaşayan xaçpərəstlərlə katoliklər arasında kəlami mübahisələr baş verirdi. O cümlədən, İsa (ə)-ın ilahiliyi və insani xüsusiyyətlərinin insan bədənində bir yerə sığması, hələ dünyaya gəlməmişdən əvvəl Məryəmin ?bətninə daxil olan ruh barədə mübahisələr gedirdi

Əmr ibni As bir məsələni anlamışdı ki, Misir özünü müdafiə etmək qüdrətinə malik deyil. ۱۹-cu il Rəcəb ayında Əmr Misirə yollandı və müqavimətə rast gəlmədən Bilbisə qədər irəlilədi. Orada yerli qoşunla kiçik bir döyüş oldu və ondan sonra Ummu Dunəyn adlı məşhur yerə qədər irəlilədi. Burada onunla imperiya qoşunları arasında toqquşma baş verdi. Lakin Əmr köməkçi qüvvə gəlincə qoşunla üzləşmədən vaz keçdi. Ömər on dörd min nəfərlik bir qoşunu onun köməyinə göndərdi. Bu qoşuna böyük səhabələrdən Zübeyr ibni Əvvam, Miqdad və Ubadə ibni Samit kimiləri da daxil idi. Əmr bu qüvvə ilə imperiya qoşunlarını məğlub etdikdən sonra orada onunla sülh müqaviləsi imzaladı. Lakin Herakl bu sazişi bir xəyanət kimi qəbul etdi. ۶۴۱-ci ildə Heraklın ölümündən bir neçə ay sonra oğlunun da ölümü ilə ۱۱ yaşlı nəvəsinin hakimiyyətə gəlməsi nəticəsində Misirin müdafiəsi daha da zəiflədi. Əmr Eyn Şəmsi və Babilyunu ələ keçirdi, lakin İsgəndəriyyə möhkəm qala divarları və ۵۰۰۰ nəfər əsgər vasitəsilə müdafiə olunduğundan hələ fəth olunmamışdı. Lakin Əmr ۱۲۰۰۰-dən artıq qoşunu olmasına baxmayaraq, şəhəri mühasirəyə aldı və on dörd hücum cəhdindən sonra İsgəndəriyyə şəhəri də müsəlmanların əlinə keçdi. Misirin istər xaçpərəst, istər qibti, istərsə də yəhudi əhalisi imperiya qoşunlarının getməsindən qəmgin olmadılar. Müsəlmanlar onları dini vəzifələrini yetirməkdə azad buraxdıqlarına görə çox şad idilər. ۶۴۵-ci ildə (۲۵ hicri) rumlular İsgəndəriyyəyə hücum etdikdə Misir əhalisi müsəlmanlara kömək .edərək onları qovdular

## QƏLƏBƏLƏRİN ÇOXALMASI VƏ PROBLEMLƏRİN MEYDANA ÇIXMASI

Hadisələrin təhlilində dəfələrlə qeyd etmişik ki, müsəlmanlar əvvəllər qeyri-müsəlmanlarla döyüşdə (Bədr döyüşündə) elə də yüksək təchizata malik deyildilər. Qoşuna daxil olmayan müsəlmanlar da çox sadə həyat tərzi sürür, bə'ziləri isə hətta çətinlikdə yaşayırdılar. Sonrakı dövrlərdə də (Əbu Bəkrin, Ömərin xilafəti dövrü) bu sadə həyat tərzi davam edirdi. Peyğəmbər (s), Əbu Bəkr və Ömərin dövründə baş vermiş müharibələrdə müsəlmanların hədəfi təkallahlığı yaymaqdan ibarət olub. Ancaq yaddan çıxarmaq olmaz ki, bə'zilərinin hədəfi dünyəvi mənfəət əldə etmək də olub. Təqribən ٢٥ il müddətində Qur'ani-kərimin tə'limləri və Peyğəmbərin (s) müsəlmanlara verdiyi İslami tərbiyə (mühacir və ənsar) elə tə'sir bağışlamışdı ki, onlar Allahdan başqa heç nə düşünmür və İslamın adını ucaltmaqdan başqa bir şey haqda fikirləşmirdilər. Qur'ani-kərimdə bu iki dəstənin tə'rifi haqda çoxlu sayda ayələr görmək olar. Mə'lumdur ki, Peyğəmbər (s) dünyadan köçərkən onların bir neçəsindən narazı idi. İslamı ilk olaraq qəbul etdiklərinə görə bu adamlara müsəlmanlar tərəfindən ehtiram olunurdu. Lakin onların özlərini başqalarından üstün sayma hallarına rast gəlinməmişdi. Qoşuna başçılıq etmək (sərkərdə) və ya İslam hökmlərini başqalarına .öyrətmək onlar üçün rütbə deyil, dini vəzifə sayılırdı

Peyğəmbərin (s) dostları arasında mənsəb, məqam hərisliyi mövcud deyildi, hansı ailədən və soydan olması mühüm sayılmazdı. Hətta ictimai baxımdan İslamı tez və ya gec qəbul etmək də fəzilət sayılmazdı. Keçən fəsildə gördüyünüz kimi, yeniyetmə cavan olan Usamə ibni Zeyd qocalardan, əsirlikdən azad olunmuşlardan və İslamı ilk əvvəl qəbul edənlərdən təşkil olunmuş bir qoşuna başçı seçilir. Peyğəmbər (s) dövründə müsəlmanların əhəmiyyət verdikləri şey təqva olmuş və onun da mükafatını xalqdan deyil, yalnız Allahdan istəmişlər. Qur'ani-kərim belə müsəlmanlar haqda :buyurmuşdur

".Allah onların qəlblərini imanla imtahana çəkmişdir"

Lakin Peyğəmbər (s) Ərəbistan yarımadasını müsəlman edib bu fani dünyanı tərk edən zaman müsəlmanların hamısı belə bir əxlaqa malik deyildilər. Sınaqdan çıxmış müsəlmanların sayı çox az idi. Bəli, tarixdə həmişə belə olmuşdur (sınaq meydanında

.(dindarlar həmişə az olmuşdur

Yenicə müsəlman olmuş səhra sakinləri, həyatlarında Peyğəmbəri görməyib onun əxlaqı və davranışı ilə tanış olmayanlar və ya ömründə

yalnız bir-iki dəfə Peyğəmbəri görən müsəlmanlar özlərini İslam əxlaqı ilə nə dərəcədə ziynətləndirə bilərdilər? Bir gün onlar təsəvvür etmədikləri sərvətə malik olduqda, Qur’anın xəbərdar etdiyi kimi, necə tüğyan etməyəydilər?! İslam dini onların qəlblərində hələ kök salmadığı bir surətdə öz nəfsləri ilə necə mübarizə apara !bilərdilər? Allah bilir

Əbu Bəkrin xəlifə olduğu dövrdə əsgərlər bir tərəfdən dindən xaric olmuşların üsyanını yatırtmağa məşğul olmuş, digər tərəfdən də xəzinəyə (beytül-mala) az gəlir gəldiyindən müsəlmanların ictimai həyatında köklü dəyişiklik meydana gəlmişdi. İctimai problemlər Ömərin dövründə meydana gəlməsinə baxmayaraq, o, onun :qarşısını müəyyən qədər ala bildi. Ən mühüm problemlər aşağıdakılardan ibarət idi

Ömərin on illik xilafəti dövründə müxtəlif millətlər İslam dinini qəbul etdilər..١ Mədəniyyət və adət-ən’ənə baxımından təkcə Ərəbistan əhalisi deyil, müsəlman olmuş bütün xalqlar bir-biri ilə kəskin şəkildə fərqlənirdilər. Nəticədə bu adətlər yavaş-yavaş əhalinin sadə həyatına daxil olmağa başladı. Ömər çalışırdı ki, ərəblərin əcnəbi adət-ən’ənələrini öyrənməsinin qarşısını alsın və o, bu məsələdə yeri gəldikdə onlarla sərt rəftar edirdi. Bə’zən Qüreyş qəbiləsinin böyüklərindən bir neçəsi onun yanına gəlib cihad etmək bəhanəsi ilə (bəlkə də doğrudan cihad etmək məqsədi ilə olub) Ərəbistandan xaricə səfərə getmələrini istəmişlər. Ömər onların rəftar və əxlaqlarının dəyişməsindən ehtiyat edərək belə demişdi: “Peyğəmbər (s) zamanı etdiyin cihad sənin üçün kifayət edər, yaxşısı budur ki, evində otur, nə sən bir nəfəri gör və nə də bir ”.kəs səni görsün

Fəth olunmuş ölkələrin hər birisi özünəməxsus məhsuldar əraziyə malik olduğundan.٢ bu torpaqlardan lazımınca istifadə etmək zərurəti meydana çıxırdı. Bu ərazilərdən faydalı surətdə bəhrələnmək üçün təcrübəli və iş bacaran insanlara ehtiyac duyulurdu, lakin Mədinədə belə təcrübəli adamlar yox dərəcəsində idi və ya olsaydı da .onların sayı çox az idi

Sülh yolu ilə əldə olunmuş ərazilərin idarə olunması (sülh müqaviləsinə əsasən onlar.٣ İslam hökumətinə vergi ödəyirdilər) hökumət üçün heç də çətinlik törətmirdi, lakin əsgərlərin hücum edərək işğal etdikləri ərazilərin idarə olunması yeni problemlər

doğururdu. Belə ki, fəth olunmuş belə ərazilər əsgərlər arasında bölünməli idi. Aydındır ki, Hicazda yaşayan müsəlmanların hər il gəlib bu əraziləri əkib-becərib məhsulunu toplaması və sonradan geri dönməsi mümkün deyildi. Ömərin məsləhəti ilə həmin ərazilər orada çalışan əkinçilərin öhdəsinə

verildi və onlarla bunun müqabilində hər il müəyyən vergi ödəmələri haqda müqavilə bağlandı. Mə’lum deyil ki, bu onun şəxsi fikri ilə və ya böyük səhabələrin məşvərəti ilə .həyata keçirilmişdir

İlk başlanğıcda belə bir addımın problem doğuracağı elə də nəzərə çarpmadı, lakin sonralar Osmanın xilafəti dövründə bu məsələnin böyük bir tufana səbəb olacağını .görəcəyik

Hakimlərin, şahzadələrin, zadəganların və torpaq sahiblərinin qoyub qaçdıqları.۴ ərazilər, beytül-mal adı ilə zəbt olundu və ondan əldə olunan gəlir də xəzinəyə daxil .edildi

Ömər məsləhət gördü ki, fəth olunmuş ərazilərin siyasi cəhətdən idarə edilməsi əvvəldən orada hakim olan məmurların öhdəsində qalsın, lakin onlar da öz növbəsində xəlifə tərəfindən göndərilmiş hakimin nəzarəti altında bu vəzifəni yerinə yetirməli .idilər

On dörd əsrdən sonra dünyanın müxtəlif siyasi quruluşlarını təhlil etdikdən sonra bu hadisələri araşdırarkən bəlkə də belə bir addımın atılması bizim üçün çox da əhəmiyyətli olmasın. Lakin bir az diqqət yetirsək o vaxta qədər məhdud mühitdən kənara çıxmayan, öz ailəsinə və ya tayfa və qəbiləsinə başçılıq etməkdən başqa bir şey bacarmayan məs’ul şəxslərin böyük ölkələri idarə etmələrinə, Afrika və Asiyanın yarısını necə də bacarıqla idarə etməsinə nəzər salsaq bizdə heyrət və təəccübdən .başqa bir şey doğurmayacaqdır

İrandan Mədinəyə yetişən qənimətin miqdarı o qədər çox idi ki, müsəlmanlar o günəcən o miqdarda mal görməmişdilər. Ömər nə edəcəyi barədə dostları ilə söhbət etdi. Bə’ziləri Peyğəmbər sünnəsinə əsasən əldə olunmuş malın xalq arasında birdəfəlik bölünməsi prinsipini dəstəklədi. Nəhayət qərara gəldilər ki, idarə yaradılsın və buradan müsəlmanlara müəyyən miqdarda pul ayrılsın. Bu addım məntiqi və düzgün bir iş idi, lakin gəlirin bölünməsindəki ayrı-seçkiliyin gələcəkdə problem .doğuracağına diqqət yetirmədilər

Bəlkə də o gün xəlifə və müsəlmanlar belə bir məsləhətin nə ilə nəticələnəcəyindən

xəbərsiz idilər. Bəlkə də onların ağlına gəlmirdi ki, bir neçə böyük adamlara müəyyən .edilmiş pul onların məxaricindən daha artıq idi

Xəzinədən maaş alan adamların sıra sayı ilə müəyyən edilməsi haqda tarixçilər arasında ixtilaf mövcuddur. Bir şey aydındır ki, məvacibin miqdarının tə’yin olunmasında müsəlman olma müddətinin birbaşa tə’siri var idi. Döyüşçülərin məvacibi onların iştirak itdikləri döyüşdən asılı idi. Misal üçün Bədr döyüşündə iştirak edənlərin məvacibi Hüdeybiyyə sülhündən sonrakı müharibədə iştirak edən şəxslərin

məvacibindən artıq idi. Şamın və Mədinənin fəthindən bir il keçmişdi ki, Ömər özünün .və müsəlmanların böyük bir təhlükə ilə üzləşdiyini hiss etdi

Ərəblərin qüdrətli və zadəgan qəbiləsi sayılan Qüreyş tayfası Mədinə qoşunu Məkkəyə daxil olduqdan sonra müsəlman olmuşdular. Müsəlman olduqdan sonra başqaları kimi Rum və İran imperiyaları ilə müharibələrdə iştirak edərək İslam fiqhinə əsasən döyüşdə əldə olunmuş qənimətlərə (sərvət, torpaq) yiyələnmişdilər. Keçən fəsillərdə qeyd etdiyimiz kimi, bu qəbilə İslamdan əvvəl ticarət etmək səriştəsinə malik idilər. İslam qoşunlarının fəthi genişləndikdən sonra əldə etdikləri sərmayə .vasitəsi ilə öz köhnə peşələrini davam etdirmək fikrinə düşdülər

Təbəri bir rəvayətə əsasən belə deyir: Ömər Qüreyşin böyüklərini Mədinədə bir növ həbs etmişdi, onların bu şəhərdən kənara çıxmalarına izn vermirdi. Deyərdi: Qüreyş Allah malını öz işləri üçün sərf etmək və başqalarını bu işdən məhrum etmək istəyirlər. Nə qədər ki, Xəttabın oğlu sağdır, bu iş baş tutmayacaqdır. Mən Hərrə dərəsinin ağzında dayanıb Qüreyşin boğazından yapışacağam ki, onlar cəhənnəmə .düşməsinlər

O, dəfələrlə dövlət məmurlarının işini təftiş edər, onların özü üçün sərvət topladığını gördükdə deyərdi: Sən ki, xəzinədən (beytül-maldan) maaş alırsan, bəs bu qədər malı haradan toplayıbsan, dərhal onun əmlakını müsadirə edib xəzinəyə qaytarardı. Fəth olunmuş ərazi sahiblərini (Qüreyşdən olan şəxsləri) Hicaz əyalətindən kənara .çıxmalarına icazə verməzdi

Qüreyş başçılarından bir dəstə adam həm Ömərin qətiyyətindən, həm də Peyğəmbərin təqvalı dostlarının nəzarətindən ehtiyat edib bacardıqca qorunurdular. Lakin onlar Ömərin sərt rəftarından narazı idilər. Ömər özü də İslamı ilk əvvəl qəbul etmələrinə və müharibədə iştirak etdiklərinə əsasən xəzinədən onlara xususi maaş ayrılmasının səhv addım olduğunu artıq başa düşmüşdü. Elə bu səbəbdən deyirdi: Əgər indi başa düşdüyümü əvvəlcədən anlamış olsaydım, onların əlində olan sərvəti alıb xəzinəyə qaytarardım. Aydındır ki, çoxlu sərvət toplayanların belə bir siyasətlə barışacaqları mümkün olmazdı. Sonda xəlifə bu dəstə ilə etdiyi rəftarın nəticəsini .gördü

Ərəb tarixçiləri Ömərin qətlə yetirilməsinin əsas səbəbini iranlıların ərəblərə qarşı olan nifrəti ilə əlaqələndirmişlər. Belə deyirlər ki, Əbu Lö'lö Ömərin əlindən zara gəlmişdi. Bir tərəfdən ölkəsi Ömərin qoşunlarının əlinə düşdüyündən, digər tərəfdən isə o, öz sahibindən Ömərə şikayət edərkən onun şikayətinə əhəmiyyət vermədiyindən ilk

əvvəl onu hədələmiş, sonra isə münasib fürsət əldə edərək öldürmüşdür. Əbu Lö'lö ilə Ömər arasında belə bir danışığın olması mümkündür. Lakin bir şey daha aydındır ki, Qüreyşdən olan bir sıra böyük adamlar Əbu Lö'lödən də artıq Ömərdən incimiş və narazı idilər. Onun bir dəstə şəxslərlə sərt davranışı, o cümlədən Əbu Lö'lönün sahibi Muğəyrə də bu dəstəyə daxil olmaq şərtilə, apardığı maliyə siyasətindən peşiman olması bu kimi insanları nigaran etməyə bilməzdi. Belə nəzərə çarpır ki, Ömər başqa adamların qurduqları plan nəticəsində Əbu Lö'lönün əli ilə qətlə yetirilmişdir. Ömərin xilafəti dövrü görülən mühüm işlərdən biri də müsəlmanların tarixinin tə'sis olunması idi. İbni Əsirin (tarixçi) nəql etdiyinə əsasən bu iş hicrətin ١۶-cı ilində Əlinin (ə) məşvərəti ilə görülmüşdür. Tarixin başlanğıcı Peyğəmbərin hicrəti, ilin ilk ayı isə Məhərrəm ayı tə'yin olunmuşdur. Bə'zi mənbələrdə hicrətin beşinci və on üçüncü ilinə aid tarixi məktublara rast gəlinir. Lakin bu məktubların doğruluğunda şəkk vardır. Hər halda dövlət işlərində tarixin rəsmiləşməsi on altıncı ildə (hicri) Əlinin (ə) göstərişi ilə .qüvvəyə minmişdir

## OSMANIN XİLAFƏTİ

Ömər hicrətin ٢٣-cü ili zil-hiccə ayında vəfat etdi. Lakin vəfat etməmişdən qabaq Peyğəmbərin səhabələrindən altı nəfəri - Əli (ə), Osman, Zubeyr, Sə'd ibni Əbi Vəqqas, Əbdürrəhman ibni Ouf və Təlhə ibni Ubeydullaha tapşırıq verir ki, üç gün ərzində .əyləşib məşvərət edərək öz aralarından birini xəlifə seçsinlər

Əvvəldə mə'lum idi ki, xilafət Əliyə (ə), ya da Osmana yetişəcək, ancaq Əməvi tayfası Əlinin (ə) xəlifə olmasına razı deyildilər. Şura üzvlərindən biri olan Əbdürrəhman, .Osmanla qohum olduğuna görə ona tərəfdar çıxdı

Danışıqlar və get-gəllər başlandı. Sonda Əbdürrəhman Əliyə (ə) belə dedi: "Əgər sənə bey'ət etsəm Allahın kitabına, Peyğəmbər sünnəsinə və Əbu Bəkrlə Ömərin davranışlarına əsasən rəftar edəcəyini qəbul edirsənmi?" Aydındır ki, Əli (ə) axırıncı şərti qəbul etməmşdir. Çünki on iki il ərzində Peyğəmbər sünnəsində elə dəyişikliklər baş vermişdi ki, onlarla barışmaq olmazdı. Beləliklə o Həzrət, Əbdürrəhmana belə cavab verdi: "Mən Allah kitabına, Peyğəmbər sünnəsinə və öz ictihadıma əsasən rəftar edəcəyəm." Əbdürrəhman bu şərti Osmana təklif etdikdə isə o, qəbul etdi və şura

üzvləri onu xəlifə seçdilər. Ancaq görəsən Osman sona qədər bu şərtlərə riayət etdimi? Gələcək bu acı həqiqəti üzə

.çıxardı ki, belə bir şərti dildə demək asan, lakin yerinə yetirmək qeyri-mümkün idi

Osmanın bu tərzdə xəlifə seçilməsi o günə qədər görünməyən bir hadisə idi. Bildiyiniz kimi, bəni Saidə eyvanı altında (mühacir və ənsar) Əbu Bəkri xəlifə seçdi, Öməri isə Əbu Bəkr məktub yazaraq xəlifə tə'yin etmişdir. Belə yazırlar ki, Osman Əbu Bəkrin yazdığı məktubu müsəlmanların toplandığı yerə aparıb dedi ki, bu məktubda adı yazılmış Öməriə bey'ət edəcəksiniz və onlar da qəbul etdilər. Lakin altı nəfərdən ibarət şura bir növ vəkalət xarakteri daşıyırdı. Bu şura hər hansı bir nəfəri seçməli, müsəlman icması da naçar onu qəbul etməliydi. Osmanın xəlifə seçilməsi də bir dəstə səhabələrin (mühacirlərin) arasında yalnız altı nəfərin rə'yi ilə həyata keçdi. Görəsən niyə belə etdilər? Öz düşüncülərinə əsasən müsəlmanların xeyrini bunda görürdülər. Mərkəzi hökumətə xələl gəlməsin deyə xilafət məsələsi tezliklə həll edilməli idi. Lakin əgər xəlifə şura vasitəsilə tə'yin olunmalı idisə, görəsən şura üzvlərinin sayını niyə artırmadılar? Görəsən nəyə görə ənsardan bu məclisdə bir nəfər də olsun belə iştirak etməyirdi? Məgər Əbu Bəkr deməmişdi ki, ənsar vəzirdilər? Xatırlamaq lazımdır ki, tarix boyu belə oxşar suallar ortaya çıxmış və bu barədə çoxlu sayda kəlami mübahisələr doğurmuşdur və bə'ziləri də bunlara cavab vermişlər. Bir şeyi unutmaq olmaz ki, bə'zi kiçik məsləhətli fikirlər bir tərəfdən müsəlmanların xeyrinə olsa belə, digər cəhətdən böyük problemlər üzə çıxarırdı. Qeyd etmək lazımdır ki, bu problemlər ölçülüb-biçilmədən, tələsik atılan addımların nəticəsi idi. Hər halda belə bir addımın .sonluğu bu nəticəni verməli idi

Osman şərtləri qəbul edərək müsəlmanların xəlifəsi oldu. Ancaq xilafət ilk günlərdən Peyğəmbər (s) səhabələrinin bir dəstəsinin narazılığı ilə üzləşdi. Ömərin oğlu Ubeydullah, Əbu Lö'löünün Öməri qətlə yetirdiyi xəncəri əlində tovlayaraq müsəlman olmuş iranlı əsir Hörmüzan və Cufeynə Nəsrani ilə bir yerdə olması xəbərini eşitmişdi. Ubeydullah öz başına Hörmüzanın yanına gedərək onu öldürür. Sonra isə Cufeynəni qətlə yetirir. Nəhayət Əbu Lö'löünün evinə gedərək onun qızını öldürür. Təbiidir ki, Peyğəmbərin (s) sadiq səhabələri belə yaramazlığa göz yuma bilməzdilər. Osmanın xilafətinin ilk günlərində xəlifədən Ubeydullahı qanunsuz olaraq adam öldürməsinə görə cəzalandırmasını istədilər. Qocalığı ilə mülayimləşən yumşaq təbiətli Osman, hakimiyyətin ilk başlanğıcında onun boynunda böyük haqqı olan bir şəxsin oğlunu

öldürmək istəmirdi. Həmçinin öz qohum-qəbiləsinin tərəfini saxlayaraq belə dedi: “Heç rəvadırmı ki, dünən atasını bu gün də onun (Ömərin)

oğlunu öldürsünlər. Mən Ubeydullahın yerinə beytül-maldan qan bahasını ödəyirəm.” Osman zahirdə bu ictihadı ilə bir müsəlmanı ölümdən xilas etdi. Lakin bir dəstə səhabə Osmanın İslam qanunlarını pozaraq Allahın tə’yin etdiyi müəyyən cəza tədbirlərini yerinə yetirmədiyini gördülər. O məclisdə iştirak edənlər İslam hökmlərinin icrası zamanı ayrı-seçkilik etmək, qəti ilahi hökm müqabilində şəxsi təfsir və ictihada istinad .etməklə razılaşa bilməzdilər

Ubeydullahın cəzasız qalmasının İslam fiqhi baxımından münaqişə doğurması çox əhəmiyyət kəsb etməsə də, ictimai qurluşu həddindən artıq sarsıtdı. Əgər iş bununla qurtarsaydı Osmanla müxalif olan dəstənin gələcəkdə onunla müvafiq olan dəstənin sırasına qoşulmaları mümkün olardı. Lakin təəssüflər olsun ki, xəlifənin müşavirləri (Əməvilər və Qüreyş), yə’ni Ömərin sərt nəzarəti altında olanlar get-gedə ölkənin idarə olunmasına və siyasi işlərinə qarışmağa başladılar. Onların bu dəxaləti ənsarın .siyasi səhnədən uzaqlaşması ilə nəticələndi

Osmanın Ömər tərəfindən tə’yin edilmiş vali və hakimləri vəzifələrindən çıxarmayacağını qəbul etməsinə baxmayaraq, çox keçmədən onların hamısını işdən kənar edərək yerlərinə öz qohum-əqrəbasını tə’yin etdi. Görəsən bu iş onun öz istəyi, yoxsa onun Əməvi qəbiləsindən olan müşaviri Mərvanın təklifi ilə baş vermişdir? Allah bilir! Ancaq bir şey aydındır ki, iş başına gələnlər arasında dini, siyasi və iqtisadi .təqvaya malik olmayan şəxslər də var idi

Ötən bəhslərəmizdə İraqın cənub və şimalında məskunlaşmış ərəblər haqda söhbət açmışdıq. Ərəbistan yarımadasında müxtəlif ərəb tayfalarının və qəbilələrinin yaşaması barədə şərh verdik. Sinələri dolaşaraq yaddaşlara həkk olunmuş nəsəbnamələrə əsasən onlar iki dəstəyə - Ədnanilə və Qəhtanilərə bölünmüşlər. Sonrakı dövrdə isə cənublular Yəmani, şimallılar isə Qeysi adlandırılmışlar. Qəbilələr arasında düşmənçilik və ixtilaf təbii bir hal sayılmış, bu düşmənçilik hələ İslamın zühurundan bir neçə əsr qabaq da mövcud olmuşdur. Dinin yayılması, Peyğəmbər (s) tə’limləri, xüsusilə o həzrətin göstərişi ilə ənsar ilə mühacir arasında qardaşlığın bərpa edilməsi, İslami bərabərlik, tayfa üstünlüklərinin ləğv edilməsi sayəsində özünüöymə və fəxr etmə halları müvəqqəti də olsa aradan getdi. Ancaq zaman keçdikcə, xüsusilə, Qüreyş qəbiləsinin müsəlmanlara hakim olacağı aydın olduqdan sonra bu öyünmə və

fəxr etmək yenidən dirçəldi. Ömərin hakimiyyətinin sadəliyi, səhabələrin güzəştə getməsi və ən başlıcası sərvət toplamağın rövnəqsiz olması da öyünməyə imkan vermirdi. Osmanın xilafətinin ikinci yarısında hər şey yeni rəngə boyandı. Bir tərəfdən əhali

Peyğəmbər zamanından və Əbu Bəkr dövrünün sadəliyindən uzaqlaşmalarından artıq iyirmi il ötmüşdü, digər tərəfdən isə Ömərin Qüreyşə qarşı olan sərt rəftarı yox idi. Başlıca məsələ budur ki, belə dövrlərdə rəhbərlik etmək hər əzab-əziyyətə qatlaşmaq, Allaha xatir məs’uliyyət hiss etmək tələb etdiyi bir halda, təmtəraqlı və cah-cəlallı mənsəbə malik olmaq adi hala çevrilirdi ki, bunu da əldə etmək istəyənlər həddindən artıq çox idi. Bəni Saidə eyvanı altında Yəmani tayfasından sayılan ənsarın xilafət barəsindəki öz iddialarını mühacirlərin xeyrinə geri götürmələrinə baxmayaraq, onların övladları və yeni müsəlman olmuşlar Misir, Bəsrə, Kufə və Şamın da hakimiyyətindən əl çəkib bütün bu şəhərlərin gəlirlərini Qeysi tayfasına təslim etməyə razı olmazdılar. (Ömərin vəfatından sonra İslamda Qeysi ilə Yəmani arasındakı düşmənçilik yenidən baş qaldıraraq onun əhatə dairəsi daha da genişləndi. Bütün münaqişələrdə, Siffeyn, Nəhrəvan müharibələrində, Əməvilər və Abbasilər dövrünün müharibələrində də bu düşmənçiliyin acı tə’sirləri gözə çarpırdı. Hətta iş o yerə çatdı ki, Mö’təsimin hakimiyyəti zamanı türk hakimi İslam hökumətində mühüm rol oynayaraq .(ərəbin siyasətə qarışmasına imkan vermədi

Ömərin xilafəti zamanı başqa bir problem də yaranmışdı ki, bu məsələ onun sərt nəzarəti, bə’zi vaxtlar ədalətli rəftarı sayəsində çox nəzərə çarpmırdı. Onun acı .nəticələri Osmanın xilafəti dövrü üzə çıxdı

## VƏZİFƏ SINAĞI

Bildiyimiz ki, İslam dininin əsas ictimai prinsiplərindən biri də bərabərlik olmuşdur. Mədinə sazişi bağlanan gündən bəri qərara alındı ki, bir müsəlmanın hər hansı bir şəxslə bağladığı sazişə bütün müsəlmanların riayət etməsi vacib sayılsın. Peyğəmbər (s) dövründə ərəb dilində ərəblər kimi kamil surətdə danışmağı bacarmayan qaradərili Bilal Həbəşi müsəlmanların azan deyəni olmuşdur. O, qul övladı olmasına baxmayaraq İslam qoşununa rəhbərlik etmiş, ənsar və mühacirdən olan böyük mənsəbli şəxslər onun başçılığı ilə döyüşə getmişlər. Dünənə qədər İslam əleyhinə qılınc çalan şəxs Allahın təkliyinə və Həzrət Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət verdikdən sonra ictimai hüquq nöqteyi-nəzərindən ağır günlərdə Peyğəmbərə yardım göstərən ilk .müsəlman olmuş şəxslərlə bərabər hüquqa malik olurdu

Məkkə fəth olunan günün axşamı Peyğəmbərin əmisi Abbas Əbu Süfyana sığınacaq verərək onu müsəlmanların düşərgəsinə gətirir. Həmin günün səhərisi Əbu Süfyan müsəlman oldu, canı və malı

toxunulmaz sayıldı, hətta bir müddətdən sonra hakimiyyətə də yetişdi. Bu İslam ədalətinin ən parlaq nümunəsi sayılır. Bu bərabərliyin başqa bir nümunəsini biz İran və ərəb müharibəsində müşahidə edirik. Dediyimiz kimi, İran əhalisi hələ ərəblərə məğlub olmamışdın əvvəl İslam dininə məftun olmuşdu. İranın fəthini asanlaşdıran əsas səbəb İslamın bərabərliyi və müsavatı olmuşdur. Əgər dinə qarşı eşq və məhəbbət, həmçinin Sasani hökumətindən narazıçılıq hissləri olmasaydı, kiçik bir qoşunun belə bir böyük imperiya üzərində qələbəsi bəlkə də mümkün olmazdı. Xatırlatdığımız kimi, Mədinədə Peyğəmbər (s) mühacirlərlə (Ədnani) ənsar (Qəhtani) arasında qardaşlıq bərpa etdiyi gündən bəri bu iki dəstə arasındakı düşmənçilik və münaqişə birdəfəlik məhv oldu. Hətta Yəmanilər özlərini Ədnanilərlə bərabər səviyyədə nəzərə alır, yeri gəldikdə isə onları özlərindən üstün hesab edirdilər. Əgər bu güzəştli mərama hər iki tayfa riayət etmiş olsaydı, onların İslami qardaşlığı davam edər və ya ən azı onlar arasındakı kin-küdurət atəşi yenidən alovlanmazdı. Ancaq belə davam etməyəcəyi təbii ki, mə'lum idi. Peyğəmbərin (s) vəfatından sonra Yəmanilər İslamın inkişafında böyük rol oynadıqları üçün xilafət məqamını ələ keçirməyə cəhd göstərir, hətta onlar bu vəzifəni şərikli surətdə idarə etməyə razı idilər. Lakin Əbu .Bəkrin sözü, ələlxüsus o günkü durum onların iddiasına son qoydu

Ömər özünün xilafəti zamanı bu iki tayfa arasında ədalətə riayət etməyə çalışırdı. Əgər bir şəhərə Yəmanilərdən hakim tə'yin etsəydi, digər şəhərə Ədnanilərdən göndərərdi. Osman xəlifə olanda Ömər kimi davranacağına və onun tə'yin etdiyi hakimləri işdən kənar etməyəcəyinə söz vermişdi. Lakin çox keçmədi ki, öz qohumlarını iş başına gətirərək mümkün qədər Yəmaniləri hakimiyyətdən .uzaqlaşdırdı

O, Yəmaniləri hakimiyyətdən uzaqlaşdırmaqla yanaşı bəni Uməyyədən savayı digər qəbilələrdən olanları da mühüm şəhərlərə hakim tə'yin etməzdi. Belə ki, Kufənin hakimi Sə'd ibni Əbi Vəqqası vəzifədən kənar edib yerinə Vəlid ibni Uqbəni tə'yin etmişdi. Yazılanlara əsasən hətta iş o yerə çatdı ki, bəni Uməyyədən olan bir nəfər Bəsrə şəhərinin hakimi Əbu Musa Əşə'rinin Yəmani olduğunu gördükdən sonra Osmanın yanına gedib dedi: "Məgər sizin aranızda bir cavan yoxdurmu Bəsrəyə hakim "?gördərəsiniz? Bu qoca nə vaxtacan Bəsrədə qalacaq

Peyğəmbər (s) sünnəsi, Əbu Bəkr və Ömərin davranışındakı baş vermiş bu dəyişikliklər müsəlmanların əksəriyyətini narahat edirdi. Xüsusilə də ərəb olmayan İslam ədalətinə heyran olmuş yeni müsəlman olanları daha artıq narahat edirdi. Bunlar İslamın şüarı olan bərabərliyin

aradan getdiyini, ərəblərin arasında layiq olmayan bir tayfanın hakimiyyəti əlinə keçirməsini müşahidə edirdilər. Qüreyşin müsəlmanların malını öz şəxsi mülkü hesab etmələri bu malı qanı bahasına, çətinliklərə qatlaşıb əldə etdikləri halda sahiblərindən alınma hallarına rast gəlirdilər. Cahiliyyət dövrünün öyünmə, fəxr etmə hallarının .dirçəlməsi, xüsusi bir dəstənin xalqa zorla hakim olması halı müşahidə edilirdi

İstər Mədinədə, istərsə də oradan xaricdə məzəmmətlər və tə’nələr eşidilməyə başladı. Nəhayət xəlifə vəziyyətin ağır olduğunu hiss etdi. Əgər xəlifənin xeyirxah və uzaqgörən müşavirləri olsaydı, bu problemlərin bə’zilərini həll etmək mümkün olardı. Lakin onun ətrafına toplaşanların gözünü qohumluq təəssübü tutmuşdu. Ona, yersiz bəxşiş və hədiyyələrin qarşısını almağı, gəliri ehiyacı olanlara paylamağı və Yəmaniləri də hakimiyyətə gətirməyi tövsiyə etmək yerinə, narazı insanların bir dəstəsini müharibə meydanlarına göndərməyi, oranın hakimlərinə onlara macal verməməyi tapşırırdılar. Xalq arasında böyük narazıçılığa səbəb olan bu kimi xoşagəlməz rəftarlar .artıq çaxnaşmanın ilk zəminlərini hazırlayırdı

## SƏRVƏT (MAL) SINAĞI

Peyğəmbər (s) Məkkədən Mədinəyə gələn zaman müsəlmançılıqda qabaqcıl olanların bir dəstəsi əliboş olmasına və hətta əyinlərində münasib paltar olmamasına baxmayaraq, o qədər vəfalı və güzəştə gedən insanlar olmuşlar ki, özləri yoxsul olduqları halda müsəlman qardaşlarını özlərindən üstün tutmuşlar. Sonradan ümumi vəziyyətləri yaxşılaşsa da öz həyat tərzlərini dəyişməmiş, Peyğəmbər yaşayışını həmişə özlərinə nümunə götürüb onun kimi həyat sürmüşlər. Ömərin xilafəti dövründə müsəlmanların xəzinəsinə külli miqdarda gəlirin axmasına, əhaliyə müəyyən miqdarda məvacib tə’yin edilməsinə baxmayaraq, bir tərəfdən xəlifənin sadə həyat tərzi, digər tərəfdən də onun Qüreyşin böyüklərinə və dini ilk əvvəl qəbul edənlərə .nəzarət etməsi onların külli miqdarda sərvət toplamalarına imkan vermirdi

Lakin Osmanın dövründə bu davranış və rəftar da unuduldu. Qeyd etdiyimiz kimi, Osman mülayim təbiətli və qohum-əqrəbasını sevən bir adam idi. Əvvəlki xəlifələrdən fərqli olaraq xəzinəni xəlifənin şəxsi mülkü və malı saymış, onun harada və necə xərclənməsində özünü tam ixtiyar sahibi bilmişdir. Ümumi büdcədən yüksək miqdarda

sərvətin ona-buna hədiyyə verilməsi yoxsulların qəzəbini artıraraq e’tiraz dalğalarının .genişlənməsinə səbəb oldu

Ömər məvacib paylanması üçün idarə təsis edən zaman, bir tərəfdən əsgərlərin hüququnu onların neçə müharibədə iştirak etdiklərinə əsasən müəyyən edər, digər tərəfdən isə ənsarla mühacirləri başqalarından üstün tutardı. Demək olar ki, ilk dəfə bu addım vasitəsilə İslami bərabərliyə zərbə dəydi. Lakin Ömər mə'nəvi şərəf sahiblərinə (dini ilk əvvəl qəbul edənlər) nəzarət edirdi ki, onlar həddindən artıq varlanıb sərvət üstünlüyünə sahib olmasınlar. Bacardıqca onların var-dövlətləri barədə hesabat aparırdı. Ömər vəfat etdikdən sonra Qüreyş rahat nəfəs almağa başlayıb yenidən sərvət toplamaqla məşğul oldu. Bir müddət ötdükdən sonra əsgərlər gördülər ki, onlar daim din düşmənləri ilə ön cəbhədə döyüşdükləri halda, bir dəstə adam Mədinədə xoşgüzəran keçirərək beytül-maldan yüksək məbləğdə məvacib alırlar. Həmçinin yeni müsəlman olmuşlar, onlardan yalnız bir neçə ilə qabaq .müsəlman olduqlarına görə, ümumi büdcədən əlavə yardımlar da alırlar

Hicri tarixinin ٣٠-cu ilində Osman öz şəxsi fikrinə əsasən müsəlmanların xeyrinə ola biləcək bir addım atdı. Mədinə əhalisi onun bu işindən razı qalsa da sonrakı hadisələr göstərdi ki, zahirdə gözəl görünən bu iş çoxlu çətinliklər yaratdı və o zaman xəlifə və .onun müşavirləri bu məsələyə diqqət yetirməmişdilər

Ötən fəsillərdə işarə olunduğu və İslam fiqhində də qeyd edildiyi kimi müsəlman olmayan ölkələr müsəlmanlarla barışıq (sülh) sazişi bağlamış olsalar onlardan vergi (cizyə) alınaraq xəzinəyə təhvil verilirdi. Lakin qoşunun döyüşərək əldə etdiyi ərazilər .fatehlər arasında bölünür

Hicazdan kənarda yerləşən fəth olunmuş ərazilərin məhsulunu toplamaq müsəlmanlar üçün çətin idi. Onlar həmin ərazilərə şəxsən nəzarət etmək istəsəydilər və ya məhsulu toplamaq üçün oraya səfər etməli olsaydılar, bu iş orada çoxlu sayda əhali toplaşmasına səbəb olardı

Osman əhaliyə belə dedi: "Mənim nəzərim budur ki, sizin payınızı özünüzə qaytarım; belə ki, hər kəs öz evində öz torpağına sahib olsun." Ondan bu işin necə mümkün olacağını soruşduqda belə dedi: Əsgərləri çıxmaq şərti ilə bu torpaqların sahibləri öz ərazilərini Hicazda, Yəməndə və başqa yerlərdə əraziləri olanlarla dəyişdirə bilərlər. Mədinə əhalisi bu sözü eşitdikdə çox sevindilər və elə təsəvvür etdilər ki, onların üzünə

xeyirli bir qapı açılmışdır. Çünki, belə olan halda hər bir kəs özünə yaxın olan ərazidə qalacaqdı. Beləliklə, ərazilərin dəyişdirilməsi prosesi başlandı. Təlhə, Mərvan ibni Həkəm, Əşə’s ibni Qeys və başqaları öz torpaqlarını kiçik ərazi sahibləri ilə dəyişdirdilər və çox keçmədən Hicazda böyük torpaq sahibləri meydana gəldi. Onlar bir tərəfdən

məhsuldar torpaqlardan kifayət qədər gəlir əldə edir, digər tərəfdən isə İslamı ilk əvvəl qəbul etdiklərinə görə başqalarından çox məvacib alırdılar. Bundan əlavə, onlar .müntəzəm olaraq xəlifənin də verdiyi bəxşişlərə yiyələnirdilər

Bu sərvət sahiblərinin adını yazmaq tarixçilərin vəzifəsi deyildir. Müsəlman cəmiyyətindəki bərabərliyi sarsıdan ən mühüm tə'sir və amili də nəzərdən qaçırmaq olmaz. Həmin amil bundan ibarət idi ki, bir dəstə müsəlman İslamın ilk çağlarında Peyğəmbərlə (s) birgə olduqları və Ömərin xilafəti dövründə İslam dinini ucaltmaq üçün rəşadət və vəfadarlıq nümunəsi göstərdikləri halda sonradan hər şeyi unutmağa başladılar. Həzrət Peyğəmbərin vəfatından sonra, Ömərin sərt rəftarından qurtaran kimi dünya onların gözündə ziynətləndi və nəfsani istəklər onlara qalib gəldi. Bunlar Allahı yaddan çıxartdılar, müsəlmanların malını öz şəxsi əmlakı hesab etdilər və hətta iş o yerə çatdı ki, hər tərəfdə e'tiraz səsləri eşidilməyə başlandı. Osmanın ilk on illik xilafəti dövründə bir tərəfdən əsgərlər İran və Afrikadakı fəthlərlə məşğul olduqlarından, digər tərəfdən də bu təbəqə hələ tam surətdə formalaşmadığından bu .narazıçılıqlar yalnız şikayət formasında bildirilirdi

Xəlifə qohumlarına qarşı məhəbbətini azaltsaydı, Ömər kimi Əməvilərlə Qüreyşin lovğalıqlarının qarşısını alsaydı, Mərvan kimilərin yerinə özünə təqvalı və bacarıqlı müşavirlər seçsəydi fitnə və alovu söndürmək bəlkə də mümkün olardı. Lakin tarixçilər heç də yersiz yerə Osmanın xilafətinin son illərini sınaq illəri adlandırmamışlar. Peyğəmbərin (s) səhabələri bu bir neçə ildə imtahan olundular və təəssüflər olsun ki, bu sınağın öhdəsindən yalnız kiçik bir dəstə gələ bildi. Peyğəmbər (s) dövrünün sadəliyini, bəzək-düzəksiz Ömər xilafətini görmüş zahid və təqvalı səhabə olan Əbuzər Ğəffari, sonradan müsəlman olmuş məxsus bir dəstənin cah-cəlallı yaşayışını gördükdə onlara irad tutmaya bilməzdi. O, belə deyərdi: "Fəth edilmiş ərazilərdən əldə etdiyimiz mal-dövlət sizin şəxsi mülkünüz deyil, o bütün müsəlmanlara məxsusdur və dövlət xəzinəsinə verilməlidir. İslam dövləti üçün işləyən şəxslər xəzinədən öz ehtiyaclarını ödəyə biləcək miqdarda pul almalıdır, qalanı isə Allah yolunda xərclənməlidir." Əbuzər hamını Peyğəmbərlə və o həzrətin sadiq dostları ilə müqayisə edirdi. O imtahan zamanı (qiyamət) dindarların sayının az olmasını qəbul etmək istəmirdi. Qüreyş və Əməvilər onun bu iradlarına dözməyərək xəlifəyə şikayət edib

dedilər: “Əbuzər xalqı sənin əleyhinə üsyana qaldırır.” Nəhayət xəlifənin tamahkar müşavirləri Əbuzərin

sözlərinə əhəmiyyət verməyib öz işlərini davam etdirdilər. Əbuzər Şama sürgün edilsə də orada da Müaviyəni məzəmmət etməkdən çəkinmirdi. Buna görə də onu yenidən Mədinəyə, daha sonra Rəbəzəyə sürgün etdilər. Əbuzər uzun sürən məşəqqətlərdən .sonra orada kimsəsiz və qərib halda vəfat etdi

Xəlifənin müşavirlərinin tamahkarlıqları, Əməvilərin böyük şəhərlərdə etdikləri özbaşınalıqlar və beytül-malın şəxsi əmlak kimi tarac edilməsi əhalidə narazıçılıq yaradaraq e'tiraz dalğasını artırdı. İlkin narazılıqlar əsgərlər tərəfindən başlandı. Deyirdilər: "Mübarizə və ya sülhlə əldə olunmuş torpaqların gəliri bizə çatır." Lakin Osmanın tə'yin etdiyi hakimlər sülhlə əldə edilən torpaqları şəxsi mülkləri, fəth olunmuş əraziləri isə müştərək mal hesab edirdilər. Çoxlu sayda baş vermiş münaqişələrdən birini İbni Əsir belə qeyd edir: "Kufə hakimi Sə'd ibni As bir gecə öz yaxın adamları ilə söhbət əsnasında dedi: Səvad (İraq ərazisi) Qüreyşin bostanıdır." Yəmani tayfasından olan Əştər Nəxə'i dedi: Bu ölkəni biz döyüşərək almışıq (qılınc gücünə), bura Qüreyşin bostanına necə çevrilə bilər?" Əbdürrəhman Əsədi isə belə dedi: "Əmirin üzünə ağ olursan, onun müqabilində söz deyirsən!" Əştər yaxın adamlarına işarə etdikdən sonra, onlar Əbdürrəhmanın üstünə tökülüb o qədər vururlar ki, o, özündən gedərək qəşş edir. Bu tarixdən başlayaraq Yəmanilərlə .Muzərilər arasında münaqişə yarandı

Osmanın müşavirləri düzgün çıxış yolu tapmaqdansa, onu beytül-malı acgözlüklə qohum-əqrəba arasında bölüşdürməyə təhrik edir, yaxın qohumu olan Əbu Muitə ailəsinin xalqa rəva gördükləri zülmlərin qarşısını almaqdansa, nadanlıqdan və ya bilərəkdən təqvalı insanları onun ətrafından uzaqlaşdırırdılar. Bə'ziləri Peyğəmbər sünnəsini yaşatmaq üçün dinə olunmuş əlavələri (bid'ətələri) sıradan çıxarmaq məqsədi ilə xəlifəni nəsihət və ya məzəmmət edən zaman, Osmanı onları döyməyə, qovmağa və ya sürgün etdirməyə məcbur edirdilər. Onlar bu bəlanı, hətta ibni Məs'ud, Əbuzər və Əmmar Yasərlərin də başına gətirdilər. Xainlər ona məsləhət görürdülər ki, yeni ölkələr fəth etmək üçün əsgərləri uzaq diyarlara göndərsin. Əli (ə) bir neçə dəfə xalqla onun arasında vasitəçilik etmiş, hər dəfə də Osman bu rüsvayçılıqlara son qoyacağına söz vermişdi. Lakin həmişə onun ətrafındakılar, xüsusilə də Mərvan ibni Həkəm bu işə mane olmuş və artıq e'tiraz dalğası uzaq sərhədlərdən keçərək içəriyə,

.(mərkəzə) təcavüz etmişdi

Artıq narazılar dəstəsi Mədinəyə üz qoyub şikayətlərinə baxılmasını tələb edirdilər. Xəlifə onların şikayətinə baxacağına söz versə də, müşavirləri buna yol vermədilər. Çox keçmədi ki, bu narazılıqlar böyük

bir iğtişaşa çevrildi. Bir dəstə adam bundan sonra çarə fikrinə düşsələr də artıq gec idi. Yazılanlara əsasən, misirlilər Osmanın dəyişiklik edəcəyi haqda verdiyi və’də ümidi ilə geri dönərkən yolda bir çaparla rastlaşırlar. Onun üst-başını yoxladıqda Osmanın Misirin hakiminə yazdığı məktubu tapırlar ki, orada bunların öldürülməsi əmri verilmişdi. Elə buna görə də iğtişaşçılar geri dönürlər. Görünür ilahi qəza belə imiş, bu .hadisədən sonra İslam xəlifəsi müsəlmanların əli ilə öldürüldü

Təəccüblü burasıdır ki, Qüreyşdən və Əməvi tayfasından olan bir neçə əsilzadələr fitnə odunun haradan alovlanmasını bilmir və ya bilmək istəmirdilər. Müsəlmanların malını talan etmələri, ədalətsizlikləri, özlərini üstün tutmaları ilə sərhəd ərazilərdə yaşayan əhalinin mərkəzə hücum etməsi ilə nəticələnən prosesi qəbul etmək istəmirdilər. Osmanın ölməsini tayfa ixtilafları ilə əlaqələndirir, bəni Haşimin Üməyyə .övladlarından intiqam almaları kimi qiymətləndirirdilər

Osman iğtişaşçıların əli ilə qətlə yetirildikdən sonra onun qardaşı (anadan bir qardaş) :Vəlid ibni Üqbə matəm mərasmimində bəni Haşimə belə dedi

!Bəni Haşim! Bizdən nə istəyirsiniz?! Osmanın qılıncı sizin əlinizdədir“

!Bəni Haşim! Bacı oğlunuzun silahını geri çəkin! Onu talan etməyin ki, bu sizə yaraşmaz

Bəni Haşim! Bu necə mümkündür ki, biz əxlaqlı davrandığımız halda Osmanın zirehi və !atları sizin yanınızdadır

Əgər bir nəfər həyatı boyu içdiyi suyu unutsa belə, mən Osmanı və onun ölümünü ”.unutmayacağam

Bu məzmunda söylənmiş şe’rə diqqət yetirin, onu söyləyən dövrün xəlifəsi Osmanın .qardaşı - özü də xəlifə tərəfindən Kufəyə hakim tə’yin olunmuş bir şəxsdir

Peyğəmbərin (s) vəfatından bu zamana qədər ۲۵ il keçmişdi. Ancaq gördüyünüz kimi, İslam dininin zühur edib yayıldığı bir məkanda, yə’ni Mədinə şəhərində müqəddəs .ayinlər zahirdə müsəlman olan bir kişinin dili ilə necə məhv edilir

Bu beytlərdə Osmanın nə səbəbə öldürülməsi haqda heç bir mə’lumat verilmir.

Görəsən onun öldürlməsi ədalətsiz bir iş idi, yoxsa həqiqət? Görəsən o, qətlə yetirilən gün Peyğəmbər sünnəsinə və özündən əvvəlki xəlifələrin rəftarına sadiq idi, yoxsa yox? Göründüyü kimi, onlar qiyamçıların xəlifəyə nə üçün hücum edib onu öldürməsini soruşmurlar və ictimai fikri yayındırmaq üçün yalnız Üməyyə ilə Haşim övladları .arasında olan keçmiş ixtilafı xatırlayırlar

Osmanın ölümündə Haşimilərin bir başa və ya dolayı yolla da iştirakı olsaydı, bu sözləri yenə də üzürlü hesab etmək olardı. Lakin o açıq-aşkar töhmət vuraraq müqəssirlərin !Həzrət Əlinin (ə) evində və ya ətrafında olmasını iddia edir

Bildiyiniz kimi, Osmanın ağır günlərində Əli (ə) onu himayə etmiş və onların iddiasının əksinə olaraq heç də onun əleyhinə döyüşə qalxmamış, qiyamçılara heç bir köməklik göstərməmişdir. Bu töhmət Əməvilərin qəlbində bəni Haşimə qarşı dərin kök salmış tarixi nifrətdən başqa bir şey deyildir. Çünki Peyğəmbər (s) Üməyyə övladlarından deyil, yalnız bu qəbilədən çıxmışdır. Onlar Osmanın ölümündən sonra xəlifənin bəni Haşim tayfasından seçilməsinə davam gətirə bilməzdilər. Burada sadəcə olaraq bir söz deyə bilərik ki, bə'zi qəbilə və tayfa başçıları digər qəbilələrlə olan düşmənçiliklərini də unutmamışdılar. Yalnız müvəqqəti olaraq başları ayrı işə qarışdığından ona çox .əhəmiyyət vermir, fürsət tapan kimi yenidən keçmiş adət-ən'ənələrinə qayıdırdılar

Osman öz xilafəti dövründə bə'zi mühüm işlər də görmüşdür. O işlərdən biri də Qur'anın tilavətində müxtəlifliyin mövcud olması ilə ilahi kəlamın azalıb-artmasının qarşısını almaq üçün Əbu Bəkr zamanı yazılmış Qur'an səhifələrini Ömərin qızı Həfsədən alıb onun bir neçə nüsxəsini köçürməsi olmuşdur. Bu Qur'anları mühüm .sayılan İslam şəhərlərinə göndərdikdən sonra yerdə qalan Qur'anları yandırdılar

Osmanın xilafəti zamanı Müaviyə böyük dəniz qoşunu təşkil edərək Kipr adasına hücum etdi. Sonra isə Konstantinopolu ələ keçirmək fikrinə düşdü ki, buna nail ola .bilmədi

### ƏLİNİN (Ə) XİLAFƏTİ

Vəziyyət sakitləşdikdən və qiyamçılar işlərini sona çatdırdıqdan sonra Mədinə əhalisi müsəlmanların başsız qaldığına nəzər yetirib xalqa xəlifə tə'yin edilməsini düşündülər. Peyğəmbərin səhabələrindən bə'ziləri, o cümlədən Təlhə və Zübeyr hakim olmaq sevdası ilə yaşayırdılar. Lakin bütün işləri öz əllərində mərkəzləşdirən qiyamçılar onların rəhbər olmasına tərəfdar deyildilər. Müsəlmanların əksəriyyətinin, xüsusilə Mədinə əhalisinin (mühacir və ənsar) diqqəti Əliyə (ə) tərəf yönəlmişdi. Bə'zi tarixçilər yazırlar ki, elə həmin gün Əlidən (ə) xilafəti qəbul etməsini istəyib onunla bey'ət etdilər. Ancaq bə'zilərinin dediyinə görə, gediş-gəliş və danışıqlar üç gün çəkdi. Hər halda xalq

Əliyə (ə) bey’ət etdikdən sonra o həzrət müsəlmanların imamı tə’yin olundu. Lakin Peyğəmbərin (s) vəfatından ۲۵ il keçdikdən sonra ictimai baxımdan ədalətin icrası üçün münasib bir şərait yox idi. O həzrət qarşılaşacağı

problemlərdən xəbərdar idi və ona görə də xilafəti qəbul etməyərək belə deyirdi: ".“Məndən əl çəkin, bu məs’uliyyəti başqasının öhdəsinə qoyun

Əmirəl-mö’minin (ə) geniş əraziyə malik bir ölkə, müxtəlif soylardan olan xalqlar, küncdə-bucaqda fürsət güdən iddiaçılar, ən başlıcası isə Mədinənin daxilində xilafəti əldə etmək istəyənlərlə üz-üzə durmuşdu. Peyğəmbərin (s) şəriəti, bə’zi səhabələrin əxlaqi rəftarları bu ٢٥ il ərzində alt-üst edilmişdi. O, bu dəyişiklikləri aradan qaldırmalı, məhvə doğru gedən Peyğəmbər sünnəsini dirçəltməli idi. İllər boyu sərvət toplamaq və özünə qulluq etməklə məşğul olanlar, bə’zi üstünlüklər əldə edənlər, Hicazın və İslam ərazilərinin siyasi idarəsini əllərində mərkəzləşdirənlər yenidən sadəlik, bərabərlik və ədalət tələb edən həyat tərzinə qayıtmaq istəmirdilər. Onlar ifrat dərəcədə səxavətli və tələbkar olmayan müvafiq xəlifə istəyirdilər. Aydındır ki, Əli (ə) İslamı öz həqiqi mehvərinə qaytarmaq istəyirdi, lakin bu iş heç də Hicaz dövlətlilərinin ürəyincə deyildi. Çünki o, beytül-malın bölünməsində hamıya bir gözlə baxırdı. Artıq ٢٥ il ərzində məxsus yaşayışa alışmış adamlar üçün bu üslub həddindən artıq çətin və .xoşagəlməz sayılırdı

Əmirəl-mö’minin (ə) bey’ət sona çatdıqdan sonra öz nümayəndələrini İslam əyalətlərinə yolladı. Osman ibni Huneyfi Bəsrəyə, Əmmarət ibni Şəhabı Kufəyə, Abdullah ibni Abbası Yəmənə, Qeys ibni Sə’d ibni Ubadəni, ondan sonra Məhəmməd ibni Əbu Bəkri, ondan sonra isə Malik əştəri Misirə yolladı. Səhl ibn Huneyfi isə Şama vali tə’yin etdi. Bu valilərin heç biri öz işlərində lazımi müvəffəqiyyət əldə edə bilmədilər, çünki bütün şəhərlərdə ikitirəlik meydana gəlmişdi. Qeyd etdiyimiz kimi, bu ixtilafları Osmanın tərəfdarları vücuda gətirmişdilər. Osmanın iş üslubundan narazı olanlar Əlinin (ə) göndərdiyi hakimlərdən razı olsalar da, Əməvi tərəfdarları, bir sözlə Qüreyşə bağlı olanlar İmamın valiləri ilə münaqişə yaradırdılar. Hətta onların .bə’zələrini Müaviyənin adamları qətlə yetirdilər

Təlhə və Zübeyr Kufə ilə Bəsrə şəhərlərinə hakim olmaq, xilafət işlərində başçılıq etmək arzusunda idilər, lakin Əli (ə) müsbət cavab vermədiyindən onlar Mədinədən .getmək üçün icazə istədilər

Müaviyə çoxdan idi ki, Şamda hakimiyyətini möhkəmləndirmişdi. Ağır günlərdə

Osmana yardım etmək əvəzinə onu tənha qoydu, qətlə yetirildikdən sonra onu məzlum xəlifə adlandıraraq qisasını almaq üçün ayağa qalxdı. O, yaxşı bilirdi ki, xalqa Əlini (ə) Osmanın qatili kimi təqdim edə bilməyəcək, çünki müsəlmanlar o həzrətin imanına, sədaqətinə və təqvasına yaxşı bələd idilər. Müaviyə mühacir və ənsarın onunla bey’ət etdiklərini gördükdən sonra aşkar şəkildə vəzifədən əl

çəkmək istəmirdi, digər tərəfdən də səbəbsiz olaraq açıq müxalifətə cür'ət etmirdi. Ona görə də zahirdə ehtiram əlaməti olaraq o həzrətə məktub yazır ki, Osmanın qatilləri sənin yanındadır, onları cəzalandırmaq üçün buraya göndərsən, şəhərin .hakimiyyətini istədiyin şəxsə təhvil verməyə hazıram

Peyğəmbər zövcəsi Aişə Osmanın qatı müxaliflərindən idi. Xalqın Əliylə (ə) bey'ət etməsini eşitdikdə narazıçılığını bildirib Osmanı məzlum adlandırdı. İlk baxışdan, narazı insanların dünən bey'ət etdikləri xəlifə ilə üz-üzə duracaqları və işlərində ciddi olacaqları təsəvvür edilmirdi. Lakin Təlhə, Zübeyr və Əməvilərin bir neçəsi Əlinin (ə) ədalətindən təngə gələrək Aişəni də özləri ilə birgə Bəsrəyə apardılar və orada döyüş üçün hazırlıq görməyə başladılar. Bunların Bəsrəyə toplanması mərkəz üçün təhlükə sayılırdı. Xəlifə Hicazdan İraqa yollandı, müxalifləri danışıq yolu ilə özünə tabe etməyə çalışsa da bu iş mümkün olmadı, nəticədə iki dəstə arasında döyüş baş verdi. Düzdür, müharibənin sonu xəlifənin qələbəsi ilə qurtardı, lakin bu müsəlmanlar arasında baş verən ilk daxili müharibə oldu. Rəddə müharibələrindən (mürtədlərlə döyüş) bu günə qədər ərəblər hər zaman ərəblər yaşamayan ölkələrdə müsəlman olmayanlarla vuruşmuşdular. Müharibə qurtardıqdan sonra Bəsrədə müvəqqəti sabitlik bərpa edildi. Əli (ə) böyük şəhərlərə öz nümayəndələrini göndərdi. Cəməl müharibəsində tamaşaçı rolu oynayan Müaviyə yavaş-yavaş tədarük görürdü. O, bir tərəfdən Rum imperiyası ilə sülh sazişi bağlamış, digər tərəfdən isə qüvvə toplamağa məşğul idi. Cəməl müharibəsindən sonra Şamla İraqın vəziyyətini diqqətlə araşdırmaq lazımdır. Qeyd edildiyi kimi, bu müharibədə on min nəfər həlak olmuşdu. Bu qədər döyüşçü qüvvəsinin azalması (bütövlükdə İraq sakinlərindən ibarət olmuşdur) əhalinin iqtisadi vəziyyətinə də böyük tə'sir göstərmişdi. Bunun əksinə olaraq, Müaviyə isə rifah içində yaşayan müsəlman və xristinlara hakim idi. Əlinin (ə) qoşununun tərkib hissəsi Kufə və bir sıra Bəsrə əhlisindən təşkil olunmuşdu. Bunlar İslam müharibələri zamanı Hicaz səhralarından bu iki şəhərə yollanmış insanlar idi. Bu əhalinin əksəriyyətində İslam tərbiyəsi və dini nizam-intizam tə'sir qoymamışdı. Şam əhalisindəki birlik və vəhdətdən fərqli olaraq, İraq əhalisində hər cəhətdən müxtəliflik nəzərə çarpırdı. Bu xüsusiyyətlərə malik olan insanları qayda-qanuna tabe etmək həddindən artıq çətin idi. Bu məntəqə sakinlərinin müxtəlif əhval-ruhiyyədə olmaları barədə biz İmamın söylədiyi xütbələrdə rastlaşırıq. Hər halda Müaviyə böyük bir qoşun toplayaraq

.Osmanın qisasını almaq bəhanəsi ilə İraqa tərəf üz tutdu

Siffeyn səhrasında Şam qoşunu ilə İraq qoşunu üzləşdilər. Müharibənin son günlərində İraq qoşunlarının qələbəsi tam qətiləşəndən sonra Müaviyənin müşaviri Əmr As hiyləyə əl atdı. Şamlılara Qur'anları nizələrə taxıb İraq qoşununu ilahi hökmə tərəf çağırmağı tapşırdı. Əlinin (ə) qoşununda olan bir neçə münafiq bu təklifi qəbul etdilər. O həzrət onlara bunun Müaviyənin öz xilası üçün əl atdığı hiylədən ibarət olduğunu nə qədər başa salsa da qəbul etməyərək dedilər: "Əgər şamlıların təklifini qəbul etməsən səni öldürəcəyik." Əli (ə) məcburiyyət qarşısında qalıb onların təklifini qəbul etdi. Nəhayət növbə hər iki tərəfdən hakim tə'yin edilməsinə yetişdi. Bu iki hakim Dumətul-Cəndələ getməli, ilahi kitaba və peyğəmbər sünnəsinə əsasən Əliylə (ə) Müaviyənin !hansı birinin müsəlmanlara layiqli rəhbər olmasını seçməli idilər

Mə'lumdur ki, Şamın hakimi Əmr ibni Ası, Əli (ə) isə əmisi oğlu Abdullah ibni Abbası hakim seçmək istəyirdi, lakin elə həmin İraqlı münafiqlər nə Abdullahın, nə də başqa layiqli bir şəxsin hakim seçilməsinə razı olmadılar. Bu iş üçün Əlini (ə) sevməyən, Bəsrə döyüşündə iştirak etməyən sadəlöhv bir şəxsin - Əbu Musa Əşə'rinin adını çəkdilər. Onlar öz sözlərini Əliyə (ə) məcburi qəbul etdirdilər. Bu hakimliyin nəticəsində Şamın nümayəndəsi İraq nümayəndəsinə qalib gəldi. Bu iki nəfər əvvəlcə qərara aldılar ki, Əliylə (ə) Müaviyə xilafətdən kənar edilsin və müsəlmanlar özlərinə yenidən xəlifə seçsinlər. Nəzərdə tutulmuş gündə öz rəylərini elan etmək istəyən zaman Əmr As Əbu Musadan istəyir ki, minbərə birinci o çıxıb öz qərarını söyləsin. Əbu Musa minbərə çıxdıqdan sonra barmağındakı üzüyü çıxararaq belə dedi: "Mən bu üzüyü barmağımdan çıxartdığım kimi, Əli və Müaviyəni də xilafətdən kənar etdim." Ondan sonra növbə Əmr Asa yetişdi. O, dedi: "Mən də Əlini o deyən kimi xilafətdən kənar etdim, əvəzində isə Müaviyəni xilafətə seçdim." Əbu Musa hirslənib dedi: "Axı bu bizim qərarımızın əksidir." Artıq gec idi və iş-işdən keçmişdi. İraqlılar elə buradaca şamlılara aldandıqlarını anlayaraq Əlidən (ə) Müaviyə ilə döyüşə hazır olmağı tələb etdilər. O həzrət isə belə buyurdu: "Biz şamlılarla bir il döyüşməyəcəyimiz haqda müqavilə bağlamışıq." Gizlində Müaviyə ilə əlaqədə olan bu münafiqlər, bir dəstə təqvalı, lakin sadəlövh müsəlmanı Əliylə (ə) Müaviyəni Allah dinində hakim seçmələrinin nahaqq olduğuna görə müxalifətə qaldırdılar. Onlar "Hakimlik yalnız Allaha məxsusdur, Əlinin və başqalarının ona qarışmağa haqqı yoxdur" deyirdilər. İlk baxışdan çox da əhəmiyyət kəsb etməyən bu söz sonradan böyük bir fitnənin yaranmasına səbəb oldu.

dəstə adam Əli (ə) tabe olmaqdan boyun qaçırıb dedilər: “Allah dinində hakim tə’yin etməklə kafir olmusan, gərək tövbə edəsən və biz ondan sonra sənə tabe olarıq!” Əli (ə) dəfələrlə onlara nəsihət verdi, lakin faydası olmadı. İddiaçılardan bir dəstəsi geri dönüb Müaviyəyə qoşuldu, başqa bir dəstə isə Nəhrəvan adlı yerdə toplaşaraq dedilər: “Əli (ə) Şama yollanan zaman biz Kufəyə hücum edərik.” Əli (ə) məcbur olub onlarla döyüşdü. Bu artıq, müsəlmanların üçüncü daxili müharibəsi idi. Bunlar İslam tarixində “xəvaric” (xaric olmuşlar) adlanmışlar. Xəvaric həddini o qədər aşmışdı ki, hətta Əli (ə) minbərdə Qur’an oxuyan zaman yerdən qalxıb onun sözünü kəsər və deyərdilər ki, sən Allah dinində hakim tə’yin etməklə müşrik olmusan və sənin .müşrikliyin parlaq keçmişini məhv edib

Dəfələrlə qeyd etdiyimiz kimi, o dövrdə siyasi və məzhəbi dəstələr öz iddialarını sübuta yetirmək və düşməni məğlub etmək üçün Qur’an ayələrinin yalnız zahiri mə’naları ilə kifayətlənirdilər. Əli (ə) Abdullah ibni Abbası xavəricin yanına danışığa göndərəndə belə buyurdu: “Onlar üçün Qur’andan dəlil gətirmə, çünki ayələrin ”!müxtəlif mə’naları vardır, Peyğəmbər hədislərindən istifadə et

Xəvaric (onlar Mariqin də adlanmışlar) İslam tarixində çox acı keçmişə malik olmuş və eyni zamanda bu dinə həddindən artıq ağır zərbələr vurmuş siyasi-əqidəvi bir firqədir. İslam tarixi, kəlam və fiqh elminin bir bölümünü xəvariclər özlərinə həsr etmişlər. Gördüyünüz kimi, onlar digər siyasi dəstələr kimi başlanğıcda məhdud bir məsələyə toxunurdular, lakin sonradan başqa siyasi firqələr kimi öz fikir və əməl dairəsini .genişləndirərək bir çox e’tiqadi məsələləri də irəli sürdülər

Xəvaric o qədər qorxunc bir məslək olmuşdur ki, hər iki məzhəb (şiə və sünni) Peyğəmbərdən onlar barəsində və Nəhrəvan döyüşündə onlara rəhbərlik edən şəxsin .haqqında çoxlu sayda hədislər nəql etmişlər

səh:۱۱۸

## BEŞİNCİ FƏSİL:ƏLİNİN (Ə) ŞƏHADƏTİNDƏN SONRA İSLAMIN ƏHATƏ DAİRƏSİ

### ?ƏSL HƏQİQƏTDƏ XƏVARİC NƏ İSTƏYİRDİ

Qeyd etdiyimiz kimi, xəvaric dəstəsi əvvəldə hakim tə'yin etmək məsələsi ilə razılaşdılar. Lakin bir neçə ay ötəndən sonra Allah dinində hakim tə'yin etdiyinə görə Əliyə (ə) irad tutdular. Əli (ə) bundan sonra onlara: "Biz şamlılarla döyüşə hazırıq, lakin .müvvəqqəti barışığın müddəti başa çatmalıdır" dedikdə, onlar qəbul etmədilər

Dini işlərdə ifrata varanlar görəsən "əhdlərinizə vəfa edin" ilahi kəlamından xəbərsiz idilərmi? Biz tarixi mə'lumatlarda yalnız bir neçə sənədlərlə kifayətlənsək onların .rəylərini dəyişdirməsindən heyrətə gəlirik

Doğrusu xəvaric hər iki tərəfdən hakim tə'yin olunmasını qəbul edəndən son həddə qədər, yə'ni Əlidən (ə) uzaqlaşana qədər bir sözün üstündə durmamışlar. Onlar əvvəldə bir şeyi qəbul etsələr də sonda başqa bir şeyi tələb etdilər. İllər boyu tarixçilər bu iki əqidəni bir-birinə qarışdırıb onun bir problem olduğunu qeyd etmişlər. İlk tarixi mənbələrdə də bu ikiliyə (iki aspektə) işarə olunmamışdır, ancaq hadisələri dəqiq .şəkildə tədqiq edib danışıqları araşdırsaq əsl həqiqət üzə çıxacaqdır

Dediyimiz kimi, Müaviyənin başında xilafət sevdası dolanırdı. İraqı ələ keçirib dövrün xəlifəsini kənarlaşdırmaq üçün hazırlıq görsə də bu istəyi aşkar şəkildə dilə gətirmirdi. Çünki müsəlmanların xeyir və şərlərini həll edən mühacir və ənsarlardan yalnız bir-ikisinin Əlinin (ə) əleyhinə müttəfiq olduğunu görürdü. Əgər Əlinin (ə) imamətini qəti şəkildə qəbul etməsə də müsəlmanların sünnəsinə tabe olmaqdan boyun qaçıra bilməzdi. Elə bu səbəbdən də o, Osmanın qisasını bəhanə edərək deyirdi: "Əlinin ətrafındakılar Osmanı zalımcasına öldürmüşlər. Osmanın elə bir günahı olmayıb ki, İslam fiqhi ona ölüm hökmü tə'yin etsin. Mən bir qohum kimi onun intiqamını alacağam. Osmanın qatillərindən qisas alınmalıdır, onlar isə Əlinin ətrafına toplaşıblar. ."Bəs o, qatillərə sığınacaq verdiyi üçün Allah hökmünü pozmuşdur

Osmanı öldürənlər deyirdilər: "Osman bir çox böyük günahlara əl atdığından onun ".cəzası ölüm olmuşdur

Şam hakiminin xalqı aldadıb müsəlmanları Qur’an hökmünə də’vət etməsindən məqsəd guya qiyamçıların Osmanı düzgün və ya nahaq yerə öldürmələrini aydınlaşdırmaq idi. Qərara alındı ki, hakimlər Allah kitabına və Peyğəmbər sünnəsinə əsasən həqiqətin nədən ibarət olmasını müəyyən etsinlər. Əgər Osman haqq olaraq öldürülmüş olsaydı, Müaviyənin onun intiqamını almağa ixtiyarı yox idi, yox əgər haqsız yerə öldürülmüş olsaydı, o, məzlum xəlifənin intiqamçısı sayılacaqdı. Hər iki qoşunun müştərək bir rə’yə gəldikləri məsələ bundan ibarət idi, sonralar xəvaric adı ilə .məşhurlaşmış dəstə də ilk əvvəl bu məsələni qəbul etmişdilər

Təbəri yazır ki, Əş’əs ibni Qeys barışıq sazişini İraq qoşununa oxuyan gün yalnız Urvət ibni Udəyy bu işlə müxalifət edib dedi ki, sizin hakim tə’yin etməyə haqqınız yoxdur. .Lakin ətrafındakılar onun tərəfindən üzrxahlıq istədilər

Şamın hakim tə’yin etdiyi nümayəndə öz rə’yini söylədikdən sonra xəvaric qəzəblənib ”.dedi: “Hakimiyyət yalnız Allaha məxsusdur

Onlar nəyə görə belə deyirdilər? Bu sualın cavabı aydınlaşmayıb. Bütövlükdə tarixi və qeyri tarixi sənədləri araşdırarkən bu nəticəyə gəlmək olur ki, xəvaric, hakimlərin xilafət məsələsinə qarışmasını və onun səlahiyyətinin müəyyən edilməsini Əli (ə) razılığı ilə olduğunu düşünürdü. Xəvaric, hakimlərin onlara aid olmayan işə dəxalət etdiklərini iddia edirdilər (xəlifə tə’yin etmək və ya çıxarmaq). Onlar bu məsələni düzgün başa düşməmək ucbatından və ya pis niyyətli olduqlarından bu səhv hakimliyin günahını dövrün xəlifəsinin ayağına yazaraq bu hakimliyin məs’uliyyətini onun üzərinə qoyurdular. Onların nəzərincə xəlifənin səlahiyyətlərini bütövlükdə müsəlmanlar tə’yin etməli idi. Ona görə də Əli (ə) müsəlmanların ona verdiyi böyük məqamın səlahiyyətlərini tə’yin etməyi məxsus bir şəxsin öhdəsinə qoya bilməzdi və .gördüyü bu günah işə görə tövbə etməlidir

Şübhəsiz onlar belə bir iş görmək üçün hakim seçilməmişdilər, əslində arada heç belə bir məsələ də yox idi. Hakimlər yalnız həddi aşaraq səlahiyyətləri çatmayan işə qarışmışdılar. Əli (ə) da heç vaxt belə bir hakimliyi qəbul etməzdi, çünki bu məsələ sırf özbaşınalıq və xəyanət idi. O həzrət yalnız barışıq müddəti sona çatmazdan əvvəl müharibənin başlanmasına razı deyildi. Ortada hansı hiyləgərliklərin olmasını

aydınlaşdırmaq üçün az da olsa burada izah verməyimiz lazımdır. Həqiqətdə Şam hakiminin hiyləgərliyi və İraq hakiminin sadəlövhlüyü bu ixtilaflar üçün zəmin yaratmışdı. İki hakim birinci dəfə görüşdükləri zaman Əmr ibni As Əbu Musa Əş’əridən :soruşdu

"!Bilirsənmi Osman məzlumcasına öldürülmüşdür?" Dedi: "Bəli"

"!Bilirsənmi Müaviyə onun intiqamını almaq istəyir?" Dedi: "Bəli"

"?Bəs nəyə görə Müaviyənin tərəfinə keçmirsən

Gördüyünüz kimi, ilk anda söhbət Müaviyənin intiqam almağa hüququ olub-olmamağından gedirdi. Əgər hakimlər öz həddlərini aşmasaydılar bəlkə də xəvaricin əməli bu şəkildə qurtarmazdı. Lakin onlar xəlifəni tə'yin etmək və vəzifədən azad etmək işinə də qarışdılar. Son görüşdə (məclisdə) ilk olaraq Əbu Musa Əlini (ə) və Müaviyəni xilafətdən kənar etdikdən sonra Əmr ibni As dedi: "Mən də Əlini xilafətdən azad edib Müaviyəni xəlifə tə'yin edirəm." Əbu Musa acıqlanaraq dedi: "Bizim qərarımız belə deyildi." Beləliklə hər iki hakim bir-birlərini ağır sözlərlə söyüb təhqir etdilər. İraqlılar artıq bundan sonra Müaviyə və onun tə'yin etdiyi hakimə aldandıqlarını başa düşdülər. Elə buradaca xəvaric düşüncəsizlikdən və ya üzdə özünü dost kimi aparan qoşun daxilindəki düşmənlərin təhrikləri ilə araya başqa söz atdılar. Onlar öz əməllərinə belə don geyindirdilər ki, Əli (ə) hakim tə'yin etməklə özünün xilafəti barəsində şübhəyə düşmüşdür. Müsəlmanlar Əliyə (ə) bey'ət etməklə ilə onu xəlifə seçmişlər, onun və ya başqasının xilafət barədə hakimlik etməyə hüququ :yoxdur. İbni Abbasla xəvaric arasında olan danışıqlara bir nəzər salın

:Niyə hakimin tə'yin edilməsinə irad tutursunuz, bir halda ki, Allah-təala buyurur"

Bir sıra məsələlərdə Allah bəndəsi hökm edə bilər, lakin bə'zi məsələlər vardır ki, ".xalqın o barədə hökm etməsi rəva deyildir

Belə nəzərə çarpır ki, xəvaricin son sözü müsəlmanların Əbu Musa ilə Əmr Ası Əlinin (ə) və ya Müaviyənin xilafətə layiq olmasını araşdırmaq üçün göndərmədikləri olmuşdur. Nəyə görə? Çünki müsəlman cəmiyyəti Əlini (ə) xəlifə kimi qəbul etmişdi, Müaviyə və ondan başqaları onun hakimiyyətini qəbul etməli idilər. Onun hakim tə'yin edib özünün xilafətə layiq olub-olmamasını aydınlaşdırmağa haqqı yox idi. Məhəmməd ibni Cərirdən bir az əvvəl yazılmış tarix kitabında Yə'qubi yazır: "Xalq Əbu Musa ilə Əmrin sözünü eşitdikdən sonra səs-küy salıb hər iki hakimin Allah kitabının və qoyulmuş şərtin əksinə rəy verdiklərini dedilər." Buradan aydınlaşır ki, xəvaricin hakim

məsələsinə olan ilk iradı hansı nəzərdən olmuşdur. Onlar rəhbərlik məsələsini iki nəfərin öhdəsinə qoyulmasını qeyri-mümkün sayırdılar. Xəlifə tə’yin etməyi ümumxalq işi hesab edirdilər. Elə bu səbəbdən də Əliyə (ə) dedilər: “Sən öz işində hakim tə’yin etməklə şəkkə düşüb günah işlətmisən. Əgər xilafətə layiq idinsə, nəyə görə hakimləri seçib öz işini

onlara tapşırdın? Əgər özünün xilafətə layiq olmağın haqda şübhəyə düşmüsənsə, onda başqaları gərək səndən artıq dərəcədə şəkk-şübhəyə düşmüş olsunlar.” Bu danışıqlardan mə’lum olur ki, xəvaric ilk dəfə hakim tə’yin olunmasına deyil, onların çıxardıqları rə’ylərə irad tutmuşlar. Hər halda əgər onların sözü bu da olsa, gördüyünüz kimi, onlar hakimlərin ölməsi haqda deyil, xilafət məsələsində hökm verməlırinə irad tutmuşlar. Qeyd etmək lazımdır ki, həzrət Əli (ə) hakimlik məsələsini məcburiyyət qarşısında, onların təhdid və təhqirləri müqabilində qəbul etmişdi. Əgər əvvəlcədən onun sonu mə’lum olsaydı, nəinki o, bəlkə heç bir müsəlman bu məsələni qəbul etməzdi. Lakin o hakimlərin hər ikisi öz işlərində xəyanət etdilər.

Bir şeyi də unutmaq olmaz ki, bir dəstə adamlar nə hakimiyyətdən baş çıxara bilir, nə də xalqın gözündən yayınan siyasi quruplaşmalardan xəbərləri var idi. Bunlar yalnız şüar verməklə kifayətlənən, nə istədiklərini özləri də bilməyən adamlar idi.

Əli (ə) onlar haqqında buyururdu: “Bunlar haqq söz əsasında batil arxasınca düşənlərdir.” Hər halda başlanğıcda irad məhdud olmuşdur. Qeyd etdiyimiz kimi, xəvaric Əliylə (ə) döyüşə qalxdılar, çoxlu tələfat (itki) verdikdən sonra dağıldılar. Arada sağ qalmış bir-iki nəfər yayınaraq ucqar yerlərdə gizləndi. Ancaq zaman ötdükcə kiçik sayılan bu mübahisə (həkəmiyyət və münsiflər məhkəməsi) yeni ixtilafların doğmasına, bu məsələ ətrafında çoxlu sorğu-sualların meydana gəlməsinə səbəb oldu. Xəvaric Əlinin (ə) münsiflər məhkəməsinin hakimliyini qəbul etməkdə kafir olduğunu deyirdilər (Allaha pənah aparırıq). Düzgün olmayan bu nəticədən yeni mübahisələr və e’tiqadi suallar ortaya çıxdı. Məsələn, bir müsəlman kafir olub tövbə etməsə Allah-təala onunla necə rəftar edəcək? Bunun ardınca Əliylə (ə) Osmandan söz açıb onların günah iş gördükdən sonra tövbə edib-etmədiklərini müzakirə edirdilər. Bu məsələ yenidən ayrı bir mübahisəni də doğurdu. Günah edən xəlifə tövbə etməzsə, müsəlmanlar yenidən ona tabe olmalıdırlar, yoxsa yox? O vaxtlar Kufə və bütövlükdə İraq (uzun illər boyu) belə mübahisələrin açıq meydanına çevrilmişdi. Mübahisə və müzakirələr “nə etmək lazımdır” ətrafında deyil, “nələr etmişlər” üzərində dolanırdı.

Xəvaricin mübahisələrinin son nəticəsi bu oldu ki, Əli və Osman heç biri xilafətə layiq olmamışlar. Rəhbər tə’yin olunmasında bütün müsəlmanların haqqı var, bu iş məxsus

bir dəstəyə (mühacir və ənsardan ibarət şura) aid edilmir. Qüreyşdən əlavə də hər bir şəxs xəlifə ola bilər. Belə ki, onlar “İmamlar Qüreyşdəndir” hədisini qəbul etmirdilər. -Yavaş

səh:١٢٢

yavaş məxluq barəsində yaranmış söz-söhbətlər həddini aşaraq xaliqə də şamil edildi ki, görəsən Allah mükafat və cəzanı hansı ümumi qayda əsasında verir. Mübahisə və müzakirələr genişləndikcə xəvaric çoxlu sayda firqələrə bölünürdülər. Şəhristani öz .kitabında bu dəstəyə aid olan ۲۲ firqə saymışdır

Nəhrəvan döyüşü qurtardıqdan sonra Əli (ə) Şama gedib Müaviyəni məğlub etmək üçün hazırlıq görürdü. Lakin o həzrət hicri tarixi ilə ۴۰-cı il Ramazan ayının ۱۹-da sübh vaxtı namaz üstündə bəni Murad qəbiləsindən olan Əbdürrəhman ibni Mülcəmin vasitəsilə yaralanaraq həmin ayın ۲۱-də vəfat etdi. Əbdürrəhmanın məqsədi barədə hekayələr yazılmışdır ki, onların bir hissəsi dastan yazanların uydurmasıdır. Bütövlükdə tarixçilər bu qətli xəvaricin işi olduğunu qeyd etmişlər, lakin xəvaric firqəsinin ardıcıllarından sayılan müasir tarixçilər Əbdürrəhmanı bəni Murad qəbiləsindən və xəvaricdən olmadığını iddia edirlər. Tarixi faktlardan aydın olur ki, İmamın şəhadəti ilə nəticələnən bu sui-qəsddə Kində qəbiləsinin rəisi Əşə’s ibni Qeysin də əli olmuşdur. Əşə’s təhlükəli bir münafiq idi, Əlinin (ə) qoşununda olmasına baxmayaraq, onunla düşmən olmuş və Müaviyə ilə gizli əlaqələr yaratmışdır. Təəccüblü deyil ki, Əşə’sdən əlavə başqaları da İmamın şəhid edilməsində iştirak etmişlər. İmama edilən sui-qəsd planının Müaviyə tərəfindən hazırlanıb-hazırlanmaması sualına cavab vermək çətindir. Bu günlər Əlcəzairdə yaşayan Əbaziyyə firqəsindən olan (xəvaric) bir tarixçi öz kitabında (onun bir nüsxəsini mənə də göndərmişdir) Əlinin (ə) qətlində xəvaricin iştirak etməsini təkzib etmişdir! Onun nəzərinə görə, Əlinin (ə) qətli planını Müaviyənin göstərişi ilə əşə’s hazırlamışdır. O, hətta xəvaricdən olan üç nəfərin məşvərət edib Əlini (ə), Müaviyəni və Əmr ibni Ası öldürmək qərarını da qəbul etmir və ümumiyyətlə tarixdə belə şəxslərin olmadığını yazır. Əlinin (ə) qatili Əbdürrəhman bəni Murad qəbiləsindən olmuş və bu qəbilənin də xəvaricdən sayılmadığını qeyd etmişdir. Təəccüb doğuran bu nəzərin ikinci tərəfidir və onu heç bir şəkildə qəbul etmək olmaz, çünki bütün tarixi mənbələrdə Əlinin (ə) qatilinin xəvaricdən olduğu yazılmışdır. Ancaq məsələnin birinci tərəfi-yə’ni Əlinin (ə) .qətlində Əşə’sin iştirak etməsi düzgün nəzərə çarpır

Beləliklə, zahid bir xəlifə, ümmətin qayğısını çəkən bir imam, Allah kitabı və Peyğəmbər (s) sünnəsini kamil surətdə bilən, İslama artırılmış bid’ətləri təmizləyib mə’nəvi

dəyərləri yenidən dirçəltmək istəyən bir şəxs nadan müsəlmanların əli ilə şəhadətə yetirildi. Müaviyə hakimiyyəti ələ aldı, Qüreyş fürsəttələbləri, xüsusilə Əməvi tayfası öz keçmiş

arzusuna çatdı. Bununla da müsəlman cəmiyyətində varislik prinsipinə əsaslanan və .Rum imperatorluğundan götürülmüş bər-bəzəkli hakimiyyət meydana gəldi

Əbu Bəkrin xilafətindən Əlinin (ə) şəhadətinə qədər ötən ٣٠ illik dövrü "Raşidi xəlifələri" dövrü adlandırmışlar. Çünki bu illər ərzində az-çox peyğəmbər sünnəsinə riayət edilir .və hakimiyyət irsən əldən-ələ ötürülmürdü

## HƏZRƏT ƏLİNİN (Ə) ŞƏHADƏTİNİN ƏKS–ƏMƏLİ

Qeyd etdiyimiz kimi, həzrət Əli (ə) hicri tarixi ilə ٤٠-cı il Ramazan ayının ١٩-da bəni Murad qəbiləsindən olan Əbdürrəhman ibni Mülcəmin əli ilə yaralanaraq Ramazanın ٢١-də şəhid olmuşdur. O həzrətin şəhadəti ilə İslam hökumətinin idarə olunmasında problemlər yarandı. İraqda olan həyacan və təhlükə əvvəlkindən daha da artdı. Aydındır ki, İslam hökumətində ٥ il müddətində iki xəlifənin öldürülməsi hadisəsinə bütövlükdə e'tinasız yanaşmaq olmazdı, onda bəs görəsən bu qətillərin əks-əməli nədən ibarət idi? Onun açıq-aşkar tə'sirlərinə Şam və İraq ərazilərindən kənar .yerlərdə rast gəlinmir

Gördüyünüz kimi, Osmanın qətlinin ardınca idarəçilik məsələsində rəhbər tə'yin edilməsi çox tez bir zamanda aydınlaşdı. Şam, Hicaz və İraqda aşkara xilafət iddiasında olanlar üzə çıxmadı. Yalnız bir neçə nəfər Əliyə (ə) bey'ət etməkdən boyun qaçırdılar. Bəsrə (Cəməl) döyüşünü qaldıranlar da hakimlik iddialarını gizli saxlayaraq, ancaq şəriət hökmünün icrasını (məzlum xəlifənin intiqamını almaq) əldə və dildə şüar etmişdilər. Müstəqillik arzusunda, hətta bütün müsəlmanlara hakim olmaq iddiasında olan "Şam" hakimi də Osmanın ölmündən sonra bu iddianı açıq-aşkar bəyan etmirdi. Lakin Əlinin (ə) beş illik xilafəti zamanı çox dəyişikliklər meydana gəldi. Şam qoşunu tərəfindən müəyyən olunmuş hakim öz rə'yini söylədikdən sonra Müaviyə özünü xəlifə e'lan etdi, ancaq bundan əvvəl ona yalnız əmir deyirdilər. Bə'zi tarixçilər yazırlar ki, .Əlinin (ə) şəhadətindən sonra ona əmirəl-mö'minin deyilib

İbni Əsir yazır ki, imam Həsənlə (ə) Müaviyə arasında sülh müqaviləsi imzalandıqdan sonra Müaviyənin işləri öz qaydasına düşdü. Sə'd ibni Əbi Vəqqas onun yanına gedərək belə dedi: "Salam olsun sənə ey şah!" Müaviyə gülərək dedi: "Niyə mənə əmirəl-mö'minin demədin?" Sə'd cavabında belə dedi: "Müaviyə! Bu sözü

sevindiyindən deyirsən. And olsun Allaha, mən heç vaxt bu yolla qazandığın xilafəti əldə etmək istəməzdim.”

səh:۱۲۴

Göründüyü kimi, Siffeyn müharibəsindən sonra Müaviyə özünü son təşəbbüsə hazırladı. Əlinin (ə) şəhadəti zamanı Şamda ona heç bir kəs müxalif olmamış, bəlkə bu nahiyənin əhalisi yekdilliklə ona tabe olmuşlar. O, iyirmi iki il, yə'ni hicri tarixinin ۱۸-ci ilindən ۴۰-cı ilinə qədər olan müddət ərzində bu əyalətə hakim olmuşdur. Uzun sürən hakimiyyət bir tərəfdən xalqın ona tabe olub istəklərinə cavab verməsinə, digər tərəfdən də onun işini asanlaşdırılmasına gətirib çıxarmışdır. Yersiz deməmişlər ki, Şamlılar öz hakiminə ən layiqli itaət edən xalq olmuşlar. Əli (ə) öz ətrafındakılara belə .buyurur: Müaviyənin bir sirdaşı ilə sizin on nəfərinizi dəyişməyə hazıram

## İRAQDA MÖVCUD OLAN SİYASİ VƏ DİNİ TƏŞKİLATLAR

Ötən fəsillərdə qısaca da olsa İraqdakı ictimai vəziyyət barədə izah verdik. İndi isə bu ərazidə mövcud olan siyasi və dini təşkilatları tanıtdırmağa çalışacağıq. Əlinin (ə) :şəhadəti zamanı İraqda üç dəstə mövcud idi

;Osmanilər və ya bəni Uməyyə tərəfdarları.۱

;Şiələr, Əli (ə) tərəfdarları və Peyğəmbər (s) ailəsini sevənlər.۲

.Xəvaric.۳

## OSMANIN TƏRƏFDARLARI

Bunlar Əməvi hakimiyyətinin tərəfdarları idilər. Bə'ziləri bu ürək bağılılığını aşkar etməsələr də, Peyğəmbər (s) ailəsinin rəhbərliyinə də tabe olmaq istəmirdilər. Bunun .ən parlaq nümunəsini Osman öldürüldükdən sonra yazılan şe'rdə gördük

İraqdakı Osman tərəfdarları Bəsrə şəhərində yaşayırdılar. Bu şəhərin sakinləri əsasən Ədnani (şimal) ərəblərmndən təşkil olunmuşdu. Bunun əksinə olaraq Kufə əhalisini .əsasən Qəhtanilər (cənub ərəbləri) və ərəb olmayanlar təşkil edirdi

Gördüyünüz kimi, Aişə, Təlhə və Zübeyr Bəsrəni özlərinin müqaviməti üçün mərkəz seçmişdilər. Müsəlmanlar arasında ilk daxili müharibə "məzlum xəlifənin" intiqamı bəhanəsi ilə bu şəhərdə baş vermişdi. Bəsrə şəhəri orada Muzərilərin (şimal ərəbləri) yaşamasına əsasən, qiyamçılar üçün böyük əhəmiyyətə malik idi. Bu iki qəbilə

arasındakı münaqişələr haqda izah vermişdik, sonradan isə bu münaqişənin .bütövlükdə İslam dairəsində qoyduğu acı tə’sirlər haqda mə’lumat verəcəyik

Bildiyiniz kimi, Peyğəmbərin (s) vəfatından sonra mühacir və ənsardan olan bir dəstə adam bəni Saidə eyvanı altında toplaşaraq müsəlmanlara rəhbər seçdilər. Oraya toplaşan mühacir və ənsar, tam dəqiqliyi ilə desək, Qəhtanilər və Ədnanilər hakimin onların arasında seçilməsini istəyirdilər. Həmin gün Əli (ə) və Peyğəmbər ailəsi Aişənin evində peyğəmbəri dəfn etmək üçün hazırlıq görürdülər və onlardan heç biri yığıncaqda iştirak etmirdi. Qeyd etdiymiz kimi, Peyğəmbər (s) son həcc ziyarətində Cöhfədə Əlini (ə) özündən sonra müsəlmanara hakim tə'yin etmişdi. Beləliklə, həmin gündən Mədinədə bir dəstə adam Peyğəmbər (s) xilafətinin etirazsız olaraq Əliyə (ə) məxsus olmasını qəbul etdilər. Onlar bununla da "şiə" və ya "Əli tərəfdarları" adını aldılar. Əli (ə) Peyğəmbərdən sonra məcbur olub ümumi müsəlmanların sülhü və asayişi xatirinə üç xəlifə ilə bey'ət etmiş, şiələr də ona tabe olub sakit oturmuşlar. Osmanın ölümündən sonra mühacir və ənsarın əksəriyyəti Əli (ə) xilafətə yetişdikdən sonra ona bey'ət etdilər. Fürsət güdən Şam hökuməti üzdə xəlifəyə tabe olub öz müxalifətçiliyini aşkar etmirdi. Şamda deyilirdi ki, Osmanı öldürənlər yeni xəlifənin ətrafındadırlar. Qur'an hökmünə əsasən onlardan qisas alınmalıdır. Müaviyəni Osmanın qohumu və intiqamçısı hesab edib onun qisas hökmünün icrasında haqlı olduğunu deyirdilər. Onlar iddia edirdilər ki, guya Osmanın qatilləri lazımi cəzanı alsa .Dəməşq Kufəyə tabe olacaqdır

Əli (ə) Kufədə şəhid edilən gün yenidən şiə ilə qeyri-şiə dəstəsi müəyyən olundu. Şiələr onun böyük oğlu imam Həsənin (ə) ətrafına toplaşaraq ona bey'ət etdilər. Haşimi tayfasını xoşlamayan Osman tərəfdarları aydındır ki, yeni xəlifə ilə edilən bey'əti qəbul .etməyəcəkdilər

Peyğəmbərdən sonra Əliyə (ə) və Peyğəmbər ailəsinə ürək bağlayanların əksəriyyəti ənsardan və ya Qəhtanilərdən ibarət olmuşdur. Keçmiş bəhslərimizdə Qəhtanilərlə Yəmanilər arasındakı düşmənçilikdən söhbət açmışdıq. Peyğəmbər (s) Məkkədən Mədinəyə gələrək mühacirlərlə ənsar arasında qardaşlıq sazişi bağladıqdan sonra tarixi keçmişi olan bu düşmənçilik müvəqqəti olaraq sakitləşdi. Osmanın dövründə bəni Uməyyə iş başına gəldikdən sonra onlar yavaş-yavaş yenidən keçmiş adətlərinə qayıtdılar. Əməvilərin dövlət işində özbaşnalıqları artdıqca Qəhtanilərin onlara qarşı

nifrət və düşmənçiliyi də çoxalırdı. Bunlar Peyğəmbəri öz şəhərlərinə də’vət edib onunla çiyin-çiyinə durmuş, o həzrətin pak ailəsinə qarşı eşq və məhəbbət bəsləmiş və

onunla amansız düşmən olan Qüreyşlə vuruşmuşlar. Onlar Siffeyn müharibəsində Müaviyəyə deyirdilər: “Dünənə qədər Peyğəmbərlə bir cəbhədə dayanıb Qur’anın nazil olması barədə sizinlə vuruşurduqsa, bu gün onun təfsir və izah edilməsi haqda sizinlə ”.mübarizə edirik

Mə’lum idi ki, ənsar bəni Haşimdən uzaqlaşmayacaqdı. Əli (ə) şəhid olduqdan sonra Kufədə yaşayan bu dəstədən olan ərəblər onun böyük oğlu Həsən (ə)-ı imam qəbul etdilər. Təbəri yazır: “Həsənlə (ə) ilk bey’ət edən şəxs Qeys ibni Sə’d ibni Ubadə dedi: Əllərini irəli uzat ki, Allah kitabı, Peyğəmbərin sünnəsi, bid’ətçiləri məhv edən bir şəxsə – sənə bey’ət edim.” Bu Qeys ənsardan olan Xəzrəc tayfasının rəisi Sə’d ibni Ubadənin .oğlu idi ki, onun haqqında ötən fəsillərdə mə’lumat vermişdik

## XəVARİC

Siffeyn döyüşündən bəhs edən zaman xəvaric adı ilə məşhurlaşmış dəstə haqqında .qısaca da olsa mə’lumat verdik

Əli (ə) şəhid olduqdan sonra yerdə qalmış xəvaric yenidən öz fikirlərini təbliğ etmək və yaymaq üçün fürsət əldə etmişdilər. Bunlar Əməvi hakimiyyətini bütövlükdə, Abbasiləri isə müəyyən dövrə qədər narahat etmişlər. Onlar o qədər şücaətli idilər ki, kiçik bir dəstə ilə böyük bir qoşunu məğlub edirdilər. Hicri tarixinin ikinci əsrində xəvaric firqələrindən birinin başçısı Əbdürrəhman ibni Rüstəm cənub-şərqi İran ərazisindən qiyam edib qərbdə Tahərt şəhərində ١٥٠ il ömür sürmüş və orada .Rüstəmilər hökumətini təsis etmişdir

## MəNFəəT GÜDəNLəR

Məzhəb və soy əsasında təşkil olunmuş bu üç dəstədən əlavə, İraqda digər bir siyasi hərəkat da mövcud idi ki, şiəliyi dini cərəyan gördüklərindən tarixçilər onlara e’tina etməmişlər. Ötən fəsildə Ərəbistanın İslamdan əvvəlki siyasi-ictimai durumunu şərh edərkən Ərəbistanın şimal və şərqində yerləşən kiçik dövlətlərin iki böyük imperiya Rum və İranın əlində alətə çevrildiyini də demişdik. Bu iki imperiya Asiyadan Avropa və Afrikaya uzanan ticarət yolunu əldə etmək üçün bir-birləri ilə vuruşmuş, ərəblər, daha doğrusu bu iki məntəqənin (Şam və İraq) sakinləri də onların arxasınca düşmüşdülər.

Hər iki məntəqənin hakimiyyətinin güclü və zəif olması iki imperiya arasında əldə olunan qələbə və məğlubiyyətdən asılı idi. İki qüdrətdən birinin məhv olması, o birinin isə zəifləməsi ilə İslam dininin yayılması sayəsində İraq İslamın əhatə dairəsinə daxil olmasına baxmayaraq, onlar arasındakı düşmənçiliyi də unutmadılar. Lakin dini qəbul etdiklərinə və

müsəlmanların fəthlərə başları qarışdığına görə iraqlılarla şamlılar arasındakı düşmənçilik müvəqqəti unuduldu. Əbu Bəkrin, Ömərin, həmçinin Osmanın xilafəti zamanı hansı nahiyə və qəbilədən olmasından asılı olmayaraq, ərəblər ərəb olmayan ölkədə qeyri-ərəb və qeyri-müsəlmanlara qarşı vuruşar, bə’zən də şamlılarla iraqlılar bir cəbhədə düşmənə qarşı döyüşərdilər. Əli (ə) öz xilafəti zamanı İraqı özünə mərkəz seçdikdən sonra iraqlılar onun ətrafına toplaşaraq şamlılara qarşı döyüşdülər. İraq hakiminin Şam hakiminə aldanması ilə onlar yenidən Şama tabe olacaqlarını anladılar. Aydındır ki, bu kimi insanlar həmişə öz arzularına yetişmək üçün dini əqidələrindən bir vasitə kimi istifadə etmişlər. Belə insanlar təhlükə hiss etməyib işləri düyünə düşməyincə zamanın məsləhətinə uyğun olaraq dini dəstələrin kənarında dayanmışlar. Xəvaric quru təfəkkürə malik olduğundan, həmçinin saylarının az olmasına görə peşəkar siyasətçilər kimi öz məsləhət və xeyirlərini şiələrin arxasında .dayanmaqda, zahirdə Əlinin (ə) ailəsinə tərəfdar olmaqda görürdülər

Bu haqda yazdığımız mə’lumatlar tarixi faktlara əsaslanır. Biz görürük ki, Əli (ə) qələbə çaldıqda (Cəməl və Siffeyn döyüşünün başlanğıcı) İraq əhalisi ondan uzaqlaşmırlar. Siffeyn müharibəsində siyasi uğursuzluqları gördükdən sonra onun əleyhinə qalxdılar. Əli (ə) onları döyüşə çağırdıqda bəhanə gətirirdilər. Əgər bunlar həqiqətən də Əlinin (ə) davamçıları olub, onu İmam hesab edir və ona tabe olmağı vacib bilirdilərsə, gərək həmrəy və müttəfiq olub onun arxasında dayanaydılar, ancaq belə etmədilər. Zahirdə Əliylə (ə) birgə olsalar da gizlində öz mənfəətlərini güdürdülər. Əlidən (ə) sonra övladları Həsən (ə), Hüseyn (ə) və nəvəsi Zeydlə də belə rəftar etdilər. Bu çirkin üslub Əməvi hakimiyyətinin sonuna qədər davam etdi. Başlarının üstünü qəddar və qüdrətli hakim aldıqda sakit oturar, siyasi qarmaqarışıqlıq düşdükdə isə gizli yuvadan eşiyə çıxaraq dəstələr və cəmiyyətlər təşkil edərdilər. Peyğəmbər övladlarından birinə arxa olub onu irəli verərdilər. Müqavimət göstərə bilməyəcəkləri aydınlaşdıqda isə onu və onun doğru ardıcıllarını düşmən müqabilində yalqız buraxıb yenidən yuvalarına dönər, münasib bir şəraitin yaranmasını gözləyirdilər. Əgər bunlar həqiqətən saf əqidə sahibləri olsaydılar xəvaric tək ölümdən qorxmamalı, dindar olsaydılar Hüseyn (ə) köməkçiləri tək son nəfərə qədər düşmənlə vuruşmalıydılar. Lakin bunlar belə deyildilər. Çünki din qayğısı çəkmirdilər, istədikləri əsas şey İraqın Şamın müstəmləkəsinə çevrilməməsi məsələsi olmuşdur. Mə’lum olduğu kimi, orada yenidən

.Ləxmililərlə Ğəssanilər arasındakı düşmənçilik başqa formada üzə çıxmışdı

İraqda, xüsusilə də Kufədə başqa bir dəstə mövcud idi ki, təşkilati quruplaşmaya malik olmasalar da get-gedə hökumətlərin qarşısında böyük bir problemə çevrilirdilər. Bunlar fəth olunmuş ərazilərdən gətirilmiş yeni müsəlmanlar idilər ki, hər biri ayrı-ayrı ərəb qurplaşmalarına bağlı idi. Bu səbəbdən də İslam tarixində onları azad edilmiş qullar və ya nökərlər adlandırmışlar. Bu nökərlər və onların hərəkatı haqda söhbət açacağıq. Bunlar hansı siyasi qruplaşmalardan daha artıq mənfəət əldə edəcəklərini .bildikdən sonra ona yaxınlaşırdılar

Böyük müsəlman əyalətlərinin dini, siyasi və ictimai vəziyyətləri verdiyimiz qısa mə'lumatla aydınlaşdı. Bu üç əyalət (Şam, Hicaz və İraq) müsəlmanların üç dairəsində həlledici rola malik olduqları üçün böyük əhəmiyyət kəsb edirdilər. Gördüyünüz kimi, hicrətin ٣٥-ci ilindən bu yana İslami ərazilərin idarə olunmasında ən başlıca rolu İraq .və Şam oynamışdır

## ŞəRQ MəNTəQəSİ

Digər nahiyələrdən, xüsusilə də şərq nahiyəsi barədə əlimizdə çox az mə'lumat vardır. Bu ərazinin tarixi uzun illər boyu araşdırılmamış qalmışdır. Buna görə də bu ərazidə bir-birinin ardınca baş vermiş hadisələrə dəqiq münasibət bildirmək olmur. Lakin bu dəyişikliklərin orada nəzərə çarpacaq dərəcədə tə'sir buraxmasını güman etmək olmaz. Əsrlər boyu təşkilata malik olan geniş bir ərazinin dağıldıqdan sonra az bir zamanda yenidən formalaşması üçün uzun illərin ötməsi lazım idi. Ancaq bir şey aydındır ki, o zaman şərq nahiyəsi bütövlükdə Kufənin ardınca gedirdi. Əgər Şamın və Müaviyənin müxalifətini nəzərə almasaq, bu illər boyu geniş İslam dairəsinin .müqəddəratını tə'yin edən Kufə şəhəri olmuşdur. Yenidən Kufəyə dönək

## Əlinin (ə) ŞəHADəTİNDəN SONRAKI KUFə

Əvvəldə yazmışdıq ki, Əlini (ə) dəfn etdikdən sonra Kufədə şiələr onun oğlu imam Həsənlə (ə) bey'ət etdilər. Lakin o həzrətin xilafətinin ilk günündən problemlərlə üzləşəcəyi aydın idi. O, ilk növbədə Kufədə təhlükəsizlik yaratmalı, Misirə, Hicaza və şərq nahiyəsinə (Xorasan, Azərbaycan və sair) hakimlər seçməli idi. Ən başlıcası isə

Müaviyəni işdən kənar edib Şam problemini həll etməli və ya onun İraqa uzanan əlini kəsməli idi. Hələ Əlinin (ə) dövründə Şam problemi çox ağır bir məsələ idi. Müaviyə özünü müsəlmanların xəlifəsi e'lan etdikdən sonra

bu məsələ daha da çətinləşmişdi. Dəməşqin işi asanlıqla həll olunası bir problem deyildi. İmam Həsən (ə) hansı qüvvə ilə Müaviyəyə qarşı vuruşacaqdı? O, atasının ömrünün son günlərində İraq əhalisini Müaviyə ilə mübarizəyə çağıran zaman onun çağrışına cavab verənlərin az olduğunu görmüşdü. Şamı hesaba almasaq belə, əlçatmaz və geniş əyalətlərdəki böyük və məs'uliyyətli dövlət işlərini kimə həvalə edəcəkdi? Bu vəzifənin öhdəsindən gələ biləcək imanlı, işbilən, şücaətli və bunların üçündən də mühüm hesab edilən tamahsız müsəlmanlara ehtiyac duyulurdu. Onun ətrafına toplaşanların əksəriyyəti düzgün iman sahibi deyildilər. Müaviyənin ətrafındakılara verdiyi saysız-hesabsız peşkəşlər onları heyrətə salmışdı. Bunlar atası Əlinin (ə) ürəyini qana döndərən əhali idi. Artıq az bir müddət ərzində qruplaşmalar müəyyən olmuşdu. Bəsrədən və Osmanın tərəfdarlarından da bir şey gözləmək olmazdı, çünki onlar Müaviyədən əl çəkən deyildilər. Xəvaric də ona müvafiq üz göstərməyəcəkdi, onlar ötən il sadə bir şeyi özlərinin təsəvvürünə görə xoşagəlməz bilib onun əleyhinə idilərsə, bu il daha böyük məsələləri iddia edib hakimiyyət və xilafət istəyində idilər. Onun arxası yalnız şiəlik iddiasında olanlar idisə də, onların da bir çoxu özünü yalnız zahirdə şiəyə oxşatmışdı. O kəslər imamın atasını Hicazdan İraqa çağırıb .sonda onu tək qoyanlar, ya onunla üzləşib ikiüzlü rəftar edənlər olmuşlar

Özlərini şiə cildinə salanlar həmin siyasi dəstələr idi ki, onların dini cəbhədə durumaqla nə məqsəd güddüklərini yuxarıda qeyd etmişdik. Təbiidir ki, belə insanlar ataya göstərdikləri münasibətdən oğula da göstərəcəkdilər. Lakin saf ürəkli, əqidəsində möhkəm olan, atasının və özünün sadiq sirdaşları sayılan şiələr bə'zi hallarda bu saxtakarların yalanına uyub onların tələsinə düşürdülər. Çünki onlar təsəvvür edə bilmirdilər ki, bir belə hay-küylü qalmaqal Allah razılığı üçün deyil, dünyəvi məqsədlər üçün də ola bilər. Digər tərəfdən Müaviyə də sakit oturmamışdı. Onun muzdurları Hicazda, Misirdə, hətta İraqın daxilində belə, əks təbliğatla məşğul idilər. Qəbilə başçılarını ələ almaqla, rüşvət vermək və ya onları öldürməklə, İraq ərazisində şayiə və yalan yaymaqla, sərhəd şəhərlərini qarət edib sakinlərini qorxutmaqla, Müaviyənin əli açıqlığı, zirəkliyi və hökuməti idarə etməkdə xüsusi bacarığa malik olması haqda əfsanələr uydurmaqla məşğul idilər. Bütün bunların hamısı İraqı ələ keçirmək üçün .Müaviyəyə kömək idi

Müaviyə öz qoşunu ilə İraqa yaxınlaşaraq Məskində mövqe tutdu. Əli (ə) ömrünün son günlərində Şama hücum etmək üçün qoşun toplamışdı, bu qoşun öz vəzifəsini yerinə yetirməli idi. Lakin sərkərdə kim olmalı

idi? Sə’d ibni Ubadə, ya Əş’əs ibni Qeys və ya Abbasın oğlu Ubeydulla? Qeys Şama tərəf getməyə hazırlaşdı, imam Həsən (ə) isə Mədainə yollandı. Lakin qoşunun içərisində hər gün yeni xəbərlər eşidilirdi. Bir gün Qeysin öldürülrmək xəbəri yayıldı. Bu .xəbərin yayılması ilə qoşunun içində çaxnaşma baş verdi

Əhali İmamın çadırına hücum edib oradakı əşyaların hamısını qarət etdilər, hətta ayaq altına salınan palazı belə çəkib apardılar. İmam bir yerə sığınmaq üçün yola düşdükdə yolda ona hücum edib qılıncla ayağını yaraladılar. Təbəri yazır: “Həsənin (ə) çadırı qarət edilən gün o, Sə’d ibni Məs’ud Səqəfinin (Muxtarın əmisi) evinə getdi. Sə’d İmam tərəfindən Mədainə hakim tə’yin edilmişdi. Bu vaxtlar cavan oğlan olan Muxtar Sə’də :dedi

?Sərvət və şərəf sahibi olmaq istəyirsənmi

?Necə

Həsəni tutub Müaviyəyə təslim et və bunun müqabilində nə qədər pul istəsən ondan !al

!Allah sənə lə’nət etsin! Nə pis adamsan

”.Peyğəmbər nəvəsini onun düşməninə necə təslim edim

Muxtar ۲۵ il sonra Kufədə Əməvilər əleyhinə baş vermiş hərəkata rəhbərlik etmişdir (onun barəsində geniş söhbət açacağıq). Bəlkə də sonrakı dastan qoşanlar (Zübeyrin oğlunun havadarları) Muxtara bu töhməti vurmuşlar, lakin bu mə’lumatın doğru olması da mümkündür. Ancaq hər halda bu mə’lumatlardan bir şey aydın olur ki, hər bir hərəkatda dəyişkən və sabit qalan ünsürlər mövcud olur. O günlər Kufədə müsəlmanların ümumi asayişindən daha çox öz mənfəətlərini güdən bir dəstə də var .idi

İmam Həsən (ə) dostluq iddiası edənlərin itaətsizliyini və özbaşınalıqlarını gördükdə, müqavimət göstərməyin faydasız olduğunu hesab etdi. Əgər Müaviyəyə qarşı müqavimət göstərib qoşuna (əgər onun ətrafında qoşun qalmış olsaydı) irəli getmək əmri versəydi belə, onlar Mədaindən çıxmamış qaçardılar. Muxtarın öz əmisinə təklif

edərək onun qəbul etmədiyi fikri yerinə yetirər, yə’ni imamı tutub düşməninə təslim .edərdilər. Nəhayət imam Həsən (ə) Müaviyə ilə sülh sazişi imzaladı

## SÜLH SAZİŞİ

Sülh sazişinin mətni və orada qeyd olunmuş şərtlər nədən ibarət olmuşdur? Allah bilir. Bu sazişi əldə olunan vaxtdan kitablarda yazılan günə qədər ۲۰۰ il vaxt keçmişdi. Bu ötən ۲۰۰ il ərzində Əməvilər, sonra

isə Abbasilər sülaləsi, həmçinin siyasi və siyasi-dini dəstələr bacardıqca bu sənədi və buna oxşar digər sənədləri özlərinə sərf edən və müxaliflərinin zərərinə olacaq surətdə dəyişdirmişdilər. Mühəddislərin hədisi qəbul etmək üçün söylədikləri şərtlər də həqiqəti işıqlandırmır. Hədis düzəldib dillərə salan şəxs mümkün qədər çalışıb onun mətnini və sənədini araşdırmağın yolunu da bağlayırlar. Belə hadisələri araşdırmaq .üçün xarici amilləri də nəzərdən qaçırmaq olmaz

Təbəri yazır: Müaviyə əvvəldə, sonunda möhür vurulmuş ağ kağızı imam Həsənə (ə) göndərdi, İmam da öz şərtlərini ona yazıb Müaviyəyə qaytardı. Müaviyənin göndərdiyi möhürlü ağ kağız ona yetişdikdə, birinci məktubda yazdığı şərtlərdən daha üstün şərtlər tələb etdiyindən Müaviyə onu qəbul etmədi. İbni Əsir də bu hadisəni elə bu məzmunda qeyd etmişdir. Şübhə yoxdur ki, bu əhvalatı bu formada Əməvi dövrünün tarixçiləri özlərindən yazmış, həqiqəti dəyişdirərək əvəzində yerinə yalan əlavələr etmişlər. Mən bu kitabda, həmçinin digər yazılarımda qeyd etmişəm ki, birinci və ikinci əsrin hadisələrini təhlil edərkən yalnız üçüncü və dördüncü əsrlərdə toplanmış sənədlərə istinad etmək olmaz. Tam qətiyyət əldə etmək üçün xarici amillərin də köməyinə ehtiyac duyulur. İmam Həsən ibni Əlinin (ə) həyatını qərəzsiz araşdıranlar çox gözəl bilirlər ki, o, şiələrin əqidəsinə görə də imam olmasına baxmayaraq, insani keyfiyyətlərə malik yüksək əxlaqlı bir şəxs olmuşdur. O, baş verəcək döyüşdə çoxlu qan axacağını, Müaviyə ilə müharibənin heç bir nəticə verməyəcəyini biləndən sonra onunla sülh sazişi bağlamışdır. O, sövdəgər deyildi ki, mal üstündə alıcı ilə söhbət edə və ya malının yaxşı satıldığını görüb qiymətini qaldıra. O, elə bir əxlaqi keyfiyyətə malik bir insan idi ki, düşmən də onu e'tiraf etməyə məcbur idi. Əgər Müaviyənin möhür vurulmuş o ağ kağızı imam Həsənə (ə) göndərməsi hekayəsi düzgün olsa, onda demək lazımdır ki, imam Həsən (ə) şərtləri yazaraq Müaviyəyə qaytarmış, o, da son arzusuna - müharibənin olmayacağı arzusuna çatdığına və sazişdə qeyd olunmuş şərtlərin heç birinə əməl etməyəcəyinə görə belə yalanlar qoşub xalq arasında yaymışdır. Təəccüblü burasıdır ki, Təbərinin yazdığı sülh sazişinin surəti tarixi faktdan daha çox əfsanəyə oxşayır. Bu belə olduqda indi görün xarici rəvayətçilər nə yazarlar. Təəssüflər olsun ki, bu təhrif edilmiş qondarma sülh sazişi ölkəmizdəki dərsliklərdə də çap edilmiş, tarixçilər və müəlliflər hüsnü rəğbət göstərərək bütövlükdə onun hamısını yazmışlar. İmam Həsən (ə) bu şərtlə Müaviyəyə bey'ət etdi ki, Əlini mənbərlərdə

söyməsinlər, bir də Kufənin xəzinəsini (beytül-malını), həmçinin Farsın Darabgerd əyalətinin vergisini İmamın

ixtiyarına versin. Müaviyə Əliyə (ə) töhmət vurmaq şərtini qəbul etməsə də qərara alındı ki, Həsənin (ə) yanında Əliyə (ə) nalayiq sözlər deyilməsin. Lakin Darabgerdin vergisini Bəsrə əhalisi zəbt edərək dedilər ki, bu gəlir bizimdir. Daha təəccüblü burasıdır ki, müasir təhlilçilər də imam Həsənin (ə) bu mal-dövlətlə şiələrə dəymiş .ziyanı bərpa etmək istəyini yazırlar

Bu sadəlövh tarixçilər bir şeyə diqqət yetirmirlər ki, əgər imam Həsən (ə) mal-dövlətə görə Müaviyə ilə belə asan sülh sazişi bağlasaydı, tərəfdarları onu sağ buraxmaz, ya da onunla elə tərzdə rəftar edərdilər ki, hətta müsəlman şəhərlərində asudə yaşaya bilməzdi. Kufə hara Darabgerdin vergisi hara?! Məgər İmam bu məbləği Şamın xəzinəsindən ala bilməzdimi? Müaviyə bu məbləği əsirgəyərdimi? Sülh sazişinin ?özəyini təşkil edən o əsas şərtlər bəs haradadır? Nə üçün Təbəri onların adını çəkmir

Bu saxta sənədlər müqabilində həqiqəti açıqlayan bir neçə sənəd də varımızdır. Bu sənədlər göstərir ki, Əməvi və Abbasi dövrünün tarixçiləri hər hansı bir əhvalatın Peyğəmbər (s) ailəsinin mənfəətinə olduğunu gördükdə onu dəyişdirmişlər. Bilazərinin .yazdığı Təbəriyə nisbətən üstün və düzgün nəzərə çarpır

O, yazır: "Müaviyə möhür vurduğu ağ kağızı imam Həsənə (ə) göndərdi. O, bununla ".demək istəyirdi ki, kağızda ürəyin istəyən şeyi yaz

Bu Həsən ibni Əliylə (ə) Müaviyə ibni Əbu Süfyan arasında bağlanan sülh sazişidir." :Onunla barışıq edib müsəlmanların hakimiyyətini aşağıdakı şərtlərlə ona tapşırır

Allah kitabına, Peyğəmbər sünnəsinə və dinin əmrlərinə uyğun hərəkət edən xəlifələrin əxlaqına əsasən rəftar etsin. Heç kəsi özünə vəliəhd (varis) tə'yin etməsin .və ondan sonra iş müsəlmanların şurasına tapşırılsın

.Xalqın harada olmasından asılı olmayaraq canı, malı və övladları qorunmalıdır

Müaviyə istər aşkarda, istərsə də gizlində Həsənin (ə) əleyhinə təxribat aparmamalı, .onun yaxınlarından heç bir kəsi qorxutmamalıdır

".Abdullah ibni Haris və Əmr ibni Sələmə bu sülh sazişinə şahiddirlər

:İbni Həcər sülh sazişinin mətnini belə yazır

Bu sülh sazişi Həsən ibni Əliylə (ə) Müaviyə arasında bağlanmışdır. Onunla sülh“ :bağlayıb aşağıdakı şərtlər əsasında müsəlmanların hakimiyyətini ona tapşırır

.Allahın kitabı, Peyğəmbərin sünnəsi və Raşidi xəlifələrinin əxlaqı əsasında rəftar etsin

Müaviyə ibni Əbi Süfyanın özündən sonra hər hansı bir şəxsi vəliəhd tə'yin etməyə .haqqı yoxdur, ondan sonra iş müsəlmanların şurasına tapşırılsın

Şamda, İraqda, Hicazda və ya Yəməndə və hər bir ərazidə yaşayan xalqın .təhlükəsizliyi qorunmalıdır

Əli dostları və şiələri harada olsalar da onların canı, malı, həyat yoldaşları və övladları .qorunmalıdır

Müaviyə ibni Əbi Süfyan Allah əhdini və sazişini öz üzərinə götürərək gizlində və aşkarda Həsənin və qardaşının və ya Peyğəmbər ailəsindən olan hər hansı bir kəsin əleyhinə təxribat aparmamalı, onlardan hər hansı birinin harada olmasından asılı ".olmayaraq qorxutmamalıdır. Filankəs və filankəs bu sülh sazişinə şahiddirlər

Bu mətn yazılan sülh sazişinin əsl mətni olmasa da, demək lazımdır, o sülh sazişi təqribən bu məzmunda olmuşdur. Dövrün mövcud şəraiti bu nəzəri təsdiq edir. Belə ki, Müaviyə işləri elə qurmağa çalışırdı ki, müharibə baş tutmasın. O, deyərdi: Müharibənin ziyanları ona-buna bağışlanan sərvətdən daha artıqdır. Yeri gəlmişkən bunu da qeyd etmək lazımdır ki, ilk gündən o, sülh sazişində yazılanların hamısını olduğu kimi yerinə yetirməyəcəyi qərarına gəlmişdi. Belə ki, Müaviyə Kufəyə yollanaraq Nuxəylədə belə dedi: Bilin və agah olun ki, Həsən ibni Əliyə (ə) verdiyim .imtiyazın hamısını tapdalayacağam

Hər məzmunda və ya hər bir şərtlərlə imzalanmış sülh sazişi Kufədə, bütövlükdə İraq əhalisində narazılıq yaratdı. Din pərdəsi arxasında gizlənən siyasi dəstə Şamın İraqa qalib gəlməsini, paytaxtın Dəməşqdən Kufəyə qayıtmadığını gördükdə həddən artıq narahat oldular. Həqiqi dindarlar da Əbu Süfyan oğlunun müsəlmanlara hakim olmasını qəbul edə bilmirdilər. Onlar Əbu Süfyanın İslam dininə qarşı son qüvvəsinə qədər vuruşmasını, onun qohumlarının müsəlmanlara verdikləri əzab-əziyyətlərin şahidi olmuş, onların yalnız qılınc təhlükəsini hiss etdikdə müsəlman olduqlarını görmüşlər. İndi heç rəva idimi ki, İslama və İslam peyğəmbərinə çətin günlərdə yardımçı olmuş ənsar və mühacirə belə bir ailənin üzvləri hakimlik etsin. E'tiraz səsləri

eşidilməyə başlandı. İbni Əsirin yazdığına görə barışıq sazişi bağlanandan sonra bir nəfər imam Həsənin (ə) yolunu kəsib belə dedi: “Sən bu işinlə müsəlmanların üzünü qara etdin.” Və o həzrət cavabında belə buyurdu: “Biz elə bir sülalədənik ki, olacaqla üzləşdikdə ondan əl çəkmirik. Mən babamdan belə bir günün gələcəyini eşitmişdim. :Babam Peyğəmbər (s) buyurmuşdu

səh:۱۳۴

”.Yuxuda bəni Uməyyənin mənim mənbərimin üstünə çıxdığını görmüşəm

Zəmanə imamına olan belə bir münasibət və bu sözlər onların həmin hadisədən, sülh sazişindən nə dərəcədə narahat olduqlarını və ya onların öz rəhbərlərinə olan imanlarını göstərir. Lakin görəsən döyüş baş tutsaydı şəxsən o kişi və onunla həmfikir olanlar dedikləri sözün üstündə həqiqətən duracaqdılarmı? Bəli, imtahan meydanında .dindarların sayının az olacağı qəti bir məsələ idi

Sülh sazişi bağlandıqdan sonra imam Həsən (ə) yaxın adamları ilə birgə Mədinəyə dönüb ömrünün sonunadək dost və düşmənin tə’nəsinə dözməli oldu. Hicri tarixi ilə ۴۹-.cu ildə Müaviyənin tərtib etdiyi plan üzrə o həzrətə zəhər verib şəhid etdilər

## MÜAVİYƏNİN HAKİMİYYƏTİ

Müaviyə Nuxeylədə bir xütbə oxuyaraq qəlbində gizlətdiyi sözlərin hamısını aşkar edib dedi: "Mən sizinlə namaz, oruc, zəkat, həcc və bu kimi işlərə görə vuruşmadım, siz onsuz da bu işləri yerinə yetirirsiniz. Mən hakimiyyət uğrunda və sizə hakim olmaq ".üçün vuruşdum

İmam Həsən (ə) Mədinəyə dönmək qərarına gələn zaman Müaviyə onun yanına adam göndərib Hosərə (xarici) ilə döyüşməyəni istəyir. Bu şəxs Əlinin (ə) şəhadətindən sonra Nuxeyləni özü üçün mərkəz seçib xəvarici başına toplamışdı. İmam Həsən (ə) cavab verdi ki, mən müsəlmanların qanı tökülməsin deyə səninlə sülh müqaviləsi bağladım. Müaviyə məcbur olub qoşun toplayaraq (onların əksəriyyətini kufəlilər təşkil edirdi) Hosərə ilə döyüşə yola saldı. Sonra Hosərinin atasını onun yanına göndərərək dedi: "Get, oğlunun şərini bizdən uzaq et!" O, oğlunun yanına gedib nə qədər çalışdısa, onu Müaviyə ilə müharibədən çəkindirə bilməyib dedi: "Mən gedib oğlunu sənin yanına gətirəcəm, bəlkə ona ürəyin yana və müharibədən əl çəkəsən." Hosərə dedi: "Ata! And olsun Allaha, iti nizələr ucuna sancılmağı oğlumu görməkdən daha artıq sevirəm." Kufə əhalisinin onunla vuruşmağa hazır olduqlarını görərək dedi: "Ey Allahın düşmənləri, dünənə qədər Müaviyəni qüdrət taxtından salmaq uğrunda vuruşurduğunuz halda, bu gün hakimiyyətini möhkəmləndirmək üçün onun kənarında durub vuruşursunuz." Müharibənin qızğın vaxtında Teyy qəbiləsindən olan bir nəfər hücum edib onu öldürdükdən sonra səcdədən qabarmış alnını görüb peşiman olur. Bu əhvalat iraqlıların necə də dəyişkən əhali olmalarına gözəl bir nümunə sayıldığından onu burada söyləmək məcburiyyətindəyik. Elə bu tərəddüd, sür'ətli dəyişkənlik daha dəqiq desək ikitirəlik imam Həsən (ə) qarşısında çətinlik yaratdı. İraqlılar həmişə – Həzrət Əlinin (ə) hakimiyyət dövründə, oğlanları imam Həsən və Hüseynin zamanında, Muxtar və Müs'əbin, qiyamçılardan Süleyman ibni Sərdin, həm də Zeydin dövründə də bu minvalla hərəkət etmişlər. Fürsət düşdükdə birinin ətrafına toplaşmış, ona yardım edəcəklərini və'd etmişlər, lakin rəqibin müqavimətinə rast gəldikdə onu öz .azadlıqlarına qurban vermişlər

## MÜAVİYə Və İRAQLILAR

Səbirli olması ilə şöhrət tapmış Müaviyə, İraq əhalisindən çox narazı idi, ürəyində bəslədiyi kini üzə çıxarmasa da hərdən öz e’tirazını bildirirdi. Çünki Siffeyn .müharibəsində ona ağır zərbələr endirən Əlinin (ə) ətrafına toplaşmış iraqlılar idi

ci ildə (hicri-qəməri) İraq rəsmi surətdə Şamın hakimiyyəti altına keçdi. Elə həmin il-۴۱ .Müaviyə Kufəyə gələrək öz hakimiyyətini e’lan etdi

Qeyd etdiyimiz kimi, Müaviyə elə ilk başlanğıcdan hakimiyyət iddiasında idi; bu arzusuna çatmaq üçün Osmanın intiqamını, sonra isə İslam xilafəti məsələsini əldə bəhanə tutmuşdu. Hakimiyyətin Əbu Süfyan ailəsinin əlinə keçməsi ilə, bu məqamtələb tayfanın üzvləri öz istəklərinə çatdılar. Müaviyənin şəxsi həyat tərzi, Şam əhalisi, həmçinin bütövlükdə İslam hakimiyyəti altında yaşayan xalqlara qarşı olan münasibəti və rəftarı, Əbu Bəkrin, Ömərin, hətta Osmanın dövründəki rəftardan artıq .dərəcədə fərqli idi

Müaviyə Ömər tərəfindən Şama hakim tə’yin olunan gündən, dövlət quruluşunda Rum imperatorlarının üslubundan istifadə etmiş, öz şəxsi həyatını da onların həyat tərzinə oxşatmışdı. Sadə İslam hakimiyyətini kənara qoyub özü üçün cah-cəlallı bir idarə üsulu yaratmışdı. Ömərlə Əbdürrhəman ibni Ouf Şama səfər edən zaman onlar hər ikisi ulaqla yol gedərkən Müaviyə böyük bir təntənə ilə xəlifəni tanımadan onun yanından gəlib keçir. O, ulağa minən şəxsin xəlifə olduğunu bildikdən sonra tez geri dönüb atdan düşür, lakin Ömər ona əhəmiyyət vermir. Müaviyə onun yanıyla piyada yol gedir. Nəhayət Əbdürrəhman deyir: “Müaviyəni yordun!” Bu vaxt Ömər üzünü çevirib dedi: “Böyük təntənə, nökər və qulluqçularla yol gedirsən? Eşitmişəm camaatı sarayın ”?qapısında gözlətdirirsən və sən rüxsət verməyincə heç kəs içəri daxil olmur

!Bəli, ya əmirəl-mö’minin, belədir

?Nəyə görə

Biz elə bir ölkədə yaşayırıq ki, düşmənin casusları bizə daim nəzarət edir. Gərək elə davranaq ki, onlar bizdən qorxsunlar. Əgər sən istəsən, mən belə davranmaqdan əl .çəkərəm

”.Ömər dedi: “Əgər düz desən ağıllı cavabdır, yox əgər yalan desən ağıllı fırıldaqdır

O, təkcə Şamda hakim olanda belə rəftar edirdisə, İraq, Misir, İran, Afrika və digər fəth olunmuş ölkələr də onun hakimiyyəti altına keçdikdən sonra hansı üslubda rəftar edəcəyi mə’lum idi.

Müaviyə və atası Əbu Süfyan hər ikisi vəzifəpərəst, təntənə və cah-cəlal aşiqi idilər. Qeyd etdiyimiz kimi, Əbu Süfyan çıxılmaz vəziyyətdə qalıb müsəlman olmuşdu. Bildiyiniz kimi, o, Peyğəmbərin əmisi Abbasın vasitəçiliyi ilə özünə imtiyaz qazandı. Hətta Hüneyn müharibəsinin qənimətlərindən ona da pay düşdü. Lakin onun gözü hakimiyyətdə idi. Mə'lumata əsasən, Peyğəmbər (s) onu Nəcrana hakim tə'yin etmiş, həmçinin Taifin gəlirini toplamağı ona tapşırmışdı. Ömər Müaviyəni Şama hakim tə'yin edən gün o, anası Hindin yanına gedir və Hind ona deyir: "Bu kişi (Ömər) sənə vəzifə veribsə, çalış o deyən kimi rəftar et, öz istədiyin kimi davranma." Aldığı vəzifə barədə Əbu Süfyana xəbər verdikdə o, dedi: "Mühacirlər bizdən əvvəl müsəlman olublar, biz isə onlardan sonra dini qəbul etmişik. İndi onlar öz mükafatlarını alırlar, onlar rəis, biz isə adi adamlarıq. Sənə mühüm olan bir iş veriblər. Çalış onların əleyhinə bir iş görməyəsən, çünki heç bir şeyin sonunu bilmək olmaz."

Bu söhbətlər göstərir ki, ata və oğul mal-dövlət və hakimiyyət əldə etmək üçün müsəlmanlıqdan bir vasitə kimi istifadə etmişlər.

## ÖLKƏNİ İDARƏ ETMƏKDƏ MÜAVİYƏNİN SİYASƏTİ

Müaviyənin silahlı keşikçiləri var idi ki, məscidə gedəndə onu qoruyurdular. Belə ki, namazda ayağından yaralandıqdan sonra (vurulan zərbədən), ona bir qəfəs düzəldirlər ki, namazı onun içində qılısın. Rəsmi görüşlərdə əsgərlər onun canını qoruyurdular. Özündən əvvəlki hakimlərin dövründə belə üslubdan istifadə edilməmişdi. Onlar məscidə tək gedər, digər müsəlmanlarla birgə əyləşər, şikayətçilərə qulaq asıb onların suallarına cavab verərdilər. Hökumət məmurları ilə xalq arasında ayrılıq demək olar ki, Müaviyənin dövründə baş verdi. Müaviyə öz əzəmət və böyüklüyünü xalqa göstərməkdən ötrü təmtəraqlı qəbul salonu, çox baha başa gələn qiymətli xalçalar və başqa ziynət əşyaları ilə bəzənmiş saraylar tikdirdi. Belə saraylar tikdirdiyinə görə Əbuzərin e'tiraz səsi ucalmışdı.

Müaviyə ٢٠ illik hökmranlıq dövründə öz hakimiyyət dairəsini genişləndirməyə çalışırdı. O, bununla xəzinənin gəlirini artırmaq və qüdrət sahibi olmaqla bu ölkələrin idarə edilməsinin öhdəsindən gəlmək, qonşu ölkələri qorxutmaq, həmçinin ona tabe olmayanların üsyan və iğtişaş salmalarının qarşısını almaq istəyirdi.

Geniş əraziyə malik ölkələri Şam, Hicaz, Misir, İraq və onlarla bağlı əyalətləri (İran) idarə etmək üçün işbacaran adamlardan istifadə etməli idi. Buna görə də hər kəsdə ,ləyaqət görsəydi onu iş başına qoyar

səh:۱۳۸

müxalifləri isə özünə tərəf çəkərdi. Şamdan nigaran deyildi, çünki müsəlman olduqları gündən onun kimi hakim görmüş və onun əhali ilə rəftarı İslamdan əvvəlki hökumətlərin rəftarından yaxşı olmuşdu. Təəccüblü deyil ki, Abbasi hakimiyyətinin ilk dövründə Abdullah ibni Əli Şam şeyxlərindən bir dəstəsini Səffahın yanına göndərir ki, bunlar bu ölkənin ağıllı və bilikli adamları hesab olunurdular. Onlar and içdilər ki, siz əmir olmamışdan qabaq Peyğəmbərin (s) bəni Üməyyədən savayı qohumları olması .haqda bizim xəbərimiz olmamışdı

Hicazdan da arxayın idi, çünki orada Muzərilər əksəriyyət təşkil edirdilər. Onlar da Müaviyənin tərəfini saxlayırdılar. Ancaq Misir, İraq və şərq nahiyəsinə elə adamlar seçməli idi ki, həm özləri ona tabe olsun, həm də əhalini ona tabe etsinlər. Bu hakimlər cəsarətli, rəhimsiz, həmçinin mənsəbpərəst və bir də xalqı bütün xüsusiyyətlərinə görə yaxşı tanıyan şəxslər olmalı idilər. Misiri Əmr ibni Asa, Kufəni isə Muğəyrə ibni Şö'bəyə tapşırdı. Müaviyə Ömər tərəfindən Şamda vali olarkən Əmr onun rüxsəti ilə xəlifənin göstərişi olmadan Misirə gedərək oranı ələ keçirmişdi. Müaviyə ilə Əlinin (ə) arasında münaqişə baş verən zaman Əmr Misirin hakimiyyətinin ona verilməsi şərti ilə onun yanında dayanmışdı. Hicri tarixinin ٣٨-ci ilində Müaviyə bu vəzifəni ona tapşırdı. Əmrin hiyləgər, işbilən, tədbirli olmasını keçən bəhslərdə söyləmişdik. Hicrətin yeddinci ili Hüdeybiyyə sülhünə əsasən Peyğəmbər (s) müsəlmanlarla Məkkəyə ümrə ziyarətinə gedən zaman o həzrətin əzəmətini və müsəlmanların ona qarşı ehtiramını gördükdən sonra Əmrin müsəlman olması onun uzaqgörənliyinə bariz sübutdur. O, Qüreyşin ağalığının və qəbilə hökmranlığının sona çatdığını başa düşüb Məkkə fəth olunmamışdan əvvəl Xalid ibni Vəlidlə birgə Mədinəyə gələrək müsəlman olmuşdu. Siffeyn döyüşündə məhz onun tədbirilə Müaviyənin qoşunu Qur'anları nizələrin ucuna taxaraq İraq qoşununu Qur'ana tərəf çağırdıqda onlar arasında ixtilaf düşmüşdü. Əmrin uzaqgörənliyi o həddə qədər idi ki, fikirləşdiyi planlar Müaviyə üçün zərərli, özü üçün isə faydalı olsun. Hər halda Əmrin Misirdəki hakimiyyəti çox uzun sürmədi və .hicrətin ٤٣-cü ilində öldü

Əmrdən sonra Müaviyənin qardaşı Utbə ibni Əbu Süfyan Misirin hakimi oldu. Sonradan digər ٣٠ nəfər də Əməvilər xilafətinin ayrı-ayrı yerlərində hakim oldular. Müaviyənin hakimiyyəti dövrü Uqbə ibni Nafe' qərb istiqamətindəki şəhərləri fəth edirdi və ٥٠-ci

ildə Müaviyə Tunisi (İfriqiyyə, Afrika) rəsmi surətdə ona tapşırdı. Uqbə Qeyrəvanda əsgərlər üçün xüsusi yer tikib Tunisdəki imperiya qoşunlarını, həmçinin bərbərilərlə vuruşaraq şimali Afrikada İslamı rövnəqləndirdi. Nəhayət

yürüşlərin birində bərbər əsgərlərinin sui-qəsdilə öldürüldü. Uqbə imanlı və cəsur bir şəxs idi, şəhərləri fəth etməkdən ancaq Allah razılığı və dinin yayılması məqsədini güdürdü. Deyilənlərə görə o, Atlantik okeanına qədər irəliləyərək qılıncını siyirib belə dedi: "And olsun Allaha, əgər o tayda əhali yaşadığını bilsəydim, təkallahlığı yaymaq üçün onlarla vuruşardım. ۴۱-ci ildə Müaviyə Kufənin hakimiyyətini Əmr ibni Asın oğlu Abdullaha tapşırsa da bir müddətdən sonra Muğeyrə ibni Şö'bəni oraya hakim tə'yin etdi. Muğeyrə hicrətin ۲۱-۲۴ illərində Ömər və Osman tərəfindən Kufədə hakim olmuşdu. O, İslamın ilk çağlarında zirəkliklə məşhurlaşmış dörd nəfərdən biridir; o biri üç nəfər isə Müaviyə, Əmr və Ziyad hesab olunurlar. Ziyadın kimliyi haqda sonra .danışacağıq

Mühüm əyalətlərdən olan Bəsrədə də vəziyyət qarşıq idi. Xəvaric yenidən dirçələrək bu şəhəri özləri üçün müqavimət mərkəzinə çevirmişdilər. Müaviyə öz nəzərində Ziyadı Bəsrəyə hakim tə'yin etməyi planlaşdırsa da, o, bu vaxtlar onun sərt müxalifi idi. Muğeyrə hələ Bəsrədə hakim olan zaman Ziyad onun yanında yaşayırdı, çünki başına gələn hadisədə onun da haqqı var idi. Nəticəsi əvvəldən müəyyən edilmiş bu hadisə İslamın əvvəllərində baş vermiş heyrət doğurucu hadisələrdəndir. Əhvalatın xülasəsi belədir: Muğeyrənin zina (qeyri-qanuni şəkildə cinsi əlaqədə olmaq) etdiyi iddia edildikdən və üç nəfər açıq-aydın şəhadət verdikdən sonra növbə Ziyada yetişəndə Ömər dedi: "Mən qarşımda elə bir şəxsi görürəm ki, ümidvaram onun vasitəsilə Peyğəmbər səhabəsi olan bir şəxs daşqalaq olunmaqdan qurtulsun. (Əğaninin yazdığına görə mühacirlərdən olan bir nəfər, yə'ni) Ziyad onun əleyhinə şahidlik etməyəndə Muğeyrə qəti ölüm cəzasından yaxa qurtardı və Ömər o biri üç şahidə .şallaq vurdu

Əlinin (ə) xilafəti zamanı Ziyadın işi daha da rövnəq tapdı. Belə ki, İmam onu Fars əyalətinə hakim, sonra isə ibni Abbas Bəsrə hakimiyyətindən əl çəkəndən sonra oraya vali tə'yin olundu. Ziyadın Bəsrədə törətdiyi əhvalatı (Əzdi ilə Təmimi arasında olan ixtilaf) başqa yerdə yazmışam. Əli (ə) Kufə məscidində yaralanan zaman Ziyad Fars əyalətində idi. Müaviyə imam Həsən (ə)-la sülh sazişini imzalayaraq özünü müsəlmanların xəlifəsi e'lan etdikdən sonra Ziyad minbərdə xütbə oxuyub Müaviyəni tənqid etdi. Müaviyə qorxdu ki, o, Peyğəmbər ailəsinə tərəf yönəlib əhalini onlardan

birinin xəlifə olmasına tə’rəf də’vət edə. Muğeyrəni yanına çağıraraq əhvalatı ona danışdı. Muğeyrə Ziyadın yanına gedib ona, hər ikisinə tanış olan bir tərzdə başa saldı ki, onun düşündüyü İslam hökuməti artıq aradan getmiş, ərəb və Qüreyş

hakimiyyətinin yeni dövrü başlanmışdır. Müaviyənin tərəfinə keçməsi onun üçün də xeyirli olardı və nəhayət o, bu işə öz razılığını bildirdi. Müaviyə Ziyadı özünə hərtərəfli .yoldaş etmək üçün İslamda misli görünməmiş bir işə əl atdı

## MÜAVİYƏNİN ZİYADI QARDAŞ ADLANDIRMASI

Ziyadın anası Suməyyə Haris ibni Kəldənin kənizi idi. Cahiliyyət dövründə bə'zi ailələrin adətinə əsasən bu kəniz öz sahibi üçün "gəlir mənbəyi" hesab olunurdu. Sonra isə Haris onu rumlu qul olan Ubeydə ərə verdi və ondan da Ziyad dünyaya gəlmişdi. Əhali onu bə'zən Ubeydin, bə'zən isə anası Suməyyənin adı ilə çağırırdılar. Bildiyiniz kimi, İslam fiqhinə əsasən nikah olunmuş qadından dünyaya gəlmiş övlad ataya məxsusdur. Müaviyə Muğeyrənin vasitəçiliyi ilə Ziyadı özünə tərəf çəkidikdən sonra onun ürəyini ələ almaq üçün dedi: "Ziyad Əbu Süfyanın oğlu və mənim qardaşımdır!" Sonra isə bir yığıncaq təşkil edərək şahidləri çağırıb onlara Ziyadın Əbu Süfyanın oğlu olmasını deməlerini tapşırdı. Təbəri bu hadisəni qısaca olaraq belə yazır: "Ziyad Kufə camaatından onun Müaviyənin qardaşı olmasına şəhadət verməlerini istədikdə onlar boyun qaçırdılar, lakin Bəsrə camaatından bir nəfər bu haqda şəhadət verdi." Yə'qubi, ibni Əbd Rəbbəh və Məs'udi bu əhvalatı çox geniş surətdə yazmışlar. Yə'qubi yazır: Müaviyə şahidlərdən onun Ziyadla qohumluq əlaqəsi olması haqda şahid durmalarını istədikdə Əbu Məryəm Səluli ayağa qalxıb dedi: Mən Taifədə şərab satardım. Bir gün Əbu Süfyan səfərdən qayıdarkən mənim yanıma gəldi. Yeyib-içdikdən sonra belə dedi: "?"Əbu Məryəm, mənə bir ağ üzlü qadın gətirə bilərsənmi

.O, cavabında dedi: "Bəni Əclandan olan bir kənizdən başqa heç kəsim yoxdur

...Elə onu gətir

Burada Əbu Məryəm Əbu Süfyanın dililə Suməyyəni vəsf edib bir cümlə deyərkən Ziyad qəzəblənib dedi: "Səni şahidliyə çağırıblar, yoxsa söyüş söyməyə?" O isə cavabında dedi: "Mən həqiqəti söyləmək istəyirəm" və Müaviyə onun şəhadətini qəbul etdi." Və beləiklə Ziyad Əbu Süfyanın övladı kimi qəbul olundu. Elə həmin yığıncaqda bir-iki nəfər üzdə Müaviyəyə irad tutdular. Mö'təbər sənədlərdə Müaviyənin qohumlarının bir-ikisinin adına rast gəlmək olar. E'tiraz edənlər dinin qayğısını çəkdiklərinə görə bunu etmirdilər, onlar Ziyadın onlarla bu formada qohum olmasını

özləri üçün eyib bilirdilər. O cümlədən Bəsrənin hakimi Abdullah ibni Amir (Əməvi sülaləsinin böyüklərindən

idi) dedi: “Mən şahidlər gətirəcəyəm ki, onlar Əbu Süfyanın Suməyyəni ömür boyu görmədiyini e’tiraf etsinlər.” Bu e’tiraz hansısa çobandan törəmiş Qüreyşdən və bəlkə də əsli ərəb olmayan Ziyadın Qüreyşdən hesab olunub onların sülaləsini ləkəli etməməkdən ötrü olub! Bu bid’ətə qarşı olunan məzəmmətə yalnız ədəbi kitablarda yazılan şerlərdə rast gəlmək olar və şairin də məqsədi dinin haram buyurduğunu inkar .etmək deyil, onların məsxərə və məzhəkə olunması olub

Belə hekayələri yazmaqdan məqsəd İslam tarixində vəzifəpərəst şəxslərin öz məqsədlərinə çatmaq üçün hər vasitədən istifadə etdiklərini göstərməkdir. Digər tərəfdən həmin düşüncədə olanlar da vardır ki, hakimiyyət əldə etmək üçün o qədər gücə malik olmasalar da, onların əhatəsinə toplaşaraq hakimiyyətə çatmaq yolunda onlara yardım göstərirlər. Hələ Peyğəmbərin (s) vəfatından ۳۰ il keçməmiş, yenicə şəhid edilmiş təqvalı, abid (zahid) və mə’sum xəlifənin xatirəsi zehnlərdən silinməmiş peyğəmbər canişinliyi iddiasında olan bir şəxs onun sünnəsini necə də əldə oyuncağa .çevirir

O günün müsəlman icması da tamahkarlıqdan və yaxud da qorxudan onun bu işinin doğruluğunu təsdiq edir və susurdular. Halbuki, həmin vaxt Şamda Peyğəmbəri görüb .onun sözlərini eşidən əlli nəfər səhabə yaşayırdı

## ZİYAD KUFəDə

Ziyad əldə etdiyi fəxr müqabilində tam surətdə Müaviyəyə tabe oldu. O, ilk dəfə Bəsrənin, sonra şərq əraziləri əlavə olmaqla Kufənin də hakimi oldu. Ziyad bu .məntəqənin əhalisi ilə layiq olduqları tərzdə rəftar edirdi

O, hicrətin ۴۵-ci ili Rəbiül-axər ayında Bəsrəyə daxil oldu. İlk olaraq camaatın gözünü qorxutmaq üçün “Bətra” adlı məşhur xütbəsini oxuyub belə dedi: “And olsun Allaha, qul günah etmiş olsa əvəzinə ağanı, səfərdə olan adamın günahı olsa əvəzində qalanını, xəstənin yerinə isə sağlamı tutacağam, hətta o dərəcəyə qədər qəddar olacağam ki, məni görəndə qorxunuzdan nəfəs çəkə bilməyəsiniz. Axşam evindən bayıra çıxanların qanını tökəcəyəm. Əlimdən və dilimdən amanda qalmaq istəsəniz, əlinizi və dilinizi məndən qoruyun.” Bir-iki nəfərin onun sözlərini tərifləməsindən mə’lum olur ki, Ziyad bu camaatı yaxşı tanıyırmış. Çünki camaat qaba, sərt rəftar gördükdə itaətcil, mülayim

rəftar gördükdə isə kobud hərəkət edərlər. Bu xütbəni eşitdikdən sonra hər kəs nə edəcəyini anladı, onların başı üzərindəki hakimin onlara tanış olan bir tərzdə danışdığını gördülər. Tutmaq, zindana salmaq, bağlamaq

və öldürmək başlandı. Ziyad xiftən namazından sonra birinə “Bəqərə” və ya digər surənin oxunmasını tapşırar və surənin oxunuşu sona yetərkən gözdən itənə qədər camaata möhlət verib, asayiş qoruyucusu başçısına küçə-bazarda gördüyü adamları öldürməyi tapşırardı! Bir gecə səhrada yaşyan bir nəfəri onun yanına gətirdilər. Ziyad :ondan soruşdu

”?Mənim əmrimi eşitməmisənmi“

.And olsun Allaha yox

Düz deyirsən, ancaq səni öldürmək camaatın xeyrinədir. Sonra isə boynunun .vurulmasını əmr etdi

Ziyad günahsızı günahkarın yerinə tutacağını dediyinə görə hər kəs öz canının qorxusundan başqaları üçü qoruqçu olmuşdu. Camaatın təbiəti ilə uyğun olan bu acı siyasət Bəsrəyə, Kufəyə hətta bu şəhərlərlə əlaqəsi olan yollara belə rahatlıq və asudəçilik gətirirdi. Belə ki, hətta birinin cibindən bir şey düşsəydi başqası cür’ət edib onu götürməzdi. Bu dövrdə camaat o dərəcədə arxayın idi ki, axşamlar qapılarını belə .bağlamazdılar

Hicrətin əllinci ili Muğeyrə öldükdən sonra Müaviyə Kufənin də hakimiyyətini Ziyada tapşırdı. Ziyad ilin yarı hissəsini Bəsrədə, qalan hissəsini isə Kufədə keçirdi. Onun bu .şəhərdə törətdikləri heç də Bəsrədə törətdiyi faciələrdən az olmamışdır

Ziyad şərqdə iki dəstə qoşun toplamışdı ki, onun biri Xorasandan Lahura qədər irəliləmiş, o birisi isə Amurdəryanın o biri sahilinə qədər getmişdir. İlk dəfə türklərlə .vuruşan bu qoşun olmuşdur

## YEZİDİN VəLİəHD OLMASI

Müaviyə öz hakimiyyətinin ikinci onilliyinin başlanğıcında yenidən İslamda bid’ət qoydu; elə bir bid’ət ki, o özündən sonra bütövlükdə müsəlman ölkələrində ۱۳ əsr davam etdi. Bildiyiniz kimi, Peyğəmbərin (s) vəfatından sonra bir dəstə müsəlman (ənsar və mühacir) bəni Saidə eyvanı altında toplaşıb söz-söhbətlərdən sonra Əbu Qəhafənin oğlu Əbu Bəkri xilafətə seçdilər və o, vəfat etdikdən sonra onun sifarişi ilə

Ömər bu vəzifəni öz üzərinə götürdü. Yazırlar ki, onun da hakimiyyəti mühacir və ənsarın razılığı ilə olmuşdur. Osmanı altı nəfərdən ibarət şura, Əlini (ə) isə Mədinədə yaşayan ümumi müsəlmanlar seçdilər. Göründüyü kimi, bu dörd nəfərdən heç birisi hakimiyyəti özündən əvvəlki xəlifədən miras olaraq əldə etməmişdir. Həzrət Əlini Peyğəmbərdən sonra fasiləsiz və haqq xəlifə qəbul edən şiə məzhəbinin davamçıları, o həzrəti Peyğəmbərə yaxın qohum bildiklərinə görə bu mənsəbə layiq olduğunu demirlər. Bəlkə onun elminə, fəzilətinə, təqvalı və mə’sum olduğuna, bir də Peyğəmbərin vida həccində Ğədir-xumda söylədiyi açıq-aydın

ifadəyə əsasən imam bilirlər. Ancaq Müaviyə xilafət məsələsini bir-birinə vurub keçmiş cahiliyyət adət-ən'ənəsini yenidən dirçəltdi. Çünki o, tezliklə öləcəyini bilirdi, hakimiyyətin öz sülaləsinin əlində qalmasını istəyirdi. Camaat yaxşı tanısa da işin asanlıqla irəli gedəcəyini düşünmürdü. Peyğəmbər dövründən ötən bu əlli il müddətində hakimiyyət miras olaraq əldən-ələ keçməmiş, Peyğəmbərdən sonra bu vəzifəni öhdəsinə götürənlər yaşlı olmuş və təqvalı ömür sürməkdə şöhrət tapmışlar. Bu vaxtlar Yezidin yaşı otuzdan az olardı. Deyirlər Müaviyə bə'zi vaxtlar Qüreyş cavanlarını, xüsusilə Haşimi cavanlarını tərif edib deyərdi: "Əli ibni Hüseyn (ə) xəlifəliyə ən layiqli adamdır." O, rəqibini üzdə tərifləməklə yaşlıların xəlifəliyini xatirlərdən silib, yerinə cavan bir nəfərin də müsəlmanlara xəlifə olmasının mümkünlüyünü qəbul etdirmək istəyirdi. Müaviyə çalışırdı ki, öz məqsədini həyata keçirən gün, yə'ni Yezidi .vəliəhd tə'yin edəndə camaat bu hadisəni normal bir iş kimi qəbul etsinlər

O, yavaş-yavaş tədbir görməyə hazırlaşırdı, ətrafına yığılanlar da bu işdə ona köməklik göstərirdilər. İbni Əsir yazır: "Muğeyrə ibni Şö'bə Müaviyənin onu Kufənin əmirliyindən çığaracağını eşitcək dərhal özünü Şama yetirmiş və Müaviyənin görüşünə getməzdən əvvəl Yezidin yanına gedib belə demişdi: "Mən düşünürəm ki, Peyğəmbər səhabələri və Qüreyşin ağsaqqalları ölmüş, onların yerini isə övladları tutmuşdur. Müaviyə də bir gün öləcəkdir. Sən də onun yerini niyə tutmayasan? Məgər sən başqalarından əskiksənmi? Nəyə görə atan camaatdan sənin üçün bey'ət almır?" :Yezid belə bir sevdada olsa da onun həyata keçməsinə ümid etməyərək dedi

"?Belə bir işin həyata keçməsini mümkün sayırsanmı

!Niyə də mümkün olmasın

:Yezid əhvalatı Müaviyəyə çatdırdı və o, da Muğeyrədən soruşdu"

"?Bu işi kim həyata keçirəcək

Kufə camaatının bey'ətini mən, Bəsrə əhalisinin bey'ətini isə Ziyad öhdəsinə götürür. .Çünki bu iki şəhər belə bir işi qəbul etsələr, artıq heç kəs e'tiraz etməyəcəkdir

:Müaviyə dedi

".Öz işinizə qayıdın və bu barədə ancaq e'tibar etdiyiniz şəxslərlə söhbət edin"

Muğeyrə Dəməşqdən Kufəyə dönərək hazırlıq görməyə başladı. Deyilənlərə görə bir nəfər ondan bu barədə xəbər aldıqda belə dedi: "Müaviyənin ayağını dərin bataqlığa salmışam, müsəlmanların üzünə bir qapı açmışam ki, heç vaxt bağlanmayacaq." Muğeyrə ilk olaraq bəni

Uməyyə havadarlarını özü ilə əlbir edib satın alınması mümkün olan ağıllı şəxsləri bir-bir razı saldı. Sonradan oğlunun başçılığı ilə bir dəstə adamı Dəməşqə Müaviyənin yanına göndərdi ki, ondan Yezidin vəliəhd seçmlməsini istəsinlər. Müaviyə zahirdə bu məsələyə soyuqqanlıqla yanaşaraq onlara belə dedi: “Bu məsələ barədə tələsməyin.” :Sonra Muğeyrənin oğlundan soruşdu

”?Atan bu camaatın dinini (əqidəsini) necə satın alıb“

.O, dedi: Hər birini otuz dirhəmə razılaşdırıb

.Ucuz ticarət edib

Sonda müvafiq şərait hazır olduqdan sonra Müaviyə öz arzusuna çatdı. Deyilənlərə görə o, Şamın inzibati idarəsinin rəisi Zöhan ibni Qeysə belə dedi: “Əyalətlərin nümayəndələri toplandığı məclisdə mən sükut edəcəyəm. Yezidin vəliəhd olmasını gərək sən tələb edəsən!” Zöhvan da belə etdi. Yezid ibni Muqənnə’ Müaviyəyə işarə edib dedi: “Əmirəl-mö’minin budur. Əgər o, ölsə budur (Yezidə işarə edərək), hər kim qəbul etməzsə budur (öz qılıncına işarə edərək) dedi.” Müaviyə dedi ki, sən əyləş, çünki xətiblərin böyüyüsən. Əmr ibni Səid Əşdəq qısa çıxış əsnasında dedi: “Yezid elə arzuladığımız şəxsdir, istədiyimiz ədalət də onda var.” Və bu sözlərdən sonra dinlərini satıb dünya alanlar məclisi daha da qızışdırdılar. Yezidi onda olmayan sifətlərlə tərif edib eyiblərini isə ondan uzaqlaşdırdılar. Məkkə və Mədinədə də Əməvilər və onların .havadarları camaatın ağzını yumdular

Mərvan Mədinə əhalisindən Yezid üçün bey’ət almaq istədiyi gün belə dedi: “Müaviyə bu işdə Əbu Bəkrin üslubundan istifadə etmişdir.” Cəmiyyətin arasında yalnız Əbu Bəkrin oğlu Əbdürrəhman məscidin küncündən qışqıraraq dedi: “Yalan deyirsən, Əbu Bəkr övladlarını və qohumlarını hesaba almayıb bəni Ədidən olan bir nəfəri müsəlmanlara xəlifə tə’yin etdi. Mərvan onun cavabında “Əhqaf” surəsinin on yeddinci ayəsini oxuyaraq dedi: “Bu ayə Əbdürrəhman barəsindədir, çünki o, ata-anasını .incitmişdir.” Beləliklə, qızıl və zor gücünə İslamda başqa bir bid’ət də meydana gəldi

### MÜAVİYƏNİN ƏLİ ŞİƏLƏRİ İLƏ SƏRT DAVRANMASI

Müaviyə Həzrət Əlinin (ə) təqva və ədalətinin tezliklə xalqın xatirəsindən silinəcəyini

bilirdi. Bə’zi şəxslərin Əliyə (ə) və ailəsinə tərəfdar olub ona qarşı çıxacağını da bilirdi. İraq yavaş-yavaş Qəhtani tayfasının əsas mərkəzinə çevrilmişdi. Bədr döyüşündə Müaviyənin yaxın qohumlarını öldürən də ənsar olmuşdu. Siffeyn müharibəsində Şama ağır zərbə vuran da İraq olmuşdu. İraq əsrlər boyu siyasi və

iqtisadi hakimiyyətə sahib olmaq, Hind okeanından Aralıq dənizinə qədər uzanan ticarət yolunu əldə etmək üçün Şamla münaqişədə olmuşdur. Müaviyə bu əhalini tənbeh etmək üçün bir tərəfdən öz nümayəndələrinə yazıb bildirdi ki, Əlinin şiələrinə işgəncə verməkdən çəkinməsinlər, digər tərəfdən isə xətiblərə minbərdə Əlini təhqir etmələrini tapşırdı. Muğeyrəni Kufəyə hakim tə'yin edən zaman ona dedi: "Sənə bir neçə tapşırıq vermək istəyirəm! Əlini söyməkdən və Osmana rəhmət oxumaqdan ".çəkinmə, həmçinin bacardıqca Əlinin tərəfdarlarında eyib tut

Ondan sonra xətiblər hər namazdan sonra Əlinin (ə) adını hörmətsizcəsinə yad edər, dinini dünyaya satmış hədis rəvayətçiləri də onu razı salmaq üçün Əlinin (ə) barəsində .məzəmmətedici, Əməvilərin isə fəziləti barədə hədis qoşmaqdan usanmadılar

Əlinin (ə) şəhadətindən sonra İraqın ağsaqqalları onun yanına gedəndə onları təhqir edər, onların aşağı nəsildən olduqlarını və ağır yaşayış tərzlərini başlarına qaxınc edərdi. Bə'zi vaxtlar iraqlılar ona layiqli cavab verərdilər. Müaviyənin Əli şiələrinə qarşı ən çirkin rəftarı Hucr ibni Ədiyi öldürmək olmuşdur. Çünki zahid və dindar olan bu şəxs bir gün məsciddə xətibin Əliyə (ə) söyüş söydüyünə e'tiraz etmişdi. Ziyad ondan Müaviyəyə şikayət etmiş və Müaviyə də onu Şama göndərməyi əmr etmişdi. Ziyad Hucr ilə bir neçə nəfəri qandallayıb Şama yollayarkən onların yolda boyunlarını .vurmuşdular

### ÜRəK QORXUSU Və VəHŞİLİK

İslam hakimiyyəti Mədinədə təsis olunan vaxtdan Əlinin (ə) xilafətinin sonuna qədər müsəlmanların hakimləri ictimai və siyasi məsələlərin həlli zamanı mühacir və ənsarın başçıları ilə məşvərət edər və onlar çəkinmədən öz nəzər və rə'ylərini bəyan edərdilər. Göründüyü kimi, hələ Peyğəmbər (s) öz zamanında şəriət hökmündən əlavə olaraq bə'zi anlarda öz silahdaşlarının rə'y və təkliflərini qəbul etmişdir. Xəlifələr də bu ən'ənəyə sadiq qalmışlar. Qarşıya çıxan problemin cavabını Qur'an və sünnədən tapmadıqda Peyğəmbərin səhabəsindən nə etmək lazım olduğunu soruşardı. Xəlifənin çıxardığı qərar da Qur'an və sünnəyə birbaşa zidd olmamalı idi. Əgər xəlifənin öz ictihadı əsasında gördüyü iş ilahi kitaba (Qur'an) və Peyğəmbər sünnəsinə zidd olsaydı onu tənbih və ya məzəmmət edərdilər. Ömər deyərdi: "Düz hərəkət etmədiyimi

görsəniz, məni ayıldın.” Hətta bir gün məclisdə oturanlardan biri onun cavabında belə dedi: “Səni qılıncla düz yola yönəldəcəyik.” Osman hakimiyyətinin son illərində yaxın qohumlarının xalqla onun arasında

ayrılıq salmalarına baxmayaraq bacardıqca xalqla yaxın ünsiyyətdə olmağa çalışırdı. Belə ki, dəfələrlə ona qarşı olan e’tirazları söyləmələrini istəmiş, hətta məscidə gələrək irad tutanlara işləri sahmana salacağını və’d etmişdi, lakin ətrafındakılar ona .bu imkanı vermədilər

Müaviyənin hakimiyyətindən sonra xəlifəyə və onun mə’murlarına irad tutmaq yığışıldı. Onun bu mə’murlarının danışıq və rəftarına irad tutan şəxslər tənbih edilir və yaxud işkəncə və ölümə mə’ruz qalırdılar. Belə ki, Hucr ibni Ədiy və dostları Əliyə (ə) .söyməyi rəva bilmədiklərinə görə ölümə məhkum olurdular

O vaxtdan bəri artıq camaat öz vəzifəsini bilir, Allahın bəyəndiyi sözləri deyil, xəlifənin xoşuna gələn sözlər danışmağa çalışırdılar. Dinə azacıq ehtiramı olanlar da belə hakimlərin hərəkətləri qarşısında sakit otururdular. Belə ki, Müaviyə camaatdan Yezidin vəliəhd olması haqda rə’ylərini öyrənmək istədikdə əhnəf ibni Qeys sakit oturmuşdu. Müaviyə isə ona: “Sən niyə dinmirsən?” Dedi: “Əgər düz danışsam sən ”.inciyəcəksən, yox əgər batil və nahaq desəm Allahı qəzəbləndirəcəyəm

Ənsar, mühacir və etiqadlı müsəlmanların sayı azaldıqca, hökmlərin icrasına (doğru işlərə də’vət edib, yaramaz işlərdən çəkindirmə) nəzarətin zəifləməsi daha çox gözə çarpırdı. Hicrətin ۴۰-cı ilindən sonra iş başına gəlmiş cavanların nə Peyğəmbər dövründəki İslamdan xəbərləri var idi, nə də ki, ondan sonrakı hakimlərin sərt rəftarlarını görmüşdülər. Bu nəsil iğtişaşlı dövrdə boya-başa çataraq, sərt zəmanədə yaşadıqlarından, təbiidir ki, həqiqi İslamdan və bu dinin əsas dayağı olan ədalətdən xəbərləri yox idi. Ancaq bu dəyişikliklər İslamın sadə dövründə yaşamış insanlar üçün .ağır gəlirdi, onlar təəssüf hissi keçirsələr də bir iş görə bilmirdilər

Müaviyənin dövründə birini məzəmmət, digərini isə tərif etmək haqda qoşulan hədislər rəvac tapdı, özü də bu hədisləri Peyğəmbər (ə)-ın adına çıxarırdılar. O zaman hədislər yazılmazdı, bəlkə dilləri dolaşaraq zehinlərdə həkk olunurdu. Hər kəs də ona öz istədiyi şeyi əlavə edər, ya da hədisdən bə’zi şeyləri azaldardı. Hədis kitablarında “Fəzilətlər” adlı fəslə rast gəlirik ki, orada ancaq hansısa bir şəxsin, qəbilənin, ailənin və ya bir şəhərciyin tərifinə həsr edilmişdir. Tarixi kitablarda isə İslam fəthlərində hansısa müəyyən bir ailənin daha çox iştirak etdiyi rəvayətə rast gəlirik. Belə rəvayətlərə

şübhə ilə yanaşmalı, bə’zən isə rədd etməliyik. Çox təəssüflər olsun ki, bu rəvayətlərin böyük əksəriyyəti ١ və ٢-ci əsr İslam tarixinin əsas mənbə dayağına çevrilmişdir və belə rəvayət və hədislər arasından düzgününü və yaxud düzgünlüyə yaxın

.olanı araşıdırıb üzə çıxarmaq tarixçilər üçün ağır bir məs’uliyyət tələb edir

## MÜAVİYƏNİN FƏTHLƏRİ

Uqbə ibni Nafe’nin Afrikadakı və şərqi İran nahiyəsində ezamiyyətdə olan əsgərlərin fəthləri haqda qısa da olsa mə’lumat verdik. Müaviyə Rum imperatorları tək nizam-intizamlı və təcrübəli bir ordu hazırladı. Bu qoşun iki dəstədən - Yəmani və Qeyslərdən seçilmişdi. O, Yəmaniləri özünə daha yaxın bilib onlara Qeyslilərdən artıq məvacib verirdi. Onların Muzərilərə qarşı lovğalıq etməsi ona pis tə’sir bağışladığından hər iki qəbiləni bir-birindən ayırdı. Yəmanilərdən ibarət qoşunu dənizə, Qeysliləri isə qurudakı döyüşlərə göndərərdi. Fəthlərdən əlavə olaraq tutulmuş ərazilərdə iğtişaş baş .verərkən onları yatırtmaq üçün bu qoşundan istifadə edərdi

Müaviyə Şama hakim olandan sonra dəniz qüvvələri təsis etmişdi ki, onlar Aralıq dənizində fəaliyyət göstərmiş və hicrətin ۲۸-ci ilində Kipr adasını fəth etmişdir. Onun xilafəti zamanı hicrətin ۵۳-cü ili Müaviyə ibni Xudəyc Seysil adasını, Cənadə ibni Əbi Uməyyə isə Rudos adasını fəth etmişlər. Onun qoşunları ۵۴-cü ildə (hicri) qurudan və sudan İstambula hücum etdilər. Lakin bu şəhər iki qat divarla əhatə olunduğundan, yüksək qala divarları üstündən qaynar su tökən əsgərlərin şəhəri yaxşı müdafiə etdiyindən heç bir irəliləyiş əldə olunmadı. Nəhayət üç illik mühasirədən sonra qoşun .böyük itkiyə məruz qalaraq məcbur olub geri çəkildi

## MÜAVİYƏNİN ÖLÜMÜ

Müaviyə hicri tarixi ilə ۶۰-cı ilin baharında səksən yaşında ikən öldü. Onu Dəməşqdə .Bab-əl-Cabiyə ilə Bab-əl-Səğir arasında dəfn etmişlər

Müaviyə hiyləgər, uzaqgörən, xalqı gözəl tanıyan bir şəxs idi. Bacardığı qədər düşmənlərini ya sərvət, ya da yağlı dil ilə aldadardı. Saysız-hesabsız hədiyyələr verdiyinə görə irad tutulduqda isə deyərdi: “Bu hədiyyələr döyüşə xərc olunan pulun az bir hissəsini təşkil edir.” O, demək istəyirdi ki, mən bu pullarla baş verə biləcək .döyüşün qarşısını alıram

Onun bacarıqlı olması haqda deyərdilər: “Onun üzünə yeddi qapı belə bağlansa, yenə ”.də bir yol tapıb oradan çıxar

## YEZİDİN XİLAFƏTİ

Müaviyə ölən zaman Yezid Huvvarində yaşayırdı. Şamın darğası – Zəhhan ibni Qeys atasının ölümünü ona xəbər verdi. Yezid Dəməşqə gəlib məscidə yollanaraq minbərə çıxdı və qısa şəkildə çıxış edərək Müaviyəni təriflədi və Allahdan onun bağışlanmasını .arzuladı

Xilafəti ələ keçirdikdən sonra Yezidin görəcəyi əsas işlərdən biri xalq arasında nüfuza malik olub onunla bey'ət etməyənlərin əlindən yaxa qurtarmaq idi. Bunlar Qüreyş əsilzadələrindən olan aşağıdakı şəxslər idilər: Ömərin oğlu Abdullah, Zübeyrin oğlu Abdullah və bir də Hüseyn ibni Əli (ə). Ömərin oğlu Abdullah inqilabçı şəxs deyildi. Zübeyrin oğlu isə cəsarətli və tədbirli idi, xəlifə olmaq eşqi ilə yaşayırdı, ancaq əsil-nəsəbinə görə və ictimai mövqe baxımından öz ətrafına çoxlu sayda adam toplaya bilməmişdi. Yezidin yeganə qorxduğu şəxs Mədinədə yaşayan Hüseyn ibni Əli (ə) idi. Hüseyn həm Peyğəmbər qızının, həm də Əli ibni Əbi Talibin oğlu idi. Haşimilərin başçısı, elmli, təqvalı və xalq arasında böyük nüfuz və dəyərə malik idi. Yezid bilirdi ki, iraqlılar belə bir üstün şəxsdən əl çəkməyib onun ətrafına toplaşacaqlar. Buna əsasən Mədinənin valisi Vəlid ibni Utbəyə yazır ki, Hüseyndən bey'ət almayınca əl çəkməsin və əks təqdirdə e'dam edib başını Şama göndərsin. Mədinənin valisi öz müşaviri Mərvan ibni Həkəmdən soruşdu: "Nə etməli, vəzifəmiz nədən ibarətdir?" Mərvan dedi: "Camaat Müaviyənin ölməndən xəbər tutmamış, Zübeyrin oğlu Abdullahı və Hüseyn ibni Əlini çağırıb hər ikisindən bey'ət al, əgər bey'ət etməsələr onları öldür! Lakin Ömərin oğlu Abdullahdan nigaran olma." Vəlid Abdullah ibni Zübeyrlə Hüseyn ibni Əlini .(ə) çağırtdırdı. Zübeyrin oğlu gizlənərək gecə gizli yolla Məkkəyə yola düşdü

## İMAM HÜSEYN (Ə) VƏ ONDAN BEY'ƏT ALINMASI

Hüseyn ibni Əli (ə) valinin yanına gedib əvvəlcə Müaviyənin vəziyyətini soruşdu. Vali ona belə dedi: "Müaviyə artıq ölmüşdür." Ona bey'ət etmək təklif edildikdə isə belə dedi: "Belə bir işin gizlində görülməsi münasib deyil. Camaatı məscidə topla, görək nə etmək lazımdır." Həmin məclisdə Mərvan Vəlidə dedi: "Hüseyni bey'ət etməmiş buraxma, əgər bey'ət etməzsə onu öldür." Hüseyn (ə) qəzəblənərək dedi: "Sizin heç biriniz məni öldürə bilməzsiniz." Sonra valiyə dedi: "Yezid şərab içən və fasiq bir

insandır, müsəlmanlara hakim olmağa ləyaqəti yoxdur.” Hüseyn (ə) onların yanından çıxdıqdan sonra

Mərvan Vəlidi tənbih edib dedi: “İndi ki, onu öldürmədin, böyük bir iğtişaşla üzləşəcəyinə hazır ol!”

Vəlid dedi: “Mənə nə təklif edirsən? Peyğəmbərin nəvəsini necə öldürüm?”

Mərvan dedi: “Belə bir işləri görə bilməyən kəs yaxşı olar ki, hakimiyyətdən əl çəkib ibadətlə məşğul olsun.”

Hüseyn ibni Əli (ə) o məclisdən çıxdıqdan sonra Məkkəyə səfər etmək üçün yol tədarükü gördü. Lakin Zübeyrin oğlu kimi gizlində deyil, camaatın gözü qarşısında Məkkəyə gedən əsas yol ilə oraya yollandı. Hüseynin (ə) və Abdullahın Məkkəyə gəlişi ilə bu şəhər Yezidin əleyhinə olan bir mərkəzə çevrildi.

Yezidin hakimiyyəti İslamın siyasi tarixində yeni bir səhifə açdı. Yezid nəinki dini tərbiyə, bəlkə heç adi tərbiyə də görməmişdi. Qeyd edilir ki, Müaviyə bir gün Yezidin anası Məysunun yanına gedərkən onun şəhər həyatını məzəmmət edib bu sözləri dediyini eşidir: “Əba geyinib qara çadırda yaşamaq şəhərdə qalıb ipək paltarlar geyməkdən daha yaxşıdır.” Müaviyə bu sözlərdən inciyərək onu oğlu ilə birlikdə öz qəbilsinə - qohumlarının yanına göndərdi. Beləliklə Yezid səhra tərbiyəsi aldı. O, burada ov ovlamaq, şe’r söyləmək və artıq danışmaqdan başqa (çərənləmək) bir şey öyrənmədi. Müaviyənin canişini olduqdan sonra isə onun ətrafına toplaşanların da nə dindən, nə təqvadan, nə də camaatın vəziyyətindən xəbərləri yox idi. Yezid İslam qanunlarına zahirdə olsa da riayət etmir, belə ki, aşkar şəkildə camaatın gözü qarşısında şərab içib qumar oynamaqdan çəkinmirdi. Əlinin (ə) xilafətini və ondan əvvəlki xəlifələrin dövrünü görmüş bir dəstə müsəlmanlar Müaviyə dövründə baş vermiş bid’ətləri də görərək Yezidin Müaviyənin davamçısı olduğunu hiss edir, hətta onun Müaviyədən artıq dərəcədə dini ayinləri yararsız saymasını müşahidə etdikdə Yezidin onlara hakim olması ilə barışa bilmirdilər. Amma saylarının az olması ilə yanaşı, onların hər biri ayrı-ayrı yerlərdə yaşayırdılar. Bu məsələyə aydınlıq gətirmək üçün böyük əyalətlərin ictimai durumunu bir-bir araşdıraq.

## Ərəbistan əYALəTLəRİNİN VəZİYYəTİ

Qeyd edildiyi kimi, neçə illər idi ki, Şam Müaviyənin tam ixtiyarında idi, ondan sonra isə

Yezidə tabe olmuşdu. Hicaz əyalətindən də nigarançılıq yox idi, çünki bu ərazidə yaşayan dindar əhali yeni hökumətlə müxalif olmalarına baxmayaraq onların narazılığı sözdən əmələ çevrilmirdi. Əməvi sülaləsindən olan bir neçə əsilzadələr hakimiyyət xəyalı ilə yaşayırdılar. Onlar bilirdilər ki, Hüseyn ibni Əli (ə)

və Zübeyrin oğlu Abdullahın tərəfdarı olsalar heç vaxt arzularına çata bilməyəcəklər. Elə ona görə də Hüseyn (ə) və Abdullahın yanında deyil, bəlkə Yezidin arxasında durmağa üstünlük verirdilər. Münaqişəyə qoşulmaq istəməsələr də özlərinə tamaşaçı .mövqeyi seçmişdilər

Demək olar ki, Hicazdakı bu durum Osmanın xilafəti dövründən başlanmışdı. Qüreyşin bəni Haşimlə olan münasibəti yaxşı deyildi, onların hakimiyyətini (yə'ni Haşimdən olan rəhbəri) qəbul etmək istəmirdilər. Bu düşmənçiliyin bariz nümunəsi Vəlid ibni Uqbənin yazmış olduğu beytlərdə gözə çarpır. Başqa bir nümunə isə Əli (ə) Hicazdan çıxaraq İraqa tərəf yollanan zaman Abdullah ibni Səlam onun yolunu kəsərək belə dedi: "Mədinədən kənara çıxma, əgər çıxmış olsan bir daha geri dönə bilməyəcəksən. Əli (ə) Rəbəzəyə, oradan da İraqa getmək istəyən zaman onu yalnız üç yüz nəfərdən ibarət bir dəstə müşayiət edirdi ki, onların da əksəriyyəti Mədinənin ətrafından toplaşıb ".Osmanı xilafətdən kənar etmək üçün gələnlər idi

**İRAQ**

Şamı narahat edən yeganə əyalət İraq idi. Ötən fəsillərdə İraqın mövqeyi, həmçinin ictimai-siyasi vəziyyəti haqda qısa da olsa mə'lumat verdik. Hicrətin ۳۶-cı ilindən İraq Şamla üz-üzə dayanmışdı. Məcburiyyət qarşısında Şama təslim olmasına baxmayaraq heç vaxt bu əyalətə və onun hakiminə qarşı olan kin-küdurətini yaddan çıxarmamışdı. Müaviyə özünün ۲۰ illik hakimiyyəti dövründə bu əyalətin camaatı ilə tədbir və hiyləgərcəsinə rəftar etmişdi. İraqın böyük adamlarını gah ölümlə qorxudar, gah rişxənd və söyüş söyməklə, gah da hədiyyə verib mehribanlıq göstərməklə sakitləşdirərdi. Ziyadın Bəsrə və Kufədəki qəddar siyasəti qara camaatın gözünü qorxutmuşdu. Nəticədə İraq ۲۰ il müddətində qaranlıq sükuta qərq olmuşdu. Müaviyənin ölüm xəbəri bu əyalətə çatdıqdan sonra bir tərəfdən mərkəzi hökumətin Dəməşqdən Kufəyə köçməsinə çalışanlar münasib fürsətin ələ düşdüyünü hesab etdilər, digər tərəfdən də İslamın halına acıyanlar bu neçə illər ərzində dinə edilmiş .əlavələrin təmizlənməsi üçün bu anın münasib olduğunu sayırdılar

Müaviyə ölən zaman demək olar ki, İraq bütövlükdə Əbu Süfyan ailəsinin ziddinə idi. Camaat yekdilliklə Yezidin müsəlmanlara xəlifə olmağa ləyaqətli olmadığını

söyləyirdilər. Ancaq görəsən hamı dinin halına yanaraq Yezidin bu yüksək vəzifəyə layiq olmadığına görə onu istəmirdilər, yoxsa yox? Bu suala qətiyyətlə doğru cavab ,vermək mümkün deyil. Mə’lumdur ki, bu ərazidə yaşayan peyğəmbər səhabələri

mühacir və ənsarın övladları hələ də İslam fiqhi və Peyğəmbər sünnəsi ilə tanış idilər, hakimlərin müsəlmançılığın zahiri ayinlərinə riayət etmədiklərini gördükdə artıq dərəcədə narahat olurdular. Ancaq başqaları necə? Onlar da Yezidi İslamın zahiri əməllərinə riayət etmədiyinə və ya atasıyla olan düşmənçiliklərinə görə istəmirdilər. Yaxud da atasının Muzərilərin Yəmanilər üzərindəki hakimiyyətini qəbul etməməsinə görə istəmirdilər. Əgər bir az əvvələ gedib tarixin toz basmış səhifələrini vərəqləsək, Ləxmilərlə Ğəssanilər arasındakı düşmənçiliyi araşdırsaq, Şamla İraq arasındakı hakimiyyət davasını görüb Müaviyə ilə Yezidin yaratdığı ictimai şəraiti dəqiq şəkildə başa düşərik. Müaviyə öldükdən sonra şamlılara lazımi dəsr verilməli, ٢٠ il bundan qabaq İraqdan Şama köçürülmüş hakimiyyət yenidən əvvəlki mərkəzinə qaytarılmalı .idi

Fürsət güdən bu siyasətçilər Yezidin müqabilində kimə tərəfdar olmalı və kimi gücləndirməli idilər? Zübeyrin oğlundan bu işi gözləmək olmaz, cəsarətli olmasına baxmayaraq ictimai nüfuza malik deyildi. Bir tərəfdən o, özü də Muzəri tayfasından idi. Hakimiyyətə gəlsə də öz tayfasını himayə edəcəkdi. Qəhtanilər Həzrət Məhəmmədlə (s) peyğəmbərliyin onuncu ilində tanış olmuş, əhd-peyman bağlayaraq onu öz şəhərlərinə də'vət etmişlər. Ondan sonra isə əmisi oğlu və kürəkəni olan Əlinin (ə) yanında olmuş, həmçinin Həsən ibni Əliylə (ə) da bey'ət etmişlər. İndi isə Hüseyn ibni Əli (ə) təqvalı, əzəmətli, səxavətli, şücaətli, bir sözlə bütün insani keyfiyyətləri özündə cəm edən şəxs, hər iki dəstənin (dindarların və siyasətçilərin) arzularını həyata keçirməyə qadir olan bir kəs ola bilərdi. O, Yezidə bey'ət etməmişdi və bu baxımdan onun müqabilində heç bir cavabdehlik daşımırdı. Yezidin xilafətinə e'tiraz əlaməti olaraq Mədinədən Məkkəyə getmişdi və buna görə də onu İraqa də'vət etmək lazım .idi

Kufədə yığıncaq və toplantılar təşkil olunaraq gurultulu çıxışlar edildi. İslam dininin qürbətə düşməsinə dair, peyğəmbər sünnəsinin sıradan çıxarılıb bid'ətlərin dirçəlməsi haqda ah-nalə edərək göz yaşları axıdıldı və Müaviyənin Əli (ə) şiələrinə qarşı verdiyi əzab-əziyyətdən şikayətlər edildi. Deyilənlərə görə ilk toplantı Xuzaə tayfasından olan .Süleyman ibni Sərdin evində təşkil edildi

Süleyman öz yerlilərini yaxşı tanıdığına və öz əhdlərinə vəfasız olmasından xəbərdar

olduğuna görə onlara dedi: “Hüseyn ibni Əliyə (ə) yardım etmək bacarığına malik olduğunuz halda onu çağırın, boş yerə onu Allahın evindən uzaqlaşdırmayın!” Toplantıda iştirak edənlərin

.hamısı “biz son anadək Hüseynin (ə) yanında olub, Yezidə itaət etməyəcəyik” dedilər

## İRAQLILARIN MəKTUB YAZMASI

Nəhayət imam Hüseynə (ə) məktublar göndərildi. Məktub yazanlar İslam ayinlərinin və şəriət hökmlərinin dəyişdirilməsinə təəssüf hissi keçirdiklərini qeyd etməklə yanaşı, yazırdılar ki, biz Yezidi xəlifə saymırıq, yalnız səni imam olaraq qəbul edirik və Yezid tərəfindən Kufəyə hakim tə’yin olunmuş Nö’man ibni Bəşiri rəsmi olaraq hakim qəbul etmir və onun arxasında namaz qılmırıq. Kufədə əli qılınc tuta bilən ١٠٠٠٠ min kişi sənə kömək etməyə hazırdır. Əgər onların də’vətini qəbul etməyib dini himayə etmək üçün .ayağa qalxmasan, Allah yanında cavabdeh olacaqsan

Sonra yenidən məktublar göndərildi. Belə ki, ibni Əsir onların sayının ١٥٠-yə yaxın olduğunu yazmışdır. Bə’ziləri məktubların sayını minə qədər qaldırmış, hətta bu rəqəmi həddindən artıq artırıb on iki minə çatdıranlar da vardır. Məktubların sayı lazımi həddi aşdıqdan sonra imam Hüseyn (ə) Kufə camaatını intizarda qoymamaq üçün onlara cavab verilməsini lazım və gərəkli hesab etdi. O, kiçik bir məktubda belə yazdı: “E’tibar etdiyim əmim oğlu Müslimi sizin yanınıza göndərirəm ki, yaxından şəhərin vəziyyəti ilə maraqlanıb mənə mə’lumat versin, yazdıqlarınız doğru olsa sizin yanınıza gələcəyəm.” Başqa bir tərəfdən bəni Üməyyə tərəfdarları, öz mənfəətlərini Dəməşqlə yanaşı olmaqda görənlər, həmçinin ağır günləri nəzərdən qaçırmayan kəslər Şama məktub yazıb göndərdilər. Yezidə yazırdılar ki, Kufəni, ümumiyyətlə İraqı əldən vermək istəmirsənsə oraya layiqli bir hakim göndərməlisən, çünki Nö’man ibni Bəşir bacarıqsız adamdır və ya özünü bilərəkdən belə aparır. Yezid rumlu müşaviri Sərcunla məşvərət edərək Bəsrənin hakimi olmuş Ziyadın oğlu Ubeydullahı Kufəyə hakim tə’yin etdi. Digər tərəfdən isə Müslim imamın məktubu ilə birgə Kufəyə getmişdi. Şəhər camaatı onu böyük təmtəraq, həyacan və istiqanlıqla qarşıladılar. O, özü pak əqidəli müsəlman olduğundan belə şövqlə ona bey’ət edən xalqın sonradan asanlıqla ondan ayrılıb ətrafını boş qoyacaqlarını güman etmirdi. Camaatın bu münasibətini gördükdə Hüseynə (ə) bir məktub yazdı: İraq və Kufə camaatı sənin tərəfdarındır və sənin .gəlişini gözləyirlər, tezliklə İraqa gəlməyin məsləhətdir

## Hüseynin (ə) İRAQA TəRəF YOLLANMASI

Müslimin məktubu imam Hüseynə (ə) çatdıqdan sonra öz ailəsi, övladları və bir dəstə dostları ilə birgə İraqa tərəf yollandı. Digər tərəfdən isə Ubeydullah Yeziddən göstəriş aldıqdan sonra Kufəyə yollandı. Ubeydullah İraq camaatını, xüsusilə də Kufə əhalisini lap yaxşı tanıyırdı. Atası uzun illər boyu bu şəhərdə hakim olmuş və o, da atasının əli altında böyümüşdü. O, Kufə camaatı ilə necə rəftar edəcəyini çox gözəl bilirdi. Şəhərə yetişdiyi ilk gündən qorxu və rüşvət gücünə əhalini, bacarıqlı şəxsləri ələ aldı və onların vasitəsilə başqalarını susduraraq öz yerlərində oturtdu. Casus tə'yin etmək vasitəsi ilə Müslimin gizlənmiş olduğu yeri öyrəndi. Əvvəlcə Müslimə sığınacaq vermiş Hani ibni Urvəni zindana saldı. Müslim öz tərəfdarları ilə birgə müharibəyə qalxdı. Ancaq bu dəstə (onların sayının ١٠٠٠٠ olduğunu qeyd edirlər) müharibə hələ qızışmamış, şücaət nümayiş etdirmədən və heç bir tələfata mə'ruz qalmadan bir gün ərzində Müslimin ətrafından dağıldı, belə ki, o, axşam namazını qıldıqdan sonra ətrafında bir nəfərin belə olmadığını müşahidə etdi. Nəhayət Müslimin gizləndiyi yeri hakimə mə'lumat verdilər. Müslim yaxalandıqdan sonra Ubeydullahın göstərişi ilə Hani ilə birgə öldürülərək başsız bədənlərini Kufə bazarlarında yerlə sürüdülər. Kufənin başçıları .evlərinə elə soxulmuşdular ki, guya heç bir hadisədən xəbərləri yox idi

Hüseyn (ə) yolda olarkən Müslimlə Haninin ölüm xəbərini, həmçinin Kufə camaatının öz əhdlərinə vəfasız olduqlarını eşitdi, bu xəbəri onu müşayiət edən yoldaşlarına da yetirdi. Və onları yolu davam etdirməkdə və ya ondan ayrılmaqda azad buraxdı. Bir dəstə adamın geri dönməsinə baxmayaraq, yaxın qohum-əqrəbası ilə bir neçə imanlı yoldaş və sirdaşları onunla qalmışdılar. İmam Kufəyə yaxınlaşan zaman Ubeydullahın keşikçi qoşunu ilə üzləşdi. Bəni Riyah qövmindən olan qoşun başçısı Ziyadın oğlu Hürr İmamın yolunu kəsərək nəhayət onları Kərbəla adlı ərazidə dayandırdı. Kufənin hakimi İmamın Kufəyə yaxınlaşmaq xəbərini aldıqdan sonra Sə'd ibni Əbi Vəqqasın oğlu Ömərin başçılığı ilə daha bir qoşun onun üzərinə göndərdi. Ubeydulah Hüseyndən (ə) .Yezidə bey'ət etməsini istəyirdi, lakin İmam qəbul etməyib döyüşə hazırlaşdı

## KƏRBƏLA FACİƏSİ VƏ ONUN TƏ'SİRLƏRİ

Hicri tarixinin ٦١-ci ili Məhərrəm ayının ١٠-u bir neçə saat müddətində baş verən

mübarizədə imam Hüseyn (ə) və onunla birgə olan kişilər və

səh:۱۵۴

cavanlar şəhid edildilər. Qadınlar və imamın yetkin yaşa dolmayan övladları əsir edilərək Kufəyə, oradan da Şama yollandılar. Yalnız xəstə halda olan əli ibni Hüseyni .(ə) öldürmədilər

Bu acınacaqlı faciə başdan-başa İslam dünyasında narazılığa səbəb oldu, hətta Əməvilərin tərəfdarları belə, keçirdikləri təəssüf hissini gizlədə bilmədilər. Bu vaxt Məkkədə yaşayan Zübeyrin oğlu Abdullah bu fürsətdən istifadə edərək Kərbəla faciəsini əldə əsas tutub Yezidi məzəmmət etməyə başladı. İraqlıları xəyanətkar, əhd-peymanı pozan adlandırıb camaatın onunla bey’ət etməsini istədi. Ubeydullahın mə’murlarının sərt nəzarətinə baxmayaraq, Kufə əhalisi də əks-əməl göstərdi. Ubeydullah mənbərdə Yezidi və onun nəslini tərif edib imam Hüseynə (ə) və atalarına nalayiq sözlər dediyi zaman Əzd qövmündən olan təqvalı, özü də kor olan Abdullah ibni Əfif ayağa qalxıb onun sözünü kəsdi. Peyğəmbərin (s) ailəsinə verdiyi söyüşləri onun özünə, bir də onu buraya hakim tə’yin edənə qaytardı. Dövlət məmurları onu susdurub tutmaq istədikdə Əzd tayfası onu himayə etmək üçün ayağa qalxdı və .onlarla hakimin məmurları arasında toqquşma baş verdi

Bu il Mədinənin hakimi Utbə ibni Əbu Süfyanın olmasına baxmayaraq şəhər sakit oturmamışdı. Təbəri bu şəhərdə vəziyyətin sakit olmamasına dair bir şey yazmamışdır. Lakin iki il ərzində üç dəfə hakim dəyişikliyinin baş verməsi şəhərdə .vəziyyətin qeyri-sabit olmasını yetirir

Təbəri yazmışdır: “Zübeyrin oğlu Abdullah Mədinənin hakimi Vəlid ibni Utbənin əxlaqının kobud olmasından Yezidə şikayət etmiş və ondan oraya mülayim əxlaqlı bir hakim göndərməsini tələb etmişdir. Yezid də Osman ibni Məhəmməd ibni Əbi Süfyanı o şəhərə hakim yollamışdı. Ancaq inandırıcı deyildir ki, belə bir vəziyətdə Abdullah Yezidə Mədinənin hakimini dəyişmək məsələsinə dair məktub yazmış olsun. Həqiqətə uyğun gələn budur ki, Yezid cavan şahların yolu ilə gedərək təcrübəli kişiləri iş başına qoymaq istəmirdi. Bu səbəbdən də yeniyetmə cavanları hakim tə’yin edir, onlar da .xalqı lazımınca tanıya bilmir və hökumətin idarə olunmasında çətinlik çəkirdilər

.Təbərinin yazdığına əsasən Osman da yeniyetmə və təcrübəsiz cavan idi

Hər halda səbəb nə olsa belə, yeni hakimin qədəmləri onun özünə və şəhərin əhalisinə

düşərli olmadı. Güman etdiyi kimi özünün bacarıqlı olduğunu göstərmək, Mədinə .böyüklərini razı salmaq və hakimin olduğu ərazini sakit saxlamaq istədi

Mühacir və ənsar övladlarının bir dəstəsini cavan xəlifənin yanında görüb, onun bəxşiş .və mərhəmətini qazanmaq üçün Dəməşqə yolladı

Yazdığımız kimi Yezid dini tərbiyə görməmiş, ümumiyyətlə adicə ailə tərbiyəsi almamışdı. Bundan əlavə, belə bir hakimiyyətin xüsusiyyəti də budur ki, yaşlı və təcrübəli adamlar onun ətrafını boş qoyub gedər, əvəzində yaltaq, sərvət toplayan .cavanlar yığışaraq onun dediyi hər bir sözə, etdiyi hər bir əmələ afərin deyərlər

Yazılarda onun rumlu müşaviri Sərcunun da adı çəkilir. Görəsən xaçpərəst olan bu adam zahirdə müsəlman xilafəti sayılan Yezidin hakimiyyətində nə məqsədlə çalışırdı? !Allah bilir

Lakin bir şeyi tam qətiyyətlə demək mümkündür ki, Yezid geniş əraziyə malik müsəlmanların əhatə dairəsini idarə etməkdə aciz idi. Peyğəmbər nəvəsindən bey’ət alınmasında tələskənlik etməsi, ۶۱-ci il Məhərrəm ayında elə bir faciə törətməsi, ən dəhşətlisi isə Peyğəmbər ailəsini əsir edib Kufəyə, oradan da Şama aparması, bütövlükdə bunların hamısı onun təcrübəsiz, bəlkə də ağılsız bir insan olduğunu .göstərir

Ən pisi bu idi ki, Mədinənin hakimi ənsar və mühacir övladlarını onun yanına göndərdiyi zaman, Yezid onları elə qarşıladı ki, guya onun tay-tuşlarını və ya uşaqlıq dostlarını yanına gətiriblər. Əgər onun azacıq da olsa ağlı və ya təcrübəli müşavirləri olsaydı, qonaqlar sarayda olan müddətə qədər gərək düşünülmüş surətdə rəftar etmiş olaydı. İslam ayininə əks olan hərəkət etməməli, zahirdə də olmuş olsa özünü dinə bağlı .müsəlman kimi aparmalı idi. Lakin onun nə dindən xəbəri var idi və nə də xalqdan

Mədinə şəhəri İslam Peyğəmbəri (s) oraya köçdükdən sonra İslam hökumətinin paytaxtına çevrilmişdi. Ora Peyğəmbər (s)-dan sonra hicri tarixinin ۳۵-ci ilinədək xilafət mərkəzi olmuş və xəlifələrin üçü də bu şəhərdə yaşamışdır. Əli (ə) paytaxtı və hökuməti Kufəyə köçürməsinə baxmayaraq, Mədinə yenə də öz dini və elmi rövnəqini əldən verməmişdi. Mühacir və ənsardan olan bir dəstə, böyük şəxsiyyətlər orada yaşayaraq dünyalarını dəyişmiş və onlardan sonra övladaları onların yerini tutmuşdular. Hicrətin ilk çağlarında təqva və pərhizkarlıq dalğası şəhəri bürümüş və .az-çox hələ də davam etməkdə idi

Yezid bu camaatı tanımalı, öz rəftarlarına fikir verməli idi. Lakin o, belə etmədi. Deyəsən elə bu günlər idi ki, meymuna paltar geyindirib ulağa otuzduraraq atlarla yarışa göndərmişdi. Hər halda bu hadisə onun başıboşluğunu çatdırır. Məs'udinin yazdığına görə Yezidin yaramaz bir meymunu var idi, şərab içən zaman saraya daxil .olaraq balışa söykənərdi. Bu meymunun da əhilləşdirilmiş bir vəhşi ulağı var idi

Günlərin bir günündə meymunu ulağa mindirib atlarla yarışa çıxmağa göndərdi və o atları ötərək müsabiqənin qalibi oldu. Şam şairlərindən birinin yazdığı şe'rin məzmunu :belədir

Əbu Qeys, ulağın noxtasından bərk tut

.Çünki onun üstündən yıxılsan ona heç bir cərimə yoxdur

Kim indiyəcən görüb ki, vəhşi bir ulaq

.Meymunu əmirəl-mö'minin atlarından qabağa salmış olsun

Deyilənlərə görə bu şe'rləri Yezid özü yazıb, bəlkə də bu ehtimal doğrudur, çünki Ğərsün-nə'mə ibni Hübeyrə ilə Ziyad ibni Ubeydi Harisi arasındakı baş vermiş danışığa :həsr etdiyi hekayənin sonunda belə yazır

Ziyad deyir: "Mərvanın yanına gedərkən o, məndən soruşdu ki, səninlə ibni Hübeyrə arasındakı danışığın məzmunu nədən ibarət idi?" Cavab verdim ki, görəsən meymunun ləqəbi Əbu Qeysdir, yoxsa Əl-yəmən." Mərvan gülərək dedi: "Doğrudur, ".məgər əmirəl-mö'minin "Əbu Qeys, ulağın noxtasını möhkəm tut" deməyibmi

Yezid Mədinədən gəlmiş nümayəndələrə hörmət göstərib onlara saysız-hesabsız hədiyyələr bağışladı. Hətta onlardan birinə (Munzər ibni Zübeyrə) yüz min dirhəm verdi. Lakin onun ləyaqətsizliyi və alçaq tərbiyəsi qonaqlara gizlin qalmadı. Onlar öz şəhərlərinə qayıtdıqdan sonra Peyğəmbər məscidində fəryad edərək Yezid haqda yaramaz sözlər danışmağa başladılar. Və onlar "biz dini olmayan, şərab içən, it oynadan, gecələri kənizlər və musiqiçilərlə keçirən bir şəxsin yanından gəlirik" dedilər. .(Sizi şahid tutaraq onu xilafətdən azad etdik (yə'ni xəlifə hesab etmirik

Şəhər əhalisi Abdullah ibni Hənzələ (mələklər vasitəsilə yuyulan) ilə bey'ət edərək bəni Uməyyədən olan min nəfəri ilk olaraq Mərvan ibni Həkəmin evində mühasirəyə aldılar və sonradan onları şəhərdən qovdular. Bu çətin və ağır günlərdə Mərvan Abdullah ibni Ömərin yanına gedib onun ailəsini öz yanında saxlamasını istədi, ancaq Abdullah qəbul etmədi. Mərvan onun himayəsindən mə'yus olaraq Əli ibni Hüseynin (ə) yanına gedib ona dedi ki, mənim də ailəm sənin ailənlə bir yerdə olsun. Əli ibni Hüseyn (ə) onun

xahişini özünəməxsus bir böyüklüklə qəbul edib Mərvanın yaxın adamlarını özünün xanımı və övladı ilə birgə Yənbu’ adlı bir yerə göndərdi. Mərvan daim bu yaxşılıqdan :razılıq edirdi. Lakin Təbəri yazır ki

Əli ibni Hüseynlə (ə) Mərvanın qədimdən dostluq əlaqələri var idi.” Əlbəttə bu sözün heç bir əsası yoxdur. Mərvan heç bir zaman Bəni Haşimlə xoş rəftar etməmişdir. Deməli, onunla Əli ibni Hüseyn (ə) arasında dostluq münasibəti olmamışdır. Təbəri Haşimi ailəsinin malik olduqları səxavətə göz yumaraq, onu yalnız şəxsi dostluqla .əlaqələndirmək istəmişdir

Mədinə əhalisinin iğtişaş xəbəri Yezidə çataraq onu həddən artıq hiddətləndirir. İlk olaraq bu şəhərin və Məkkənin işini Zübeyrin oğlu Abdullaha, qiyamı yatırtmaq məsələsini də Ubeydullah ibni Ziyada tapşırmaq istəyir, Ubeydullah qəbul etməyib dedi: Bir fasiqdən ötrü Hüseynin qətlini və Kə’bə evinin ehtiramsızlığını öz üzərimə .götürə bilmərəm

Əgər bu sözlər özgələrinin deyil, həqiqətən Ubeydullahın öz dedikləri olmuş olsa, onda demək lazımdır ki, o, Yezidə nisbətən uzaq görən olub. Çünki o, bilirdi ki, Süfyani ailəsinin hakimiyyəti artıq sona yetməkdədir; hər halda o, heç də günahdan qorxan adam deyildi. Yezid bu tapşırıqı Əmr ibni Səidin – Mədinənin keçmiş hakiminin öhdəsinə qoymaq istədi, lakin o da qəbul etməyib belə dedi: “Mən əlimi Qüreyşin ”.qanına batırmaq istəmirəm, bu işi qoy yad bir adam öz üzərinə götürsün

Yezid çarəsizlikdən qoca və xəstəlikdən yataqda yatan Müslim ibni Uqbəni qoşunla birgə Mədinəyə yolladı. Müslim şəhəri mühasirəyə alıb Hərrə Vaqim tərəfdən şəhərə daxil oldu. O, əhaliyə üç gün möhlət verəcəyini söylədi. Əlavə olaraq dedi: “Əgər təslim olsanız buradan birbaşa Məkkəyə, Zübeyrin oğlunun üzərinə gedəcəm, yox əgər ”.təslim olmasanız məni üzürlü hesab edin

Şəhər əhalisi müqavimət göstərsə də nəhayət məğlub edilərək təslim oldular. Müslim şəhəri üç günlüyə qan içən Şam ordusunun ixtiyarına qoydu ki, ürəkləri nə istəsə onu .da etsinlər

Allah bilir neçə dindar və təqvalı kişilər öldürülüb, neçə qadın və qızlara təcavüz edilib, saysız-hesabsız hörmətsizliklər olundu! Bu faciədən yalnız bir şey anlaşılır ki, bu yürüşdə həm göstəriş verənlər, həm də icra edənlər İslam fiqhindən xəbərsiz idilər, mə’lumatları olan şeylərə də biganə yanaşırdılar. Hər iki halda bu nəticəyə gəlmək olar ki, İslam onlar üçün ilahi hökmləri icra etmək deyil, öz qüdrətlərini qorumaq üçün bir

alətə çevrilmişdi. Təəccüblü burasıdır ki, Mədinə faciəsi sona yetdikdən sonra Müslim dedi: "İlahi, Sənin təkliyinə və Məhəmmədin (s) peyğəmbərliyinə verdiyim şəhadətdən sonra Mədinə əhalisinin qırğınına səbəb olan işdən başqa heç bir işi sevmirəm və

qiyamətdə bu işin müqabilində veriləcək əvəzdən başqa heç bir işin savabına göz ”.dikməmişəm

Bilmirəm bu sözləri o şəxsən özü deyib, yoxsa Əməviləri gözdən salmaq üçün Abbasilər dövründə yaşamış tarixçilər yazıblar. Həqiqətən bu sözlər onundursa (özünün deməsi də mümkündür), görəsən bu şəxs həzrət Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət verməyini dilə gətirməklə yanaşı müsəlmanların kütləvi surətdə qırılmasını necə bir yerə sığışdıra bilib? Görəsən Yezidin əmrinə tabe olmaq hər hansı şəriət hökmünün yerinə yetirilməsinə, başqa bir hökmün isə ləğv ?olunmasına səbəb ola bilərmi

Bu yaramaz hadisə hicrətin ۶۲-ci ilində baş vermişdir. O, Yezidə göstərdiyi bu .“xidmətə” görə tarixdə “müsrif” ləqəbi almışdır

Nəhayət şəhərin yerdə qalan əhalisini toplayıb onlara, ölüm və ya şərtsiz olaraq Yezidə qul olmaq ixtiyarını verdi. Bir neçə nəfər onun bu şərtini qəbul etməyib .öldürüldülər, başqaları isə onunla bey’ət etdilər

İmam Əli ibni Hüseyn (ə) bu hadisələrdə sağ qaldı. Bir tərəfdən onun bu iğtişaşda əli olmamış, digər tərəfdən isə, hadisələrin başlanğıcında Mərvan ibni Həkəm onun yanına gedib ailəsini qorumağı xahiş etmiş, İmam da onun xahişini böyük bir .mərdanəliklə qəbul edib onları Yənbuya göndərmişdi

Hərrə hadisəsində Əli ibni Hüseyn (ə) Əbd Mənaf sülaləsindən olan ۴۰۰ ailəni öz .himayəsinə götürmüş, Müslim Mədinədən çıxana qədər onların xərcini ödəmişdi

İslam dünyasında misli görünməmiş belə bir hadisə, yə’ni kişi və qadınların kütləvi surətdə öldürülməsi, müsəlmanların toxunulmazlığının tapdalanması şəhər əhalisində böyük bir dəyişikliyə səbəb oldu. Dini qayda-qanuna və İslam əxlaqına əhəmiyyət verməyən dövlətlilər şərab içməyə və musiqiyə qulaq asmağa üz tuturdular. Demək olar ki, onlar bu haram işləri daxili əzabdan qurtarmaq və ətraflarında baş verən .hadisələrdən xəbərsiz olmaq üçün edirdilər

## Kə’BəNİN VİRAN EDİLMəSİ

Mədinə hadisəsindən sonra Müslim Zübeyrin oğlu Abdullahı məhv etmək üçün Məkkəyə yollandı. Lakin o, yolda vəfat etdi və Hisəyn ibni Numeyr qoşuna rəhbərlik etməyi öz üzərinə götürdü. Hisəyn Məkkəni mühasirəyə aldı. Mühasirədə Kə’bə evini od bürüdü. Bu yanğının baş verməsini müxtəlif səbəblərlə əlaqələndirirlər. Məkkə mühasirə günlərini yaşadığı zaman Yezidin ölüm xəbəri çatdı. Şam qoşunun başçısı kim üçün vuruşacağını bilməyib Zübeyrin oğluna xəbər yetirdi ki, onun

bey’ətini qəbul edir, ancaq o, onunla birgə Məkkədən Şama getməlidir. Əgər hakimiyyəti möhkəmlənsə onunla işim yoxdur, yox əgər belə olmazsa elə oradaca Şam əhalsinin köməyi ilə onun işini bitirəcək. Abdullah bəlkə də xilafət mərkəzinin Şamda qalmasına görə onun də’vətini qəbul etmədi və Hisəynin qoşunu Mədinədə .yaşayan Əməvilərlə birgə Şama qayıtdı

Yezid hicrətin ۶۴-cü ili Rəbiül-əvvəl ayında ۳۸ yaşında ikən öldü. Onun hakimiyyəti dövründə Səlm ibni Ziyad Səmərqəndə və Xocəndə qədər irəlilədi, qərbdə də .müsəlmanların fəthləri davam edirdi

Yezid öldükdən sonra şamlılar onun oğlu Müaviyə ilə bey’ət etdilər. Müaviyənin hökuməti ۴۰ gündən artıq sürmədi, çünki o, evdə oturmağı xilafətdən üstün sayırdı. O, xütbəsinin birində Müaviyə və atası Yezidin rəftarını pisləmiş, daha sonra ağlayaraq belə demişdi: “İstədiyiniz şəxsi özünüzə xəlifə seçin.” Bu xütbədən sonra evə dönüb, .əhalidən özünü gizlətdi. Elə həmin il də öldü və ya zəhər verilərək öldürüldü

Yezidin ölümü ilə Ərəbistanda iğtişaşlar baş qaldırdı. Ötən fəsildən də göründüyü kimi, Müaviyə ölən zaman Şamda sakitlik hökm sürdüyü halda Hicazda nigarançılıq mövcud idi. Yezidin isə əleyhinə yalnız İraq qalxmışdı. Lakin Yezidin ölümündən sonra Hicazda və Şamda da vəziyyət dəyişdi. Hər üç əyalətin narazı təbəqəsi ayağa qalxdı. Hər əyalətin öz istəyi var idi, qiyamçı dəstələr öz gizlin istəklərini üzə çıxarmırdı. İndi də .Şam və Hicazdan qabaq yenidən İraqdakı vəziyyəti araşdıraq

## İRAQDA PEŞİMAN OLANLAR

Göründüyü kimi, şamlıların iraqlılara birbaşa zərbəsini, üzərilərindəki qələbələrini və sonuncu məğlubiyyəti nəzərə alsaq, onların nə dərəcədə peşiman olmaları mə’lum olar. Çünki onlar böyük rəğbət və tə’kidlə imam Hüseyni (ə) çağırıb onun canişinini məhəbbət və həyacanla qəbul etdikdən sonra onu düşmənlə döyüşdə tək qoydular və ən başlıcası isə İraqın Şam qarşısında xar olması bu ölkənin əhalisinin daxili hisslərində nigarançılıq yaratmışdı. Kufə əhalisi Yezidin ölüm xəbərini eşidən kimi təzə nəfəs almaq üçün fəaliyyət göstərməyə başladı. Onların içərisindən şəxsən İmamı də’vət edən və onu düşmənlə döyüşdə yalqız qoyanlar böyük günah etdiklərini anlayırdılar. !?Ancaq bu günahı necə yumaq olardı

Xuzaə qövmündən olub şiələrin ağsaqqalı sayılan Süleyman ibni Sərd dedi: Biz bu günah vasitəsi ilə Allahı qəzəbləndirmişik. Heç kəs Allahı

razı salmamış öz arvad-uşağının yanına dönməsin. Biz Musanın (ə) xitab etdiyi bəni :İsrail qövmindən də pis olmuşuq

Ey qövmüm, siz buzova sitayiş etməklə, həqiqətən özünüzə zülm etdiniz. Buna görə“ də yaradanınıza tərəf üz tutaraq tövbə edin, özünüzü (buzovu tanrı bilən adamlarınızı) ”!öldürün! Belə etməniz yaradanızın yanında sizin üçün xeyirlidir

Təbərinin və başqalarının yazdığına əsasən qiyam məsələsinə dair peşiman olanlar içərisində Süleymanla digərləri arasında ixtilaf meydana gəldi. Süleyman deyirdi ki, Şama gedib imam Hüseynin (ə) qatili olan Ubeydullah ibni Ziyadı öldürmək lazımdır. Başqaları isə Hüseynin (ə) qatillərinin Kufədə yaşadığını deyib, ilk növbədə onların öldürülməsini istəyirdilər. Süleyman imam Hüseynin (ə) intiqamını almaq fəryadı ilə car çəkərək öz adamlarını başına toplayan zaman on altı min nəfərlik qoşundan yalnız .dörd min adam onun ətrafına yığışmışdı

Əbu Mihnəfdən nəql olunur ki, o, bunun səbəbini soruşduqda dedilər: “Sənin ”.köməkçilərinin bir dəstəsini Muxtar öz ətrafına toplamışdır

Süleyman Əynülvərdəyə qədər irəlilədi Mərvan ibni Həkəm Ubeydullah ibni Ziyadı ”.onunla döyüşə göndərib dedi: “Əgər İraqı əldə etsən, oranın hakimi olacaqsan

Süleyman Ziyadın oğlu ilə döyüşdə məğlub oldu, peşimanlıq çəkənlər bu dəfə də bir .(nəticə əldə edə bilmədilər (۶۵-ci il Cəmadiul-əvvəl ayı

Bu hadisələr zamanı şiələrdən bir nəfəri həddən artıq məşhurlaşdı və və öz adını İslam .tarixində əbədi olaraq səbt etdi

## ƏBU UBEYDƏ SƏQƏFİNİN OĞLU MUXTAR

Muxtar, qoşun imam Həsən (ə) üzərinə hücum edərkən yaralanmış, sonra isə Mədain şəhərinin hakimi, yə’ni əmisinin evinə getmişdi. Yezidin xilafəti zamanı Kufənin hakimi Ubeydullah ibni Ziyad onu Müslim ibni Əqillə əlbir olduğuna görə zindana salmışdı. Lakin çox keçmədən onun bacısını almış Abdullah ibni Ömərin vasitəçiliyi ilə zindandan azad edilib Taifə sürgün olunmuşdu. Yezidin ölümündən və Zübeyrin oğlu Abdullahın qiyamından sonra onunla bey’ət etmişdi. Bu zaman İraqda vəziyyət yeni bir partlayış

həddində idi; bir tərəfdən rəhbərlik, digər tərəfdən isə əhli-beytin qatillərindən intiqam almaq iddiasında olan Muxtar Kufəyə gəldi. Şiələri ətrafına toplayıb onlara dedi: "Süleyman nə siyasi cəhətdən, nə də müharibə etmək baxımından düzgün fikrə malik deyildi və elə buna görə də məğlub oldu." Həmçinin onlara dedi ki, hər şeydən əvvəl .imam Hüseynin (ə) qatillərini aradan götürmək lazımdır

Bildiyiniz kimi, bütövlükdə iraqlılar, xüsusilə də qiyamçılar bu dövrdə Peyğəmbər ailəsinə mənsub olan bir rəhbərə ehtiyaclı idilər. Muxtar öz mövqeyini möhkəmləndirmək üçün əvvəlcə Əli ibni Hüseyndən (ə) qoşun toplamaq və bu qiyamı onun adı ilə bağlamaq üçün rüxsət istədi. Ancaq Əli ibni Hüseyn (ə) onun bu də’vətini qəbul etməsə də, zahirən atasının və qohum-əqrəbasının qatillərini cəzalandırılmasından razılıq hissi keçirirdi. Muxtar Əli ibni Hüseyndən (ə) müsbət cavab almadıqda öz də’vətini Məhəmməd ibni Hənəfiyyənin adı ilə bağlayaraq onu ümmətin Mehdisi adlandırdı. Məhəmməd Hənəfiyyənin imamətinə boyun qoyanlar .Kisaniyyə adı ilə məşhurlaşmışlar

Kisaniyyə məzhəbi bu tarixdən meydana çıxmış və şiə tarixində çoxlu sayda tərəfdarları olmuşdur. “Kisan” nə deməkdir və hansı mə’nanı daşıyır? Mə’lum deyil “kəyyis” – zirənk və ya qəddar sözündən düzəlmiş sifətdir, yoxsa Muxtara verilən ali – Əlinin (ə) qulluqçusu deməkdir. Qeyd edildiyinə görə Əli (ə) Muxtarı dizi üzərində oturdaraq ona kəyyis, yə’ni zirənk (bacarıqlı) dediyinə görə o bu ləqəblə adlandırılmışdır. Mə’lumdur ki, bu fərziyyənin heç bir əsası yoxdur. Hər halda Muxtar haqqında bir çox nəzər və rə’ylər mövcuddur. Belə ki, şiə alimləri onun barəsində eyni fikirdə deyillər. Dövrün son şiə alimləri onu həddən artıq mədh (tə’rif) etmişlər. “Əl-ğədir” kitabının müəllifi onun tə’rifində ٢١ kitab və məcmuə yazıldığını qeyd etmiş, həçminin onun şə’ninə yazılmış qəsidələri də sitat olaraq gətirmişdir. Muxtarı yüksək dəyərləndirənlər onun Abdullah ibni Zübeyrlə etdiyi sazişdə uzaqgörən olması ilə əlaqələndirir, həmçinin qiyam etməsinin Peyğəmbər ailəsinə bəslədiyi məhəbbətdən irəli gəldiyini hesab edirlər. Bu gün onun məzarı Kufə məscidinin şərq tərəfində yerləşən bir ziyarətgaha çevrilib. Bununla belə demək olmaz ki, o, rəhbərlik iddiasında olmayıbdır. Deyilənlərə görə o, xalqı öz tərəfinə çəkib əldə saxlamaq üçün bir sıra heyrətdoğurucu işlər görərmiş. Təbəri və ibni Əsir öz istinadlarına əsasən yazırlar ki, Tüfeyl ibni Cə’də ibni Hübeyrə deyir: “Mən ağır bir sıxıntı içərisində həyat sürdüyüm halda yağ alveri ilə məşğul olan qonşumun yanına getdim. Orada toz-torpaqlı bir kürsü gördüm və onu qonşumadan alıb təmizlədim. Öz-özümə dedim: Bəlkə Muxtarı aldada bilib ondan bir şey qoprtdım.” Onun yanına gedərək dedim: “Mənim illər boyu səndən gizli saxladığım bir sirrim var. Əlinin (ə) Kufə məscidində üzərində əyləşərək xalq arasında hökm etdiyi kürsü məndədir.” Muxtar dedi: “Sübhanallah, belə böyük bir işi bu

günə qədər necə olub ki, məndən gizlətmisən?” Sonra əmr edir ki, xalqı məscidə çağırsınlar. Camaat toplaşdıqdan sonra Muxtar dedi: “Camaat sizdən

əvvəlki ümmətlərdə olan hər bir şey sizdə də mövcuddur. Bu kürsü sizin üçün bəni İsrailin Səkinə tabutu kimidir. Əgər bu kürsü qoşunun önündə olsa düşmənə məğlub ”.olmayacaqsınız

Allah bilir bu əfsanələri Zübeyrin oğlu Abdullahın tərəfdarları, ya da xalqın ona olan .məhəbbətini qırmaq istəyən düşmənlər söyləyib

Dəfələrlə qeyd etdiyimiz kimi, hicri tarixinin birinci və ikinci əsrinə aid olan tarixi rəvayətləri yalnız qəti sənədlər əldə etməklə qəbul etmək olar. Belə olmayan halda onlara şübhə ilə yanaşmaq lazımdır. Çünki hər əsrdə olduğu kimi, o illərdə də işlərin .irəliləməsi üçün iftira, töhmət və yalançı hədislər ən çox yayılmış vəsitələrdən sayılırdı

Hər halda Muxtar şiələri ətrafına toplayaraq ilk növbədə Kufəni ələ keçirdi, sonra isə hakimiyyətini Mosula qədər genişləndirdi. İmam Hüseynin (ə) qatillərini bir-bir tapıb öldürdü. O cümlədən Ubeydullah ibni Ziyad, Ömər ibni Sə’d, Şimr, Xuli və başqalarını .da qətlə yetirdi

Muxtar özündən əvvəlki hakimlərdən fərqli olaraq şəhərin böyük adamlarından və qəbilə başçılarından deyil, bu illər ərzində İraqda qüdrətlənmiş, bir çox ictimai problemlər meydana çıxarmış, İslam dinini yeni qəbul etmiş camaatdan köməklik diləyərək onları ətrafına toplayır və qüdrət sahiblərinə qələbə və’dəsini verirdi. Onun bu addımı Kufə ağsaqqalları arasında narahatçılığa səbəb oldu və ona qarşı ürəklərində kin-küdurət hissi oyatdı. Mus’əb ibni Zübeyr qardaşı Abdullah tərəfindən Muxtarın qoşununu darmadağın etmək üçün İraqa üz tutanda bu adamlar ona .yardımçı oldular

Muxtarın qoşunu Zübeyrin oğlu ilə döyüşməyə başlasa da sonda məğlub oldu və Muxtar da ۶۷-ci hicri ilində öldürüldü

Göründüyü kimi, şiələr bu dəfə də bir nəticə əldə edə bilmədilər. Onların məğlubiyyətinin əsas səbəbini ötən qiyamlarda da gördük. Həmişə kiçik bir dəstə Allahın razılığına görə ayağa qalxır, başqa dəstələr isə öz siyasi amallarına çatmaq üçün onların arxasında dayanırdılar. Onlar da təhlükəyə düçar olmayacaqları ana qədər müqavimət göstərirdilər. İş çətinliyə düşdükdə isə ya kənara çəkilir, ya da qəti

qələbə əldə edən dəstəyə birləşirdilər. Allah razılığını əldə etmək istəyən və dinin adını .yüksəltməkdən başqa bir şey güdməyən iman sahiblərini ölümə verirdilər

İslam tarixi və xüsusilə də hicrətin birinci yüz illiyinin tarixi ilə tanışlığı olanlar yəqin ki, Şəbəs ibni Rəbə’inin adını eşitmişlər. Şəbəs siyasətçilərin ən kamil nümunəsi, tam dəqiqliyi ilə desək, o dövrün nəbzini tutan şəxslərdən olmuşdur. O, bəni Təmim tayfasından, Muzəri ərəblərindən və peyğəmbər dövrünü yaxşı görmüş adamlardan ,idi. O

Peyğəmbərin (s) həyatının son dövrlərində, Əbu Bəkrin xilafətinin ilk çağlarında, Səcahın peyğəmbərlik iddiası etdiyi və Əbu Bəkrin dindən çıxmışlara qarşı mübarizə apardığı zamanda müsəlmanların cərgəsinə qoşulmuşdu. O, həmçinin Osmanın evini mühasirəyə alan iğtişaşçıların arasında olmuş, Siffeyn döyüşündə Əlinin (ə) dəstəsinə qoşulmuşdu. Müaviyənin ölümündən sonra imam Hüseynə (ə) məktub yazıb də'vət edənlərdən biri də Şəbəs idi. Sonra o, Ömər ibni Sə'din qoşunu ilə Kərbəlaya gəldi və imam Hüseynin (ə) qətlə yetirilməsində iştirak etdiyinə görə Kufə şəhərinin darğası vəzifəsinə yiyələndi. Muxtar Hüseynin (ə) intiqamını almaq üçün qiyam edəndə Şəbəs də ona qoşuldu. Lakin Mus'əb Muxtarla müharibəyə gələn zaman o, yenidən Muxtara [düşmən kəsilir və müxalif dəstənin cərgəsinə qoşulur.[١

Bu illər ərzində öz əqidə və siyasəti yolunda mütəşəkkil surətdə çalışan, demək olar ki, yalnız Xəvaric olmuşdur. İraqda hakimiyyət zəifləyən dövrlərdə onlar öz hərəkatlarını genişləndirərək Bəsrəyə, cənub-şərqi İraqdan Xuzistana, Bəhreynə, Yəmənə və .Həzrə-Mauta qədər yayılmışlar

İraqdakı siyasi durum haqda qısa da olsa mə'lumat verdikdən sonra Hicaz və Şam .haqqında da söhbət açacağıq

Ərəbistanın İslamdan əvvəlki tarixi haqda mə'luamt verən zaman qeyd etdik ki, bu ərazinin əhalisi ayrı-ayrı qəbilə və tayfalara bölünmələrinə baxmayaraq, onlar əsasən iki dəstəyə - cənub ərəbi, şimal ərəbi və ya Qəhtani və Ədnani dəstələrinə bölünmüşlər. Qəhtanilər yarımadanın cənub üçbucağında yaşayır, Ədnanilər isə şimal .və səhrada məskunlaşmışdılar

Qeyd etdiyimiz kimi, İslamın zühurundan bir çox əsrlər əvvəl su səddinin dağılması və digər səbəblər üzündən cənubdakı ictimai həyat bir-birinə dəymişdi. Bu ərazidən bir çox dəstələr şimala tərəf üz tutaraq yaşayışları üçün münasib hesab etdikləri yerlərdə məskunlaşmışlar. Su quyuları və kəhrizləri olmasına görə Yəsribi özləri üçün yaşayış .yeri seçənlər də elə bu dəstə, yə'ni cənub ərəbləri olmuşlar

Göründüyü kimi, İslama də'vət ilk olaraq Məkkədə başlamışdı. Şəhərin hakimiyyəti tacirlərin və Ədnani ağsaqqallarının əlində idi. Sevimli Peyğəmbərimiz ١٣ il bu camaatın müxalifəti ilə üzləşmiş və sonda Yəsrib əhalisi saziş imzalayıb onu öz şəhərlərinə

də’vət etmişlər. Elə bu tarixdən Yəsrib camaatı ənsar ləqəbini almış, Məkkədən Yəsribə gələnlər isə mühacir adlanmışlar. Mühacirlərin əksəriyyəti Ədnani tayfasından və ya şimal ərəblərindən ibarət olmuşdur. Məkkəni tərk edib Yəsribdə məksunlaşmış bir dəstə camaat bir tərəfdən İslam dininin

tərbiyəsinə görə, digər tərəfdən də hicrətin ilk aylarında Peyğəmbərin (s) onların arasında bağlamış olduğu qardaşlıq müqaviləsinə əsasən uzun illərdən bəri bu iki dəstə (Ədnani, Qəhtani) arasında mövcud olan kin-küdurət və düşmənçilik sakitləşdi. Ancaq nəsildən-nəslə irs olaraq ötürülən və yüz illər boyu davam edən bu düşmənçiliyin birdən-birə məhv olub getməsi heç də mümkün olmazdı. İslam tarixinə diqqətlə nəzər saldıqda görərik ki, hətta Peyğəmbərin (s) sağlığında belə, onlardan bə'ziləri münasib fürsət düşdükcə öz üstünlüklərini gözə soxur və biri digərindən intiqam almaq hissi ilə yaşayırdı. Məkkənin fəthi günü Xəzrəc qəbiləsinin rəhbəri Sə'd ibni Ubadə öz camaatının önündə irəliləyərək uca səslə belə deyərdi: "Bu gün qanlar tökülməli, bütün hörmət və ehtiram sındırılmalıdır." O, təsəvvür edirdi ki, bu gün Qəhtanilər Ədnanilərdən öz intiqamını almalıdır. Lakin Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Get bayrağı Sə'din əlindən al və onun nalayiq sözlər söyləməsinə mane ol! Bu .gün mərhəmət günüdür

Peyğəmbər (s) zamanı Ərəbistanın son daxili döyüşü olan Hüneyn müharibəsindən sonra o həzrətin nüfuzu bir neçə il müsəlmanlar üzərində genişlənmişdi. Sevimli Peyğəmbərin vəfatından sonra onun vəsiyyətinə diqqət yetirilsəydi, Əmirəl-mö'minin Əli (ə) xəlifə olmaqla Peyğəmbər sünnəsini diri saxlayar, keçmiş nəsil öz yerini yeni nəslə verər və ən azı üç nəsil müsəlman əxlaqı ilə tərbiyələnərdi. İctimai ədalət, dini qardaşlıq və İslam tə'limləri sayəsində bu kin-küdurət və düşmənçiliyin kökü quruyardı. Ancaq təəssüflər olsun ki, dağınıq halda yaşayan qəbilələr kin-küdurəti kənara qoyub bir-birlərilə döyüşdüklərinin lüzumsuz olduğunu və Mədinədə tə'sis edilmiş ilahi hökumətə itaət etməyi anladıqları zaman sevimli Peyğəmbərimiz öz Rəbbinə qovuşdu (vəfat etdi). Peyğəmbərin (s) bədəni hələ torpağa tapşırılmamış ənsar mühacirlər müqabilində, daha doğrusu Qəhtanilərlə Ədnanilər qarşı-qarşıya gəldilər. Xəzrəc tayfasının başçısı müsəlmanlara rəhbər olmaq üçün özünü namizəd kimi irəli sürmüşdü, lakin o, mühacirlərin öhdəsindən gələ bilməyəcəyini gördükdə isə belə dedi: "Sizdən bir əmir və bizdən də bir əmir tə'yin olunsun." Bununla da yenidən baş verə biləcək iğtişaşın qarşısı alındı və Əbu Bəkrin Peyğəmbərdən söylədiyi hədis .ənsarı geri çəkilməyə məcbur etdi

Qeyd etdiyimiz kimi, Əbu Bəkrin xilafəti zamanı bir tərəfdən müsəlmanlar dindən

çıxmışları yatırtmaqla məşğul idilər, digər tərəfdən isə hökumət hələ inzibati təşkilatçılığa malik olmadığından və ya başqa sözlə desək, dövlətin icra orqanlarının gəliri olmadığından bu iki dəstə arasında çox nadir hallarda münaqişə baş verməsinə rast gəlinir. Ömərin

xilafəti dövründə dövlətin ordu başçıları böyük şəhərləri əldə saxlamaqla, müharibədən əldə edilən qənimətlərin, vergilərin, İran və Rumdan alınan cizyələrin sayəsində ümumi xəzinənin gəlirini daha da artırdılar. Lakin xəlifə özünün sərt siyasəti nəticəsində hər iki dəstə arasında bərabərliyi müəyyən qədər tarazlaşdıra bilirdi. Əgər bir şəhərdə hakim ədnanilərdən olurdusa, digər bir şəhərin hakimiyyəti Qəhtanilərə tapşırılırdı. Lakin Səqifə macərasından hələ ٢٥ il ötməmiş Muzərilər – yə'ni Qüreyşlilər nəinki böyük işləri ələ keçirirdilər, hətta ümumi gəlirin hamısı birbaşa onların cibinə axırdı. Mərvan ibni Həkəm, Müaviyə, Təlhə, Zübeyr, əbdürrəhman ibni Ouf, Yə'li ibni Üməyyə və digərləri hər birisi ayrı-ayrılıqda o günün pulu desək milyonlarla dirhəm və dinar toplamışdılar. Lakin bu üstünlüyə qane olmayıb yenə də mümkün qədər .Qəhtaniləri hər şeydən məhrum etmək üçün səy göstərirdilər

Hər şeyi inhisara almaları və mal-dövlət toplamaları nəticəsində kin-küdurətlər yenidən baş qaldırmağa başladı və Qəhtanilərlə ədnanilər yenidən üz-üzə dayandılar. Hicrətin ٣٦-cı ilindən üzü bəri bu düşmənçilik daha da artmağa başladı. Ziyad Əlinin (ə) tərəfindən Bəsrəyə gedən gündən ona tərəfdar olan əzd və Təmim tayfası ilə üz-üzə dayandı. Əzd tayfasından olan şair özünün qəhrəmanlıq dastanında öyünərək yazır: “Ziyada yardımçı olduğumuz halda həmpeymanımız Təmim tayfası alışıb odda yandı.” Bu şe'rdə və buna bənzər başqa şe'rlərdə İslam qardaşlığına və ya müsəlmanların imamına itaət edilməsinə dair mövzuya toxunulmur. Artıq söhbət bundan getmir ki, hakim müsəlmanların imamının əmri ilə o şəhərə gəlmişdir və müsəlmanlar da onu .qarşılamalıdırlar. Söz yalnız əzd tayfasının Təmim tayfasına qalib gəlməsindən gedirdi

Bu iki tirəlik ancaq adını dəyişib, Qəhtani və ədnani, Yəmani və Qeysi, Mə'əddi və Muzəri, Təmim və əzdi, Qeysi və Kəlbi formalarına düşərək əsrlər boyu davam etmişdir. Bu iki dəstə arasında baş verən döyüş İspaniyadan tutmuş şimali Afrikaya qədər, Siciliya və Aralıq dənizindəki adalardan tutmuş başdan-başa Suriya, Hicaz, İraq və İrana qədər yayılmışdır. Bir çox münaqişələr, o cümlədən bir xəlifəni taxtan salıb yerinə başqa bir xəlifənin əyləşməsi də belə qəbilələr arasında baş vermiş .çəkişmələrdən törənmişdir

## YEDDİNCİ FəSİL

## MəRVANİLəR

Mə’lum olduğu kimi, Müaviyənin ölümündən sonra Abdullah ibni Zübeyr Məkkəyə gedərək orada özünü xəlifə e’lan etdi. Abdullah Qüreyşdən, Ədnani tayfasından, yə’ni şimal ərəblərindən idi. Digər tərəfdən də bildiyiniz kimi, Müaviyənin Məysun adlı bir arvadı var idi ki, Kəlb qəbiləsindən olan Bəcdəl ibni Uneyfin qızı və Yezidin anasıdır. Həmçinin bu da aydındır ki, Kəlb qəbiləsi Qəhtani, yə’ni cənub ərəblərindəndir. Yezidin az sürən xilafəti dövründə və ölümündən sonra xəlifə ilə qohumluq əlaqələri olan Kəlbilər get-gedə hakimiyyəti ələ keçirərək Qeysiləri siyasət meydanından kənarlaşdırdılar. Ərəb zərbül-məsəllərində rast gəldiyimiz. “Hims şəhərində Qeysdən də səviyyəsiz insan” ifadəsi çox ehtimal ki, o günlərin yadigarıdır. Qəhtanilərin belə kobudluğu heç də Ədnani tayfasının xoşuna gəlmədi. Müaviyə və Yezidin xilafəti zamanı Şamın bütün şiələrini idarə edən Zəhhak ibni Qeys Muzərilərin tərəfini saxlayaraq, camaatı Abdullah ibni Zübeyrin tərəfinə də’vət etdi və onu Dəməşqdə .xəlifə kimi tanıtdırdı

Abdullahın fəaliyyəti o həddə qədər genişləndi ki, Hicazda, Misirdə və İraqda onun xilafətini qəbul etdilər. Lakin bununla yanaşı Kəlbilər də sakit oturmayıb, Əməvilərdən olan bir dəstə adam Cabiyədə bir yerə yığışdılar. Onlar Mərvan ibni Həkəmi xəlifə adlandırdılar. Yezidin oğlu kiçik olsa da, Xalidi ona vəliəhd tə’yin etdilər. Bu seçki .vasitəsilə mə’lum idi ki, yenidən Qeysi və Kəlbi arasında münaqişə baş qaldırmalıdır

Mərvan Kəlbi tayfasından olan tərəfdarları ilə birgə Dəməşqə tərəf üz tutdu. Zəhhak ibni Qeys onunla mübarizə etmək üçün ayağa qalxdı və hicrətin ۶۴-cü ili Mərc-rahit adlı yerdə iki qoşun arasında döyüş başlandı. Böyük itkilərlə nəticələnən ۲۰ günlük savaşdan sonra Kəlbilər qələbə çalaraq Mərvanı xəlifə kimi tanıdılar. Hər iki tayfanın şairləri bu münaqişəyə aid şe’r və qəhrəmanlıq dastanları qoşdular ki, oxucuya .İslamdan əvvəlki qəbilələr arasındakı münaqişələri xatırladır

Mərvan ۶۴-cü il Ziqə’də ayında xəlifə oldu və qərara alındı ki, ondan sonra Xalid ibni .Yezid, ondan sonra isə Əmr ibni Səid ibni As xəlifə olsunlar

Mərvanın iş başına gəlməsi ilə Üməyyə ailəsindən olan yeni bir sülalənin, yə’ni Mərvanilərin hakimiyyəti başlandı. Doğurudur ki, bu mübarizədə Kəlbilər qalib gəldilər, ancaq bundan sonra hər iki sülalə arasındakı düşmənçilik daha da artdı. Çünki hər qəbilənin öz ayininə əsasən qanı qanla yumaq bir adətdir. Mərc-rahit döyüşündə Qeysilər Abullah ibni Zübeyrə tərəfdar çıxsalar da, bu döyüşdən sonra Qeysi və .Yəmani qruplaşmasının başdan-başa Əməvilər xilafətini bürüdüyünü görürük

Mərvan bütövlükdə Şamı alaraq Misirə yollandı, orada qayda-qanun bərpa etdikdən sonra Şama dönərək Yezidin oğlu Xalidi vəliəhdlikdən kənar edib öz oğlu Əbdülməliki, onun ardınca başqa bir oğlu Əbdüləzizi özünə vəliəhd tə’yin etdi. Mərvanın bu hərəkəti Əməviləri çox narahat etdi. Yazırlar ki, Xalidin anası onu boğub öldürdü. (hicri ۶۵-ci il Ramazan ayı). Mərvan öldükdən sonra özünün vəsiyyətinə əsasən ۳۹ yaşlı Əbdülməlik xilafətə yetişdi. Əbdülməlik siyasi və ictimai durumun çox kəskin bir anında hakimiyyətə gəlmişdi. Çünki o zaman Abdullah ibni Zübeyr Məkkədə özünü xəlifə e’lan edib Hicazı xilafətin mərkəzi tə’yin etmiş, nüfuzunu İraqa və şərqə qədər genişləndirmişdi. Xəvaric şəhərlərdə qiyam edərək gediş-gəliş yollarını təhlükə altına salmışdı. Ərəbistanın daxili vəziyyətindən istifadə edən Rum imperatorluğu isə Şama .tərəf qoşun yolladı

Əbdülməlik ilk növbədə Rum imperatorluğu ilə saziş bağlayıb böyük məbləğdə vergi verəcəyini öhdəsinə götürdü. Xarici düşməndən arxayın olduqdan sonra Zübeyrin oğlu Abdullahı aradan aparamaq üçün hazırlıq gördü. Hicaza qarşı mübarizə aparmaq üçün hər iki yoldan, həm siyasi, həm də hərbi taktikadan istifadə etdi. Hacılar Abdullahın təbliğinin tə’siri altına düşüb Şamda onun də’vətini yaymasınlar deyə, həcc ziyarətinin .qarşısını aldı

Yə’qubi yazır: “Camaat şikayətlənərək dedilər ki, nəyə görə həcc ziyarətinə getməyə qoymursan? Əbdülməlik dedi: İbni Şəhab Zöhri Peyğəmbərdən hədis nəql edir ki, gərək üç məscidin ziyarətinə gedilməsin - Məscidül-həram, mənim məscidim (məscidün-nəbi) və bir də Beytül-müqəddəs məscidi. Bu gün sizin Beytül-müqəddəsə getməniz Məscidül-həramı ziyarət etməyinizə bərabərdir. Və ibni Şəhab yenə deyir: Yəhudilərin üzərində qurbanlıq kəsdikləri qayalıq, me’rac gecəsi Peyğəmbərin ayaq ”.qoyduğu daşdır

Əbdülməlikin göstərişi ilə bu daşın ətrafında iri günbəzi olan bir bina tikərək üzərini ipək parça ilə örtdülər. Oraya qulluqçular tə’yin edib camaatı onun ətrafına dolanmağa məcbur etdilər. Bu adət bəni Üməyyə hakimiyyətinin bütün dövrlərində davam .etdirildi

Əbdülməlik Məkkə və Mədinəni camaatın gözündən salıb, Şamı müsəlmanların nəzərində Allahın müqəddəs evi kimi cilvələndirmək istəyirdi. Özündən sonrakı bə’zi hakimlər də onun yolunu davam etdirmişlər. O, bu əsnada İraqa bir qoşun göndərdi ki, Kufə və Bəsrəyə hakim olan Zübeyrin oğlu Mus’əbin hakimiyyətini devirsin. Digər tərəfdən isə İraqı bir dəstə qəbilə başçılarına və’də verməklə özünə tərəf çəkdi. Nəhayət Mus’əb öldürüldü, qoşun dağıldı və bununla da İraqın işi sona yetdi. İndi isə .qarşıda Hicaz məsələsi dururdu. Əbdülməlik Həccac ibni Yusifi oraya göndərdi

Həccac Məkkəni mühasirəyə alıb mancalaqla daş atəşinə tutdu və Kə’bə evini darmadağın etdi. Bu mübarizədə Abdullahın tərəfdarları dağıldılar, ancaq Abdullah özü ölüm anına qədər döyüşdən qaçmadı. Onu öldürməklə Əbdülməlikin sonuncu rəqibi, deyilənlərə görə təqvalı və pərhizkar bir şəxs məhv edildi. (Hicri ٧٣-cü il). Həccacın göstərişi ilə onun cəsədini dar ağacından asdılar. Həccac bu əmri yerinə yetirdiyi zaman əlindən gələn hər bir ləyaqətsizliyə əl atdı. Kə’bə evini dağıtdı, Peyğəmbərin məscidinə, minbərinə və qəbrinə ehtiramsızlıq etdi. Bundan əlavə Peyğəmbər səhabələrinin bir dəstəsini, o cümlədən Cabir ibni Abdullah Ənsarini, Ənəs ibni Maliki, Səhl Saidini və başqalarını xar etmək üçün boyunlarının ardına damğa vurdu. Bəhanəsi də bu oldu ki, guya siz Osmanın qatillərisiniz. O, Mədinə şəhərini tərk edərkən belə demişdi: “Şükür olsun Allaha ki, bu diyardan gedirəm. Bu şəhər hər bir yerdən olduqca murdar, əhalisi isə bütün camaatdan olduqca yaramaz və əmirəl-mö’minինə qarşı hiyləgərdir. Bu şəhərdə bir neçə taxta qırıntısı vardır ki, ona peyğəmbər minbəri ”.deyirlər və bir neçə çürük sümükləri də ziyarət edib ona sığınırlar

## HƏCCAC KUFƏDƏ

Bu əmrdən sonra Əbdülməlik dərk etdi ki, iraqlıları öz yerində oturtmağa gücü çata bilən şəxs yalnız Həccac ola bilər. Hicrətin ٧٥-ci ili İraqın və şərq əyalətlərinin bir hissəsinin hakimiyyətini Həccaca tapşırdı. O, Kufəyə gələn zaman xəlifə tərəfindən

göndərilmiş hakimtək davranmadı; tanınmaz bir nəfər kimi üz-gözü bağlı halda məscidə daxil oldu. Camaatı yararaq irəli keçib minbərdə əyləşdi. Uzun müddət bir

kəlmə belə söyləmədi. Camaat pıçıldamağa başladı ki, görəsən bu kimdir. Biri dedi ki, .yeni hakimdir

?Onu daş-qalaq edəkmi

.Xeyr, dayan görək bir nə deyir

Sakitlik yarandıqdan sonra üzünü açaraq camaatı elə sözlərlə hədələdi ki, onu daş-qalaq etmək istəyənlərin əlindəki xırda daşlar yerə töküldü. O, xütbəsinin başlanğıcında belə söylədi: "Ey Kufə camaatı! Uzun illərdir ki, iğtişaş və fitnəkarlıqla məşğulsunuz, itaətdən boyun qaçırmağı özünüzə adət etmisiniz. Mən meyvə kimi yetişmiş başlar görürəm ki, gərək onları bədəndən ayıram. Mən sizin başınıza o qədər ".döyəcəyəm ki, itaətin yolunu tapasınız

Bu sözlər kuflilərin bütövlükdə İraq camaatının vəzifəsini, yə'ni nə edəcəklərini dəqiq şəkildə aydınlaşdırdı. Onlar üçün göndərilmiş hakim özlərinin başa düşəcəkləri tərzdə danışırdı. Həccac cilddən-cildə girən bu camaatla elə davrandı ki, iyirmi il İraqdan fitnə və iğtişaşın kökü kəsildi. Xəvaricin başlıca mərkəzinə çevrilmiş Xuzistan və şərq məntəqəsində dinclik hökm sürdü. Bildiyiniz kimi, belə hökumətin ən başlıca işi zülm etmək, zindana salmaq, camaatı öldürmək, qorxu və sarsıntı yaratmaq və bir də əhalini təhlükə altında saxlamaqdan ibarətdir. Həccacın hökuməti dövründə də camaat ibni Ziyadın hakimiyyətindəki kimi kiçik bir töhmətlə yaxalanıb öldürülür və yaxud zindana atılırdı. Bə'zi vaxtlar heç bir günahı olmayan və itaətdən çıxmayan şəxs .də tutulub zindana salınırdı

Aşağıdakı hekayə də o günlərin zalım hakimlərini tanıtdıran və belə bir hakimiyyət .altında ömür sürən xalqın güzəranını işıqlandıran ən bariz nümunədir

Həccac "Hud" surəsinin ۴۶-cı ayəsini oxuyarkən orada yazılmış "əməlün" sözünü necə oxuyacağını bilmədi (ərəb dilində qarmmatik baxımından). Keşikçilərdən birinə dedi ki, Qur'anı düzgün oxumağı bacaran bir adam gətir. Keşikçi bir nəfəri tapıb gətirən zaman artıq Həccac öz yerindən durub getmişdi. Keşikçi onu zindana salmış və sonradan onun orada olmağını birdəfəlik yadından çıxarmışdı. Altı aydan sonra Həccac həbs :olunanları yoxlayarkən həmin şəxsə çatdıqda soruşdu

?Nə üçün zindana düşübsən

.(Nuhun oğluna görə! (həmin ayə həzrət Nuhun oğlu barəsində idi

.Həccac işin nə yerdə olduğunu anlayıb tez onun azad edilməsi əmrini verdi

səh:۱۷۰

Onun hakimiyyəti uzandıqca İslam fiqhinə qarşı zidd hərəkət etməsi və dinin əleyhinə çıxması daha da çoxalırdı. Belə ki, xütbələrinin birində Peyğəmbər məzarını ziyarət :edənlərə xitab edərək deyir

Belə camaata ölüm olsun! Görəsən niyə bir parça taxta ilə kiçicik bir təpənin ətrafına“ dolanırlar? Niyə gedib əmirəl-mö’minin Əbdülməlikin sarayını təvaf etmirlər? Məgər ”?bilmirlər ki, hər şəxsin xəlifəsi ona peyğəmbərdən də yaxşıdır

Başqa hakimlər də ona xəlifə gözü ilə baxaraq, hörmətini qazanmaq üçün ona .yaltaqlanırdılar

Həccac başdan-başa İraqda və şərq bölgəsində vəhşilik siyasəti həyata keçirirdi. Günahsız yerə bir neçə təqvalı insanları və Kufə böyüklərini qətlə yetirirdi. Xəvaricin iğtişaşını yatıran da o oldu. O, camaatın ürəyinə elə bir qorxu salmışdı ki, nəinki İraqda, hətta Xuzistan və bütövlükdə şərq bölgəsində sakitlik yaratmışdı. Həccac əlinin altındakılara qarşı sərt rəftar etsə də, özündən yuxarı olan kəslər qarşısında zəiflik göstərib yaltaqlanırdı. Necə ki, Əbdülməlikə yazdığı məktubda deyir: Eşitdiyimə görə əmirəl-mö’minin məclisdə asqıran zaman orada iştirak edənlər ona “Allah rəhm etsin” .demişlər. Ey kaş mən də orada olub bu böyük ne’mətdən feyz kəsb edə biləydim

O, danışıqlarında Əbdülməlikin məqamını Peyğəmbərdən üstün sayaraq belə demişdi: “Camaat! Sizin elçiniz sizə əzizdir, yoxsa xəlifəniz? Peyğəmbər Allahın elçisidirsə, Əbdülməlik də Onun xəlifəsidir.” Həccac Əbdülməlikin xilafətinin sonuna qədər İraqda .qaldı. Əbdülməlikdən sonra xəlifə olan Vəlid də onu İraqda hakim olaraq saxladı

Hicrətin ٨٠-cı ili Həccac Əbdürrəhman ibni Məhəmmədi - ondan xoşu gəlməməsinə baxmayaraq, Sistan və Zabolstana hakim tə’yin etdi. Ona Sistana hücum etmiş Rətbili qovlaması göstərişini verdi. Əbdürrəhman oraya gedərək qoşunu hücum edənlərin üzərinə göndərdi və Sistanda sakitlik bərpa etdi. Onun ardınca Həccaca bir məktub yazdı ki, biz düşməni bu ərazidən çıxarıb çoxlu sayda qənimət əldə etdik və irəliləməyi də məsləhət görmürəm. Həccac onun sözünü qəbul etməyib ona yazır ki, düşmənin ardınca getsin. Əbdürrəhman dəstə başçılarını bir yerə toplayıb (onlar da Qəhtani tayfasından idilər) dedi: “Mənim nəzərim budur ki, döyüşü dayandıraq, Həccac düşmənin dalınca getməyimizi əmr edir, sizin fikriniz nədir?” Onlar qəzəblənərək

dedilər: “Həccac bizi düşmənin əli ilə əzmək istəyir. Bizi farslarla döyüşə yollayır. Əgər öldürülsək bizim əlimizdən qurtaracaq.” Nəhayət əbdürrəhman Həccacın əleyhinə .qalxaraq İraqa tərəf üz tutdu

Xuzistanda hər iki qoşun arasında döyüş baş verdi. Həccac əvvəldə məğlubiyyətə düçar oldu və Əbdürrəhman özünü İraqa çatdıraraq Kufəni ələ keçirdi. Bəsrə şəhərinin başçılarının əksəriyyəti onun yanına gəlib itaətə hazır olduqlarını söylədilər. Həccac Şama mə'lumat göndərib Əbdülməlikdən yardım dilədi. Şamdan ona köməklik etmək üçün qoşun göndərildi. Bu qoşunun gəlişi ilə Həccac yenidən döyüşə başladı. Dəyrül-cəmacim adı ilə məşhurlaşan bu ağır döyüşdə ürəklərində Həccaca qarşı olan nifrətə əsasən Kufə və Bəsrə camaatı, hətta Qur'an oxuyanlar ayağa qalxdılar. Əbdürrəhmanın qoşunu o qədər çox idi ki, Əbdülməlik nümayəndə göndərib dedi ki, əgər İraq camaatı qəbul etsə, Həccacı hakimlikdən kənarlaşdırıb onlarla sülh bağlayaram. Həccac bu macəranı eşitdikdə xəlifəyə xəbər göndərdi ki, əgər belə rəftar etsə, iraqlılar sənə qarşı ədəbsizləşəcəklər. Buna baxmayaraq Əbdülməlik onun sözünü eşitməyib oğlu Abdullahı İraqa yolladı ki, onun təklifini İraq camaatına yetirsin. İraqlılar bu sazişi qəbul etməyib, hətta Əbdülməlikin özünü xilafətdən azad etdilər (yə'ni xəlifə hesab etmədilər). Əbdülməlikin oğlu işin bu yerə çatdığını görüb Həccaca dedi: "İndi özün bilən məsləhətdir, nə bacırırsan onu da et. Həccac döyüşə başladı. Lakin qoşunun azuqə ehtiyatı olmadığından məğlub olacaqları ehtimal olunurdu. Sonda o, Əbdürrəhmanın qoşunundan olan bir dəstə başçılarını aldadaraq gecə vaxtı gözlənilmədən iraqlıların üzərinə hücuma keçdi və onları qaçmağa məcbur etdi. Qaçanların bir çoxu çayda boğulub öldü, Əbdürrəhman isə çarəsizlikdən Zabula qaçaraq Rətbildən sığınacaq istədi. (Hicri ٨٢-ci il.) Həccac Əbdürrəhmanı İraqa göndərmək üçün Rətbili nə yolla olursa-olsun razı saldı, o, da onu İraqa göndərdi. Lakin yolda Əbdürrəhman qaçmaq niyyəti ilə damdan tullanıb öldü və onun başını .kəsib Həccaca yolladılar

Hicrətin ٨٠-cı ili Məhləb ibni Əbi Səfər Xocənd məntəqəsini fəth edərək Koş şəhərini paytaxt e'lan etdi və oranın əhalisi ilə sülh bağladı. Bu zaman Əbdürrəhmandan məktub aldı ki, o, Həccacı şərq bölgəsinin hakimiyyətindən çıxarıb və ona qoşulmaq .üçün möhlət istəyir. Məhləb məktubu Həccaca yolladı, özü isə Koş şəhərində qaldı

Həccac Kufə ilə Bəsrə arasındakı yol üzərində Vasit şəhərini saldıraraq oranı özünə mərkəz seçdi. Hər bir əmrə tabe olan Şam ordusunu bu şəhərdə yerləşdirərək bəhanə gətirdi ki, əsgərlər camaatı təzyiqə mə'ruz qoyurlar. Ancaq əslində o, nizam-intizama

.alışmış Şam əsgərlərinin iraqlılarla bir-birinə qarışmasına yol verməK istəmirdi

Deyrül-cəmacil hadisəsindən sonra Əlinin (ə) dostlarından olan bir dəstə adamı, o cümlədən Kumeyl ibni Ziyadı qətlə yetirdi. Kəndlərdən

və ətraf şəhərlərdən Kufəyə axışıb gəlmiş insanlara əhəmiyyət vermədən və e’tirazlarına qulaq asmadan öz əvvəlki yerlərinə qaytardı. Çünki onların Kufəyə gəlişi böyük çətinliklər yaratmışdı. O, müharibənin vurduğu ziyanları bərpa etmək üçün əkinçiləri həvəsləndirdi. Özü savadlı olduğuna görə camaatı da dərs oxumağa vadar edirdi. Deyilənlərə görə Qur’anın hərəkə ilə yazılması Həccacın göstərişi ilə olmuşdur, ancaq bu heç də dəqiq deyildir. Həccac hicrətin ۹۵-ci ilində ۵۳ yaşında ikən öldü. Onun qəddarcasına insanları öldürməsi, camaatı zindana salıb işgəncələr verməsi barədə çoxlu sayda rəvayətlər yazılıb. Onun göstərişi ilə öldürülüb zindana atılanların sayını qeyd edənlər bəlkə də bu rəqəmi şişirtmişlər. Lakin bir şey aydındır ki, o, daşürəkli, sərt, şəriət hökmlərinə e’tinasız yanaşan rəhimsiz bir hakim olmuşdur. Özündən !yuxarıdakılar qarşısında müti və yaltaq, İraq əhalisi üçünsə layiqli hakim sayılırdı

Əbdülməlik nisbətən uzun sürən xilafəti zamanı (۶۵-۸۵ illər. H.q) müsəlman əraziləri daxilində sakitlik yaratmağa imkan tapdı, sonra isə xarici şəhərləri fəth etməyə .başladı

Abdullah ibni Zübeyrin öldürülməsi, İraq daxilindəki iğtişaşın Həccacın əli ilə, Xəvaricin isə Mühəlləb ibni Səfərin vasitəsilə yatırılması ilə o, İraq və Hicazdakı münaqişələrdən birdəfəlik yaxasını qurtardı. Hicri tarixinin ۷۴-cü ili isə Həssan ibni Nö’manın rəhbərliyi altında Afrikaya qoşun göndərdi. Bundan məqsəd müsəlman ərazilərindəki daxili münaqişələrdən sui-istifadə edərək Afrikanın bə’zi ərazilərini işğal etmiş Rum qoşunlarını qovmaq idi. Bu qoşun ilk növbədə Qeyrovana gedib orada vəziyyəti sabitləşdirdikdən sonra Qərtacənnə şəhərinə qədər irəlilədi. (Hic. ۷۴ il). Bərbər xalqı ilə ağır döyüşdən sonra onların gələcəkdən xəbər verən və kahinliklə məşğul olan qadın hakimləri ilə üzləşdi. Həssanın qoşunu əvvəldə kahinin hücumuna mə’ruz qalıb geri çəkilməyə məcbur oldu. Həssan bu barədə Əbdülməlikə xəbər göndərdi. O da ona köməkçi qüvvə göndərəcəyini və’də verdi. Həssan qoşun və maddi yardım (pul) gələnə qədər, yə’ni ۵ il Bərqədə qaldı. Digər tərəfdən isə kahin qadın bərbərilərə dedi: “Bu qoşun mal-dövlət üçün hücuma keçir, biz əgər şəhərləri viran etsək, onlar məyus olub geri dönərlər. Bu səbəbdən də o, Afrika şəhərlərini dağıdıb viran etmək əmrini verdi. Şəhərlərin viran edilib qarət olunması səbəbindən bərbər camaatı kahinin əlindən təngə gəlmişdilər. Yenidən başlanmış döyüş nəticəsində kahin qaçmağa məcbur oldu

və sonra da öldürüldü. Bərbər xalqı Həssandan aman istədi və o, da bir şərtlə razılaşdı ki, onların da qoşunu müsəlmanlara qoşularaq birgə

irəliləsinlər. Onlar da bu şərti qəbul etdilər. Kahin qadının iki oğlunun başçılığı altında on iki min nəfərlik qoşun müsəlmanlara qoşularaq Afrikda (bu günkü Tunisdə) baş verən döyüşlərdə iştirak etdilər. Afrika (Tunis) başdan-başa fəth edildi və bərbərilərin hamısı müsəlman oldu. Həssan ٧۴-cü ilin Ramazan ayında Qeyrovana dönərək Əbdülməlik .ölənə qədər orada qaldı

Əbdülməlik Yunan sikkəsinin yerinə müsəlman sikkəsini düzəldən ilk xəlifədir. Deyilənlərə görə o, Rum imperatoruna yazdığı məktubların başlanğıcında "O Allah birdir" ayəsini yazarmış. Bu səbəbdən də imperator ona məktub göndərir ki, əgər bu üslubunu tərk etməsən sizin peyğəmbərin adını sikkələrə təhqiramiz surətdə həkk edəcəyəm. Bilazəri yazır: "Əbdülməlik bu barədə Xalid ibni Yezid ibni Müaviyə ilə məşvərət edir. O, isə cavabında deyir: Onların dinarlarını qadağan et (yığışdır), özün sikkə hazırlayıb Allahın da adını onun üzərinə həkk et! Əbdülməlik onun bu təklifini ".qəbul etdi

Bilazərinin müasiri "Əl-məhasinu və Əl-məsavi" kitabının müəllifi İbarahim ibni Məhəmməd Beyhəqi isə belə yazır: Rəşid bə'zilərindən soruşdu: "İslam dünyasında ilk "?sikkə hazırlayan kim olub

.Əbdülməlik ibni Mərvan

?Necə

Rum imperatoru sikkənin üzərinə Peyğəmbərin adını təhqiramiz surətdə yazacağını Əbdülməlikə bildirdikdən sonra o, bu hadisədən çox narahat oldu. Ruh ibni Zinba' məsələnin həllini Məhəmməd ibni Əlidən (ə) soruşmağı təklif etdi. Əbdülməlik Mədinədəki nümayəndəsinə yazdı ki, iki yüz min dirhəm Məhəmməd ibni Əlinin (ə) şəxsən özünə təqdim et, üç yüz min dirhəm də yol xərci verib yaxın adamları ilə birgə Dəməşqə yola sal. Mədinənin hakimi imam Baqiri (ə) Şama göndərdi. İmam Əbdülməlikin yanına gəlib işin nə yerdə olduğunu öyrəndikdən sonra ona dedi ki, Rum sikkələrini qadağan edib əvəzində müsəlmanların sikkəsini düzəlt və ondan qeyrisi ilə ".alver edəni isə ölüm cəzası ilə qorxut

Mə'lumdur ki, imam Baqirin (ə) və Peyğəmbər ailəsindən hər bir şəxsin belə bir çətinliyi

həll edib düzgün yol göstərmələri heç də təəccüb doğuran bir məsələ deyildir. Lakin tarixi və ictimai vəziyyət baxımından belə bir fərziyyəni qəbul etmək doğru sayılmaz. Belə bir təklifin Xalid ibni Yezid tərəfindən verilməsi heç bir şəkildə məqbul deyildir. :Beyhəqinin yazdıqları aşağıdakı səbəblər əsasında qəbul edilmir

Bildiyiniz kimi, uzun illərdən bəri Əməvi və Mərvani hakimləri Əlinin (ə) ailəsi ilə və.١ bütövlükdə bəni Haşimlə düşmən idilər. Buna

görə də Əbdülməlikin imam Baqir (ə)-a belə münasibət bəsləməsi mümkün deyildir. Bilirik ki, ۶۵-۷۵-ci illər isə Əli (ə) şiələrinin hərəkatı, Əməvilərin isə onlara qarşı qatı .mübarizə apardıqları dövrdür

Ruh ibni Zinba’ Müaviyənin oğlu Yezidin, Mərvanın və onun övladlarının səmimi.۲ dostlarından olmuşdur. Belə bir şəxsin imam Baqirə (ə) rəğbət bəsləməsi çox çətin .başa düşülür

Belə bir problemin həlli məktub və ya qasid göndərməklə mümkün olduğu halda.۳ necə olur ki, yarım milyon dirhəm xərcləyib imam Baqir (ə)-ı və onun yol yoldaşlarını !?Şama də’vət etsinlər

İslam sikkələrinin hazırlanması tarixi hicri ۷۴-cü ilə aid edilir. Bu ildə imam Baqir (ə)-ın.۴ dəqiq bir nəzərə görə ۱۱ yaşı, digər məşhur bir nəzərə görə isə ۱۸ yaşı olmuşdur. Və çox çətin ki, Ruh ibni Zinba’ və Əbdülməlik belə bir problemin həllini o cənabdan .(istəmiş olsunlar. (Əlbəttə bu münasibət Əbdülməlikin öz nöqteyi nəzərindən olmalı idi

Bu günlər şiələrin imamı Əli ibni Hüseyn (ə) idi. Adəti üzrə belə bir xahiş gərək onun.۵ .özündən olunaydı

Bildiyiniz kimi, imam Baqir (ə) yalnız Hişam ibni Əbdülməlikin xilafəti dövrü Dəməşqə.۶ getmiş və bu səfərdə imam Sadiq (ə)-da atası ilə birgə olmuşdur. Və o həzrətin .Hişamın hüzurunda ox atması hekayəsi də məşhurdur

Qeyd olunur ki, guya imam Baqir (ə) dedi: “Bu sikkələrlə ticarət etməyəni ölüm.۷ qorxusu ilə hədələ.” İmam Baqirin (ə) zalım hakim hesab etdiyi Əbdülməlikə belə bir .göstəriş verməsi mümkün deyildir

Elə bu səbəbdəndir ki, “Nasixut-təvarix” kitabının müəllifi problemin həlli məsələsini imam Məhəmməd Baqir (ə)-a aid edərək yazır: “Ehtimal olunur ki, Əbdülməlik bu məsələnin həllini dördüncü imam, yə’ni Əli ibni Hüseyndən (ə) xahiş etmişdir. Ancaq ۶۲-.۷۴-cü illər arasında dördüncü imamın Şama getməsi isə mə’lum deyildir

Xətiblərin və böyük din xadimlərinin xilafət başçılarını nəsihət etməsinin qarşısını alan ilk xəlifə Əbdülməlik olmuşdur. Adət üzrə moizə edənlər öz xütbələrini “Allahdan

qorxun" cümləsi ilə başlayırdılar. O, Mədinədə söylədiyi xütbə əsnasında belə dedi: Mən nə zəlil və xar olmuş (Osmanı nəzərdə tutub), nə güzəştə gedən (Müaviyə) və nə də ağılsız xəlifəyəm! (Yezid). Mən yalnız qılıncla bu camaatın dərdinə əlac tapacağam! Siz ilk mühacirlərin əməllərini bilir, yadda saxlayır, lakin özünüz onlar kimi rəftar etmirsiniz? Bizi pərhizkarlığa də'vət edir, özünüzü yaddan çıxarırsınız. And olsun Allaha, bundan sonra məni pərhizkar olmağa də'vət edənlərin boynunu vuracağam."

Hicrətin ٨۴-cü ili Abdullah ibni Əbdülməlik yay ğəzvələrinin birində Antakiyadan Məsisəyə getdi orada qala və məscid tikdirərək qoşunun bir hissəsini orada yerləşdirdi

## VƏLİD İBNİ ƏBDÜIMƏLİK

Əbdülməlik hicri tarixinin ٨۶-cı ili Şəvval ayında dünyadan köçdü. Qeyd etdiyimiz kimi, Mərvan ibni Həkəm əvvəlcə Əbdülməliki, onun ardınca isə başqa oğlu Əbdüləzizi özündən sonra canişin tə'yin etmişdi. Əbdülməlik öz xilafəti dövründə Əbdüləzizi vəliəhdlikdən kənarlaşdırıb onun yerinə oğlu Vəlidi vəliəhd tə'yin etmək istəyirdi, ancaq Əbdüləziz bu işə razı deyildi. Onu Misirə vali tə'yin etdikdən sonra Əbdüləziz bu işə göz yumdu. Əbdüləziz Əbdülməlikdən əvvəl dünyadan köçdü və ya Əbdülməlikin göstərişi ilə onu zəhərləyib öldürdülər. Beləliklə, atasının ölümündən sonra Vəlidin heç .bir rəqibi qalmamışdı

Əbdülməlik ٢٠ illik xilafəti dövrü həyata keçirdiyi işlər sayəsində ictimai və siyasi durumu Vəlid üçün daha rahat və münasib etmişdi. Vəlid ölkədəki təhlükəsizlikdən və əldə olunan külli miqdarda gəlirdən səmərəli istifadə edərək ölkədə abadlıq işləri aparmışdı. Bu işlərə rəğbəti olduğundan ölkədə onun adı ilə bağlı olan bir çox tikililər tikilmişdi. Buna misal olaraq İslam incəsənəti və memarlığı tarixinin ən gözəl nümunəsi olan Dəməşq şəhərində tikilmiş Əməvi məscidini, həmçinin Suriya və İordaniyada tikilən qış və yay saraylarını misal gətirmək olar ki, bu da öz növbəsində Vəlidin hakimiyyəti dövründə abadlıq və tikintinin böyük əhəmiyyətə malik olduğunu yetirir. Əlbəttə, üstündən ١٣ əsr keçməsinə baxmayaraq, bu tarixi binaların qalıqları hələ də tamaşaçıları heyrətə salıb onlarda təəccüb hissi doğurur. Bu binaların tikilməsinə xərc olunan məbləğin külli miqdarda olduğunu düşünənlər o dövrdə verginin, xüsusilə də yeni fəth olunmuş Rum, İran, Bərbər, Hind ərazilərinin müsəlman olmayan əhalisindən .külli miqdarda da vergi alındığını dərk edirlər

Vəlidin hökuməti dövrü Həccacın nəzarəti altında, həmçinin onun ölümündən sonra da şərq torpaqlarının fəth olunması davam edirdi. Quteybə ibni Müslim, Xarəzmi və Qərğanəni fəth edərək Kaşğərə qədər irəlilədi, (٨٧-٩۶ illər h.q) həmçinin Məhəmməd .(ibni Qasim Sent çökəkliyinə qədər qoşun çəkdi (٩١-٩۴-cü illər h.q

Əvvəldə qeyd etdiyimiz kimi, Müaviyənin hakimiyyəti dövrü Uqbə ibni Nafe' hicrətin

۵۰-ci ili Afrikaya (Tunisə) hakim tə’yin edilmişdi. Lakin ۶۹-cu ildə isə Əbdülməlikin xilafəti dövrü bu vəzifəni Həssan ibni

Nö'man öz öhdəsinə götürmüşdü. Həssandan sonra isə ٧٨-ci ildə bu vəzifə Əbu .Əbdürrəhman Musa ibni Nəsirə tapşırılmışdı

Hicrətin ٩١-ci ili Musa ibni Nəsir Andolosa (İspaniya) hücum etmək qəsdi ilə kiçik bir qoşunla bu məntəqənin cənub nahiyəsinə girdi, çoxlu miqdarda qənimət ələ keçirib geri döndü. ٩٢-ci ildə isə ١٢٠٠٠ nəfərlik qoşun toplayaraq bu əraziləri fəth etmək üçün geniş hazırlıq işləri gördü. İlk dəfə oraya öz nökəri olan Tariq ibni Ziyadın başçılığı ilə əksəriyyəti yeni müsəlman olmuşlardan və bərbərilərdən təşkil olunmuş yeddi min nəfərlik qoşun göndərdi. Tariq onun adına həsr olunmuş Cəbəlüt-tariq boğazından keçdi. O, məqsədə yetişməzdən əvvəl öz qoşununa belə dedi: "Camaat qaçmağa yer yoxdur! Öndə düşmən, arxada dəniz, pənahımız Allah, sədaqət və səbr isə yardımçımızdır. Əgər bu adada məğlub olsanız, ləyaqətsiz adamların əli altında böyüyən yetimlərdən də pis vəziyyətə düşəcəksiniz. Əldə tutduğunuz qılıncdan savayı heç bir silahınız və düşməndən alacağınız azuqədən başqa heç bir şeyiniz olmayacaq. Vəlid ibni Əbdülməlik sizi şücaətli olduğunuza görə seçib ki, bu adanı fəth edəsiniz. Döyüş qızışdığı zaman isə düşmənin qoşun başçısı Lozriçin üzərinə özüm şəxsən ".hücum edəcəyəm

Tariq Andolosa daxil olaraq qələbə xəbərini Musaya yazdı. Musa nökərinin şöhrətlənməsinə paxıllığı tutaraq göstəriş verdi ki, o, irəliləməyib olduğu yerdə qalsın. Sonra oğlu Abdullahı Qeyrovanda öz yerinə qoyub özü Andolosa tərəf yollandı. Lakin Tariq öz döyüşçüləri ilə məşvərət etdikdən sonra digər şəhərləri fəth etməyi davam .etdirdi

Musa ərəb və bərbərilərdən təşkil olunmuş böyük bir qoşunla Andolosa daxil olub bir neçə şəhəri fəth etdikdən sonra özünü Tariqə çatdırdı. Onu tənbih edib qamçı vurduqdan sonra zindana saldı. Tariq Vəlidə şikayət etdi. Vəlid Musaya məktub göndərib onu azad edərək əvvəlki vəzifəsinə tə'yin etməyi əmr etdi. Musa Tariqi zindandan azad etdi və sonra hər ikisi birlikdə İspaniyanın şimalına hücum etdilər. Vəlidin hakimiyyəti dövrü baş vermiş hadisələrdən biri də şiələrin dördüncü imamı Əli .ibni Hüseynin (ə) vəfatı olmuşdur ki, ٩٤-və ya ٩٥-ci hicri qəməri tarixində baş vermişdir

## SÜLEYMAN İBNİ ƏbdülMəLİK

Hicrətin ۹۶-cı ilində Vəlid öldü və ondan sonra qardaşı Süleyman ibni Əbdülməlik xilafətə çatdı. Vəlid özündən sonra oğlunu yerinə canişin tə’yin etmək istəyirdi və deyilənlərə görə Həccac da bu işə razı idi. Süleyman xəlifə olduqdan sonra Həccacın yaxın qohumları vəzifədən kənarlaşdırıldı, onun qatı düşməni olan və zindandan qaçan Yezid ibni

Mühəlləbi Kufəyə hakim tə’yin etdi. Xarəzmi fəth edən Quteybə ibni Müslim və Senti .fəth edən Məhəmməd ibni Qasimi onun göstərişi ilə qətlə yetirdilər

Süleymanın xilafəti hicrətin ٩٩-cu ilinin Səfər ayına qədər davam etdi. O, əyyaşlıqla məşğul olan, dövlət işlərini idarə etməyə etinasız yanaşan bir şəxs olmuşdur. Qeyd edilənlərə əsasən, onun söz-söhbətinin əsas hissəsini qadın və yeyib-içmək təşkil etmişdi. Yazırlar ki, o, günlərin bir günündə əyninə gözəl paltar geyinib başına yaşıl rəngli əmmamə qoyub güzgüdə özünə baxaraq belə dedi: Mən cavan şahzadəyəm. :Kənizlərdən biri isə belə dedi

Əgər daimi qalsan yararlısan, ancaq heyf ki, heç bir insan əbədi deyildir. Bildiyimə“ görə səndə heç bir eyib yoxdur, yalnız bir eybin vardır, o da sənin bu dünyada .müvəqqəti olmağındır.” Bu hadisədən bir həftə keçməmiş o, öldü

### Ömər İBNİ ƏbdüləZİZ

Süleyman adət üzrə öz övladlarından birini vəliəhd tə’yin etmək yerinə Ömər ibni Əbdüləzizi özünə canişin seçdi. Öz xilafəti dövründə Süleymanın gördüyü yeganə yaxşı iş onun hakimiyyətə gətirilməsi olmuşdur. Bəlkə də bu məsələ onun özünün və ya müşavirlərinin uzaqgörənliyi idi ki, onlar artıq Əməvi hakimiyyətinin süqutunu hiss edirdilər. Onlar Öməri xəlifə seçməklə xalqı öz hakimiyyətlərindən razı salmaq .istəyirdilər

Ömər ibni Əbdüləziz Mədinədə təqvalı və İslam ən’ənələrinə sadiq qalmış müsəlmanların arasında böyüyüb tərbiyə almışdı. O, xilafətinin az bir müddətində özündən əvvəlkilərin dinə etdikləri əlavələri ləğv etmək üçün çalışırdı. Müaviyənin dövründə binası qoyulmuş minbərlərdə Əlinin (ə) təhqir olunması onun göstərişi ilə dayandırıldı. Müsəlmanların ərazisində yaşayan qeyri-müsəlmanları İslam dinini qəbul edib müsəlman olmaları üçün həvəsləndirirdi. Təmtəraqlı yaşayışı qadağan edib, ümumi xəzinənin (beytül-malın) sərf olunmasında ədalət yolunu tutdu. Özündən əvvəl adət halını almış hədiyyələr təqdim olunmasının qarşısını aldı, hətta öz qohum və yaxın .adamlarına qarşı sərt olmağa başladı

## QULLARIN PROBLEMİ VƏ ÖMƏR İBNİ ƏBDÜLƏZİZİN VASİTƏSİLƏ BU ÇƏTİNLİYİN HƏLL OLUNMASI

Ömər ibni Əbdüləzizin xilafəti zamanı azad olunmuş qulların problemi diqqət mərkəzində olduğundan o, bu problemin həlli yolunda daha çox çalışdı. Yaxşı olar ki, .bu barədə daha ətraflı danışaq

Bildiyiniz kimi, Əbu Bəkrin və Ömərin xilafəti dövründə Ərəbistan səhralarından kənarlara çıxaraq fəth olunmuş İran, Rum və Afrika ərazilərində İslamı və müsəlmançılığı yayan ərəblər səhra sakinləri idilər. Səhra sakinləri öz övladlarına bir tərəfdən azadlığı və heç bir qanun çərçivəsinə tabe olmamağı, digər tərəfdən isə cəngavərlik və döyüşkən olmağı öyrədirdilər. Ərəblərin şəhər sakininə məxsus olan incəsənət və peşədən nəinki mə'lumatları yox idi, hətta onu bəyənməyib özləri üçün təhqir hesab edirdilər. Bu səbəbdən də fəth olunmuş ərazilərdə işin icrası və ümumi ictimai peşələr elə həmin ərazinin camaatına tapşırılırdı. Sənətçilər, peşə sahibləri, həkimlər, hətta müəllim və tərbiyəçilərin dövlət dairəsində özlərinə məxsus vəzifə və məqamları var idi. Dövlətin icra işlərinə qulluq edənlərin yaşayışı rahatlıqda keçirdi. Torpaq sahibləri isə öz gəlirləri vasitəsilə faydalanırdılar. Lakin bu işlərin heç birini bacarmayan digər bir dəstə də mövcud idi. Bunlar torpaq sahiblərinin əkin sahələrində işləyən fəhlə və muzdurlar idi. Bunlar müsəlman olduqdan sonra daha çox gəlir əldə etmək üçün şəhərlərə üz tutmuşdular. Şəhərdə əhalinin artması ilə işsizlik meydana çıxmışdı. İşsizlik isə müəyyən qruplaşmalar və siyasi cinahlar meydana gətirmiş və .nəticədə onların arasında müntəzəm olaraq iğtişaşlar baş verirdi

İslamdan əvvəl bədəvi ərəblər arasında bir adət-ən'ənə mövcud idi ki, əgər bir nəfər özünü hər hansı tayfa və ya şəxsə bağlamış olsaydı ona "mövla", özünə isə qul deyərdilər. Beləliklə, bu şəxs bağlı olduğu tayfa tərəfindən hər tərəfli himayə olunurdu. İslamda da milliyyətcə ərəb olmayan yeni müsəlmanlar özlərini ərəb tayfalarına .bağlayırdılar ki, bu baxımdan biz tarixdə "filankəsin qulu" ifadəsinə rast gəlirik

Bu qullar və ya yeni müsəlman olmuşlar İslami bərabərlik hökmü altında onlarla da başqa müsəlmanlarla edilən rəftarın olunacağını gözləyirdilər və onlar müsəlmançılığın məziyyətlərindən kamil surətdə faydalanmaq arzusunda idilər. Lakin

hakimiyyətdən əks rəftar gördükdə isə narahat olub inciyirdilər. Xəlifə və hökumətlər yarım əsirlik müddət ərzində yeni müsəlman olmuşların problemlərinin həlli yollarını arxtarmaqda sə’y göstərsələr də, öz gəlir və faydalarını əldən verməmək

səh:۱۷۹

üçün bu işlə ciddi məşğul olmurdular. Bu məsələ ilə bağlı Osmanın müşavirləri onları şərq ərazilərinə cihada yollamaq məsləhətini görürdülər. Muxtarın qiyamı zamanı onun ətrafına toplaşanlar da onlar olmuşlar və Muxtar onların köməyi ilə əhli-beyt düşmənlərinə qalib gəlmişdir. Lakin Muxtarın onlarla xoş davranmağı ərəbləri narahat etmiş və bildiyiniz kimi, Mus'əb onların vasitəsilə Muxtarı məğlub etmişdi. Həccac İraq şəhərlərinə toplaşmış yeni müsəlmanları (qulları) onların etirazına məhəl qoymadan öz yerlərinə qaytardı. Belə çarə fikirləşmək müvəqqəti əlac sayılırdı. Xəlifə və ya hakimin qüdrəti zəiflədikdə qullar və ya yeni müsəlman olanlar baş qaldırırdılar. Onlar belə deyirdilər: "Fəth edilmiş ərazilər bizim sə'yimizlə əldə olunub, deməli onun bir hissəsi bizə məxsusdur." Bu məsələyə və müharibədə əldə olunmuş qənimətlərin bərabər səviyyədə bölünməsinə dair münaqişələr baş verirdi. Bə'zi hallarda e'tiraz edənlər hakimlə üz-üzə gəlir və ya onun adamlarını vururdular. Ömər ibni Əbdüləziz əldə olunmuş qənimətlərə qulların da şərik edilməsinə göstəriş verdi və fəth olunmuş .torpaqların alış-verişini yasaq etdi

Ömərin xilafəti zamanı atdığı müsbət addımlardan biri də İslam hakimiyyəti altında yaşayan yəhudi və xristianların hüquqlarına riayət edilməsi olmuşdur. Müsəlmanlar ölkələri fəth etməyə başladıqları gündən ərəb hökmdarları fəth olunmuş ərazilərin əhalisini müsəlman olmaqda və ya öz dinlərində qalmaqda azad buraxırdılar, ancaq onlar himayə olunduqları üçün illik pul ödəməli idilər. Cizyəni – yə'ni illik himayə pulunu ödəməyi qəbul edənlər öz dini adət-ən'ənələrini yerinə yetirməkdə tam surətdə azad idilər. Bir çox hökmlərə riayət etməkdə öz məzhəblərinin alim və qazilərinin göstərişlərinə əməl edirdilər. Bununla belə, İslam dinini qəbul edənlərin sayı da dayanmadan artmaqda idi. Müsəlman olmağa üz tutanların əsas məqsədi onlardan vergi – illik himayə haqqı alınmaması, əlavə olaraq digər vergilərdən də (o cümlədən adam başına verilən vergi, torpaq üçün alınan vergi) azad olunmaqları idi. Çünki müsəlman olanlar cizyə ödəməkdən azad idilər və onlar yalnız zəkat ödəməli idi. Əməvi hakimiyyəti dövrü, xüsusilə Həccacın zamanında dövlət gəliri aşağı düşdüyündən İslamı qəbul etmiş yəhudi və xristianlardan da cizyə alınırdı. Bu isə açıq-aşkar zülm və ədalətsizlik idi. Ömər ibni Əbdüləziz camaatı müsəlman olmağa həvəsləndirmək üçün bu bid'əti, yə'ni dinə edilmiş əlavəni ləğv etdi. Yerlərdəki hakimlər bu addımla gəlirin aşağı düşəcəyini bildirib şikayət etdikdə Ömər onların

.e’tirazına qulaq asmadı

səh:۱۸۰

Əməvilərin xilafəti dövründə yerlərdə hakimlər müttəhimlər və günahkarlarla İslam qanunu çərçivəsində deyil, öz istədikləri kimi rəftar edirdilər. Ömər onlara heç bir kəsə .layiq olmadığı cəzanı verməyə icazə vermirdi

Əməvilər, həmçinin yerlərdəki hakimlər təmtəraqlı yaşayışa alışdıqca, onların pula olan ehtiyacı günbəgün çoxalırdı. Onların gündəlik artan xərclərini müsəlman ərazilərindən əldə olunan gəlir ödəmədikdə, cihad adı altında müsəlman olmayan ölkə və ərazilərə hücum edirdilər. Bu müharibələrin böyük bir əksəriyyətindən məqsəd camaatın var-dövlətini qarət edib öz ciblərini və xəlifənin xəzinəsini doldurmaqdan .ibarət olmuşdur

Ömər əskərlərin sərhədlərdə dayanıb müsəlmanların ərazilərini qorumaq əmrini verdi. Hücumların qarşısını alıb müsəlman olmayan qonşu ölkələrə İslamı qəbul etdikləri təqdirdə vergi alınmayacağı təklifini irəli sürdü. Vəzifələri də iki qəbilə – Qəhtani və Kəlbilər arasında bərabər səviyyədə bölüşdürdü. Beləliklə o, daxili iğtişaşların qarşısını .ala bildi

Ömər Fatimə övladlarına mənsub olan Fədəkin sahəsini onlara qaytardı. O, iki il beş ay sürən xilafətdən sonra hicrətin ۱۰۱-ci ilində Səm’anda vəfat etdi. Deyilənlərə görə Əməvilər Ömərin, xilafəti Əli (ə) övladlarına verəcəyindən qorxuya düşüb onu .öldürmüşlər

Beləliklə Ömər ibni Əbdüləzizin az müddətli xilafəti sona yetdi. Demək olar ki, Əməvi sülaləsinin hakimiyyət dövründə xalq yalnız bu bir neçə aylıq müddət ərzində İslam .ədalətindən bir şey görə bildilər

### YEZİD İBNİ ƏbdülMəLİK

Ömər ibni Əbdüləziz vəfat etdikdən sonra Yezid ibni Əbdülməlik xəlifə oldu və onun .(hakimiyyəti dörd il çəkdi (۱۰۱-۱۰۵ illər h.q

Yezid əyyaşlıqla məşğul olub, şərab içən və fasiq bir adam idi. Azacıq hökuməti dövründə Ömərin bərpa etdiyi ədalətli adət-ən’ənələri bir-birinə vurdu, müxtəlif məbləğdə vergilər alıb əhaliyə işgəncələr verilməsi üçün dövlət mə’murlarına ixtiyar verdi. Onun xilafəti dövründə Qeysi və Yəmani münaqişəsi yenidən baş qaldırdı. Yezid

ibni Mühəllib qiyam edərək Bəsrəni tutdu, sonra isə Əzd tayfasının köməkliyi ilə Əhvaz, Fars, Kerman əyalətlərini də ələ keçirdi. Lakin Xuzistan əyalətində bəni Təmim qəbiləsi onun qarşısında müqavimət göstərdi. İbni Mühəllib Kufəyə döndükdə Məsləmə ibni Əbdülməlikin qoşunu ilə üzləşdi. Bu döyüşdə ibni Mühəlləb öldürülərək qoşunu

.darmadağın edildi. Arvadlarını və qızlarını əsir götürüb bazarlarda satdılar

Yezidin xilafəti dövrü onun iki kənizi var idi ki, həqiqətdə ölkənin siyasi işləri bu iki qadının əlində idi. Onlardan birinin adı Xubabə idi ki, Yezid ona bərk vurulmuşdu. Deyilənlərə görə Xubabə bir gün bu beyti Yezid üçün zümzümə etdi ki, onun da :məzmunu aşağıdakı kimidir

Boğazla dilçək arasında möhkəm yanğı var, nə sakitləşir, nə də su içmək üçün yol açılır .ki, boğaz sərinləsin

Yezid bu beytdən sonra cuşa gələrək dedi: "Uçmaq istəyirəm." Xubabə soruşdu: "Əgər "?uçsan xilafəti kimə tapşıracaqsan

Sənə!" deyib onun əlini öpdü. Kəniz öldükdə isə Yezid həddən artıq narahat oldu, bir" neçə gün cənazəsinin yanında əyləşib onu dəfn etməyə icazə vermədi. Kənizin cəsədi iy verən zaman xəlifənin qardaşı onun yanına gedib dəfn etmək üçün rüxsət aldı. Kəniz dəfn olunduqdan bir neçə gün sonra Yezid də öldü. O, sağlığında qardaşı Hişamı, .ondan sonra isə oğlu Vəlidi vəliəhd tə'yin etdi

## HİŞAM İBNİ əbdülMəLİK

Hişamın xilafəti nisbətən uzun sürdü (۱۰۵-۱۲۵ illər h.q). Bu uzun sürən hakimiyyət zahirdə islahatlar həyata keçirmək üçün ona imkan yaratdı. Özü çalışqan və qənaətcil bir şəxs olduğundan, əyalətlərə ləyaqətli mə'murlar tə'yin edib, işləri öz qaydasına salıb dövlətin gəlirini artırmaq fikrində idi. Ancaq Ömərin vəfatından sonra Yezid ibni Əbdülməlikin iş başına gəlməsi ilə, ürəklərdə yaranmış islahat ümidi yenidən baş qaldırmış Ədanani və Qəhtani münaqişələrini aradan apardı və iğtişaşların ilk qığılcımları görünməyə başlandı. Digər tərəfdən Xəvaric də ayağa qalxmışdı. Həmçinin hakimiyyətə zidd qüvvələr şiəlik adı altında fəaliyyət göstərməkdə idilər. Tarixin belə bir anında şəhərlərdə xalqı sevən, qəlbində ürək yanğısı olan və vəziyyətdən düzgün istifadə etməyi bacaran hakimlər zülmü azaldaraq xalqın razılığını əldə etmiş olsaydılar, Əməvi hakimiyyətinin süqutu bir az ləngiyərdi. Lakin bu hakimlər elə bil bu hakimiyyətin sona yetdiyini anlamışdılar. İraqa və şərq əyalətlərinə hakim olan Xalid ibni Abdullah Qəsri Həccac ibni Yusifin siyasətini yürütdü. Xalid avam bir adam idi,

deyilənlərə görə hətta Qur’anı belə, düzgün oxuya bilmirdi. Bir gün xütbə oxuduğu zaman Qur’an ayəsini səhv oxuyaraq dayandı. Təğləb tayfasından olan dostlarından biri ayağa durub dedi: “Ey əmir, özünü

çətinliyə salma, ağıllı bir adamın Qur’anı əzbərdən oxuduğunu görməmişəm. Qur’anı əzbərləmək axmaq adamların işidir.” Xalid dedi: “Düz deyirsən.” Xalidin zülmü o qədər artdı ki, Hişam onu hakimlikdən kənarlaşdırmağa məcbur oldu. Onun yerinə tə’yin olunmuş canişinin dövründə Kufə şiələri Əli ibni Hüseynin (ə) oğlu Zeydin ətrafına toplaşaraq onu hakimlə döyüşə qaldırdılar. Lakin bu əhali öz tərzi-üslubları əsasında ilk əvvəl böyük bir həyacanla Zeydi ümmətin Mehdisi adlandırıb, sonda müxtəlif bəhanələrlə onun ətrafından dağıldılar. Nəticədə Zeyd şəhid oldu və onun cəsədini dar ağacından asdılar. (١٢١-ci il h.q). Kəlbi tayfasından olan bir şair (Əməvilərlə bağlılığı olan :Həkim ibni Əyyaş Əur) bu barədə belə deyir

Biz Zeydi xurma ağacının budaqlarından asdıq. Halbuki, heç bir Mehdi xurma ağacının“ (.budaqlarından asılmamışdır.” (Əqdül-fərid ٥-ci cild, ٢١٠-cu səh

Yaqut Himəvi yazır: “Bir nəfər Abdullah ibni Cə’fərin yanına gedib dedi: “Ey Peyğəmbər övladı! Həkim Əur Kufədə sizin adınıza yaramaz sözlər deyir.” Soruşdu ki, onun ”.söylədiyi şe’rlərdən bir şey bilirsənmi? Dedi: “Bəli” və o, yuxarıdakı beyti təkrar etdi

Abdullah titrək əllərini göyə qaldıraraq dedi: “İlahi, əgər yalan deyirsə onun üstünə bir ”.it göndər

Həkim gecə vaxtı Kufə şəhərindən çıxan zaman onu bir şir parçaladı. Bir nəfər bu xəbəri Cə’fərə çatdırdı. Cə’fər səcdə edərək dedi: “Şükür olsun Allaha ki, bizim ”.haqqımızda verdiyi və’dəsi düzgündür

Zeyd alim, pərhizkar, zülümkarlara qarşı mübariz və əhli-beytə məxsus alicənab bir şəxs idi. Şiə məzhəbi arasında Zeydiyyə adı ilə məşhur olan firqə atası Əli ibni .Hüseyndən sonra onun imam olduğunu qəbul edirlər

Hişam Rum imperiyası ilə döyüşləri davam etdirərək qoşunları Fransanın işğal etdiyi .ərazilərə qədər apardı. Şərqdə isə Türkistanın bir hissəsini fəth etdi

Hişamın xilafətinin son dövrlərində əhali vergilərin çox olmasından təngə gələrək ayağa qalxdılar və bu işdə onlar qonşuları olan türklərlə birləşdilər. Hişam bu hərəkatı yatırtmaq üçün Nəsr ibni Səyyarı oraya göndərdi. (١٢٠ h.q). Nəsr iğtişaş salanları

yatırtıqdan sonra Mərvdə məskunlaşdı və Əbu Müslimin qiyamına qədər orada qaldı və daha sonra Nişapura yollandı. Əbu Müslim Qəhtəbə ibni Şəbibi onun ardınca göndərdi. Qəhtəbə ilə Nəsr arasında döyüş baş verdi və nəhayət hicrətin ۱۳۱-ci ilində .Nəsr Savədə dünyadan köçdü. Hişam isə hicri tarixinin ۱۲۵-ci ilində vəfat etdi

Hişamın xilafəti zamanı baş vermiş başlıca hadisələrdən biri də imam Baqirin (ə) vəfatı olmuşdur. Şiələrin beşinci imamı Məhəmməd ibni Əli ibni Hüseyn (ə) məşhur rəvayətlərə əsasən hicri tarixinin ۵۷-ci ilində Mədinə şəhərində anadan olmuşudr. O, ali-Məhəmməd elminin sirlərini açıqlayaraq camaat arasında yaydığına görə Baqirul-ülum ləqəbi almışdır. Şiə tarixçiləri onun böyüklüyünü və yüksək əxlaqi dəyərə malik olduğunu e'tiraf etmiş və bir sıra şairlər yüksək əxlaqi keyfiyyətlərini məhd etmişlər. Zəmanəsinin məşhur kəlam alimi ilə birgə keçirdiyi elmi məclislər bütövlükdə xalqın, xüsusilə də şiələrin diqqət nəzərini cəlb etsə də, Mərvaniləri narahat edirdi. Bir dəfə Hişam onu Dəməşqə də'vət etdikdə həzrət oğlu imam Sadiq (ə)-la birgə oraya getmiş və Hişamın bərpa etdiyi elmi məclisdə iştirak etmişdir. O həzrət oradan çıxarkən xristianların böyük alimlərindən biri ilə elmi mübahisə etmiş və onun verdiyi bütün suallara cavab vermişdir. İmam Baqir (ə) hicrətin ۱۱۴-cü ili Mədinədə vəfat etmiş və .Bəqi' qəbristanlığında dəfn olunmuşdur

## İKİNCİ VəLİD

Hişamdan sonra Vəlid ibni Yezid xilafətə çatdı (۱۲۵ h.q). Bu illər Əməvilərin dövləti .zəifləməkdə və bu sülalənin hakimiyyəti süqut etməkdə idi

Gördüyünüz kimi, Qəhtanilər və Qeysilər uzun illərdən bəri aralarında olan düşmənçiliyi unutmamışdılar. Başdan-başa İraq və İran ərazilərinə səpələnmiş bu .qəbilə arasında daim münaqişə baş verirdi

Qəhtanilər şərqdə daha çox idi və onlar Ədnanilərin hakimiyyətinə dözə bilmirdilər. İş başına gələn hər hansı bir xəlifə bə'zən Ədnaniləri himayə edib Qəhtaniləri alçaldar və bə'zən də bunun əksi baş verərdi. Əməvi hökumətinin son otuz ildə iş başına gələn xəlifələri nə Əbdülməlik ibni Mərvan kimi hər iki qəbilənin qüvvələrini bərabər səviyyədə əldə saxlaya bilir, nə onları öz yerlərində oturtmağı bacarır və nə də xalq arasında hörmət qazanmış Ömər ibni Əbdüləziz kimi pərhizkar və düzgün olmaqla .onların rəğbətini qazana bilirdilər

Vəlid ibni Yezid ana tərəfdən Ədnanilərlə qohum olduğundan İraq və Xorasanın hakimi Yusif ibni Ömər Səqəfiyə Kufənin hakimi Xalid ibni Abdullah Qəsrini devirmək üçün tam .ixtiyar verdi. Bu işdən Qəhtanilər bərk narahat oldular

Xorasanda Qəhtani tayfaları birləşərək hökumət üçün çətinliklər yaradırdılar. Qısa müddət ərzində bir xəlifənin başqa bir xəlifə ilə əvəz olunması hökumətin sabitliyini pozmuşdu. Xüsusilə də bu xəlifələrin

əksəriyyəti şərab içməkdən, əyyaşlıqdan və günlərini musiqi məclislərində keçirməkdən başqa bir iş görmürdülər. Narazı əhali bə’zi vaxtlar ələvilərin ətrafına toplaşaraq qiyam edirdilər. Lakin bu qiyamlar müntəzəm olaraq yatırılsa da, sonradan .başqa bir qiyama zəmin yaradırdı

Vəlidin xilafəti dövrü Xorasana gedən Yəhya ibni Zeyd inqilabi hərəkata başladı, ancaq Nəsr ibni Səyyarın mə’murlarının müqaviməti ilə üzləşərək öldürüldü. Əbdülməlik ibni Mərvandan sonra Əməvi hökumətinin süqut nişanələri görsənirdisə də, artıq Vəlidin dövründə bu daha da aşkar oldu. Vəlid xoş güzəran içində yaşayan bir adam idi. O, ya şərab içər, ya həmsöhbətləri və musiqiçələrlə bir yerdə olar, ya da vaxtını ov ovlamaqla keçirərdi. İbni Əbd Rəbbəh yazır: “İshaq ibni Məhəmməd Əzrəq deyir ki, Vəlid öldürüldükdən sonra mən Mənsur ibni Cümhur Tələbinin yanına getdim. Vəlidin kənizlərindən ikisi orada idi. Mənsur mənə dedi: Bu kənizlərin söylədiklərinə qulaq as.” Kənizlər cavab verdilər: Əhvalatı artıq söyələmişik!” Mənsur dedi: “Mənə söylədiyiniz kimi İshaqa da danışın.” Onlardan biri dedi: “Kənizlərin içində ona ən əziz olan biz idik. Bir gün müəzzinlər namaz vaxtı azan dedilər. Vəlid mənim sərxoş və cənabətli halda ”.olan dostumu camaat namazı qılmağa göndərdi

Vəlid şəriət hökmlərinə e’tinasız yanaşıb dövlət işlərində səhlənkarlıq etməsi ilə yanaşı, o qədər daşürəkli adam idi ki, hətta öz qohumlarına belə güzəşt etmirdi. Necə .ki, bə’zi qohumları onun öz göstərişi ilə öldürülmüşdü

Əmisi oğlu Yezid ibni Vəlid qarışıqlıqdan istifadə edib Qəhtanilərdən bir sıra böyük adamları özünə tərəf çəkdi və Dəməşqə hücum etdi. Qiyamçılar Vəlidi elə öz sarayında .qətlə yetirdilər (h.q. ۱۲۶ il) və Yezid özünü xəlifə e’lan etdi

Adamı heyrətə salan budur ki, deyilənlərə görə hücumçuların saraya çatdıqlarını və yaxın bir zamanda öləcəyini bilən Vəlid Qur’anı açaraq qarşısına qoyub dedi: “Osmanın ”.başına gələnlər mənim də başıma gəldi

Ermənistana (ərməniyyə) hakim olan Mərvan ibni Məhəmməd Yezidin xəlifə olmaq xəbərini eşitcək xəlifənin qisasını almaq adı ilə ayağa qalxdı. Lakin Yezid hansı bir şəkildəsə onu razı saldı. Yezid ۶ aylıq sürən xilafətdən sonra öldü və qardaşı İbrahim .xəlifə oldu

Yarımadada yaşayan Mərvan ibni Məhəmməd Muzərilərdən olan dəstələri ətrafına toplayaraq xilafəti ələ keçirmək qəsdi ilə Dəməşqə yollandı. O, zahirdə deyirdi ki, İbrahimi devirib yerinə zindanda olan

Vəlidin digər iki oğlundan birini (Həkəm və Osman) gətirəcəyəm. Mərvanın Dəməşqə gəlişi ilə İbrahim qaçdı. Nəhayət hicrətin ۱۲۷-ci ili Səfər ayında Mərvan camaatdan bey’ət alaraq özünü xəlifə e’lan etdi. Əməvi hökumətinin müxalifləri müvəqqəti olaraq .ixtilafları unutdular

Mərvan bütövlükdə Şamı öz hakimiyyəti altına alsa da, İraqda Vasit şəhəri ilə Kufə şəhərini ələ keçirmiş Xəvaricdən olan Zəhhan ibni Qeys Şeybaninin qiyamı ilə üzləşdi. Mərvan Zəhhanı devirərək İraqda sakitlik yaratmağa müvəffəq oldu. Lakin bu illər .Xorasanda başqa hadisələr baş verməkdə idi

Xorasanda məskunlaşmış Qəhtanilər Ədnani qəbiləsinin Mərvanın ətrafına toplaşdığını görərək bu məntəqənin narazı camaatı ilə yekdil oldular və onların hamısının səyləri bir cəhətə yönəldi. Onlar Əməvilərin hakimiyyətini devirib xilafəti Peyğəmbər ailəsinə vermək istəyirdilər. Onlar iddia edirdilər ki, bəni Üməyyənin xilafəti dövründə meydana çıxmış milli (qövmi) üstünlüklər İslam dininin əksinədir və .həqiqi İslamın bərpası üçün ali-Məhəmməd (ə) xilafəti öz əlinə almalıdır

Bu dövrdə əhali dini hökmlərin və Peyğəmbər sünnəsinin məhv edildiyinin və bid’ətlərin meydana çıxmasının şahidi olmuşdular. Onlar deyirdilər: “Bütün problemlərin həlli, ağrı-acıların əlacı və bütün dağıntıların yararlı hala salınması üçün yalnız və yalnız müsəlmanlar Qur’ana və həqiqi İslam hökumətinə üz tutmalı, Peyğəmbər və Raşidi xəlifələrinin adət-ən’ənələrini yenidən bərpa etməlidirlər. Ancaq müsəlmanların hakimiyyəti altında yaşayan əcnəbilər isə Əməvilərin və onların yerlərdəki hakimlərinin zülm və təzyiqlərindən əziyyət çəkirdilər. Onlar ədalətlə rəftar edəcək, vergiləri və digər təzyiqləri yüngülləşdirəcək bir hakimi arzulayırdılar. Əməvilərin yerlərdəki hakimlərinin zülmündən təngə gəlmiş iranlıların bə’zisi Peyğəmbər ailəsinə məhəbbət bəslədiyinə görə, bə’zisi isə öz mənfəətinə görə Əməvi .hakimiyyətinə qarşı hərakatda iştirak etmək üçün inqilabçı dəstələrə qoşulurdular

Hicri tarixinin ۶۵-ci ilində baş vermiş Muxtar ibni Əbu Ubeydə Səqəfinin qiyamına nəzər saldıqda görürük ki, o, camaatı Əlinin (ə) oğlu Məhəmməd ibni Hənəfiyyənin ətrafında toplaşmağa də’vət edərək, onu ümmətin Mehdisi kimi tanıtdırı. Onun ardıcılları Kisaniyyə adını almışlar. Hicrətin ۸۱-ci ilində Məhəmməd Taifdə vəfat edərkən, onlar

onun ölmədiyini iddia edib deyirdilər ki, o, Mədinə yaxınlığında yerləşən Rəzəvi .dağında yaşayır və onun yeməyi qeybdən gəlir. O, Allah istədiyi zaman aşkar olacaq

Kisaniyyə məzhəbinin nümayəndələri öz də’vətlərini ilk növbədə Xorasanda yaydılar. .Çoxlu sayda tərəfdarları olsa da get-gedə bu də’vət ali-Abbasın xeyrinə tamamlandı

Abbasilər və onların tərəfdarları şayiə yaydılar ki, Məhəmməd Hənəfiyyədən sonra oğlu Əbu Haşim imam oldu. Şama etdiyi səfərlərin birində (٩٨ il h.q.) Hümeymədə Məhəmməd ibni əli ibni Abdullah ibni Abbasla görüşərək elə oradaca imamətini ona tapşırmış və o vaxtdan bəri imamət Abbasi sülaləsinə ötürülmüşdür. Beləliklə Abbasilər həm Peyğəmbər varisi kimi, həm də Əlinin (ə) tərəfindən xilafəti ələ almağa .hüquqları çatırdı

Məhəmməd öz də’vətçilərini Hicazdan kənara, xüsusilə də Xorasana göndərdi. O, öz nümayəndələrinə tapşırıq verdi ki, xəlifə olmaq üçün müəyyən bir şəxsin adını çəkməyin. Məhəmməd öldükdən sonra özünün vəsiyyətinə əsasən oğlu İbrahim onun .canişini oldu

Bu dövrdə Mərvdə yaşayan Əbu Müslim onun də’vətini Xorasanda aşkar etdi. Abbasilərin imamı öz tərəfdarlarına deyirdi ki, çalışın iranlıları ətrafınıza toplayın, ərəblərdən yalnız Qəhtaniləri özünüzə tərəf çəkin, çalışın Ədnanilərdən uzaqlaşın, .hətta bacardıqca onları qətlə yetirin

Əbu Müslim Xorasandakı şiələri, Qəhtaniləri və Əməvi hökumətindən narazı olanların hamısını öz ətrafına topladı. Xorasan şəhərlərini bir-bir Əməvi nümayəndələrinin əlindən aldı. Onları İrandan çıxardıqdan sonra İraqa tərəf üz tutdu. Əbu Müslim İraqa çatmamışdan bir az əvvəl Abbasilərin imamı İbrahim qətlə yetirildi. Qardaşı Abdullah ibni Məhəmməd ibni Əli (Səffah) (ləqəbi isə Əbul-Abbas idi) özünü Kufəyə yetirib .oranın şiələrinin yanında gizlincə yaşadı

Əbu Müslimin qoşunu Kufəyə çatdı. Digər tərəfdən isə Mərvanın qoşunları Mosul tərəfdən özlərini oraya çatdırdılar və müharibə başlandı. Bu döyüş on gün davam etdi və nəhayət Mərvanın qoşunu məğlub oldu, özü isə qaçaraq Busir də (Misirdə) öldürüldü və başı kəsilib Əbul-Abbasa göndərildi. Beləliklə, Əməvilərin ٩٠ illik xilafəti .sona yetdi

## ƏMƏVİ HÖKUMƏTİNİN TƏHLİLİ

Gördüyünüz kimi, Üməyyə ibni Əbdüş-şəmsin nəvəsi Müaviyə ibni Əbu Süfyan hicrətin ۴۱-ci ilində özünü müsəlmanların xəlifəsi adlandıraraq özündən sonra oğlu Yezidi vəliəhd tə’yin etdi. Yezidin ardınca isə ۲-ci Müaviyə çox qısa müddətdə hakim oldu və o, öldükdən sonra Süfyani sülaləsinin xilafəti sona çatdı. Şam camaatı Mərvan ibni .Həkəm ibni Əbul A’s ibni Üməyyə ibni Əbdüş-şəmsə bey’ət etdilər

Mərvanın övladları hicrətin ۱۳۲-ci ilinə qədər xilafətə sahib oldular. Bu sülalənin axırıncı xəlifəsi Himar ləqəbli Mərvan ibni Məhəmməd Abbasilərin qiyamı nəticəsində qətlə .yetirildi. Beləliklə, Üməyyə sülaləsinin hakimiyyəti sona yetdi

:Əməvilərin hakimiyyəti dövrü bir neçə cəhətdən təhlil və təhqiq olunmalıdır

Ölkələri fəth etmələri və bu sülaləyə mənsub hakimlərin siyasi nüfuzlarının.۱ ;yayılması

;Üsuliddin və füruiddində köklü dəyişikliklərin baş verməsi.۲

Belə geniş qüdrətə malik olmuş Əməvi hökumətinin ۹۰ ildən artıq davam gətirə.۳ ;bilməsi

Xəritədən də mə'lum olduğu kimi, ۴۱-ci ildən ۱۳۲-ci ilə qədər İslam hökumətinin əraziləri kifayət qədər genişlənmişdi. Belə ki, ۵۰۰ il davam edən Abbasi hökuməti bu .əraziyə heç də artıq bir şey əlavə etməmişdilər

Bu sülalənin İslam dinində gördükləri əsaslı dəyişiliklər qısaca olaraq aşağıdakılardan :ibarətdir

Peyğəmbər (s)-dan sonra camaatın nisbi bey'əti əsasında qurulan İslam hökuməti.۱ mütləq monarxiya və miras olaraq bir-birinə ötürülən hakimiyyətlə əvəz olundu. Bə'zi qərb şərqşünasları çalışırlar ki, Müaviyənin Yezidi vəliəhd tə'yin etməsini xalqın razılığını əldə etməklə həyata keçirdiyini sübut etsinlər. Və bunun ən bariz nümunəsini bir neçə tanınmış şəxsiyyətlərin ona bey'ət etməsi ilə əlaqələndirirlər. Bu sözlərlə Yezidin xəlifəliyini Raşidi xəlifələrinin seçilməsi kimi tanıtdırmaq istəyirlər. Lakin qeyd olunduğu kimi, Yezidin vəliəhd tə'yin olunması məsələsi pul vermək və güc tətbiq etməklə qabaqcadan hazırlanmış bir plan əsasında olmuşdur. Yezidə bey'ət etməkdən boyun qaçıran o üç nəfərin xalq arasında çox yüksək hörməti var idi. Buna görə də Müaviyə onlara birbaşa zərər yetirə bilmir, həmçinin ölkədəki siyasi vəziyyət buna imkan vermirdi. Bundan əlavə bə'zi mənbələrdə qeyd olunub ki, Müaviyə Yezidə bey'ət almaq üçün Hicaza səfər edən zaman məsciddə o üç nəfərin hər birinin başı .üstə nəzarətçi bir mə'mur qoydu və e'tiraz etdikləri zaman onları öldürməyi əmr etdi

Bu dövrdə İslam hökumətinin əsas bünövrələrindən biri hesab olunan bərabərlik.۲ aradan getmişdi. Halbuki, Qur’an və Peyğəmbər sünnəsi bütün üstünlükləri ləğv etmişdi və Allah yanında ən uca me’yar təqvalı olmaq sayılırdı. Əməvilər ərəb soy kökünü ən uca millət hesab edir və İslam peyğəmbərinin də ərəb olduğunu deyirdilər. Deməli başqa

.xalqların içərisində ərəblər və onların da arasında Qüreyş hamıdan üstün sayılırdı

Ölkənin gəliri ümumi işlərə xərc olunmur, müharibədən əldə olunmuş qənimətlər,.۳ fəth olunmuş ərazilərdən gələn gəlir cihadda iştirak edən əsgərlər arasında bölünmür və hökumət bu gəlirləri özlərinin gözəl və təmtəraqlı həyat sürmələri üçün .xərcləyirdilər

.Zindana salmaq, işgəncə, ölüm və bə'zən də kütləvi qırğın çox geniş yayılmışdı.۴

Raşidi xəlifələrinin hakimiyyəti dövründə adəti üzrə bir mövzu haqda hökm çıxarmaq.۵ üçün ilk növbədə Qur'ana və Peyğəmbər sünnəsinə müraciət olunurdu. Orada bir hökm (qəti cavab) tapmadıqda səhabələrdən soruşardılar (mühacir və ənsar) ki, siz bu barədə Peyğəmbərdən bir hədis eşitmisiniz ya yox? Bu axtarışlardan sonra bir sənəd əldə etmədikdə fiqh elmində dərin biliyə və uzaqgörənliyə malik olan alimlər öz ictihadları əsasında hökm çıxarırdılar. Və bunun də şərti bu idi ki, verilən hökm Qur'anın zahirinə və Peyğəmbərin sünnəsinə tam surətdə zidd olmasın. Ancaq Əməvilər dövründə xəlifələrin verdikləri hökmün Qur'an və Peyğəmbər hədisi ilə ziddiyyət təşkil etməsində heç bir maneə görmürdülər. Qeyd etdiyimiz kimi, Müaviyə Peyğəmbər hədisinin ziddinə olaraq Ziyadı qanunsuz yolla Əbu Süfyanın oğlu və .özünün qardaşı adlandırdı

Bildiyiniz kimi, İslam fiqhində günahkar və müttəhimi cəzalandırmaq üçün "həddlər".۶ (yə'ni hər hansı bir günahkarı və ya səhv iş görəni cəzalandırmaq üçün tətbiq olunan cəza tədbirləri) və "diyələr" (yə'ni hər hansı bir günah müqabilində ödənilən cərimə, qanbahası və s.) termini ilə tanınmış hökmlər mövcuddur. Günahkar bu hökmlərə əsasən cəzalandırılmaladır. Lakin Əməvilər dövründə günahkarlar İslam qanunu əsasında cəzalandırılmırdı. Müqəssirin cəzalandırılması hakimin öz şəxsi nəzərindən asılı idi. Bə'zən müqəssiri bağışlayar, bə'zən isə günahsız yerə öldürərdilər. Bə'zən də .müqəssirə işlətdiyi günahdan artıq cəza verilərdi

Müsəlman ərazilərində böyük fəqihlərin yetişməsinə baxmayaraq, demək olar ki,.۷ onların sözünə heç kəs qulaq asmayırdı. Əgər bir fəqih hər hansı bir hakimin zərərinə hökm çıxarmış olsaydı, onu təhlükə gözləyirdi. İslamın mühüm əsaslarından sayılan yaxşı işlərə də'vət və pis işlərdən çəkindirmə (əmr be mə'ruf nəhy əz münkər) bu

səbəbə görə yaddan çıxarıldı. Heç kəsin xəlifə və ya onun yerlərdə olan .nümayəndəsini pis işlərdən çəkindirməyə cür’əti çatmırdı

İslam və müsəlmanların müqəddəs saydıqları şeylər təhqir olunurdu. Belə ki, Kə’bə.۸ evi və Məscidül-həram viran edildi, Peyğəmbər məzarı, məscidi və minbəri təhqir .olundu. Mədinə əhalisini isə ۳ gün kütləvi surətdə qırdılar

İslam tarixində ilk dəfə olaraq Peyğəmbər övladlarını qətlə yetirib arvad-uşaqlarını,.۹ .bütövlükdə ailə üzvlərini əsir alaraq şəhərlərdə gəzdirdilər

Cahiliyyət dövrünün şüarları və Peyğəmbər zamanı yasaq edilən yersiz mədhlər.۱۰ yenidən geniş formada yayılmağa başladı. Əməvi dövrünün şairləri bacardıqca xəlifə və ya hakimi layiq olmadığı xüsusiyyətlərlə tə’rif edir, onlarda olan çatışmazlıqları isə .müsbət keyfiyyət kimi qiymətləndirirdilər

Hakimlərin razılığını əldə edib Allahı qəzəbləndirən satqın, dünyapərəst alimlər iş.۱۱ başına gəlirdilər. Bunlar Qur’an ayələrini və Peyğəmbər hədislərini öz istədikləri kimi .təfsir edir, hakimlərin sözlərini və rəftarlarını onların xeyrinə izah edirdilər

Geyim, yemək, saray, ev əşyaları və bütövlükdə yaşayış tərzi günbəgün.۱۲ ziynətlənirdi. Rum imperiyası üslubunda saraylar, qış və yay iqamətgahları, hökumət .sarayında, hətta ovlaqlar da belə gözəl bəzədilmiş hamamlar tikilirdi

Sərxoşluq, əyyaşlıq və rəqqasə kənizlərin alınması geniş surətdə yayılmışdı. Belə ki,.۱۳ Əməvi xəlifələrindən bə’zisinin söz-söhbəti ancaq qadın, yemək-içmək və şərab .barəsində idi

## FəTH OLUNMUŞ öLKəLəRDə DİLİN VəZİYYəTİ

Bildiyimiz kimi, Ərəbistan yarımadasından şimala və şərqə üz tutan ərəb əsgərlərinin dili ərəb dili olmuşdur. Ordu başçıları ilə danışmaq üçün təbii ki, ərəb dilini bilmək lazım gəlirdi, ancaq yerli xalq öz aralarında ana dillərində danışırdılar. Beləliklə, ərəb dili hakimiyyətin əhatə dairəsində rəsmi dil e’lan edildi. Əbdülməlikin xilafəti zamanı Həccacın hakim olduğu dövrdə Saleh ibni Əbdürrəhman mühasibat idarəsini pəhləvi dilindən ərəb dilinə çevirdi. Şamda da həmçinin idarələri yunan dilindən ərəb dilinə .çevirdilər

Suriya, Fələstin və İordaniyadakı xalqlar ərəb köklü arami dilində danışırdılar, ərəb

olmayan bu xalqlar İslamı qəbul etdikdən sonra ərəb dilini çox tez qavradılar. Ancaq bu dəyişiklik (dilin dəyişilməsi prosesi) Misirdə iki əsrə yaxın müddət ərzində həyata keçdi, deyilənlərə görə hicrətin üçüncü əsrində ərəb dili qibti dilinin yerini tutdu. Bildiyiniz kimi, bu islahatlarda xalq mə’murlar tərəfindən təzyiqlərə məruz

qalmamışdır. Şərqdə – Bəsrə, Kufə və Vasitdə məskunlaşmış iranlılar ərəb dilini çox gözəl öyrənib, hökumət idarələrində fəaliyyət göstərmiş və ölkələrin bə'zi alimləri, hətta ərəb dilinin qarmmatikasına dair kitablar da yazmışlar. İraqı çıxmaq şərti ilə heç bir yerdə fars dili öz yerini ərəb dilinə vermədi. Bunun səbəbini başqa bir yerdə ətraflı surətdə yazmışıq. Qısası budur ki, İslam dini hələ İrana gəlməmişdən əvvəl fars dili və ədbiyyatı özünün kamillik mərhələsinə çatmış, dolğun və təcrübəli bir mədəniyyətə malik olmuşdur. Fars dili və ədəbiyyatı ərəb dili ilə qarşılaşdıqda ehtiyac duyduğu dini terminləri götürərək müqabilində idari, siyasi, fəlsəfi və ədəbi terminləri ərəb dilinə təqdim etmişdir. İranlı alim və ədəbiyyatçılar nəinki ərəb dili qarammatikasının inkişafında ciddi şəkildə çalışmışlar, hətta ərəb dili çərçivəsində elmi məhfumları yaratmaqla bu dili daha da zənginləşdirmişlər. Başqa yerdə dediyimiz kimi, belə təsəvvür olmunmasın ki, ərəblər işğal etdikləri ərazilərdə xalqı ərəb dilini qəbul .etməyə məcbur edirdilər

Yarımadanın iki tərəfindən (şərq və şimal) xaric olub fəth olunmuş ərazilərdə İslamı yayan ərəblər iki əsas dəstəyə bölünür: Allaha görə iş görən dəstə, biri də din adı ilə Allah yolunda cihad edən dünyapərəst dəstə. Birinci dəstə yalnız xalqa Qur'anı, namazı və İslam hökmlərini öyrətmək istəyirdi, ikinci dəstə isə vergi toplamaq arzusunda idi. Bunlar bir şeydən, hakimiyyət etməyin yollarından biri olan zor gücünə dil və mədəniyyət öyrədilməsindən xəbərsiz idilər. Dövlət idarələrini fars dilindən ərəb dilinə döndərən əsli iranlı olan Saleh ibni Əbdürrəhman olmuşdur. İranlıları tə'rifləyən şairə üzünü tutaraq bu cümləni: "Sənə verilən hədiyyə budur ki, buranı sağ-salamat tərk .edəsən" – deyən də İranın Taliqan şəhərindən olmuşdur

İranlı alimlərin İslamın ilk əsrlərində öz kitablarını ərəb dilində yazmaqlarının səbəbi onların bu işə zorla vadar və ya məcbur edilməsi olmamışdır. Bağdadın süqutundan əvvələ qədər ərəb dili başdan-başa müsəlman ölkələrində elmi, siyasi və dini dil olmuşdur. Bu nahiyənin alimləri öz kitablarını ona görə ərəb dilində yazırdılar ki, o dil müsəlman xalqları arasında müştərək ünsiyyət vasitəsi idi. Ancaq onlar öz xalqları üçün kitab yazmaq istədikdə fars dilini seçirdilər. Bunun nümunələrini Salmani və .Ğəznəvi hökuməti dövründə yazılmış elmi kitablardan görmək olar

## MƏZHƏBLƏR VƏ YA ƏQİDƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜXTƏLİF FİKİR YÜRÜDƏN FİRQƏLƏR

Əməvi hakimiyyətinin birinci yüzilliyinin ikinci yarısından başlayaraq bir sıra məzhəblər meydana çıxmışdı ki, onların əsas mərkəzi İraq sayılırdı. Ona görə ki, İraqın bə’zi şəhərləri, o cümlədən Kufə şəhəri əqidələrin, müxtəlif dini və fəlsəfi fikirlərin toqquşduğu bir məkana çevrilmişdi. Deyilənlərə görə ilk mübahisə insanların bir işi görməkdə ixtiyarlı və ya məcbur olmaları barədə düşmüşdür. Hər iki nəzəriyyənin tərəfdarları “qədəriyyə” və “cəbriyyə” adlanırlar. Bu haqda müsəlmanlar arasında ilk mübahisə Siffeyn müharibəsindən sonra baş vermişdir. Belə ki, bir nəfər Əlidən (ə) soruşdu: Biz bu döyüşə öz iradəmizlə gəlmişik, yoxsa buna məcbur idik? Bunun ardınca hər iki dəstə öz əqidəsini müdafiə edərək müqabil dəstəni məzəmmət etmək .üçün hədislərə əl atdılar

Əməvi hakimiyyəti dövründə “Murciə” adlı başqa bir əqidəvi məktəbdə təsis edildi. Əməvilər etdikləri zülmlərə bəraət qazandırmaq üçün bu məktəbdən istifadə edərdilər. Qeyd etdiyimiz kimi, Xəvaricdən olan bir dəstə böyük günah görmüş insanın əbədi olaraq Cəhənnəm odunda qalacağını deyirdilər. Bunun müqabilində isə Murciə “onların işini Allaha tapşırmaq lazımdır” deyirdi. Bəhanələri də bu idi ki, biz onlara (böyük günaha mürtəkib olanlar) qarşı sərt davransaq müsəlman cəmiyyətində təfriqə yarana bilər. Onlar belə bir nəzəriyyələri ilə Müaviyə və digər xəlifələrin gördükləri işləri, o cümlədən təqvalı adamları öldürmələri, Kufə və Bəsrə şəhərini qarət etmələrini təsdiq edirdilər. Murciənin əsas nəzəri Qur’ani-kərimin aşağıdakı :ayəsinə əsaslanır

Bədəvilərdən və Mədinə əhalisindən) döyüşə getməyənlərin bir qisminin də işi Allaha“) qalıb. Allah ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək. Allah (hər şeyi) ”!biləndir və hikmət sahibidir

Cəbri, Qədəriyyə və Murciədən fərqli olaraq özünə orta mövqe seçmiş “Mö’təzilə” məktəbi də meydana çıxdı. Deyilənlərə görə bu məktəbin yaranmasına əsas səbəb bu idi ki, Həsən Bəsri böyük günaha mürtəkib olmuş şəxsi kafir sandığı halda şagirdlərindən biri Vasil ibni Əta isə deyirdi: “Belə bir şəxs nə mö’mindir, nə də kafir, o şəxs imanla küfr arasındakı mövqedə qərar tutmuşdur. Vasil ibni Əta öz müəllimindən

(ayrılandan sonra Həsən dedi: (qəd e’təzələ minna

Yə’ni, o, bizdən uzaqlaşdı. Bu adın, yə’ni “Mö’təzilə” adının onlara verilməsinə dair çox .nəzər və rəylər mövcuddur

səh:۱۹۲

Mö'təzilə məktəbi Abbasi xilafəti zamanı daha da rövnəqlənmiş və bir çox əqidə məsələlərində nəzəriyyə irəli sürmüşdür. Bu firqə barəsində lazımi yerdə ətraflı və .geniş izah verəcəyik

Ancaq görəsən Əməvi hökuməti nəyə görə belə tez süquta uğradı? Afrikanın (Tunis), həmçinin İspaniyanın, şərqdə isə Amurdərya və Sent dərəsinə qədər uzanan ərazilərin fəthi Əməvilər dövründə baş verdiyini çox gözəl bilirik. Bu sülalənin içərisində təcrübəli, iradəli, zor gücünə və tədbirlə İslamın əhatə dairələrini genişləndirən bacarıqlı şəxslər də olmuşdur. Lakin bir belə səy və bacarıqlar həddindən artıq səmərəsiz oldu. Görəsən onlar bu böyük müvəffəqiyyətlərlə yanaşı nəyə görə xalq kütləsinin nifrət və qəzəbinə düçar olmuşdular? Bu hədsiz zülmkarlıqların və ya müqəddəs dini qanunları əldə oyuncağa çevirmələrinin nəticəsi idimi? Əlbəttə bu sualların cavabı hamıya mə'lumdur. Qeyd olunan amillər onların süqutunda yüksək tə'sirə malik idi. Səhv etməsək bunlardan başqa bir şey də vardır ki, ona xüsusi diqqət yetirmək lazımdır. Bu amil dindarlıq hissi və ilahi mə'nəvi dəyərlərdir ki, səhra ərəbləri onun vasitəsi ilə dünyaya ağalıq edən iki böyük imperiyanı dizi üstə çökürə bildilər. Misilsiz qüvvəyə malik olan bu amil İslamın əvvəllərində yüz illər boyu davam etməkdə olan tayfa-qəbilə ixtilaflarına son qoymuş, bir-birlərinə ömürlük .düşmən kəsilmiş şimal və cənub ərəbləri arasında İslami vəhdət yaratmışdı

İlahi gücə malik olan bu tə'sir qüvvəsi Mərvanilər dövründə tədricən zəifləməyə başladı və nəhayət bir müddət sonra öz yerini nəfsani istəklərə və dünyəvi dəyərlərə verərək tamamilə məhv olub aradan getdi. Vaxtilə Ərəbistan yarımadasını, sonradan digər ölkələri fəth edən ilahi dəyərlərin azalıb yoxa çıxması Əməvi səltənətinin .dağılmasında həddən artıq yüksək tə'sirə malik idi

Əvvəldə qeyd etdiyimiz kimi, Hicri tarixi ilə ١١-ci ildə dindən çıxmışlara və daxili düşmənlərə divan tutulduqdan sonra müsəlmanlar öz aralarında mövcud olan ixtilafları bir kənara qoyub əcnəbilərə qarşı mübarizədə birləşdilər. Bu vəhdət Əməvi xilafətinin ikinci yarısında, "Mərəcür-rahit" vuruşmasında aradan getdi. Məhz bu mübarizədə cənub və şimal ərəbləri əks cəhbələrdə mövqe tutub bir-birinə qarşı müqavimət dəstələri yaratmağa başladılar. Əbdülməlik istisna olmaqla, Müaviyədən sonra iş başına gələn xəlifələrin hamısı bu dəstələrdən öz xeyrinə istifadə etmək üçün

həmişə bir tərəfi müdafiə edib yüksək kürsülərdə əyləşdirir, digər tərəfi isə müəyyən təzyiqlərə mə’ruz qoyaraq siyasi-ictimai səhnədən təcrid edirdilər. Xilafətin bütün şəhərlərinə səpələnmiş bu dəstələr daim öz ictimai mövqelərini möhkəmləndirmək üçün münasib

şəraitin yaranmasını gözləmiş, yeni müsəlman olmuş xalqlar da öz mənafelərini tə’min etmək üçün bu iki qüvvədən birini dəstəkləmişlər. Əvvəldə qeyd etdiyimiz kimi, Xorasanda iranlılar cənub ərəblərini müdafiə etməklə Qəhtanilərlə birləşib Əməvilərlə .mübarizəyə başlamışdılar

Bu dəstələrin hansı biri ilə xoş münasibət və həmkarlıq üstündə yaranan daxili ixtilaflar da Əməvilərin zəifləməsində tə’sirsiz olmamışdır. Hətta bə’zi vaxtlarda xəlifə bu məsələyə görə öz qohum-əqrəbalarına belə, rəhm etmirdi. Buna görə də axırıncı yarım əsr ərzində heç bir Əməvi xəlifəsi öz ətrafında vahid bir qoşun və ixtilafsız .hökumət aparatı yarada bilməmişdi

## Əməvilər DÖVRÜNDə FəTH OLUNMUŞ öLKəLəRDə İSLAM DİNİNİN VəZİYYəTİ

Ərəbistanın vəhdətinə dair bəhsimizdə qeyd olundu ki, mürtədlərin çaxnaşması yatırıldıqdan sonra səhra sakinləri (bədəvi ərəblər) və qəbilə başçıları fərdi, ailə və tayfa yaşayış tərzinin sona çatdığını dərk etdilər. Artıq hamı Mədinəyə tabe olmalı və orada əyləşən xəlifəyə itaət etməli idi. Belə bir qüdrətli birliyin təbliğ yolu ilə dini yaymaları labüd idi. Qonşu ölkələrdə dini təbliğ etməyə hazır olan mütəşəkkil dəstələrin hamısı İslam dini barədə lazımi həddə birliyə malik deyildilər. Onlar bu dini, Hicazdan qıraq ölkələrə aparıb yaymaqda eyni məqsəd güdmürdülər və bir dəstə adam bir növ vuruşub çoxlu miqdarda qənimət əldə etmək istəyirdi. Belə bir hadisə ilə müsəlmanlar hələ Peyğəmbərin (s) öz sağlığında da üzləşmişdilər. Peyğəmbər (s)-dan nəql olunmuş hədisi Buxari öz kitabının əvvəlində belə dərc edib: “Hər bir kəs Allaha və Peyğəmbərə xatir hicrət edərsə, onun mükafatı Allah və Peyğəmbərin yanındadır, hər bir kəs bu hicrətdən dünya malı və gözəl qadın istəyərsə ondan başqa bir şey nəsibi olmayacaqdır.” Mə’lumdur ki, fəthlərdə iştirak etməyə hazır olan qüvvələrin bə’zisi birinci dəstənin sırasından sayılmırdılar (yə’ni yalnız bu fəthlərdən dini yaymaq məqsədini güdən dəstə). Ancaq elə ilk günlərdən Peyğəmbərin (s) sünnəsinə əsasən qoşunun getdiyi yerə Qur’anı və İslam fiqhinin hökmlərini öyrədən dəstə də gedərdi. Bu dəstə bə’zi hökmlərin istədikləri kimi deyil, iman əsasında İslamı camaata öyrədirdilər. Onların (dərs verənlərin) əksəriyyətinin sözləri ilə rəftarları üst-üstə düşdüyündən haraya getsəydilər orada əqidəli, dinin hökmlərinə yerli-yerində riayət edən müsəlmanlar yetişdirir və ya tərbiyə edirdilər. Peyğəmbərdən (s) sonrakı

dövrlərdə şəriətə uyğun gəlməyən söz deyən və ya hərəkət edən

hakimlərə də irad tutan bu dəstə olmuşdur. Cəza tədbirlərində və hüquqi işlərdə İslam fiqhinin tətbiq olnumasının bünövrəsini qoyanlar da bunlar olmuşlar. Qur’anın zahiri ayələrində, Peyğəmbər (s) sünnəsindən istifadə edərək müsəlmanların məişətinə uyğun hökmlər çıxarırdılar ki, bu da Əməvi hökumətinin sonu, Abbasi xilafətinin ilk çağlarında genişlənməyinə, formalaşmasına və günün tələblərinə uyğun olmasına gətirib çıxardı. Əməvilər dövründə İslam fəthləri yalnız işğalçılıq xarakteri daşıyırdı. Əsgərlər qənimət əldə etmək, xəlifə isə öz xəzinəsini doldurmaq üçün fəthlərdə iştirak edirdi. Yalnız Ömər ibni Əbdüləziz özünün qısa hakimiyyəti dövründə müharibələri .dayandırıb, əsgərlərə sərhədləri qorumaq əmrini verdi

## HəMİN DöVRDəKİ ELMLəR

Ərəbistan yarımadasının cənubuna dair bəhsimizdə qeyd edildi ki, ermızdan yüz illər qabaq bu ərazi nəzərə çarpacaq dərəcədə sivilizasiyaya malik olmuşdur. Ancaq me’marlıq və (kənd təsərrüffatını) əkinçiliyi çıxmaq şərtilə görəsən digər sahələrdə də irəliləyiş əldə etmişdilər, yoxsa yox? Görəsən bu ərazinin alimləri digər elmlərə dair nəzər və ya əməli təhqiq aparmışlarmı? Bu sualın cavabı müsbət deyildir. Hicazda yarımadanın şimal və şərqində yaşayan ərəblərdən bə’zisi İran və Rum imperiyasının işğal etdiyi ərazilərlə qonşu olduqlarına görə onlar burada yayılmış elmlərdən agah idilər. Ancaq bir şey aydındır ki, İslamdan qabaq Ərəbistan hər hansı bir elmin .meydana gəlməsində və ya işkişafında heç bir rola malik olmamışdır

İslamın təzəcə zühur etdiyi anda Candişapurda (İran ərazisində şəhər olub) bə’zi adamlar həkimlik (tibb elmini) öyrənmişlər ki, onların ən bariz nümunəsi Haris ibni .(Kəldə olmuşdur (hicrətin ٢٣-cü ilində vəfat etmişdir

Hicri tarxinin birinci əsrinin yarısından yunan və siryani dilində yazılmış tibb və əczaçılığa dair kitablar ərəb dilinə tərcümə olunmağa başlamışdır. Əməvi xəlifələri arasında Mərvanın oğlu Əbdülməlik astranomiya elminə daha çox diqqət yetirmişdir. .Deyilənlərə görə o, münəccimləri də özü ilə birgə müharibəyə aparardı

Kəlam elminə (sxolostika) dair elmi mübahisələr birinci əsrin sonunda başlanmışdır. Tarixi sənədlər sübuta yetirir ki, hələ Əlinin (ə) xilafəti zamanı “cəbr” və “qədər”ə dair .elmi mübahisə dərnəkləri və ya yığıncaqları olmuşdur

İslamdan əvvəlki dövrdə (cahiliyyət dövrü) nəql olunmuş xütbə, şe’r və qısa məzmunlu əsərlərə diqqətlə nəzər salsaq mə’lum olar ki, yarımadanın ədəbiyyatı dövrün özünəməxsus rəngarəngliyinə və gözəlliyinə məxsus olması ilə yanaşı, əhalisi sıx olmayan susuz, dünyanın ayrı ölkələri ilə rabitəsi kəsilmiş bədəvi əhalinin məskunlaşdığı bir ərazinin ədəbiyyatı dəqiq zehni məfhumlardan, dərin fəlsəfi fikirlərdən və ibrətamiz mə’nalardan uzaq olmuşdur. Cahiliyyət əsrinin ədəbi irsini Ərəbistan səhrası və onun hər cür elmdən-təfəkkürdən uzaq olan əhalisi yaratmışdır. Bir tərəfdən quru və möhkəm, digər tərfdən isə səfa və səmimiyyətlə dolu, xəyalpərəst və vəsvəsə doğuran ərazilərdə meydana çıxan incəlik, əyinti və ucalıqlardan uzaq bir ədəbiyyat. Ancaq bu heç də o demək deyildir ki, cahiliyyət dövrünün ədəbiyyatı şe’rə lazım olan xəyali məfhumlardan, incəlik və gözəllikdən uzaq .olmuşdur

Bu torpağın şairi sözün əsl mə’nasında şairdir; ancaq onun xəyali surətlərdən bəhrələnməsi bu ərazinin tibbi və qeyri-tibbi amillərinin onun şüuruna qoyduğu tə’sirdən asılıdır. Təbiətdən dərk etdiyi isə zamanın ötməsi, gecə və gündüzün gəlişinin ona öyrətdiyi şeydən ibarətdir. Belə ki, Tərfə ibni Əl-əbd ölümü vəsf etdiyi şe’rində bir məsələyə, bir nəfər öldükdən sonra onun başına nələr gələcəyinə diqqət yetirmir. Görəsən ölüm hər şeyin sonudurmu, yoxsa ölümdən sonra başqa bir dünya da var? O daim başqalarının öldüyünü görmüş və özünün də bir gün bu dünyadan köçəcəyini :fikirləşmişdir. Bu səbəbdən ölüm haqqında aşağıdakı ibarətləri söyləyir

Ölüm hər bir kəsin qismətinə düşən bir paydır. Bu gün ölürsə, heç də gec deyil, çünki sabah öləcəkdir. Simic adamlarla, əliaçıq səxavətli şəxsin qəbirləri eynidir, üzərinə .tökülmüş bir ovuc torpaq və üst-üstə qoyulmuş bir neçə daşdan ibarətdir

Şair bu vəsfində hətta bir məsələyə diqqət yetirmir ki, bu iki nəfər (simic və əliaçıq) öldükdən sonra camaat onlar barəsində nə söyləyəcəklər. Əliaçıq şəxsi tə’rif edib, simici məzəmmət edəcəklər ya

xeyr? Bu iki beyt incə və tərbiyəvi xarakterə malik olmasına baxmayaraq, şairin gözü .önündə baş verən sadə tə’birdən başqa bir şey deyildir

Tezliklə zaman sənə bilmədiklərini aşkarlayacaq. Pul verib xəbər ardınca göndərmədiyin bir kəs sənə xəbərlər gətirəcək. Sənə bu xəbərləri mə’lumat əldə etmək üçün axtarış aparmasını istəmədiyin və bu mə’lumatları ondan almaq üçün .görüş yeri tə’yin etmədiyin kəs gətirəcəkdir

Bildiyiniz kimi, cahiliyyət dövrü şe’rinin əksəriyyəti qövmi qəhrəmanlıq dastanları, qəbilə şöhrətpərəstliyi, yaxın qohumları tərif edib, düşmənləri məzəmmət etmək və ya .təbiətin gözəlliyini vəsf etməkdən ibarət olmuşdur

İslam Məkkədə üzə çıxdıqdan sonra Qüreyş müşrikləri Peyğəmbər və müsəlmanlara qarşı mübarizədə şe’rdən də istifadə edirdilər. Həzrət Peyğəmbər (s) bu barədə buyurardı: “Onlara şe’rlə cavab verin ki, başqa silahlardan daha tə’sirlidir.” Bu minvalla Peyğəmbər zamanında mənəvi dəyərlər üzərində qurulmuş qəhrəmanlıq şe’r növü yarandı. Bu dövrün tanınmış şairi Hissan ibni Sabit Ənsaridir ki, Peyğəmbər (s) onun barəsində buyurmuşudr: Bizimlə birgə olana qədər müqəddəs Ruhul-qudus (Cəbrayıl) !səni qorusun

Bir dəstə adam elə fikirləşirlər ki, bə’zi Qur’an ayələri və hədislərin zahiri məzmunu şe’ri məzəmmət etmişdir, lakin əsl həqiqətdə bu belə deyildir. İslam şəriəti baxımından şe’r yüksək məqama malikdir, hətta belə buyurulub ki, bə’zi şe’rlər hikmət və ya .müdriklikdir

Bildiyiniz kimi, Həssan ibni Sabit Ənsari Peyğəməbr (s) qoşununun şairi idi. Ərəb şairləri bə’zi vaxtlar öz şe’rlərini Peyğəmbərə (s) oxuyar və onlara hörmət qoyulardı. Şəriət və din nəzərində başqalarının hörmət və vüqarını sındıran, günaha sövq edən, heç bir faydası olmayan və ya dünya malına görə hər hansı bir şəxsi yersiz olaraq tərif olunan şe’rlər bəyənilmirdi. Lakin aydındır ki, şe’r daxili hisslər, əqidə və digər ictimai durumların əks-əməlindən meydana çıxır. Raşidi xəlifələrin dövründə ərəb şe’ri özünün illərdən bəri qalan üslubunu qorumuşdu. Lakin bir fərqlə ki, bə’zi şairlər ona .İslam əxlaqını da əlavə etmişdilər

Bu əsrdə öz keçmiş adət-ən’ənələrinə sadiq qalaraq mükafat almaqla zamanın tələbinə uyğun yersiz həcv və mədh yazan şairlər də olmuşdur. Zəbərqanla Hətinənin hekayəsi məşhurdur.

Zəbərqani ibni Bədr öz qövminin başçısı olmaqla yanaşı həm də onlardan alınan vergiləri (zəkatı) toplamaqla məşğul idi. Bəni Ənfun-naqə tayfası isə Zəbərqanla rəqabət aparır və ona nifrət bəsləyirdi.

Hətinə Mədinəyə səfər edərkən yolda Zəbərqanla rastlaşır, Zəbərqan isə ona yüksək dərəcədə ehtiram göstərir. Bu iş bəni ənfun-naqə tayfasının xoşuna gəlmir. Nəhayət onlar Hətinəni öz tərəflərinə çəkib onu Zəbərqanı həcv etməyə məcbur edirlər. Zəbərqani Ömərə şikayət etdi; Ömər şe'ri eşitdikdən sonra dedi: "Mən bu beytlərdə heç bir həcv görmürəm." Zəbərqan bu işə hakimlik etmək üçün Həssanı də'vət etməsini xahiş etdi. Ömər bu xahişi qəbul edib Həssandan soruşdu: "Hətinə bu şe'rdən Zəbərqanı həcv etmişdirmi?" Həssan cavab verdi: "Onu nəinki həcv etmiş, hətta .başdan ayağa təhqir edib pis sözlər söyləmişdir." Və Ömər Hətinəni zindana saldı

Peyğəmbər (s) və Raşidi xəlifələri zamanı qəbilə şöhrətpərəstliyi üzərində qurulmuş qəhrəmanlıq şe'rləri öz keçmiş rövnəq və rəngarəngliyini itirmişdi. Çünki bir tərəfdən İslam dininin göstərişləri Ərəbistanda köklü dəyişikliklər əmələ gətirmiş, digər tərəfdən müxtəlif qəbilələr İslam qardaşlığı bayrağı altında birlik əldə etmiş və ən başlıcası isə yarımadanın kənar ölkələrini fəth etməyə başları qarışmışdı. Ancaq hicrətin ۳۵-ci ilindən başlayan Cəməl döyüşü və ardınca Siffeyn və Nəhrəvan döyüşlərindən sonra Muzərilərlə Qəhtanilər və digər qəbilələr arasındakı ixtilaf yenidən baş qaldırdı. Siffeyn və Nəhrəvan müharibələrində bə'zi şair və döyüşçülərin rəcəzlərində öz qəbilələrini tərifləyib müqabil tərəfi məzəmmət etdiklərinin şahidi oluruq. Lakin bir məsələyə diqqət yetirilməlidir ki, onlar din uğrunda və müsəlmanların .imamının əmri ilə döyüşə gəliblər

Ziyad Həzrət Əlinin (ə) nümayəndəsi kimi Bəsrəyə gedəndə Əzd tayfası ona köməklik göstərdilər və Təmim tafası isə məğlub oldu. Əzd tayfasından olan bir şair bu hadisəni elə bir tərzdə vəsf edir ki, elə bil o, İslamdan əvvəlki ərəb günlərini tərif edir. O, şe'rində "zamanın xəlifəsinə tabe olduq" demək əvəzinə, belə deyir: "Biz saziş və əhd-peyman bağladığımız şəxsi öz evinə qaytardıq, Təmim tayfasının həmpeymanı isə ".yanıb kül oldu

Əlinin (ə) şəhadətindən, Müaviyənin iş başına gəlişi ilə Şamın İraq üzərindəki qələbəsindən sonra mədh və həcv məzmunlu şe'rlər yenidən rövnəq tapdı. Əməvi hakimiyyəti dövründə bir sıra şairlər Şamdakı sarayla sıx rabitə yaradıb bu sülaləni tərif etmək və müxaliflərini məzəmmət etmək üçün istədikləri şe'ri yazırdılar. Bu dəstəyə daxil olan şairlərin ən bariz nümunəsi Kə'b ibni Cueyl, Mütəvvəkil Lisi,

Abdullah ibn Humam Səluli, Əbul-Abbas Ə’ma, Miskin Darəmi, Əxtəl, Ədi ibni Riqa’ və :başqalarıdır. Məsələn Kə’b ibni Cueyl belə yazır

Şamlıların İraqlılardan xoşu gəlmir

.İraqlıların da Şamlıları xoşlamadığının şahidiyik

.İraqlılar dedilər ki, Əli (ə) bizim imamımızdır

(Biz isə dedik: Biz Hindin oğluna da razıyıq (yə'ni Müaviyə

Bu şe'ri yazan Əlinin (ə) qoşunu ilə Müaviyə arasında toqquşma baş verən zamanda yaşamış bir şairdir. Belə ki, onun şe'rində iraqlılarla şamlılar arasındakı rəqabətin yenidən baş qaldırdığının şahidi oluruq. Elə bil o, İslamdan ١٠٠ ilə əvvəlki Ğəssanilərlə .Ləxmilər arasındakı münaqişəni nəzmə çəkmişdir

:Yezid ibni Müfərrəğ isə Mərvan ibni Həkəmi belə tərif edir

Siz mədhin bazarını qiymətləndirdiniz

.Halbuki, bundan əvvəl öz rövnəqini itirmişdi

Deyəsən Allah-təala canların alınmasını

.Və ruzilərin bir hissəsini sizin öhdənizə tapşırıb

Görünür bu saray şairləri öz sənətlərinin adət-ən'ənəsinə uyğun olaraq söylədiklərin .şe'rin müqabilində külli miqdarda ən'am alırdılar

Əməvi xəlifələri arasında yalnız Ömər ibni Əbdüləziz olmuşdur ki, heç bir tə'rif qəbul etməmiş, tərifləməyi özlərinə vərdiş edən şairləri mükafatlandırmamış və əgər vermiş .olsaydı da çox az bir miqdarda ən'am verərmiş

Əməvi şairlərinin müqabilində şiə şairləri də var idi ki, onlar Əbu Süfyan ailəsinin zülmünü və ali-Haşimin məzlumluğunu görərək, heç bir şey ummadan onları öz şe'rlərində tə'rif və mədh etmişlər. Bə'zi hallarda belə şe'rlərə görə işgəncə altına, ya da zindana düşməli olurdular. Ouf ibni Abudllah ibni Əhmər Əzdi Kərbəla hadisəsi :haqda belə söyləyir

Hər dəfə günəş doğduqda və hər dəfə qaranlıq

Hər yeri bürüdükdə ağlayar hər ağlayan kəs

Gərək Hüseynə (ə) ağlasın! Ey kaş

Ounla birgə olub ləyaqətsiz düşmənləri

!Ondan uzaqlaşdıra biləydim

Gücüm yetən ana qədər onun yolunda

.Ox atıb qılınc çalardım

:Abdullah ibni Kəsir Səhmi deyir

səh:۱۹۹

Bu günlər Peyğəmbəri (s) və Əli (ə) övladlarına məhəbbət bəsləmək günah hesab“ olunur. Əgər onlara məhəbbət bəsləyib sevsəm günah etmiş olarammı? Xeyr! Bəlkə ”.onları sevmək günahları pak edər

Fərəzdəqin qəsidəsi isə bir ayrı üslubda yazılmışdır. Əbdürrəhman Cami onu fars dilinə tərcümə edərək özünün “Silsilətüz-zəhəb” adlı əsərində dərc etmişdir. Tərcümə :olunmuş şe’r aşağıdakı beytlə başlanır

.Hərəmdə idi Əbdülməlikin oğlu Hişam

.Onunla birgə idi cümlə əhli Şam

Bildiyiniz kimi Hişam Məscidül-həramda camaatın Əli ibni Hüseynə (ə) qoyduğu ehtiramı gördükdə özünü bilməməzliyə vuraraq soruşdu: “Bu kimdir belə camaat onun üçün yol açır ki, Həcərül-əsvədə (qara daş) yaxınlaşsın?” Fərəzdəq ona cavab olaraq bu qəsidəni yazmışdır. Belə bir mədhiyyələrin yazılıb dillərə düşməsi təhlükəli və qorxulu sayılırdı. Lakin şair əhli-beyti sevdiyindən, həmçinin Əməvi xəlifəsini olan nifrətin dərinliyindən bu şe’ri yazmış və müqabilində isə hər bir təhlükəni öz üzərinə .götürməyə razı olmuşdur

Bu şairlərin ən görkəmli nümyəndəsi Əbul Müstəhil Kumeyt ibni Zeyd Əl-Əsədidir ki, (۶۰-۱۲۶-cı hicri ilində yaşamış) Bəni-haşim haqqında yazmış olduğu qəsidələr “Haşimiyyat” adı ilə məşhurdur. Bu qəsidələr bir sıra xarici dillərə tərcümə edilib çap olunmuşdur. Kumeyt Əliyə (ə) dair, Ğədir-xum hadisəsinə dair, Kərbəla faciəsi haqqında, həmçinin ali-Məhəmmədin məzlumluqları haqqında uzun-uzadı ürək yandırıcı qəsidələr yazmışdır. Kumeyt Mədinəyə gələndə imam Cə’fər ibni Məhəmməd Sadiq (ə)-ın yanına gedərək Kərbəla şəhidlərinin müsibəti haqda yazdığı qəsidəni ona oxudu. İmam Sadiq (ə) buyurdu: “Kumeyt əgər əlimdə imkanım olsaydı sənə ən’am verərdim. Ancaq sənə Peyğəmbərin (s) Həssana buyurduğunu verirəm: “Biz əhli-beyti müdafiə etdiyinə görə Ruhul-qüdus (Cəbrayıl) yardımçın olsun.” Sonra isə o, Abdullah ibni Həsən ibni Əlinin yanına gedib öz şe’rini ona oxudu. Abdullah isə dedi: “Mənim dörd min dinar dəyərində olan əkin sahəm var, bu mülkün sənədini şahidlərin iştirakı ilə sənə təqdim edirəm.” Kumeyt belə cavab verdi: “Atam-anam sənə qurban olsun! Mən başqalarını tə’rif edərkən əna’m almışam. And olsun Allaha, sizin haqqınızda

söylədiyim şe’rləri Allaha xatir yazmışam.” Abdullah mülkün sənədini zorla ona verdi. :Bir neçə gündən sonra Kumeyt onun yanına gedib dedi

Ey Peyğəmbər övladı, mənim səndən bir diləyim var! Mənim istəyimi yerinə“ ”?yetirərsənmi

!İstəyin nə olsa yerinə yetirərəm

Mənə verdiyin sənədi gətirmişəm ki, onu məndən geri götürəsən. Bununla da o, sənədi geri qaytardı. Sonra Abdullah ibni Müaviyə ibni Abdullah Cə’fər bir dəri götürdü və dörd nəfər qulluqçusuna tapşırdı ki, hər biri dərinin bir ucundan yapışıb Bəni-haşimin evlərini gəzməyə başlasınlar. Abdullah dedi: “Ey Bəni haşim! Sizi tə’rif və mədh edən Kumeyt olmuşdur. Başqaları susanda o, sizləri tə’rif etmişdir. Bu işi yerinə yetirərkən özünü bəni Üməyyə müqabilində təhlükəyə atmışdır.” Hər kəs gücü çatan şeydən onun içinə qoyurdu, hətta qadınlar öz bəzək əşyalarını çıxarıb dərinin içinə atırdılar. Yüz min dirhəm dəyərində əşya toplandıqdan sonra Kumeytin yanına gedib dedi: “Bu azacıq mükafatı sənin üçün gətirmişəm. Bilirsən ki, hakimiyyət düşmənlərimizin əlindədir, bizim də əlimimzdə bir şey yoxdur.” Kumeyt isə belə cavab verdi: “Atam-anam sənə qurban olsun! Siz mənə bundan da artığını vermisiniz, mən sizi tə’rif və ya mədh etməkdə ancaq Allahın və onun Peyğəmbərinin razılığını istəyirəm.” Abdullah nə .qədər çalışdısa, Kumeyt o maldan bir şey belə götürmədi

Öz əhd-peymanına sadiq qalan şairlərdən əlavə olaraq, bu dövrdə təbiətin və insanın (əksər halda qadınların) füsunkar gözəlliklərini vəsf edən və qəzəl yazmağı özünə .peşə seçən bir dəstə şairlər də meydana çıxmışdı

Mədinə əhalisindən və Ous qəbiləsindən olan Ömər ibni Əbi Rəbiə Məxzumi Əqvəs (٣٣-٩٣ h.q) Osmanın nəvəsi Abdullah ibni Ömər ibni Əmr və Bəşşar ibni Bord Təxarəstani bu dəstə şairlərdən hesab olunurlar. Bəşşar Əməvilərin son dövründə şöhrət .tapmışdır

Ömər ibni Əbi Rəbiənin və Bəşşar ibni Bordun şe’rlərini Əməvi əsrinin ictimai .pozğunluğunun in’ikası kimi qəbul etmək olar

İbni Əbi Ətiq demişdir: Heç bir şe’rdə Ömər ibni Əbi-Rəbiənin şe’rindəki qədər Allaha qarşı üsyan edilməmişdir. Səvvar ibni Abdullah və Malik Dinar demişlər: “Bu korun (Bəşşar) şe’ri qədər heç bir kəsin şe’ri Mədinə əhalisini əxlaq pozğunluğuna

sürükləməmişdir.” Vasiq ibni Əta isə belə demişdir: “Şeytanın insanı düz yoldan azdıran ”.ən aldadıcı yollarından biri də bu dinsiz korun şe’rləridir

Bu əsərdə bə’zən şairlər arasında öz qövminin və ya yaxın adamının təəssübünü çəkmək, bir-birini tə’rifləmək və ya təqhir etmək hallarına da rast gəlmək olur. Cərir .(şair) ilə (۲۸-۱۱۰ h.q) Fərəzdəqin (vəfat ۱۱۴ h.q) bir-birlərini həcv etməsi məşhurdur

## əRəB NəSRİ

Raşidi xəlifələri və Əməvilər dövründə ərəb nəsri özünəməxsus inkişafa malik olub, yavaş-yavaş kamilləşməyə doğru üz qoymuşdur. Buna səbəb bir tərəfdən Qur’ani-kərim və Peyğəmbərin (s) hədisləri, digər tərəfdən isə cümə namazında və camaatla birgə qılınan namazlardakı xütbənin zəruri olmasıdır ki, hər bir xəlifə və ya hakim onu .yerinə yetirməyə məcbur idi

Ərəb nəsrinin inkişafına tə’sir edən amillərdən biri də Əməvi hakimiyyəti dövründə fars dilinin ərəb dilinə qarışması, digər tərəfdən isə ərəb yazarlarının (dövlət sarayında işləyən katiblərin) iranlı katiblərdən təqlid etmələri olmuşdur. Əsliyyətcə iranlı olan Həccac ibni Yusif Səqəfinin katibi Saleh ibni Nəsr dəftərxananı (məktub divanxanası) fars dilindən ərəb dilinə çevirdi. Ərəb nəsrinin inkişafında olduqca mühüm rol oynamış şəxslərdən Saleh və iranlı yazıçı Əbdülhəmidin adını çəkmək olar. Katib Əbdülhəmidi Əməvi əsrində yazıçıların ən üstünü, həmçinin ərəb nəsrində gətirdiyi yeniliklərinə .görə çox böyük şəxsiyyət hesab olunur

## ME’MARLIQ Və DİGəR SəNəTLəR

Vəlid ibni Əbdülməlikin xilafətinə dair bəhsimizdə onun dövründəki me’marlığın inkişafı haqqında qısa da olsa söhbət açdıq. İslam me’marlığındakı dəyişkənlik Müaviyənin hakimiyyəti dövrü Şamda başlamışdır. “Xəzra” sarayının tikilməsinə Əbuzərin irad tutması məsələsi tarixdə məşhur hadisələrdən biri sayılır. Bu gün bu saraydan heç bir əsər-əlamət qalmamışdır. Ona görə də hicrətin birinci əsrinin birinci yarısında incəsənətin nə dərəcədə işkişaf etdiyinə və bu sarayın tikilməsində hansı me’marlıq üslubundan istifadə olunmasına dair mühakimə yürütmək mümkün deyildir. Lakin Suriya və İordaniyanın ayrı-ayrı yerlərində Mərvanilər dövründə tikilmiş yay və qış sarayları, həmçinin hamamlar hal-hazırda durmaqdadır. Şərqi Rum imperiyasının bu ərazilərdə miras qoyub getdikləri binalar bu tikililərdən müqayisə olunmaz dərəcədə fərqlənsə də, hər halda bunları tikdirənlərin, me’marların bütövlükdə me’marlıq sənətinin bu dövrdə inkişaf etdiyini çatdırır. Qeyd etdiyimiz kimi, Əməvi məscidi (Dəməşq məscidi yanğın vasitəsilə ilk gözəlliyini əldən verməsinə baxmayaraq) .me’marlıq sənətinin ən gözəl və füsunkar nümunəsidir

Əməvilər dövründə Hicazda ifrat dərəcədə pozğunluğa səbəb olan sənətlərdən biri də müğənnilik və rəqqasəlik olmuşdur. Tarixə diqqətlə

nəzər saldıqda görürük ki, Mədinə və Məkkənin dindar fəqihləri, səhabələr və tabein ardıcıq olaraq bu sənəti pisləmiş və məzəmmət etmişlər. Ancaq birinci əsrin ikinci yarısı sona yetməmiş Mədinə şəhəri belə şəxslərin yetişməsi üçün ən əsas mərkəzə .çevrildi

Ömər ibni Əbdüləzizi çıxmaq şərtilə, bütövlükdə Əməvi xəlifələri musiqiyə qulaq asıb eyş-işrətlə məşğul olmuşlar, ancaq görəsən nəyə görə belə işlərin mərkəzi Dəməşq olmamışdır? Şövqi Zeyf yazır: Çünki fəth olunmuş ölkələrin var-dövləti Mədinəyə axışırdı. Kənizlər, qullar hər tərəfdən bu şəhərə yollanıb orada məskunlaşırdılar və bunların arasında müğənni və rəqqasələr də var idi. Bu sənət Mədinədə o dərəcədə inkişaf etdi ki, hətta bə’zi fəqihlər və zahidlər də bu müğənnilərin evinə gedirdilər. Ancaq bu səbəbdən əlavə, Mədinə əhalisinin Müslim ibni Uqbənin əli ilə kütləvi surətdə qırılması, həmçinin ١٠ il ondan sonra Həccacın belə bir hadisəni törətməsi demək olar ki, bütövlükdə camaatı bir növ məs’uliyyət hissi daşımaqdan və ehtiyat etməkdən məhrum etmişdi. Bu şəhərin hakimləri, əlbəttə onların böyük bir əksəriyyəti fasiq, dinə e’tinasız yanaşan Əməvi qəbiləsinin zadəganlarından ibarət idi. Onların qətiyyətsiz rəftar və münasibətləri nəticəsində xalq arasında Allaha iman, İslam fiqhinə bağlılıq və ona riayət olunması daha da zəiflədi. Buna görə də xalq musiqiyə və şəraba üz tutmaqla daxili əzablardan yaxa qurtarmaq istəyirdilər. Bu sənət üçün münasib şərait yarandıqdan sonra, xəlifələr, yerlərdəki hakimlər və bir çox eyş-işrət sahibləri ondan .istifadə edirdilər

**İSLAM PEYĞƏMBƏRİNİN (S) MÖVLUDUNDAN İMAM MEHDİNİN (Ə. C.) QEYBƏ ...ÇƏKİLMƏSİNƏ QƏDƏR**

## Birinci hicri əsri

İSLAM PEYĞƏMBƏRİNİN (S) MÖVLUDUNDAN İMAM MEHDİNİN (Ə. C.) QEYBƏ ÇƏKİLMƏSİNƏ QƏDƏR... İSLAM DÜNYASININ MÜXTƏSƏR XRONOLOGİYASI (٥٧١-٨٧۴)-CÜ İLLƏR

.(Həzrət Məhəmmədin (s) təvəllüdü (٢٠ aprel – ٥٧١

.Həzrət Məhəmmədin (s) Xədicə ilə evlənməsi – ٥٩٥

.Kə`bənin yenidən tikilməsi – ۶٠٨

Sasani padşahı IIİ Xosrov tərəfindən ərəblərin məğlub edilməsi, İslam – ۶١٠ .Peyğəmbərinin Məkkə əhalisini İslama də`vət etməyə başlaması

.Xədicənin vəfatı – ۶١٩

.Həzrət Fatimeyi-Zəhranın viladəti – ۶١۴

Həzrət Məhəmmədin (s) Mədinə əhalisi ilə müttəfiqlik barədə ilk müzakirələri – ۶٢٠ .((Əqəbə əhdi

Həzrət Məhəmmədin (s) Məkkədən Mədinəyə hicrəti (١۶ iyun). İlk İslam– ۶٢٢ .məscidinin tikilməsi. Hicri tarixin başlanğıcı

Qiblənin Qüdsdəki Beytül-Müqəddəs məscidindən Məkkədəki Kə`beyi-– ۶٢٣ müəzzəməyə doğru dəyişdirilməsi. Ramazan ayı orucunun vacib edilməsi. Namazdan .əvvəl azan verilməyə başlanması

.Bədr döyüşü – ۶٢۴

.Ühüd döyüşü. İmam Həsənin (ə) doğulması – ۶٢٥

.İmam Hüseynin (ə) doğulması – ۶٢۶

.Xəndək döyüşü və Hüdeybiyyə sülhü –۶۲۸

.Xeybər döyüşü. Sasani padşahı Xosrov Pərvizin öldürülməsi –۶۲۸

.Bizans ilə müsəlmanlar arasında ilk döyüş. Mutə müharibəsi –۶۲۹

səh:۲۰۴

.Müsəlmanlar tərəfindən Məkkənin fəth edilməsi. Hüneyn və Təbuk döyüşləri –۶۳۰

.Bütün Ərəbistan yarımadasının İslam Peyğəmbərinə tabe edilməsi–۶۳۰-۶۳۱

.Vida həcci. İslam Peyğəmbərinin vəfatı (۸ iyun). Əbu Bəkrin xəlifə seçilməsi–۶۳۲

Həzrət Məhəmmədin (s) vəfatını eşidən ərəb qəbilələrinin qiyamı. Ərəbistan–۶۳۳ yarımadasındakı qarışıqlığın yatırılması. İraqın cənubunun fəth edilməsi. Ərəblər və .bizanslılar arasında döyüşə müsəlmanların Əcnadeyndə qələbə çalması

.Əbu Bəkrin vəfatı. Ömərin xilafətə tə`yin olunması–۶۳۴

.Müsəlmanlar tərəfindən Şamın fəth edilməsi–۶۳۵

.Yərmuk döyüşü. Suriyanın fəthi. İranlılar ilə Qadisiyyə döyüşü–۶۳۶

Bəsrə və Kufə şəhərlərinin salınması. Cəlulada Sasani padşahının məğlubiyyəti.–۶۳۷ ۶۳۶-cı ildə müsəlmanların ixtiyarına keçmiş Beytül-Müqəddəs şəhərinin Ömərə təslim .olması. Əl-Əqsa məscidinin tikintisinə başlanması

.Antakiya və Hələbin fəthi. Məscidül-Əqsa tikintisinin tamamlanması–۶۳۸

Üqbə ilə Fərqədin başçılığı altında ərəblərin Rey və Qəzvini tutmaqla–۶۳۹ Azərbaycanın cənubunu fəth etmələri. Ərdəbil yaxınlığında Azərbaycan mərzbanı .İsfəndiyarla sülh bağlanması

Ərəblər tərəfindən Misrin fəth edilməsi və İsgəndəriyyənin ələ keçirilməsi.–۶۳۹-۶۴۲ .Müaviyənin Suriya valisi tə`yin edilməsi

.Müsəlmanlar tərəfindən Urfa, Hərran və Mosulun fəthi–۶۴۱

Ərəblər ilə iranlılar arasında Nəhavənd döyüşü. Sasanilər dövlətinin süqutu. Əmr–۶۴۲ .ibn As tərəfindən Fustat şəhərinin salınması və orada ilk məscid tikintisinə başlanması

Bükeyr ibn Abdullah, Əbdürrəhman ibn Rəbiə və Süraqə ibn Əmrin başçılığı–۶۴۲-۶۴۳ altında ərəblərin Dərbəndə yürüşü, Dərbənd mərzbanı (Şirvanşah) Şəhriyarla sülh .bağlanması

.Hezeyfə ibn Yəman tərəfindən Muğan və Gilanın fəthi, bu vilayətlərlə sülh bağlanması

Qərbi Tripolinin müsəlmanların əlinə keçməsi. Qüdsdə Qübbətüs-Səxrə –۶۴۳
.məscidinin tikilməsi

.Ömərin öldürülməsi və Osmanın xəlifə seçilməsi–۶۴۴

Ərəblərin İran və Türküstanı ələ keçirərək Anadolunu fəth etmələri (Əskişəhərə–۶۴۶
qədər). Vəlid ibn Üqbənin sərkərdəliyi ilə müsəlmanların Təbriz, Talış və Muğana yürüş
edərək, buranın əhalisi ilə sülh bağlaması. Salman ibn Rəbiənin Bərdə və Beyləqanla
.sülh imzalaması

.Ərəblər tərəfindən Şimali Afrika ölkələrinin fəthinə başlanması–۶۴۷

.Müaviyə tərəfindən Kipr adasının ələ keçirilməsi–۶۴۹

Sasanilərin sonuncu padşahı Iİİ Yəzdigerdin ölümü. Ərəblər tərəfindən İranın–۶۵۱
.tamamilə fəth edilməsi

.Herat və Bəlxin ərəblər tərəfindən fəth edilməsi–۶۵۱-۶۵۲

Osman tərəfindən Qur`an ayələrinin toplanması və nizama salınması. Ankaranın–۶۵۳
.fəthi

.Müaviyə tərəfindən Rodos adasının ələ keçirilməsi –۶۵۴

Likiya sahillərində Bizans donanmasının müsəlmanlar tərəfindən məhv edilməsi.–۶۵۵
.Misirdə Osman əleyhinə qiyam qalxması

Osmanın öldürülməsi. Həzrət Əlinin (ə) xəlifə seçilməsi. Müaviyənin qiyamı. Həzrət–۶۵۶
.Əlinin (ə) Kufəyə köçməsi. Cəməl döyüşü

.İraqda həzrət Əli (ə) və Müaviyə tərəfdarları arasında Siffeyn döyüşü–۶۵۷

Əbu Musa Əş`ərinin münsifliyə tə`yin və münsiflər vasitəsilə Həzrət Əlinin (ə)–۶۵۸
xilafətdən kənarlaşdırılması. Xaricilərin məğlub edilməsi (Nəhrəvan döyüşü). İman
.Zeynülabidinin (ə) doğulması

.Əməvilər sülaləsinin xilafəti–۶۶۰-۷۵۰

səh:۲۰۶

Bəsrədə Kufi xətti ilə ilk İslam sikkəsinin (pulunun) kəsilməsi. Müaviyənin Qüdsdə–۶۶۰
.xəlifə e`lan edilməsi

.Həzrət Əlinin (ə) şəhadəti. Xilafət paytaxtının Şama (Suriyaya) köçürülməsi–۶۶۱

.Müsəlmanların Hindistana ilk yürüşlərinin başlanması–۶۶۱-۶۶۷

Ərəblərin Türkiyəyə yürüşləri və Konstantinopulun (indiki İstambulun) bir il–۶۶۸
.davam etmiş fəthi

Ərəblərin Şimali Afrikanı (Misirdən Əlcazairə kimi) fəth etmələri. Qeyrüvan–۶۷۰
.şəhərinin salınması. İmam Həsənin (ə) şəhadəti

.Qeyrüvan məscidinin tikilməsi–۶۷۰-۶۷۵

.Ərəblər tərəfindən İstambul şəhərinin yenidən ələ keçirilməsi–۶۷۴-۶۷۹

.İmam Baqirin (ə) doğulması–۶۷۷

.Peyğəmbərin (s) həyat yoldaşı Ayişənin vəfatı–۶۷۸

Müaviyənin ölümü. İ Yezidin xilafətə keçməsi. Kərbəla faciəsi və İmam Hüseynin–۶۸۰
.(ə) şəhid edilməsi

Mədinə əhalisi Yezidin xilafətini rəsmən qəbul etmədiyi üçün şəhərin talan–۶۸۲
.olunması. Yezidin əmriylə Məkkənin mühasirəsi və Kə`bənin dağıdılması

.Xilafət üstündə Abdullah ibn Zübeyr ilə Əbdülməlik arasında döyüşlər–۶۸۴-۶۹۲

Mərvan ibn Həkəm öz qadını tərəfindən öldürüləndən sonra oğlu Əbdülməlikin–۶۸۵
.xilafətə gəlməsi

.İraqda Muxtarın qiyamı –۶۸۵–۶۸۷

Əbdülməlik ibn Mərvan tərəfindən Əl-Əqsa məscidinin tə`mirinin başa–۶۹۱
.çatdırılması

.Həccac ibn Yusifin Məkkəni tutması və Abdullah ibn Zübeyrin öldürülməsi–۶۹۲

Qüteybənin sərkərdəliyi altında müsəlmanların Qərbi Türküstanı ələ keçirmələri. –۷۰۲
.İmam Sadiqin (ə) doğulması

.Şamda Əməvi məscidinin və ilk minarənin tikilməsi –۷۰۵

səh:۲۰۷

۷۰۶– Türküstanı xilas etməyə gəlmiş Çin ordusunun Xorasan valisi Qüteybə tərəfindən məğlub edilməsi. Müsəlmanların Dərbənd və Azərbaycanı ələ keçirmələri. Məkkədə Yusif ibn Ömər tərəfindən ilk dəfə pambıqdan kağız düzəldilməsi.

۷۰۸-۷۱۵– Ərəblərin Sind və Pəncab düzənliklərinə yiyələnməsi.

۷۰۹– Ərəblərin Atlantik Okeanın sahillərinə qədər bütün Şimali Afrikanı və həmçinin Buxaranı fəth etmələri.

۷۱۰– Xəlifə Vəlid tərəfindən Şamda Böyük Məscidin inşası.

۷۱۰-۷۱۱– Klikiyanın fəthi.

۷۱۱– Tariq ibn Ziyadın sərkərdəliyi altında ərəblərin Afrikadan İspaniyaya keçmələri. Əndəlos düzənliyinin fəthi.

۷۱۲– Müsəlmanların Səmərqəndi fəth etmələri və həmin şəhərdə kağız düzəltmə qaydasını öyrənmələri. İmam Zeynülabidinin (ə) şəhadəti.

۷۱۳– Musa ibn Nəsirin sərkərdəliyi altında ərəblərin Pireney dağlarını aşaraq Fransanı hədələmələri. Ərəblərin Kaşğara yaxınlaşmaları və Çin sərhəddinə çatmaları.

۷۱۵– İslam məmləkətlərində yunan dili hakimliyinin məhv edilməsi. Dini binalarda ilk minarələrin tikilməsi. Ərəblərin Qərbi Anadolunun Amuryum (hazırkı Asarköy və Əskişəhər ətrafı), Bərqama və Sard bölgələrində irəliləyişləri. Fərqanədə Qüteybənin xəlifə əleyhinə qiyam etməsi və öz əsgərləri tərəfindən öldürülməsi (təvəllüdü– ۶۷۰-ci il).

۷۱۶-۷۱۷– Müsəlmanlar tərəfindən Balear adasının tutulması. Müsəlmanlar tərəfindən İstambulun üçüncü dəfə fəth edilməsi.

۷۱۷-۷۱۸– Qalatada ərəb məscidinin tikilməsi. Ömər ibn Əbdüləzizin xilafəti və maliyyə sistemində islahatlar.

۷۱۷-۷۲۰– Peyğəmbərin (s) sonuncu səhabəsi Əbu Tüfeyl ibn Amirin vəfatı.

## (İkinci hicri əsri (۷۱۹–۸۱۶

.Müsəlmanlar tərəfindən Tuluzun fəth edilməsi–۷۲۱

.Müsəlmanlar tərəfindən İstambulun dördüncü dəfə fəth edilməsi–۷۲۲

.Kiçik Asiyadakı Konya və Kəmax şəhərlərinin müsəlmanların əlinə keçməsi –۷۲۳

Hişam qoşunları tərəfindən Xəzərilərin məğlub edilməsi. Müsəlmanlar–۷۲۳-۷۲۴
.tərəfindən Gürcüstanın fəth edilməsi

.Mö`təzilə məzhəbinin yaranması –۷۲۵

.Əbdürrəhman Qafiqi tərəfindən Kordovanın ələ keçirilməsi–۷۲۶

Mö`tizəlilərin rəisi Vasil ibn Ətanın ustadı Həsən Bəsrinin vəfatı (təvəllüdü– ۶۴۲-ci–۷۲۸
.(il

İspaniya valisi Əbdürrəhman Qafiqi tərəfindən Fransanın Tur şəhərinin işğalı.–۷۳۲
Puatye döyüşü gedişində Əbdürrəhman Qafiqinin ölümü ilə ərəblərin Şarl Martel
.ordusuna məğlub olub geri çəkilmələri

.(Şair Fərəzdəqin ölümü (təvəllüdü– ۶۴۱-ci il–۷۳۳

.Şair Cəririn ölümü (təvəllüdü– ۶۵۳-cü il). İmam Baqirin (ə) şəhadəti–۷۳۵

Müsəlmanların Şərqi Afrikadakı Zəngibar (Tanzaniya) ölkəsinin qonşuluğundakı–۷۴۰
.Kilvada yerləşmələri

.Xəlifə İİ Vəlid tərəfindən Şam ətrafında Mişətta qəsrinin tikilməsi–۷۴۳-۷۴۴

.İmam Kazimin (ə) doğulması–۷۴۵

Əbu Müslim Xorasaninin qiyamı. Suriyada Kəlb qəbiləsinin və İraqda xaricilərin –۷۴۶
.qiyamları

Əbu Müslimin Nişabura daxil olması. Bəni-Abbas tərəfdarlarının başında duran–۷۴۸
.Qəhtəbə tərəfindən Əməvilərin ilk dəfə məğlub edilməsi

Əməvi qoşunlarının İsfahanda Qəhtəbə tərəfindən məğlub edilməsi və onun–۷۴۹ Əmbar yaxınlığındakı döyüşdə öldürülməsi. Bəni-Abbas qüvvələrinin Kufəyə daxil olması və ilk Abbasi

.xəlifəsi Əbdül-Abbas Səffaha Kufə məscidində camaatın bey`ət etməsi

.Abbasi xəlifələri–۷۵۰-۱۲۵۸

Böyük Zab çayı kənarında məğlubiyyət nəticəsində Əməvi sülaləsinin süqut–۷۵۰ etməsi. Bəni-Abbas hökumətinin təşkil edilməsi və Əbül-Abbas Səffahın xilafəti. Xilafət mərkəzinin Kufəyə köçürülməsi. Əbül-Abbas Səffahın adına sikkə kəsilməsi. Əməvi .sülaləsinə mənsub şəxslərin aradan götürülməsi

Mərkəzi Asiya əsirlərinin təcrübəsindən istifadə edərək ərəblərin kağız istehsal–۷۵۱ etmələri. Birinci Abbasi xəlifəsi Səffahın göstərişi ilə paytaxtın Kufədən Əmbar .şəhərinə köçürülməsi

.Mənsurun xilafəti–۷۵۴-۷۷۵

Bəni-Abbas xilafətini hakimiyyətə gətirmiş Əbu Müslim Xorasaninin xəlifə Mənsur–۷۵۴ .tərəfindən hiylə və riyakarlıqla öldürülməsi

mart)– Əməvi sülaləsindən yeganə salamat qalmış Əbdürrəhman adlı şəxsin ۱۵) ۷۵۶ Kordovada müstəqil hökumət təşkil etməklə bütün İspaniyanı vahid hakimiyyət .altında birləşdirməsi

Kəlilə və Dimnə” kitabını pəhləvi dilindən ərəbcəyə tərcümə etmiş ibn“–۷۵۷ .Müqəffə`nin ölümü

Müsəlman donanmasının Çin sahillərində yerləşən Kanton şəhərini fəth etməsi.–۷۵۸ İslamın Çinə nüfuzunun başlanması. Müsəlmanların Cənubi Anadolunu yenidən ələ .keçirmələri və Malatya şəhəri ətrafında Bizans əleyhinə istehkamlar yaradılması

.Ərəblərin Fransadan qovulması–۷۵۹

Mənsurun göstərişi ilə xilafət paytaxtının Bağdada köçürülməsi, Əli (ə)–۷۶۲ .tərəfdarlarının İraqda və Mədinədə qiyamları

İlk fransız səfirinin Bağdada gəlməsi. İmam Rizanın (ə) viladəti və İmam Sadiqin–۷۶۵ .(ə) şəhadəti

۷۶۷–Hənəfi məzhəbinin banisi Əbu Hənifənin (Nö`man ibn Sabit) ölümü.

۷۷۳–Ərəb ədəd və rəqəmlərini yaranması.

.Tanınmış mühəddis və tarixçi Mühnəfin və fiqh alimi Övzainin vəfatı–۷۷۴

Fars ədəbiyyatının ərəb dili və ədəbiyyatına nüfuzunu aradan qaldırmaq–۷۷۵-۷۸۵ .uğrunda xəlifə Mehdinin mübarizəsi

.Məşhur kimyaçı Cabir ibn Həyyanın vəfatı–۷۷۶

.Harun-ər-Rəşidin vali kimi Azərbaycan və Ermənistan əyalətlərinə göndərilməsi–۷۷۷

Mərvə əhalisindən Müqənnənin qiyamı və onun allahlıq iddiası etməsi.–۷۷۸-۷۸۰ Müqənnənin öz sarayında ələ keçərək qətl edilməsi. Livan dağlarında Marun adlı keşiş tərəfindən Maruni məzhəbinin tə`sis edilməsi. Əndəlos xəlifəsi İ Əbdürrəhman .tərəfindən Saroqossa adasının Kordova hökumətinə birləşdirilməsi

Dəniz yolu ilə Qalatiyanın (Kiçik Asiyanın şimal hissəsi) işğalı. Müsəlmanların–۷۸۲ .Uskudara qədər irəliləyişi. Bizans imperatorunun xərac verməyə məcbur edilməsi

.Harun-ər-Rəşidin xilafəti–۷۸۶-۸۰۹

Dilçi və nəhv alimi Əbu Əbdürrəhman Xəlil ibn Əhmədin vəfatı (təvəllüdü– ۷۱۱-ci–۷۸۶ il). Əndəlosun Əməvi xəlifəsi İ Əbdürrəhman tərəfindən Kordova məscidinin inşası. .Qəzvin cümə məscidinin tikilməsi

.Yəhya Bərməkinin vəzirliyi–۷۸۶-۸۰۳

.Ərəb ədəbiyyatının yüksəliş dövrü–۷۸۶-۸۰۹

.Mərakeşdə müstəqil İdrisilər dövlətinin təşkil olunması–۷۸۸

Abbasilər tərəfindən qoyulmuş ağır vergilərə e`tiraz əlaməti olaraq Misirdə–۷۹۴ .qiyam başlanması

Əndəlosun ikinci Əməvi əmiri İ Hişamın hökmranlığı zamanı ərəb dilinin–۷۹۵ İspaniyanın rəsmi dilinə çevrilməsi. Maliki məzhəbinin banisi Malik ibn Ənəsin vəfatı .((təvəllüdü– ۷۱۵-ci il

Üçüncü Əməvi Kordova əmiri İ Hakimin zamanında Kordova camaatının–۷۹۶-۸۲۲

.qiyamı

.İmam Kazimin (ə) şəhadəti–٧٩٨

.İbn Əğləbin Afrika hökumətinə irsən tə`yin edilməsi–٧٩٩

Ptolemeyin “Coğrafiya” əsərinin ərəbcəyə tərcümə edilməsi. Misirdə kağız–۸۰۰ .istehsalı və istifadəsi

Harun ər-Rəşid tərəfindən Yəhya Bərməkinin öldürülməsi və Bərməkilər–۸۰۳ .sülaləsinin qırılması

.Ərəblərin Korsika adasına hücumu–۸۰۵

Ərəblər tərəfindən Rodos adasının işğal olunması. Harun ər-Rəşid tərəfindən–۸۰۷ Şarlmanın sarayına ikinci səfirin göndərilməsi və franklara Qüdsdəki müqəddəs .yerlərlə əlaqədar bə`zi imtiyazlar verilməsi

İİ İdris tərəfindən İdrisilər dövlətinin təşkil edilməsi və Mərakeşin Fəs şəhərinin –۸۰۸ .paytaxt seçilməsi

.Ərəblərin Korsika və Sardina adası uğrunda mübarizələri–۸۰۹-۸۱۰

.İmam Cavadın (ə) doğulması–۸۱۱

.(Xəmriyyat” əsərinin müəllifi ərəb şairi Əbu Nüvasın ölümü (təvəllüdü– ۷۶۲-ci il“–۸۱۳

Mə`munun xilafəti. İslam ədəbiyyatı və elmlərinin irəliləyişi. Mö`təzilə–۸۱۳-۸۳۳ tərəfdarlarının çoxalamsı və Qur`anın yaradılmış (məxluq) olması haqqında əqidəni .yaymaq uğrunda xəlifənin sə`yləri

Kufədə Məhəmməd ibn İbrahimi ibn Təbatəbainin zühuru və hakimiyyət iddiası.–۸۱۵ .Əndəlos əmiri ilə frank kralı Şarlman arasında saziş bağlanması

**(Üçüncü hicri əsri (۸۱۶–۹۱۳**

Azərbaycanda Babək Xürrəminin zühuru və onun məzhəbinin yayılması. (Babək–۸۱۶ ۸۳۶-cı ildə ələ keçərək öldürüldü və ۸۳۷-ci ildə onun bütün ardıcılları kütləvi surətdə .(məhv edildi

səh:۲۱۲

İmam Rizanın (ə) şəhadəti. Mə`munun qızı şiələrin ۹-cu imamı Məhəmməd ibn Əli–۸۱۷
.(ə) ilə izdivacı. İraqlılar tərəfindən İbrahim ibn Mehdinin xəlifə e`lan olunması

.Ənsab elminin məşhur alimi ibn Kəlbinin vəfatı–۸۱۹

.(Fustatda imam Şafiinin vəfatı (təvəllüdü- ۷۶۷-ci il–۸۲۰

Tahirin Xorasana vali tə`yin edilməsi. Əndəlosun Əməvi xəlifəsi İİ Əbdürrəhman–۸۲۲
.tərəfindən Barselonun fəthi

Əməvilərin İspaniyadan Misirə qovduqları ərəblər tərəfindən Korsika adasının–۸۲۵
.işğalı

.Mö`təzili məzhəbinin Mə`mun tərəfindən rəsmi məzhəb kimi tanınması–۸۲۷

.İmam Nəqinin (ə) doğulması–۸۲۸

.Mə`mun tərəfindən Ankaranın və ətraf bölgələrin fəth edilməsi–۸۳۰

Bağdadda Harun ər-Rəşidin həyat yoldaşı Zübeydənin məqbərəsinin inşası.–۸۳۱
Müsəlmanlar tərəfindən Palermonun fəthi. (۸۲۵-ci ildən müsəlmanlar Siciliyanın fəthinə
başladılar və ۹۰۲-ci ildə Taorminanı ələ keçirməklə bu planı sona çatdırdılar). Yunanca
.kitabların ərəb dilinə tərcüməsinin başlanması

Mö`təsim Qur`anın yaradılmış (məxluq) olması barədə böyük qardaşı–۸۳۳-۸۴۲
Mə`munun siyasətini qəbul etdirməyə çalışsa da, əhli-sünnə alimlərinin ciddi
.müqaviməti ilə rastlaşdı

.İmam Cavadın (ə) şəhadəti–۸۳۵

Samirə şəhəri Abbasi dövlətinin paytaxtına çevrildi. Türklərdən ibarət xüsusi–۸۳۶
.ordunun təşkil edilməsi

.Bizanslıların müsəlmanlara həmlə etmələri və məğlub olub geri çəkilmələri–۸۳۷-۸۴۲

.Vasiqin xilafəti–۸۴۲-۸۴۷

Böyük Samirə məscidinin tikilməsi. Müsəlmanlar tərəfindən İtaliyanın Mesina və–۸۴۲
.Toranto şəhərlərinin işğalı

.Əndəlos Əməvi dövlətində poçt idarəsinin yaradılması–۸۴۴

.Ərəb yürüşlərinin qarşısını almaq üçün İtaliyanın cənub şəhərlərinin birləşməsi–۸۴۵

səh:۲۱۳

Ərəblər İtaliya yarımadasına hücuma başlayıb Roma şəhərinin darvazalarına–۸۴۶ .qədər irəliləyirlər

Xilafət saraylarında türklərin digər millətlərdən daha artıq imtiyaz qazanmaları.–۸۴۷ .İmam Əsgərinin (ə) doğulması

Mütəvəkkil Əməviləri və Mö`tə zililəri aradan götürməklə öz sələflərinin əqidəsini– ۸۴۹ .bərpa etdi

Ərəblərin Cənubi Fransadakı Pervansa hücumları. Məşhur riyaziyyatçı–۸۴۹-۸۵۰ .Məhəmməd ibn Musa Xarəzminin vəfatı

Hənbəli məzhəbinin banisi Əhməd ibn Hənbəlin Bağdadda vəfat etməsi– ۸۵۱ .((təvəllüdü- ۷۸۰-cı il

.Mütəvəkkilin öldürülməsi və oğlu Müstənsirin onun yerinə keçməsi–۸۶۱

Müstənsir zəhərləndikdən sonra oğlunun taxta sahib olması. Türklərdən seçilən–۸۶۲ Əmirül-ümər anın (əmirlər əmiri) bütün dövlət işlərində nüfuzunun artmağa başlaması. .((Bundan sonra xilafətdən yalnız quru ad qalmışdı

İranda (Təxarıstanda) Səffarilər və Misirdə Tulunilər sülaləsinin hakimiyyətə–۸۶۸ gəlməsi. (Səffarilər – ۹۰۸-ci, Tulunilər isə ۹۰۵-ci ildə süqut etdilər). İmam Mehdinin (ə) .doğulması və İmam Nəqinin (ə) şəhadəti

Siciliyada yerləşmiş ərəblərin Malta adasını tutmaları. “Səhih” kitabının müəllifi–۸۶۹ .(məşhur hədis alimi Buxarinin vəfatı (təvəllüdü-۸۱۰-cu il

İraqın cənubunda qara qulamların qiyamı və onların paytaxtı olan Muxtarə–۸۶۹-۸۸۳ .şəhərinin hökumət tərəfindən işğalı ilə qiyamçıların məğlub edilməsi

.İsmailiyyə (batiniyyə) məzhəbinin yayılması və genişlənməsi–۸۷۰

Zəncilərin (qara dərililərin) cümə namazından sonra Bəsrə şəhərinə hücum–۸۷۱ .etmələri

Buxarada Samanilər dövlətinin tə`sisi (süqutu- ۹۹۹-cu il). İmam Əsgərinin (ə)–۸۷۴ .şəhadəti və İmam Mehdi Sahibəz-zəmanın (ə.c.) qeybə çəkilməsi

**MÜNDƏRİCAT**


BİRİNCİ FƏSİL .......... ۵

ƏRƏBİSTANIN COĞRAFİ MÖVQEYİ, İSLAMDAN ƏVVƏL İCTİMAİ VƏ SİYASİ DURUMU ........ ۵

COĞRAFİ VƏZİYYƏTİ . ۷

CƏNUB MƏNTƏQƏSİ VƏ ORADAKI DÖVLƏTLƏR ....... ۹

SƏBA DÖVLƏTİNİN SÜQUTU ۱۲

HƏMİRİLƏRİN HAKİMİYYƏTƏ GƏLİŞİ ........... ۱۲

YARIMADANIN ŞİMALINDAKI DÖVLƏTLƏR ۱۵

PETRANIN YERİNƏ PALMİRA ............ ۱۶

TƏDMUR ........ ۱۶

CƏNUBDAKI DƏYİŞİKLİKLƏR ............ ۱۷

ĞƏSSANİLƏR ۱۷

LƏXMİLƏR .... ۱۸

SƏHRA SAKİNLƏRİ .... ۱۹

DİN VƏ E’TİQADLAR . ۲۴

MƏKKƏDƏ QANUN VƏ DİN ... ۲۷

MƏKKƏNİN MƏRKƏZƏ ÇEVRİLMƏSİ ............ ۲۷

İKİNCİ FƏSİL ........... ۳۱

İSLAMIN ZÜHURU ..... ۳۱

İSLAM PEYĞƏMBƏRİNİN UŞAQLIĞI VƏ CAVANLIĞI ............. ٣١

FİCAR MÜHARİBƏSİ .. ٣٢

HİLFUL-FUZUL ........... ٣٢

ƏLAHİDDƏ AND VƏ YA ƏHD-PEYMAN) ....... ٣٢)

XƏDİCƏ İLƏ EVLƏNMƏSİ ...... ٣٣

QARA DAŞ"IN YERİNƏ QOYULMASI ............. ٣۴"

PEYĞƏMBƏRLİK ........ ٣۴

İSLAMIN ZÜHURU ..... ٣۴

HƏMZƏNİN İSLAMI QƏBUL ETMƏSİ . ۴١

MANEƏLƏRİN UĞURSUZLUĞU .......... ۴٢

HƏBƏŞƏYƏ HİCRƏT .. ۴٣

ÖMƏRİN İSLAMI QƏBUL ETMƏSİ ...... ۴۴

BƏNİ HAŞİMİN MÜHASİRƏYƏ ALINMA PLANI .......... ۴۵

İQTİSADİ MÜHASİRƏ) ........... ۴۵)

HƏZRƏT ƏBU TALİB VƏ XƏDİCƏNİN VƏFATI ............ ۴۵

İSLAM MƏDİNƏDƏ .... ۴٧

DARUN-NƏDVƏ FİTNƏSİ ....... ۴٩

SUİ-QƏSDİ) ... ۴٩)

PEYĞƏMBƏR MƏDİNƏDƏ ..... ۵٠

İSLAM ALƏMİNDƏ İLK SAZİŞ ............. ۵١

MÜHACİR VƏ ƏNSARIN QARDAŞLIĞI ............ ۵۴

DİN ƏSASINDA QURULAN HÖKUMƏT ............ ۵۵

MÜNAFİQ VƏ YƏHUDİLƏR .... ۵۵

QİBLƏNİN DƏYİŞİLMƏSİ ....... ۵۷

ÜÇÜNCÜ FƏSİL ....... ۵۸

MÜHARİBƏLƏRİN BAŞLANMASI ....... ۵۸

BƏDR MÜHARİBƏSİ .. ۶۰

YƏHUDİLƏRLƏ MÜBARİZƏ .. ۶۱

ÜHÜD MÜHARİBƏSİ .. ۶۳

FİTNƏKARLAR ........... ۶۵

ƏBU SƏLƏMƏ SƏRİYYƏSİ ..... ۶۶

RƏCİ’ VƏ BE’R MƏUNƏYƏ HAZIRLIQ ............ ۶۶

BƏNİ NƏZİR YƏHUDİLƏRİNİN KÖÇÜRÜLMƏSİ .......... ۶۷

ĞƏTƏFANLA MÜHARİBƏ ....... ۶۸

XƏNDƏK MÜHARİBƏSİ .......... ۶۸

AŞKAR QƏLƏBƏ VƏ YA HÜDEYBİYYƏ SÜLHÜ ......... ۷۳

XEYBƏR MÜHARİBƏSİ ........... ۷۴

ALLAH EVİNİN ZİYARƏTİ ...... ۷۴

MU’TƏ MÜHARİBƏSİ ۷۵

MƏKKƏNİN FƏTHİ ..... ۷۵

HÜNEYN DÖYÜŞÜ ..... ۷۶

TƏBUK MÜHARİBƏSİ ۷۸

ƏRƏBİSTANIN BİRLİYİ ........... ۷۹

YALANÇI PEYĞƏMBƏRLƏR .. ٧٩

PEYĞƏMBƏRİN SON HƏCC ZİYARƏTİ ........... ٨٠

PEYĞƏMBƏRİN (S) VƏFATI ... ٨١

DÖRDÜNCÜ FƏSİL .. ٨٢

PEYĞƏMBƏRDƏN (S) SONRA XİLAFƏT .......... ٨٢

ƏBU BƏKRİN XİLAFƏTİ .......... ٨٢

ÇƏTİNLİKLƏRİN BAŞLANMASI .......... ٨٣

DİNDƏN ÇIXANLAR .. ٨۵

İRANDA İSLAM ........... ٨٧

ŞİMAL VƏ QƏRBDƏ İRƏLİLƏYİŞ ....... ٩۶

QƏLƏBƏNİN SƏBƏBLƏRİ ...... ٩٧

MİSİRİN FƏTHİ........... ٩٨

QƏLƏBƏLƏRİN ÇOXALMASI VƏ PROBLEMLƏRİN MEYDANA ÇIXMASI ..... ١٠٠

OSMANIN XİLAFƏTİ ١٠۴

VƏZİFƏ SINAĞI ........ ١٠٧

SƏRVƏT (MAL) SINAĞI ......... ١٠٩

ƏLİNİN (Ə) XİLAFƏTİ ........... ١١۴

BEŞİNCİ FƏSİL ...... ١١٩

ƏLİNİN (Ə) ŞƏHADƏTİNDƏN SONRA İSLAMIN ƏHATƏ DAİRƏSİ ..... ١١٩

ƏSL HƏQİQƏTDƏ XƏVARİC NƏ İSTƏYİRDİ? ............ ١١٩

HƏZRƏT ƏLİNİN (Ə) ŞƏHADƏTİNİN ƏKS-ƏMƏLİ ..... ۱۲۴

İRAQDA MÖVCUD OLAN SİYASİ VƏ DİNİ TƏŞKİLATLAR ... ۱۲۵

OSMANIN TƏRƏFDARLARI . ۱۲۵

ŞİƏ ... ۱۲۶

XƏVARİC ..... ۱۲۷

MƏNFƏƏT GÜDƏNLƏR......... ۱۲۷

ŞƏRQ MƏNTƏQƏSİ .. ۱۲۹

ƏLİNİN (Ə) ŞƏHADƏTİNDƏN SONRAKI KUFƏ .......... ۱۲۹

SÜLH SAZİŞİ ۱۳۱

ALTINCI FƏSİL ...... ۱۳۶

ƏMƏVİLƏR .. ۱۳۶

MÜAVİYƏNİN HAKİMİYYƏTİ ........... ۱۳۶

MÜAVİYƏ VƏ İRAQLILAR ... ۱۳۷

ÖLKƏNİ İDARƏ ETMƏKDƏ MÜAVİYƏNİN SİYASƏTİ............ ۱۳۸

MÜAVİYƏNİN ZİYADI QARDAŞ ADLANDIRMASI .... ۱۴۱

ZİYAD KUFƏDƏ ........ ۱۴۲

YEZİDİN VƏLİƏHD OLMASI ۱۴۳

MÜAVİYƏNİN ƏLİ ŞİƏLƏRİ İLƏ SƏRT DAVRANMASI .......... ۱۴۵

ÜRƏK QORXUSU VƏ VƏHŞİLİK ........ ۱۴۶

MÜAVİYƏNİN FƏTHLƏRİ ..... ۱۴۸

MÜAVİYƏNİN ÖLÜMÜ .......... ۱۴۸

YEZİDİN XİLAFƏTİ .. ۱۴۹

İMAM HÜSEYN (Ə) VƏ ONDAN BEY’ƏT ALINMASI . ۱۴۹

ƏRƏBİSTAN ƏYALƏTLƏRİNİN VƏZİYYƏTİ ۱۵۰

İRAQ ۱۵۱

İRAQLILARIN MƏKTUB YAZMASI ... ۱۵۳

HÜSEYNİN (Ə) İRAQA TƏRƏF YOLLANMASI ........... ۱۵۴

KƏRBƏLA FACİƏSİ VƏ ONUN TƏ’SİRLƏRİ .. ۱۵۴

KƏ’BƏNİN VİRAN EDİLMƏSİ ........... ۱۵۹

İRAQDA PEŞİMAN OLANLAR ........... ۱۶۰

ƏBU UBEYDƏ SƏQƏFİNİN OĞLU MUXTAR . ۱۶۱

YEDDİNCİ FƏSİL ... ۱۶۷

MƏRVANİLƏR........... ۱۶۷

HƏCCAC KUFƏDƏ ... ۱۶۹

VƏLİD İBNİ ƏBDÜLMƏLİK .. ۱۷۶

SÜLEYMAN İBNİ ƏBDÜLMƏLİK ....... ۱۷۷

ÖMƏR İBNİ ƏBDÜLƏZİZ ....... ۱۷۸

QULLARIN PROBLEMİ VƏ ÖMƏR İBNİ ƏBDÜLƏZİZİN VASİTƏSİLƏ BU ÇƏTİNLİYİN HƏLL OLUNMASI ۱۷۹

YEZİD İBNİ ƏBDÜLMƏLİK ... ۱۸۱

HİŞAM İBNİ ƏBDÜLMƏLİK .. ۱۸۲

İKİNCİ VƏLİD ........... ۱۸۴

ƏMƏVİ HÖKUMƏTİNİN TƏHLİLİ ...... ۱۸۷

FƏTH OLUNMUŞ ÖLKƏLƏRDƏ DİLİN VƏZİYYƏTİ .. ۱۹۰

MƏZHƏBLƏR VƏ YA ƏQİDƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜXTƏLİF FİKİR YÜRÜDƏN FİRQƏLƏR ......... ۱۹۲

ƏMƏVİLƏR DÖVRÜNDƏ FƏTH OLUNMUŞ ÖLKƏLƏRDƏ İSLAM DİNİNİN VƏZİYYƏTİ ........... ۱۹۴

HƏMİN DÖVRDƏKİ ELMLƏR............ ۱۹۵

ƏMƏVİ HAKİMİYYƏTİNİN SONUNA QƏDƏR OLAN ŞE’R VƏ ƏDƏBİYYAT ........... ۱۹۶

ƏRƏB NƏSRİ ۲۰۲

ME’MARLIQ VƏ DİGƏR SƏNƏTLƏR ۲۰۲

İSLAM PEYĞƏMBƏRİNİN (S) MÖVLUDUNDAN İMAM MEHDİNİN (Ə. C.) QEYBƏ ÇƏKİLMƏSİNƏ QƏDƏR İSLAM DÜNYASININ MÜXTƏSƏR XRONOLOGİYASI . ۲۰۴

CÜ İLLƏR) ... ۲۰۴-۵۷۱-۸۷۴)

BIRINCI HICRI ƏSRI . ۲۰۴

İKINCI HICRI ƏSRI (۷۱۹-۸۱۶) ۲۰۹

ÜÇÜNCÜ HICRI ƏSRI ............ ۲۱۲

۲۱۲ ........ (۸۱۶-۹۱۳)

## درباره مرکز

بسمه تعالی

هَلْ یَسْتَوِی الَّذِینَ یَعْلَمُونَ وَالَّذِینَ لَا یَعْلَمُونَ

آیا کسانی که می‌دانند و کسانی که نمی‌دانند یکسانند ؟

سوره زمر/ ۹

مقدمه:

موسسه تحقیقات رایانه ای قائمیه اصفهان، از سال ۱۳۸۵ هـ .ش تحت اشراف حضرت آیت الله حاج سید حسن فقیه امامی (قدس سره الشریف)، با فعالیت خالصانه و شبانه روزی گروهی از نخبگان و فرهیختگان حوزه و دانشگاه، فعالیت خود را در زمینه های مذهبی، فرهنگی و علمی آغاز نموده است.

مرامنامه:

موسسه تحقیقات رایانه ای قائمیه اصفهان در راستای تسهیل و تسریع دسترسی محققین به آثار و ابزار تحقیقاتی در حوزه علوم اسلامی، و با توجه به تعدد و پراکندگی مراکز فعال در این عرصه و منابع متعدد و صعب الوصول، و با نگاهی صرفا علمی و به دور از تعصبات و جریانات اجتماعی، سیاسی، قومی و فردی، بر مبنای اجرای طرحی در قالب « مدیریت آثار تولید شده و انتشار یافته از سوی تمامی مراکز شیعه» تلاش می نماید تا مجموعه ای غنی و سرشار از کتب و مقالات پژوهشی برای متخصصین، و مطالب و مباحثی راهگشا برای فرهیختگان و عموم طبقات مردمی به زبان های مختلف و با فرمت های گوناگون تولید و در فضای مجازی به صورت رایگان در اختیار علاقمندان قرار دهد.

اهداف:

۱.بسط فرهنگ و معارف ناب ثقلین (کتاب الله و اهل البیت علیهم السلام)

۲.تقویت انگیزه عامه مردم بخصوص جوانان نسبت به بررسی دقیق تر مسائل دینی

۳.جایگزین کردن محتوای سودمند به جای مطالب بی محتوا در تلفن های همراه ، تبلت ها، رایانه ها و ...

۴.سرویس دهی به محققین طلاب و دانشجو

۵.گسترش فرهنگ عمومی مطالعه

۶.زمینه سازی جهت تشویق انتشارات و مؤلفین برای دیجیتالی نمودن آثار خود.

سیاست ها:

۱.عمل بر مبنای مجوز های قانونی

۲.ارتباط با مراکز هم سو

۳.پرهیز از موازی کاری

۴.صرفا ارائه محتوای علمی

۵.ذکر منابع نشر

بدیهی است مسئولیت تمامی آثار به عهده ی نویسنده ی آن می باشد .

فعالیت های موسسه :

۱.چاپ و نشر کتاب، جزوه و ماهنامه

۲.برگزاری مسابقات کتابخوانی

۳.تولید نمایشگاه های مجازی: سه بعدی، پانوراما در اماکن مذهبی، گردشگری و...

۴.تولید انیمیشن، بازی های رایانه ای و ...

۵.ایجاد سایت اینترنتی قائمیه به آدرس: www.ghaemiyeh.com

۶.تولید محصولات نمایشی، سخنرانی و...

۷.راه اندازی و پشتیبانی علمی سامانه پاسخ گویی به سوالات شرعی، اخلاقی و اعتقادی

۸.طراحی سیستم های حسابداری، رسانه ساز، موبایل ساز، سامانه خودکار و دستی بلوتوث، وب کیوسک، SMS و...

۹.برگزاری دوره های آموزشی ویژه عموم (مجازی)

۱۰.برگزاری دوره های تربیت مربی (مجازی)

۱۱. تولید هزاران نرم افزار تحقیقاتی قابل اجرا در انواع رایانه، تبلت، تلفن همراه و... در ۸ فرمت جهانی:

۱.JAVA

۲.ANDROID

۳.EPUB

۴.CHM

۵.PDF

۶.HTML

۷.CHM

۸.GHB

و ۴ عدد مارکت با نام بازار کتاب قائمیه نسخه :

۱.ANDROID

۲.IOS

۳.WINDOWS PHONE

۴.WINDOWS

به سه زبان فارسی ، عربی و انگلیسی و قرار دادن بر روی وب سایت موسسه به صورت رایگان .

درپایان :

از مراکز و نهادهایی همچون دفاتر مراجع معظم تقلید و همچنین سازمان ها، نهادها، انتشارات، موسسات، مؤلفین و همه

بزرگوارانی که ما را در دستیابی به این هدف یاری نموده و یا دیتا های خود را در اختیار ما قرار دادند تقدیر و تشکر می نماییم.

آدرس دفتر مرکزی:

اصفهان -خیابان عبدالرزاق - بازارچه حاج محمد جعفر آباده ای - کوچه شهید محمد حسن توکلی -پلاک ۱۲۹/۳۴- طبقه اول

وب سایت: www.ghbook.ir

ایمیل: Info@ghbook.ir

تلفن دفتر مرکزی: ۰۳۱۳۴۴۹۰۱۲۵

دفتر تهران: ۸۸۳۱۸۷۲۲ ـ ۰۲۱

بازرگانی و فروش: ۰۹۱۳۲۰۰۰۱۰۹

امور کاربران: ۰۹۱۳۲۰۰۰۱۰۹


قائمیه
مرکز تحقیقات رایانه ای
اصفهان
www
برای داشتن کتابخانه های تخصصی
دیگر به سایت این مرکز به نشانی
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
مراجعه و برای سفارش با ما تماس بگیرید.
۰۹۱۳ ۲۰۰۰ ۱۰۹